# Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları

№ 2(12)
2025

BAKI DÖVLƏT UNİVERSİTETİ
TARİX FAKÜLTƏSİ

№2(12) 2025

ISSN: 2708-3934 (Print)
ISSN: 2708-3942 (Online)

# Türk dünyası
## gənc tədqiqatçılar dərnəyinin
# Araşdırmaları

**Studies of the Turkic World**
**Young Researchers Association**

*Azərbaycan Respublikasının*
*Konstitusiya və Suverenlik ilinə həsr edilir*

# 2 (12)

**Bakı - 2025**

*Baş redaktor:* Sevinc Ruintən / Sevinj Ruintan
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaktor müavini:* Səidə Quliyeva / Saida Quliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Məsul katib*: Ülfər Məmmədli / Ulfar Mammadli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaksiya heyəti:*

Arzu Məmmədova /Arzu Mammadova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Aytən Abbasova-Quliyeva / Aytan Abbasova-Guliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Aytən Nəsibova / Aytan Nasibova
*Saratov Dövlət Hüquq Akademiyası, Rusiya / Saratov Sate Law Academy, Russia*
Cavid Əlisgəndərli / Javid Alisgandarli
*Türk Dünyası gənc tədqiqatçılar dərnəyi / Turkic World Young Researchers Association Azerbaijan*
Elvira Lətifova / Elvira Latifova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Fatma Betül Aydemir Baş / Fatma Betul Aydemir Bash
*Eskişehir Osmanqazi Universiteti, Türkiyə / Eskishehir Osmangazi University, Turkiye*
İqbal Ağayev / Igbal Agayev
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kader Özlem / Kader Ozlem
*Uludağ Universiteti, Bursa, Türkiyə / Uludag University, Bursa, Turkiye*
Kəmalə Nəcəfova / Kamala Najafova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kəmalə Ruintən / Kamala Ruintan
*Bakı Slavyan Universiteti / Baku Svavic University*
Qismət Davudov / Qismat Davudov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Lalə Əliyeva / Lala Aliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Murat Jane / Murat Jane
*İstanbul Aydın Universiteti, Türkiyə / İstanbul Aydın University, Turkiye*
Oğuz Kağan Bayrakdar / Oguz Kagan Bayrakdar
*Ankara Hacı Bayram Vəli Universiteti, Türkiyə / Ankara Haci Bayram Veli University, Turkiye*
Rövşən Hətəmov / Rovshan Hatamov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Sevinc Qasımova / Sevinj Qasımova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Talqat Moldabay / Talqat Moldabay
*L.N.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstan /*
*L.N. Gumilyov Eurasian National University, Kazakhstan*
Vladimir Redçenko / Vladimir Redchenko
*N.Q.Çernışevski adına Saratov Dövlət Universiteti, Rusiya /*
*Saratov State University, Russia*
Zərifə Nəzirli / Zarifa Nazirli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyinin Araşdırmaları, 2017
*Redaksiya ilə əlaqə:* txt_kaf@bsu.edu.az
*Jurnalın web-səhifəsi:* https://history.bdu.info.az/turk-dunyasi-genc-tedqiqatcilar-derneyi-nin-arasdirmalari

## MÜNDƏRİCAT / CONTENTS


| | | |
|---|---|---|
| Afaq Alıyeva | *Azərbaycan təhsilində inteqrasiyanın əhəmiyyəti və gələcək inkişaf yolları* | 5-9 |
| Arzu Tahirzadə | *Bolonya prosesi (Müdafiə Mahmudovun tədqiqatlarında)* | 10-12 |
| Aydın İslamzadə | *Faciəni əks etdirən mənbələrdə Xocalı soyqırımı* | 13-16 |
| Bəylər Məhərrəmov | *Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik konsepsiyası* | 17-20 |
| Əsgər Əsgərov | *Şuşanın erməni vandalizminə məruz qalmış tarixi və mədəniyyət abidələri* | 21-24 |
| Əsgər Məmmədli | *Türkiyə-Ermənistan münasibətlərinə beynəlxalq aktorların maraqları kontekstində baxış* | 25-30 |
| Xalidə Ağazadə | *"Qızıl Alma" Konstantinopol: quruluşundan 1453-cü ildə fəthinə qədərki tarixinə baxış* | 31-38 |
| İlham Əhmədov | *Türkiyədə 1980-ci il çevrilişinin uzunmüddətli təsirləri: 1990-cı illərin siyasi böhranı* | 39-42 |
| Nəzrin Allahverdiyeva | *Azərbaycan - Misir münasibətləri: Qafqazdan Nil vadisinə uzanan beynəlxalq körpü* | 43-49 |
| Nurlan Umudov | *Ulu öndər Heydər Əliyevin Rusiya və Türkiyə ilə münasibətlərdə balanslı siyasəti* | 50-54 |
| Pənah Xanlayev | *Elxanlı hökmdarı Geyxatu xanın hakimiyyəti* | 55-61 |
| Rəmzi Səfərli | *Azərbaycan və Macarıstan Respublikası arasında münasibətlər (1991-ci ildən günümüzədək)* | 62-69 |
| Rəşad İsmayılov | *Osmanlıdan günümüzə Türkiyə-Fransa münasibətlərinə tarixi-analitik baxış* | 70-77 |
| Şaiq Mədətov | *Türk dünyasında süni intellektin tətbiqi və innovasiya perspektivləri: Baykar şirkətinin nümunəsi* | 78-81 |
| Şəfiqə Gözəlova | *Azərbaycan-Çin münasibətləri: humanitar və mədəni sahədə əlaqələr* | 82-86 |
| Taryel Majedov | *Salahaddin Ayyubi – the savior of Jerusalem* | 87-89 |
| Vüsal Hüseynov | *Bəxtiyar Vahabzadənin yaradıcılığında türk kimliyi məsələsi* | 90-95 |
| Zəka Əliyev | *Müasir dövr ABŞ-Çin münasibətləri kontekstində türk dövlətləri və onların gələcək perspektivləri* | 96-106 |

# BƏXTİYAR VAHABZADƏ - 100



(16 avqust 1925 – 13 fevral 2009)

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin
21 fevral 2025-ci il tarixli 495 saylı sərəncamı ilə 2025-ci ildə Azərbaycanda
Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd olunması qərara alınıb

* * *

Beynəlxalq Türk Mədəniyyət Təşkilatına (TÜRKSOY) üzv ölkələr
Mədəniyyət nazirlərinin Daimi Şurasının 40-cı toplantısında “2025 - Anma ili” çərçivəsində
Türk dünyasında Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi
qərara alınıb

* * *

## ***Vətən uğrunda ölənlər ölümündən doğular ...***



UOT 94(479.24)

**AFAQ ALIYEVA**
*Bakı Dövlət Universitetinin magistrantı*
**afaqaliyeva888@gmail.com**

# AZƏRBAYCAN TƏHSİLİNDƏ İNTEQRASİYANIN ƏHƏMİYYƏTİ VƏ GƏLƏCƏK İNKİŞAF YOLLARI

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Mətanət Məmmədova

*Məqalədə Azərbaycan Respublikasının təhsil sistemində inteqrasiyanın rolu, həmçinin inteqrasiyanın gələcək inkişaf yolları araşdırılır, inteqrasiyanın bir termin kimi mahiyyəti və növləri göstərilir. Böyük pedaqoqlar Y.A. Komenski və C. Dyuinin inteqrasiya ilə bağlı fikirləri məqalədə öz əksini tapmışdır. Azərbaycan təhsil sahəsində tanınmış pedaqoq və metodistlərin inteqrasiya haqqında maraqlı qeydləri göstərilmişdir. İnteqrasiyanın təhsil sistemindəki üstünlükləri təhlil edilmişdir. Təhsil sistemində inteqrasiyanın mahiyyəti izah olunmuş və beynəlxalq səviyyədə Azərbaycan təhsilinin inkişaf perspektivləri qeyd edilmişdir. Həmçinin, təhsildə inteqrasiyanın daha da inkişaf etdirilməsi yolları, təklif və tövsiyyələr təqdim edilmişdir.*

*Açar sözlər:* İnteqrasiya, təhsil sistemi, inteqrativlik, inkişaf, beynəlxalq, texnologiya.

***Giriş.*** Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra təhsilin inkişaf tarixində keyfiyyətcə yeni mərhələnin əsası qoyuldu. Bu dövr bütün təhsil pillələrində əsaslı islahatların aparılması mərhələsi kimi təhsil tarixinə düşmüşdür. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan təhsil sistemi dünya təhsil sisteminin standartları ilə uyğunlaşsın. Bu məqsədlə Azərbaycan Respublikasının təhsil sistemi yenidən qurulmuş və dünya təhsil sisteminin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Təhsil islahatının 2003-2013-cü illəri əhatə edən mərhələsində Kurikulum islahatı təsdiq olunmuş və bu sahədə mütəmadi işlər görülmüş, tədbirlər həyata keçirilmişdir [2, s.10-29]. Təhsil sahəsində məqsədyönlü şəkildə aparılan bütün islahatlar dövlətin hərtərəfli inkişafını sürətləndirməyə təsir edir. Ölkəmizdə ümumi təhsilin məzmunca əsaslı şəkildə yenilənməsində istinad olunan başlıca prinsiplərdən biri inteqrativlikdir [6, s.98-100].

Məqalə inteqrasiyanın Azərbaycanın təhsil sahəsindəki rolunu araşdırmaq, təhsil sisteminin gələcək inkişaf perspektivlərində inteqrasiyanın əhəmiyyətini təhlil etmək məqsədi daşıyır. Bu məqsədlə ilk öncə inteqrasiya haqqında ümumi məlumat veriləcəkdir. Daha sonra Azərbaycan təhsilində inteqrasiyanın rolundan bəhs ediləcək, sonda isə təhsil sistemini daha da inkişaf etdirmək üçün tövsiyələr təqdim olunacaqdır.

***İnteqrasiya haqqında ümumi məlumat.*** Bir pedaqoji anlayış kimi inteqrativlik prinsipi "inteqrasiya" məfhumu ilə birbaşa bağlıdır. "İnteqrasiya" sözü latın mənşəli "integer" sözündən götürülmüş, "kiçik hissələrin birləşərək tam şəkil alması" mənasını verir. Belə ki, "inteqrasiya" termini hissələri vahid halda birləşdirməyə və onları bir-birləri ilə əlaqələndirməyə xidmət edir. Bir anlayış olaraq ötən əsrdə pedaqogika elminə gətirilməsinə baxmayaraq təhsildə inteqrasiya ideyası klassik pedaqoqların əsərlərində öz əksini tapmışdır. XVI əsrin böyük pedaqoqu Y.A.Komenski fənlərin inteqrasiyasının mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq "Böyük didaktika" əsərinin "Ən qısa təlimin əsasları" adlanan XIX fəslində belə qeyd edir: "Qarşılıqlı olan hər bir şey bu əlaqədə də tədris edilməlidir" [4, s.155]. XX əsrin əvvəllərindən başlayaraq Amerika Birləşmiş Ştatlarında və Qərbi Avropa ölkələrində "inteqrativ kurikulum" anlayışı geniş təhsil sisteminin həlledici komponentlərindən birinə çevrilmişdir [3, s.26-27]. İnteqrativ kurikulumla bağlı C.Dyuinin fikirləri çox mühüm əhəmiyyət kəsb edir: "inteqrativ kurikulum təhsil yanaşması olub, şagirdləri həyatı boyu öyrənməyə hazırlayır" [3, s.24].

Bir çox sahələrdə, xüsusən də təhsil sahəsində inteqrasiyanın özünəməxsus rolu vardır. İnteqrasiya təlim və tədris prosesində şagirdlərin təfəkküründə dünyagörüşü formalaşdırmaq, onları inkişafa

istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir. İnteqrasiya təlim prosesini təkmilləşdirir və fənlər arasında qarşılıqlı əlaqəni dərinləşdirməyə xidmət edir. İnteqrasiyanın köməyi ilə şagirdlər öyrəndikləri arasında qarşılıqlı əlaqəni başa düşür və onlardan problemlərin həllində istifadə edirlər [5, s.109].

Qeyd etmək lazımdır ki, pedaqogikada inteqrasiyanın əsasən 3 növündən istifadə edilir:




Fəndaxili inteqrasiyada sadəcə bir fənnin mövzuları arasında əlaqə yaradılır. Mövzular bir-birləri ilə əlaqələndirilərək tədris olunur. Bu zaman şagirdlər mövzular arasında oxşarlıqları daha yaxşı başa düşürlər. Fəndaxili inteqrasiyanın üfüqi və şaquli olmaqla 2 əsas forması var. Üfüqi inteqrasiya dedikdə fənn üzrə məzmun xətləri əlaqələndirərək onlara uyğun olan məzmun standartlarının müəyyən tədris vahidlərində ifadə olunmasını təmin edir. Şaquli inteqrasiya isə sinifdən sinfə tədricən genişlənən məzmun xətləri arasındakı əlaqənin qorunmasını təmin edir.

İnteqrasiyanın digər növü olan fənlərarası inteqrasiya müxtəlif fənlərə məxsus oxşar mövzuların birgə tədris edilməsidir. Məsələn Azərbaycan tarixində Şah I İsmayılın siyasi fəaliyyəti, Ədəbiyyat fənnində isə onun elmi yaradıcılığı öyrənilir.

Fənnüstü inteqrasiya tədris prosesində öyrədilən biliklərin real həyatla əlaqələndirilməsidir. Bu inteqrasiya növünün əsas mahiyyəti ondan ibarətdir ki, təhsilalanlar tədris prosesində qazandıqları məlumatları real həyatda sınaqdan keçirirlər və təcrübə qazanırlar [8, s.105-106].

***Azərbaycan təhsil sistemində inteqrasiyanın əhəmiyyəti.*** İnteqrasiya Azərbaycan təhsilinin mühüm problemlərindən biri kimi yalnız son dövrlərdə aktuallıq qazanmış və ciddi tədqiqatların aparıcı mövzusuna çevrilmişdir. Azərbaycan təhsil sistemində "inteqrativ təhsil", yaxud "təhsilin inteqrasiyası", eləcə də "inteqrativ təlim", "inteqrativ dərs" və s. anlayışlar artıq geniş şəkildə istifadə olunmaqdadır. Tanınmış Azərbaycan pedaqoq və metodistlərinin araşdırmalarında inteqrasiya ilə bağlı maraqlı fikirlər öz əksini tapmışdır. Belə ki, A.Süleymanova "İnteqrasiya təhsilin keyfiyyətlərinin yüksəldilməsi vasitəsi kimi" məqaləsində inteqrasiya haqqında qeyd edir ki, şagirdlərdə ətraf aləm haqqında tam təsəvvürün yaradılmasında inteqrasiya məqsəddirsə, fənn üzrə biliklərin əlaqələndirilməsi üçün ümumi təsəvvürlərin yaradılmasına xidmətdə isə vasitədir [9, s.121]. G.Balayevanın "İbtidai təhsilin məzmununun nəzəri-pedaqoji problemləri" adlı kitabında da təhsildə inteqrasiya probleminə toxunulmuşdur. Müəllif inteqrasiyanı vacib təhsil prinsipi hesab edir. Eyni zamanda o qeyd edir ki, müasir yanaşmada biliklərin daha dərindən və keyfiyyətcə yeni səviyyədə mənimsənilməsinə inteqrasiya şərait yaradır [1, s.176]. Tanınmış metodist alim V.Qurbanov bu problemi nisbətən geniş aspektdə təhlilə cəlb etmişdir. Müəllifə görə, təlimdə inteqrasiya anlayışı bir məqsəd kimi şagirdlərdə dünya haqqında

təsəvvür yaratmağa xidmət edir. Müəllif inteqrasiyanı daha çox strateji məsələ və məqsəd kimi dəyərləndirir [7, s.16]

Azərbaycan təhsil sistemin əsas hissəsi olan inteqrasiya təhsilin bütün baza elementlərinə təsir etmişdir. Təhsil sahəsində inteqrasiyanın özünəməxsus dinamikası, hədəfləri olmaqla bərabər, inteqrativ biliklərin yaradılması yolları da mövcuddur. Müasir dövrdə inteqrasiya təhsili yaxşılaşdırmaq üçün perspektivli bir sahə kimi çıxış edir. İnteqrasiya dərsi gücləndimək üçün bir vasitədir. İnteqrasiyanın bir sıra üstün cəhətləri vardır: İlk öncə, inteqrasiya təlimin əsas məqsədlərini həyata keçirməyə imkan verir. Əsas və köməkçi fənlərin öyrənilməsi zamanı şagirdə biliklərin dərinləşdirilməsi üçün imkan yaradır. Daha maraqlı mühit yaradaraq şagirdləri dərsə həvəsləndirir, həddindən artıq yorulmasının qarşısını alaraq, gərginliyi aradan götürür. Tərbiyə prosesində mühim rol oynayaraq, şagirdin həyata qarşı baxışlarını dəyişir, şəxsi keyfiyyətlərin formalaşmasında rol oynayır. Vaxta qənat etməyə imkan yaradır.

Qeyd etmək lazımdır ki, təhsil sahəsində inteqrasiya yalnız məktəblə kifayətlənməməlidir. "Təhsildə inteqrasiya" çox geniş anlayışdır. Buraya Azərbaycan təhsilinin beynəlxalq standartlara uyğunlaşdırılması, Boloniya prosesi çərçivəsində ali təhsilin inkişafı, ikili diplom proqramı, PISA və TIMSS kimi beynəlxalq qiymətləndirmələrdə iştirak, rəqəmsal texnologiyaların təhsildə istifadəsi və STEAM yanaşmasının tətbiqi və s. aiddir.

Boloniya prosesi Avropa ölkələri təhsil sistemlərinin inteqrasiyası, eyni zamanda ümumavropa ali təhsil məkanının formalaşdırılmasını nəzərdə tutur. Azərbaycan bu prosesə 2005-ci il mayın 19-da qoşulmuşdur. Azərbaycanda bu sistemin tətbiqi ilə ali və orta ixtisas məktəblərinin tələbələri bir sıra üstünlüklər əldə etmişlər. Hal-hazırda Azərbaycanda təhsil sahəsində müasir təlim metodları geniş şəkildə tətbiq edilir. Bu prosesin ən böyük üstünlüklərindən biri isə təhsildə kredit sisteminin tətbiqi sayılır.

"2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın əsas hədəfi qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir. Beynəlxalq ikili diplom proqramlarının ölkəmizdə tətbiqinin təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar ölkənin inkişaf prioritetlərinə uyğun ixtisaslar üzrə ali məktəblərimizdə tədrisin dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğun olaraq təşkili təmin edilməlidir [10].

Təhsildə inteqrasiyadan bəhs etdikdə, texnologiyaların inkişafı da qeyd edilməlidir. Hal-hazırda bir çox ölkələrdə texnologiya tədris prosesi zamanı əsas yer tutur. Dərslər elektron lövhələrdə keçirilir, jurnallar elektron qaydada tərtib edilir, şagirdlər dərslərini kompüterlərdə, mobil telefonlarda hazırlayırlar. Hal hazırda Azərbaycan Respublikasında sırf İnformasiya Kommunikasiya Texnologiyalarına əsaslanan pilot və elektron məktəblər fəaliyyət göstərir və "portfolio" sisteminə əsaslanır. Texnologiyaların təhsilə inteqrasiyası müəllimlərdən professional olmağı tələb edir. Belə ki, ilk növbədə modern müəllim İKT-i (İnformasiya-Kommunikasiya Texnologiyalarını) bilməli, ondan istifadəni bacarmalıdır. İKT-dən düzgün istifadə olunması dərslərin keyfiyyətini artırır. Şagirdlər üçün mövzu ilə bağlı müxtəlif videolar nümayiş etdirməklə onların dərsə olan maraq və motivasiyalarını artırmaq mümkündür.

Bu gün dünya miqyasında müxtəlif təhsil səviyyələri üzrə beynəlxalq qiymətləndirmələr həyata keçirilir ki, bunlardan PISA, PIRLS və TIMSS ümumi təhsil üzrə həyata keçirilən üç əsas qiymətləndirmə hesab olunur [13]. Qeyd olunan qiymətləndirmə proqramlarının əsas məqsədi müxtəlif yaşlı şagirdlərin bilik və bacarıqlarını ölçərək ölkələr arasında müqayisəli təhlil aparıb təqdim etməkdir. Bu qiymətləndirmə növləri sayəsində təhsil sahəsi dünya dövlətlərinin təhsil sistemi ilə inteqrasiya edir.

Müasir təhsil sistemində STEAM məktəblər də mühüm rol oynayır. STEAM təhsilinin əsası müxtəlif fənlərdən birlikdə istifadə edərək layihələr hazırlamaq və bu layihələri istehsalata çevirərək həyata keçirməkdir. STEAM təhsili layihə əsaslı, praktik, fənlərarası yanaşma təklif edir. Bu cür təhsil düşündüklərini həyata keçirə biləcək yenilikçi, yaradıcı və məhsuldar bir şəxsiyyət yetişdirmək məqsədi daşıyır. STEAM məktəbləri bu hədəfə bir addım daha irəli aparır. Qeyd edilməlidir ki, bura Elm, Texnologiya, Mühəndislik və Riyaziyyatla yanaşı, Sənət əlavə edilmişdir [12].

***İnteqrasiyanın gələcək inkişaf yolları.*** Təhsildə inteqrasiya cəmiyyətin tələblərinə uyğun şəkildə inkişaf etdirilməlidir. Burada əsas məqsəd, təhsil sistemini daha inklüziv, əlçatan və fərdiləşdirilmiş etməkdir. Bunun üçün bir sıra inkişaf yolları müəyyən edilməlidir. Bunlardan birincisi texnologiyaların inkişafıdır. Belə ki, həm təhsil verənlər, həm də təhsil alanlar internet və texnologiya vasitəsilə təhsil materiallarını asanlıqla əldə edə bilərlər. Eyni zamanda təhsil müəssisələrində ağıllı lövhələrin sayını artırmaq lazımdır ki, təhsilin daha inteqrativ qurulmasına şərait yaratmaq mümkün olsun [10].

Bundan başqa, təhsil müəssisələri arasında beynəlxalq əlaqələr daha da inkişaf etdirilməli, tələbələr və müəllimlər arasında mədəni və akademik mübadilə proqramları təşkil edilməlidir. Bu da öz növbəsində şagirdlərin qlobal dünyaya inteqrasiyasını artırmağa kömək edəcəkdir.

Müəllimlərin peşəkar şəkildə inkişafına, yeni tədris metodlarının mənimsənilməsinə və təhsil texnologiyalarından istifadə etmələrinə xüsusi diqqət ayrılmalıdır. Bu məqsədlə müəllimlərin inkişafı üçün səlahiyyətli qurumlar tərəfindən təlimlər və treyninqlər təşkil olunmalıdır.

Tədris prosesində bir-biri ilə əlaqəli müxtəlif sahələrdən dərslər (məsələn, elm və sənət, texnologiya və sosial elm) təşkil edilməlidir. Bu şagirdlərin daha geniş və çoxşaxəli düşünmə bacarığına sahib olmalarına kömək edəcəkdir. Həmçinin, şagirdlərə yalnız nəzəri biliklər deyil, həm də praktiki bacarıqlar aşılanmalıdır.

***Nəticə.*** Azərbaycan təhsilində inteqrasiyanın istifadə olunması təhsil sisteminin daha inklüziv və müasir tələblərə cavab verən bir sistemə çevrilməsi üçün vacib bir amildir. Azərbaycanın təhsil sistemində inteqrasiya modeli müxtəlif sosial, mədəni və iqtisadi təbəqələrdən olan tələbələrə bərabər imkanlar təqdim etməyə yönəlmişdir. Azərbaycan təhsilində inteqrasiya həm ölkə daxilində sosial inklüzivliyi artırır, həm də beynəlxalq təhsil standartlarına uyğun inkişafı təmin edir. Daha müasir texnologiyaların və pedaqoji metodların tətbiqi, müəllimlərin peşəkar inkişafı, inklüziv təhsil proqramları və sosial mədəni inteqrasiya ilə Azərbaycan təhsilində daha bərabər və inkişaf etmiş bir sistem qurulacaqdır. Bu inkişaflar Azərbaycanın gələcək nəsillərinin daha geniş bacarıqlara və dünya ilə daha sıx əlaqəyə sahib olmalarına kömək edəcəkdir. Gələcəkdə təhsildə inteqrasiya, texnoloji inkişaf və daha inklüziv yanaşmalar sayəsində daha bərabər, ədalətli və yaradıcı cəmiyyətlər qurmaq mümkündür.

## ƏDƏBİYYAT


1. Balayeva G. İbtidai təhsilin məzmununun nəzəri-pedaqoji problemləri. Bakı: Elm və təhsil, 2012, 152 s.
2. Hüseynova L. Azərbaycan Respublikasının təhsil sisteminin formalaşdırılması (1991-2011) // Akademik Tarih ve Düşüncü Dergisi, 10(4), 1028-1037.
3. Kərimova F., Əhmədova M., Gəri Varella, Əlis Reyli. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Bakı: Adiloğlu, 2005.
4. Komenski Y.A. Böyük didaktika. Tərtib edəni prof. F.A. Rüstəmov. Bakı: Elm və təhsil, 2012.
5. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı, Kövsər 2008, 224 s.
6. Qədimova P. İnteqrasiya və inteqrativlik pedaqoji anlayışlar kimi: mahiyyəti və ifadə formaları // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 85, №5, 2018, s.97-102.
7. Qurbanov V. Azərbaycan dilini tədrisi metodikası. Bakı: Müəllim, 2014, 258 s.
8. Qurbanova V. İnteqrasiya haqqında məlumat və texnologiyanın təlim prosesinə inteqrasiyası // Humanitar və ictimai elmlər, №1(13), 2024, s.105-111.
9. Süleymanova A. İnteqrasiya təhsilin keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi // Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı: Mütərcim, 2011, s.100-118.
10. UNESCO (2015). Education 2030: Incheon Declaration and Framework for Action.
11. Кубасов О.П. Интеграция в образовании: сущностная характеристика // Казанский педагогический журнал, 2008, № 10, с.70-77.
12. Vüqar Həmzəyev. STEAM nədir və Azərbaycanda STEAM təhsilin məqsədləri / İki sahil, 28 dekabr 2020. - https://ikisahil.az/post/steam-nedir-ve-azerbaycanda-steam-tehsilin-meqsedleri [29.04.2025].

13. Ruslan Bayramlı. Ümumi təhsil səviyyəsi üzrə beynəlxalq qiymətləndirmə proqramları – PISA, PIRLS, TIMSS / Füyuzat.az, may, 2024. - https://fuyuzat.az/umumi-tehsil-seviyyesi-uzre-beynelxalq-qiymetlendirme-proqramlari-pisa-pirls-timss/ [29.04.2025].
14. Bolonya prosesi təhsilimizə nə verib? / Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Xəbərlər, 2016-cı il. - https://edu.gov.az/az/news-and-updates/9362 [29.04.2025].
15. Aydın Əhmədov, Ənvər Abbasov. Ümumi təhsildə inteqrasiya: müasir yanaşmalar / Azərbaycan müəllimi, 2013. – 10 may. – S.7. -
https://www.anl.az/down/meqale/az_muellimi/2013/may/309558.htm [29.04.2025].

**AFAQ ALIYEVA**
*Master student of Baku State University*

## THE IMPORTANCE OF INTEGRATION IN AZERBAIJAN EDUCATION AND FUTURE DEVELOPMENT PATHS

This article examines the role of integration in the education system of the Republic of Azerbaijan, as well as the future development paths of integration. The essence and types of integration as a term are presented. The views of great pedagogues, such as Y.A.Komensky and J.Dewey, on integration are reflected in the article. Notable remarks by well-known Azerbaijani educators and methodologists on integration are highlighted. The advantages of integration in the education system are analyzed. The essence of integration in the education system is explained, and the development perspectives of Azerbaijani education at the international level are discussed. Additionally, ways to further develop integration in education, as well as proposals and recommendations, are provided.

*Keywords:* Integration, education system, integrativeness, development, international, technology.

*Daxil olma tarixi*: 20.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

UOT 376

**ARZU TAHİRZADƏ**
*Bakı Dövlət Universitetinin I kurs magistrantı*
**tahirzadarzu@gmail.com**

# BOLONYA PROSESİ
## (Müdafiə Mahmudovun tədqiqatlarında)

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Naqif Həmzəyev

*Məqalədə Bolonya prosesinin yaranma tarixi, mahiyyəti və məqsədləri öz əksini tapmışdır. Həmçinin prosesin Azərbaycan təhsil sisteminə təsiri və onun tətbiqi zamanı üzə çıxan problemlərə də yer verilmişdir. Əsas diqqət Müdafiə Mahmudovun bu mövzuda apardığı tədqiqatlara yönəldilir. M.Mahmudovun "Bolonya prosesi və Azərbaycan" (2008) və "Bolonya prosesi: problemlər, perspektivlər və reallıqlar" (2010) adlı əsərlərində qeyd olunur ki, prosesin tətbiqi zamanı əsas problemlərdən biri ali təhsil proqramlarının strukturlaşdırılması və kredit sisteminin tam şəkildə mənimsənilməməsi olmuşdur.*

*Açar sözlər:* Bolonya prosesi, tələbə mobilliyi, Müdafiə Mahmudov, ali təhsil, kredit sistemi.

***Giriş.*** Bolonya prosesi Avropa Ali Təhsil Məkanının (AATM) formalaşdırılması məqsədilə həyata keçirilmiş ən mühüm təşəbbüslərdən biridir. Bolonya prosesi Avropa Ali Təhsil Məkanının yaradılması məqsədilə 19 iyun 1999-cu ildə Bolonya şəhərində qəbul olunmuş "Bolonya Bəyannaməsi" əsasında yaranmışdır. Bu proses Avropanın 49 ölkəsini birləşdirən geniş ali təhsil islahatı kimi qiymətləndirilir və bu prosesə Azərbaycan Respublikası 2005-ci ildə qoşulmuşdur. 1999-cu ildə əsası qoyulan bu proses Avropa ölkələrinin ali təhsil sistemlərində akademik dərəcə standartlarının və keyfiyyət təminatı mexanizmlərinin uyğunlaşdırılmasını nəzərdə tutur. Bu prosesin məqsədi ali təhsil sistemlərini uyğunlaşdırmaq, tələbə və müəllim mobilliyini artırmaq, akademik dərəcələrin qarşılıqlı tanınmasını təmin etmək və təhsildə keyfiyyət təminatını gücləndirməkdir [3, s.23]. Azərbaycan ali təhsil sistemində Bolonya prosesinin tətbiqi olunması kredit sisteminin tətbiqi, tələbə mobilliyinin təşkili və təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində islahatlara gətirib çıxarmışdır. Lakin prosesin icrası zamanı bir sıra problemlər və çətinliklər meydana çıxmışdır. Müdafiə Mahmudovun tədqiqatlarında bu məsələlərin əksi xüsusi yer tutur. O, Bolonya prosesinin mahiyyəti və Azərbaycan ali təhsil sisteminə təsiri ilə bağlı bir sıra elmi əsərlər və məqalələr müəllifidir. Bolonya prosesi ilk dəfə 1088-ci ildə İtaliyanın Boloniya şəhərində Boloniya universitetində tətbiq olunub. Prosesin tarixi 1987-ci ildə Avropa ittifaqında SOCRATES ERASMUS proqramının tətbiq olunması ilə başlamışdır.

***Boloniya prosesinin mahiyyəti və məqsədləri.*** Bolonya prosesi Avropadakı ölkələrin ali təhsil sistemlərini bir-birinə yaxınlaşdırmaq, diplomların beynəlxalq etibarlılığını artırmaq və vahid Avropa Ali Təhsil Məkanı (AATM) yaratmaq məqsədilə həyata keçirilən beynəlxalq bir təşəbbüsdür. Bu prosesin **mahiyyəti** ondan ibarətdir ki, Avropa ölkələri arasında vahid təhsil standartları formalaşdırılsın, akademik dərəcələr qarşılıqlı tanınsın, tələbə və müəllimlərin sərbəst hərəkəti təmin olunsun və təhsilin keyfiyyəti yüksəldilsin. Bolonya prosesinin **əsas məqsədi** ali təhsil sahəsində vahid bir standart formalaşdırmaqdır. Bununla yanaşı, bir neçə digər məqsəd də diqqət mərkəzində olmuşdur. İlk növbədə, ali təhsil sahəsində keyfiyyət təminatı və daha yaxşı təhsil nəticələrinin əldə edilməsi hədəflənmişdir. Ayrıca, Bolonya prosesi vasitəsilə Avropa ölkələri arasında tələbə və müəllim mobilliyini

asanlaşdırmaq, tələbələrin başqa ölkələrdə təhsil alması və işləməsi üçün imkanları genişləndirmək nəzərdə tutulmuşdur. Eyni zamanda, hər bir ölkənin ali təhsil sistemini beynəlxalq təhsil standartlarına uyğunlaşdırmaq, təhsil proqramlarının keyfiyyətini və şəffaflığını artırmaq da bu prosesin əhəmiyyətli istiqamətlərindəndir [2, s.42]. Bolonya prosesinin prinsipləri aşağıdakılardır:

1. Üçpilləli ali təhsil strukturu (Bakalavriat, Magistratura, Doktorantura);
2. Kredit sistemi;
3. Təhsil keyfiyyətinin təminatı və şəffaflıq;
4. Tələbə və müəllimin mobilliyinin gücləndirilməsi;
5. Əsas prinsiplərdən biri də əmək bazarının tələblərinə uyğun təhsil proqramlarının hazırlanması;
6. Təhsil və tədqiqat arasında əlaqənin gücləndirilməsi.

Azərbaycan Respublikası 2005-ci ildə Bolonya prosesinə qoşulmuş və bu istiqamətdə mühüm islahatlara başlamışdır. Xüsusilə kredit sisteminin tətbiqi və təhsilin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində işlər görülmüşdür [4, s.88-90].

***Müdafiə Mahmudovun baxışları fonunda Bolonya prosesi.*** M.Mahmudov Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat-Mexanika İnstitutunun tətbiqi riyaziyyat şöbəsində, Azərbaycan Texniki Universitetinin Ali riyaziyyat kafedrasında fəaliyyət göstərib. O, 40-dan çox dərslik və metodiki vəsaitin, 10 monoqrafiyanın, 220-dən çox elmi və elmi-pedaqoji əsərin müəllifi olmuşdur. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Müdafiə Mahmudov 2020-ci ildə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunub.

Müəllifin "Bolonya prosesi və Azərbaycan" (2008) və "Bolonya prosesi: problemlər, perspektivlər və reallıqlar" (2010) adlı əsərləri bu mövzuda yüksək qiymətləndirilir. M.Mahmudovun əsərlərinə istinad edərək Bolonya prosesi haqqında bir neçə əsas nüanslara diqqət edək:

Bolonya prosesi kompleks əlaqəli məsələləri əhatə edir, hansı ki, bu məsələlər Avropa ölkələrində biliyin kefiyyətinin qiymətləndirilməsinin üsullarına və təhsil sisteminin yaxşılaşdırılmasına yönəlmişdir. Bu prosesin **məqsədi** böyük azad Avropa məkanında təhsil proqramının seçimi, Avropada əmək bazarında işlə təmin olunmanın asanlaşmasından ibarətdir [1]. Müəllifin verdiyi məlumata əsaslansaq, qeyd etməliyik ki, Bolonya prosesində təhsil sisteminin əsası kreditdir. *Kredit fənnin mənimsənilməsinə ayrılan vaxtın və ona sərf olunan əməyin ölçü vahididir.* Kredit təhsilin nəticələrini müqayisə etmək üçün Avropa məkanında ali təhsildə qəbul olunmuş vahid ölçüdür [1].

Hər bir kreditin 36 saat, bu saatların da mühazirələrə qulaq asmaq, fərdi iş və s. ibarət olduğunu müəllif göstərmişdir. Kredit sistemi vasitəsilə tələbənin hər hansı bir ölkədə problemsiz ola bilər. Bakalavr dərəcəsi almaq üçün üçillik təhsildə 180 kredit, dörd illik təhsildə isə 240 kredit toplanmalıdır. Magistr dərəcəsi almaq üçün beş illik təhsildə 300 kredit yığmaq lazımdır [1].

Bolonya prosesində **tələbənin mobilliyi** əsasən aşağıdakılardan ibarətdir:

1. Tələbə xarici ölkənin ali məktəbində bir semestr və ya bir tədris ili oxumalıdır;
2. O, olduğu öləkənin dilində yaxud ingilis dilində təhsil almalıdır; bu dillərdə də cari və yekun sınaqları verir;
3.Tələbə üçün xarici ölkədə mobillik proqramlarına görə tədris pulsuzdur qəbul olduğu ali məktəb tədrisə görə pul almır;
4. Əgər təcrübə (stajirovka) dekanatla razılaşdırılıbsa, baza (tələbənin daxil olduğu) ali məktəbində tələbənin aldığı kreditlər hesablanır;
5. O, xarici ölkədə təhsil aldığı dövr ərzində heç bir fənn üzrə əlavə imtahan vermir;
6. Tələbənin müştərək və ikili diplomlar alması təqdirəlayiqdir [1].

***Nəticə.*** Bolonya prosesi, Avropa ali təhsil sistemlərini uyğunlaşdırmaq və daha da inkişaf etdirmək məqsədini güdür. Azərbaycan 2005-ci ildən etibarən bu prosesə qoşularaq ali təhsil sistemində bir sıra əhəmiyyətli islahatlar həyata keçirmişdir. Nəticədə bizim təhsil Avropa ölkələrinin təhsilinə inteqrasiya etmişdir. Kredit sistemi, tələbə mobilliyi və təhsil proqramlarının Avropa standartlarına uyğunlaşdırılması kimi prinsiplər tətbiq olunmuşdur.

Müdafiə Mahmudovun tədqiqatları göstərir ki, Bolonya prosesinin tətbiqi Azərbaycan ali təhsil sistemində təhsil keyfiyyətinin artırılması və beynəlxalq tanınma məsələlərində mühüm irəliləyişlərə səbəb olmuşdur. Bununla yanaşı, tələbə mobilliyi, diplomların qarşılıqlı tanınması və təhsildəki bərabərlik məsələləri hələ də aktuallığını qoruyur. Bu problemlərin aradan qaldırılması üçün əlavə islahatların və beynəlxalq əməkdaşlıqların inkişaf etdirilməsi vacibdir.

ƏDƏBİYYAT

1. Mahmudov, M. (2008). Bolonya prosesi və Azərbaycan. Bakı: ADPU nəşriyyatı, 122 s.
2. Əhmədov, R. (2017). Ali təhsildə beynəlmiləlləşmə və Bolonya prosesi. Bakı: ADPU nəşriyyatı, 142 s.
3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. (2020). Bolonya prosesi və Azərbaycan təhsil sistemi. Bakı.
4. Qasımov, Ə. (2018). Bolonya prosesi və Azərbaycan təhsilində islahatlar. Bakı: Təhsil, 196 s.

**ARZU TAHIRZADE**
*1st year master student of Baku State University*

**BOLOGNA PROCESS**
**(In the Research of Mudafai Mahmudov)**

This article covers the history, essence, and objectives of the Bologna Process. It also addresses the impact of the process on the Azerbaijani education system and the problems encountered during its implementation. The main focus is directed toward Mudafai Mahmudov's research on this topic. In his works "Bologna Process and Azerbaijan" (2008) and "Bologna Process: Problems, Perspectives, and Realities" (2010), M. Mahmudov points out that one of the main issues during the implementation of the process was the structuring of higher education programs and the incomplete adoption of the credit system.

*Keywords:* Bologna Process, student mobility, Mudafia Mahmudov, higher education, credit system.

*Daxil olma tarixi*: 23.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№2(12) 2025, 13-16

UOT 930.2; UOT 94(479.24)

**AYDIN İSLAMZADƏ**
*Bakı Dövlət Universitetinin*
*Yaxın və Orta Şərq ölkələri ixtisasının I kurs magistrantı*
**aydinislam610@gmail.com**

# FACİƏNİ ƏKS ETDİRƏN MƏNBƏLƏRDƏ XOCALI SOYQIRIMI

*Elmi rəhbər:*
Bakı Dövlət Universitetinin
Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının
müəllimi Kəmalə Məmmədova

*Terror dövləti olan Ermənistan tarixən mülki əhaliyə qarşı böyük faciə və terror cinayətləri həyata keçirmişdir. Şübhəsiz ki, XX əsrdə mülki əhaliyə qarşı edilən cinayətlərdən ən amansızlarından biri də məhz Xocalı faciəsi olmuşdur. Ermənilər bu qəsbkar addımları ilə hansı xislətin sahibi olduqlarını hər kəsə nümayiş etdirmişdirlər. Bütün bunlar ermənilərin terror dövləti olmalarının sübutudur. Ermənilərin Xocalı faciəsini həyata keçirmələrinin bütün dünyaya tanıdılmasında şahid ifadələrinin toplanmasının, foto və video materialların, eləcə də sənədli filmlərin rolu danılmazdır. Ölkəmizdə bu istiqamətdə dövlətimiz tərəfindən sistemli şəkildə tədbirlər həyata keçirilməkdədir. Xüsusi ilə sənədli filmlərin hazırlanmasına böyük diqqət göstərilmiş, eləcə də əldə olan materialların, mənbələrin qorunaraq gələcək nəsillərə ötürülməsi təmin edilmişdir. Bütün bu mənbələrin rolu danılmazdır.*

*Açar sözlər:* Xocalı faciəsi, Çingiz Mustafayev, İlham Əliyev, Seyidağa Mövsümlü, Ədil Arifoğlu, Frederique Lengaigne.

***Giriş.*** Xocalı soyqırımının üzərindən artıq 33 il keçməkdədir. Yaşanan faciə Azərbaycanın ərazi bütövlüyünə qarşı aparılan genişmiqyaslı müharibənin ən qanlı səhifələrindən biri olaraq Azərbaycan xalqının hər zaman yaddaşında qalacaq və xalqımız ona qarşı edilən zülm və ədalətsizlikləri heç bir an unutmayacaqdır.

1992-ci ilin əvvəlində erməni işğalçıları Quşçular, Kərkicahan və Malıbəyli kəndlərini işğal edir. Bu işğalla Şuşa və Xocalı şəhərləri mühasirəyə alınmış olur. Daha sonra düşmən 1992-ci ilin fevral ayında Qaradağlı kəndini işğal edir. İşğalçı ermənilərin növbəti hədəfi dinc Xocalı şəhəri olur. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə alçaq düşmən Rusiyaya məxsus 366-cı motoatıcı alayın yardımıyla Xocalı şəhərini işğal etdi. Azğın düşmən mülki əhaliyə qarşı tarixdə misli görünməmiş cinayətlər həyata keçirdi. Xocalı faciəsində 613 nəfər mülki əhali şəhid edildi. 1275 nəfər Xocalı sakini isə girov götürüldü [1, s.355-356].

Şübhəsiz ki, baş verən hadisənin həqiqiliyinin üzə çıxmasında, bütün həqiqətlərin aydın olmasında sahid ifadələrinin, foto və video materialların, sənədli filmlərin və digər mənbələrin rolu olduqca böyükdür.

Şahidlər hadisənin canlı şahidləri olduqları üçün onların ifadələri mühüm sübut hesab edilməkdədir. Hadisənin birbaşa iştirakçılarından və ya müşahidəçilərindən alınan məlumatlar real və detallı olur. Foto və video materiallar hadisələri təsdiqləmək üçün ən güclü sübutlardandır. Bu materiallar hadisələrin dəqiq və dəyişdirilməmiş formada qeydə alınmasını təmin edir. Sənədli filmlər hadisələr haqqında geniş araşdırmalar və arxiv materialları əsasında hazırlanır.

Xocalı faciəsi haqqında da olduqca çox sayda şahid ifadələri, foto və video materiallar, sənədli filmlər mövcuddur.

***Xocalı faciəsinin araşdırılması istiqamətində dövlətimizin gördüyü tədbirlər.*** Xocalı faciəsi ilə bağlı Azərbaycanın prokurorluq orqanları tərəfindən geniş miqyaslı istintaq və araşdırmalar aparılmışdır. 2003-cü il dekabrın 18-də Azərbaycan Respublikasının Baş prokurorluğu, Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirləriyinin birgə istintaq-əməliyyat qrupu yaradılmışdır. Bu qrup azərbaycanlı

əsir və girovlara qarşı törədilən cinayətləri, təxribat və terror aktlarını, əhalinin məcburi köçürülməsini, maddi sərvətlərin və tarixi mədəniyyət abidələrinin dağıdılmasını araşdırmışdır [3].

Xüsusilə vurğulamalıyıq ki, erməni işğalçılarının doğma Azərbaycanımıza qarşı həyata keçirdiyi işğalın nəticəsi olaraq 1988-2024-cü illər ərzində 18.850 nəfər azərbaycanlı şəhid edilmiş, 56.268 nəfər isə yaralanmışdır [4].

***Şahid ifadələri.*** Xocalıdan sağ çıxan insanların ifadələri hadisənin necə baş verdiyini canlı şəkildə təsvir etməkdədir. Faciənin canlı şahidi Xocalı sakini Camal Heydərov qeyd edir ki, *"Qaraqaya deyilən yerin yaxınlığındakı fermanın 2 kilometrliyində eybəcər hala salınmış xeyli azərbaycanlı meyiti var idi. Qətlə yetirilmiş uşaqların sinəsini yarıb ürəklərini parçalamış, əksər meyitləri isə tikə-tikə doğramışdılar ..."* [7].

Faciədən sağ çıxan Xəzəngül Əmirova isə bildirir ki, *"Xocalı işğal olunan zaman erməni silahlıları bizim ailəni bütünlüklə girov götürmüşdülər. Ermənilər anam Rayanı, 7 yaşlı bacım Yeganəni və xalam Göycəni güllələyib, atam Əmirov Təvəkkülü isə benzin tökərək yandırdılar ..."* [7].

Xocalı sakini Şahin Heydərov isə bunları söyləyib: *"Naxçıvanik kəndi yaxınlığında 80-ə yaxın meyid gördüm. Meyidlər qorxulu vəziyyətə salınmış, başları kəsilmişdi. Milis mayoru Əlif Hacıyev, yaxın qohumlarım Mikayıl Səlimov, Fəxrəddin Səlimov da qətlə yetirilənlər arasında idi ..."* [7].

Onu da qeyd edək ki, ermənilər özləri belə həyasızcasına bu faciəni həyata keçirdiklərini dəfələrlə etiraf etmiş, Robert Koçəryan və Serj Sarkisyan Xocalı soyqırımı ilə bağlı müxtəlif vaxtlarda açıqlamalar vermişlər. Serj Sarkisyanın 2000-ci ildə britaniyalı jurnalist və yazıçı Tomas de Vaalın "Qara Bağ" kitabı üçün verdiyi müsahibədə Xocalı hadisələri ilə bağlı bu fikirləri əksini tapmışdır: *"Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat edə bilərlər. Onlar elə bilirdilər ki, ermənilər mülki insanlara əl qaldıra bilməzlər. Biz bu stereotipi sındıra bildik. Və belə də oldu"*. Bu sözlər erməni tərəfinin Xocalıdakı qətliamı bir hərbi-taktiki addım kimi gördüyünü və bununla Azərbaycan cəmiyyətinə qorxu aşılamaq istədiklərini açıq şəkildə göstərir [5].

Robert Koçəryan dəfələrlə çıxışlarında Ermənistanın Qarabağ müharibəsindəki rolunu və separatçı qüvvələrin hərəkətlərini haqlı çıxarmağa çalışıb. Onların açıqlamaları və yanaşmaları Xocalı soyqırımının qəsdən törədilmiş bir vəhşilik olduğunu və bunun siyasi, hərbi məqsədlər üçün istifadə edildiyini açıq şəkildə göstərir [6].

Xocalı soyqırımının birbaşa iştirakçısı olan, erməni canisi Zori Balayan 1996-cı ildə nəşr olunan "Ruhumuzun canlanması" adlı kitabında Xocalı soyqırımına haqq qazandırır və bu şəhərdə azərbaycanlılara qarşı soyqırım həyata keçirildiyini fəxrlə etiraf edir: *"Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz on üç yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk usağı çox səsküy salmasın deyə, Xaçatur usağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra bu usağın başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk usağı yeddi dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum xalqımın bir faizinin belə qisasını aldığı üçün sevincdən qürurlanırdı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və biz bu hərəkəti üç türk usağına da tətbiq elədik. Mən bir erməni vətənsevər kimi öz vəzifəmi yerinə yetirdim"* [2, s.5].




***Foto və video materiallar.*** Foto və video materiallar dünyanın diqqətini bu faciəyə yönəldərək, beynəlxalq ictimaiyyəti məlumatlandırmaqdadır**.** Məşhur fotoqraf Frederique Lengaigne və Milli Qəhrəmanımız jurnalist Çingiz Mustafayev, həmçinin Seyidağa Mövsümlü, Ədil Arifoğlu Xocalıdakı vəhşilikləri dünyaya göstərməklə bu hadisənin ermənilər tərəfindən inkar edilməsinin qarşısını almışdılar. Bu görüntülər həqiqəti açıq şəkildə nümayiş etdirmişdir. Bütün bu faktlar haqq səsimizi dünya ictimaiyyətinə çatdırmaqda mühüm rol oynamışdır.

***Sənədli filmlər.*** Xocalı soyqırımının təfərrüatı ilə öyrənilməsi baxımından sənədli filmlərin də rolu olduqca böyükdür. Tarixi və ya real hadisələri geniş izah etməyə kömək edən sənədli filmlər çoxsaylı sübutları bir araya gətirir, faciəni detallı şəkildə təhlil edir və beynəlxalq arenada tanınmasına kömək edir. Xocalı haqqında çəkilmiş "Xocalı: Ədalət üçün çağırış", "Sonsuz dəhliz", "Ağrı" (Pain),

Xocalı - Şahidlər – 2022" kimi sənədli filmlər də bu soyqırımın daha geniş auditoriyaya çatmasına və beynəlxalq aləmdə tanıdılmasına şərait yaradır, faciənin unudulmaması üçün böyük rol oynayır.

<table>
<tr>
<td>
</td>
<td>
</td>
<td>
</td>
</tr>
<tr>
<td>Litvalı rejissor Andreas Brokasın Xocalı qırğınından bəhs edən "Sonsuz dəhliz" (Endless Corridor) filmi.</td>
<td>"13" - Gənclər Fondunun dəstəyi, Gəncliyin Sosial-İqtisadi İnkişafına Yardım İctimai Birliyinin və "Azxeber Media"nın təşkilatçılığı ilə çəkilmiş qısametrajlı film</td>
<td>
</td>
</tr>
</table>

***Nəticə.*** Xalqımıza qarşı həyata keçirilən ən böyük cinayətlərdən biri olan Xocalı faciəsi hər zaman yaddaşımızda qalacaq və xalqımız bütün haqqsızlıqların cavabını beynəlxalq hüquq çərçivəsində verəcəkdir. Şübhəsiz ki, baş verənlərin gənc nəsillərə çatdırılmasında şahid ifadələrinin, foto və video materialların, sənədli filmlərin rolu olduqca böyükdür. Bu cür mənbələrin ərsəyə gəlməsində həm dövlətimiz, həm də ayrı-ayrı şəxslər tərəfindən mühüm addımlar atılmışdır. Məhz bu addımların sayəsində bu gün dünya ictimaiyyəti Xocalı faciəsindən xəbərdardır.

Ali Baş Komandanımız cənab İlham Əliyevin, Ordumuzun, Şəhid və Qazilərimizin hesabına biz artıq qalib xalqın nümayəndələriyik. Xüsusi ilə onu da vurğulamalıyıq ki, riyakar düşmən Vətən müharibəsinin gedişində Bərdədə, Gəncədə, Tərtərdə, Ağdamda, Naftalanda və digər şəhərlərimizdə mülki əhaliyə qarşı terror aktları törətməklə bir daha öz xislətini bütün dünyaya göstərəndə belə, biz ermənilər tərəfindən həyata keçirilən bütün amansızlıqlara qarşı ləyaqətlə cavab verdik. Ordumuz istər 44 günlük Vətən Müharibəsində, istərsə də lokal antiterrior əməliyyatlarında erməni mülki əhalisinə qarşı heç bir zərbə endirmədi. Erməni hərbi birləşmələri döyüş meydanında layiqli cavablarını aldılar. Qələbəmizin arxasında duran əsas amillərdən biri də bizim digər cəhətlərlə yanaşı, mənəviyyat cəhətdən də düşməndən üstünlüyümüz idi. Biz müqəddəs kitabımız Qurani Kərimin Bəqərə surəsinin 190-cı ayəsinə uyğun addım atdıq. Uca Allah burada bildirir ki, *"Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz!"*. Biz bu müharibədə insani hədlər çərçivəsində addım ataraq, haqq və ədaləti bərpa etdik.

Allah Bütün Şəhidlərimizə Rəhmət Etsin!

Şükürlər olsun ki, artıq bu gün Xocalımız azaddır! Ölkə prezidenti cənab İlham Əliyevin göstəriş və sərəncamları ilə bütün Qarabağ ərazisində, o cümlədən Xocalıda quruculuq-abadlıq işləri uğurla davam etdirilir, bununla yanaşı Xocalı soyqrımının dünyaya tanıdılması istiqamətində böyük işlər görülür.

Bizim də bir vətəndaş, tarixçi kimi vəzifəmiz Xocalı soyqırımı ilə bağlı mənbələri araşdırmaq, tədqiq və təhlil etməklə beynəlxalq konfrans, simpozium və tədbirlərdə dünya ictimaiyyətinə tanıtmaq, çatdırmaq və Xocalıya ədalətin bərpasına nail olmaqdır.

ƏDƏBİYYAT

1. Abdullayev M. Azərbaycan Tarixi. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2019, 400 s.
2. Hüseynli Q. XX əsrin qanlı faciəsi – Xocalı / Respublika. – 2019. – 26 fevral. – №46. – S.5.

3. Xocalı faciəsi beynəlxalq hüquqa əsasən soyqırımı cinayətidir / Azərbaycan Respublikasının Baş Prokurorluğu, 27.02.2020. https://genprosecutor.gov.az/az/post/2430 [25.04.2025].
4. Ermənilər tərəfindən 1988-2024-cü illər ərzində 18 min 850 şəxs qəsdən öldürülüb / E-Hüquq.az, 18 fevral 2025. - https://www.e-huquq.az/az/news/mehkeme/96495.html [25.04.2025].
5. Xarici İşlər Nazirliyi və Baş Prokurorluq Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar birgə bəyanat yayıb / AzərTAC, 24.02.2018. - https://azertag.az/xeber/xarici_isler_nazirliyi_ve_bas_prokurorluq_xocali_soyqiriminin_26_ci_ildonumu_ile_elaqedar_birge_beyanat_yayib-1139830 [25.04.2025].
6. Ermənistanın Azərbaycan xalqına qarşı irqi ayrı-seçkilik və nifrət zəminində həyata keçirdiyi etnik təmizləmə və deportasiya siyasəti ilə bağlı beynəlxalq insan hüquqları təşkilatlarına, xarici ölkələrin ombudsmanlarına və milli insan hüquqları təsisatlarına Açıq Məktub / Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Ombudsman 15-01-2025. - https://ombudsman.az/az/news/2139 [25.04.2025].
7. Əsrin faciəsi olan Xocalı soyqırımını törətmiş qatillərin cəzalandırılmasının vaxtı çatıb / Yeni Azərbaycan, 23.02.2010. - https://www.yeniazerbaycan.az/Siyaset_e5334_az.html [25.04.2025].

**AYDIN ISLAMZADEH**
*Baku State University,*
*1st year master's student, Near and Middle Eastern Countries*

## KHOJALY GENOCIDE IN SOURCES REFLECTING THE TRAGEDY

Armenia, a terrorist state, has historically committed great tragedies and terrorist crimes against the civilian population. Undoubtedly, one of the most cruel crimes committed against the civilian population in the 20th century was the Khojaly tragedy. Armenians demonstrated to everyone what kind of character they possess with these usurping steps. All this is evidence that Armenians are a terrorist state. The role of collecting eyewitness testimonies, photo and video materials, as well as documentary films in introducing the Armenians' Khojaly tragedy to the whole world is undeniable. In our country, our state is systematically implementing measures in this direction. Special attention was paid to the preparation of documentary films, as well as the preservation of available materials and sources and their transmission to future generations. The role of all these sources is undeniable.

*Keywords:* Khojaly tragedy, Chingiz Mustafayev, Ilham Aliyev, Seyidagha Movsumlu, Adil Arif-oglu, Frederique Lengaigne.

*Daxil olma tarixi*: 25.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

***Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları***
***Studies of the Turkic World Young Researchers Association***

***№2(12) 2025, 17-20***

**UOT 32:93/94**

**BƏYLƏR MƏHƏRRƏMOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası,*
*Milli Təhlükəsizlik və Siyasi Strategiya ixtisası üzrə magistr*
**beylermeherremov12@gmail.com**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASI

*Emi rəhbər:*
siyasi elmlər üzrə fəlsəfə doktoru Adil Vəliyev

*Heydər Əliyev Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının formalaşmasında mühüm rol oynamışdır. Onun rəhbərliyi ilə dövlətin müstəqilliyi, ərazi bütövlüyü və siyasi sabitliyi təmin olunmuş, təhlükəsizlik sahəsində əsas strategiyalar müəyyənləşdirilmişdir. Xarici siyasətdə balanslı münasibətlər, daxildə isə hüquq-mühafizə və ordu quruculuğu gücləndirilmişdir. Heydər Əliyevin siyasi irsi milli maraqların qorunmasına, geosiyasi təhdidlərə qarşı çevik tədbirlərin görülməsinə əsaslanır. Bu konsepsiya bu gün də ölkənin təhlükəsizlik siyasətinin təməlini təşkil edir.*

*Açar sözlər:* Heydər Əliyev, Azərbaycanın milli təhlükəsizlik konsepsiyası, milli təhlükəsizlik strategiyası, Heydər Əliyevin siyasi irsi, Azərbaycanın təhlükəsizlik siyasəti.

***Giriş***. Müstəqil dövlətin mövcudluğu və davamlı inkişafı onun milli təhlükəsizliyinin təmin olunması ilə birbaşa bağlıdır. Azərbaycanın müstəqillik qazandığı ilk illərdə qarşılaşdığı daxili və xarici təhdidlər, dövlətin təhlükəsizlik sahəsində vahid və sistemli siyasətə ehtiyacını daha da aktuallaşdırmışdır. Bu kontekstdə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın təhlükəsizlik strategiyasının əsaslarının formalaşmasında həlledici rol oynamışdır. Onun uzaqgörənliyi, siyasi iradəsi və diplomatik məharəti sayəsində ölkənin milli təhlükəsizlik konsepsiyasının təməli qoyulmuş, strateji istiqamətlər müəyyənləşdirilmişdir.

Heydər Əliyev milli təhlükəsizliyi yalnız hərbi və ya hüquqi aspektlərlə məhdudlaşdırmırdı. O, milli təhlükəsizlik anlayışını daha geniş spektrdə – siyasi sabitlik, iqtisadi müstəqillik, enerji təhlükəsizliyi, informasiya təhlükəsizliyi, ekoloji balans və ictimai həmrəylik kimi amillərlə əlaqələndirirdi. Məhz bu yanaşma nəticəsində Azərbaycan müstəqil dövlət kimi beynəlxalq münasibətlər sistemində öz yerini möhkəmləndirə bildi [3, s.26].

Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən dövlət proqramları, beynəlxalq əməkdaşlıq təşəbbüsləri və hüquqi normativ bazanın formalaşdırılması ölkənin təhlükəsizlik sisteminin strukturlaşdırılmasında mühüm rol oynamışdır. Xüsusilə, regional və qlobal təhlükəsizlik çağırışlarına adekvat cavab vermək, qonşu dövlətlərlə balanslaşdırılmış münasibətlər qurmaq və beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində təhlükəsizlik mexanizmlərinin qurulması bu konsepsiyanın əsas istiqamətlərindəndir.

Bu işin məqsədi Heydər Əliyevin milli təhlükəsizlik sahəsində həyata keçirdiyi siyasətin əsaslarını, prinsipial yanaşmalarını və bu sahəyə verdiyi töhfələri təhlil etməkdir. Eyni zamanda, onun müəyyənləşdirdiyi təhlükəsizlik konsepsiyasının müasir Azərbaycan üçün əhəmiyyətini və davamlılığını qiymətləndirmək əsas hədəf kimi qarşıya qoyulmuşdur. Tədqiqat nəticəsində əldə edilən qənaətlər Azərbaycanın gələcək təhlükəsizlik siyasətinə də töhfə verə bilər.

***Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik konsepsiyası***. Azərbaycan Respublikasının müasir dövlətçilik tarixində ümummilli lider Heydər Əliyevin rolu əvəzolunmazdır. Onun rəhbərliyi ilə həyata keçirilən siyasi islahatlar, iqtisadi inkişaf strategiyaları və təhlükəsizlik sahəsində atılmış əsaslı addımlar Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında mühüm rol oynamışdır. Milli təhlükəsizlik məsələləri Heydər Əliyevin siyasi fəaliyyətində daim prioritet olmuş, onun təşəbbüsü ilə hazırlanan və həyata keçirilən milli təhlükəsizlik konsepsiyası Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün və davamlı inkişafının təminatçısına çevrilmişdir.

Bu məqalədə Heydər Əliyevin milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri, onun siyasi fəlsəfəsində təhlükəsizlik anlayışının yeri, konsepsiyanın hüquqi və strateji əsasları təhlil ediləcəkdir.

***1. Milli təhlükəsizlik konsepsiyasının formalaşmasının tarixi zərurəti.*** 1990-cı illərin əvvəllərində Azərbaycanın müstəqilliyini yenicə bərpa etdiyi dövrdə ölkə ciddi daxili və xarici təhdidlər qarşısında qalmışdı. Ermənistanın hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik yeddi rayon işğal edilmiş, ölkə daxilində siyasi qeyri-sabitlik hökm sürürdü. Bundan əlavə, iqtisadi çöküş, sosial gərginlik və beynəlxalq aləmdə möhkəmlənməmiş siyasi status Azərbaycanın milli təhlükəsizliyinə ciddi təhlükə yaradırdı [8, s.67].

Belə bir şəraitdə 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev ölkənin sabitliyi və təhlükəsizliyi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsinə başladı. Onun əsas məqsədi Azərbaycan dövlətçiliyinin əsaslarını möhkəmləndirmək, ərazi bütövlüyünü bərpa etmək və xalqın rifahını təmin etmək idi. Bu məqsədlərə çatmaq üçün vahid və sistemli təhlükəsizlik konsepsiyasının formalaşdırılması zəruri idi.

***2. Heydər Əliyevin milli təhlükəsizlik fəlsəfəsi.*** Heydər Əliyev milli təhlükəsizliyi yalnız hərbi aspektlərlə məhdudlaşdırmırdı. Onun yanaşmasında milli təhlükəsizlik kompleks bir anlayış kimi qiymətləndirilirdi və aşağıdakı sahələri əhatə edirdi:

- **Siyasi təhlükəsizlik** – dövlətin suverenliyi, daxili stabillik və idarəetmənin möhkəmləndirilməsi.
- **Hərbi təhlükəsizlik** – Silahlı Qüvvələrin gücləndirilməsi, müdafiə qabiliyyətinin artırılması və münaqişələrin diplomatik yolla tənzimlənməsi.
- **İqtisadi təhlükəsizlik** – iqtisadi müstəqilliyin təmin olunması, enerji layihələrinin həyata keçirilməsi və investisiya mühitinin yaxşılaşdırılması.
- **Enerji təhlükəsizliyi** – neft və qaz ehtiyatlarının beynəlxalq bazara çıxarılması, enerji infrastrukturlarının qorunması.
- **İnformasiya təhlükəsizliyi** – dövlətə qarşı yönəlmiş informasiya təhdidlərinə qarşı tədbirlərin görülməsi.
- **Ətraf mühit təhlükəsizliyi** – ekoloji sabitliyin təmin olunması və təbii sərvətlərin qorunması.

Bu yanaşma milli təhlükəsizliyin yalnız silahlı müdafiə ilə deyil, kompleks dövlət siyasəti ilə qorunduğunu göstərir [7, s.59].

***3. Hüquqi baza və konsepsiyanın rəsmiləşdirilməsi.*** Heydər Əliyev dövründə milli təhlükəsizliyin hüquqi bazasının formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası dövlətin təhlükəsizlik siyasətinin əsas prinsip və istiqamətlərini müəyyən etmişdir. Konstitusiyanın müxtəlif maddələrində dövlətin suverenliyi, ərazi bütövlüyü, vətəndaşların hüquqlarının qorunması və müdafiə qabiliyyətinin gücləndirilməsi kimi məsələlərə toxunulmuşdur.

2007-ci ildə Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası" məhz Heydər Əliyevin müəyyən etdiyi strateji yanaşmalara əsaslanır. Bu konsepsiyada təhlükəsizlik anlayışının geniş şərhi, xarici və daxili təhdidlərin analizi, milli maraqların müdafiəsi mexanizmləri və prioritet sahələr müəyyən olunmuşdur.

***4. Xarici siyasət və beynəlxalq təhlükəsizlik əməkdaşlığı.*** Heydər Əliyevin milli təhlükəsizlik strategiyasının mühüm istiqamətlərindən biri də xarici siyasət idi. O, balanslaşdırılmış və çoxşaxəli xarici siyasət yürüdərək Azərbaycanı beynəlxalq arenada nüfuzlu dövlətə çevirməyi qarşısına məqsəd qoymuşdu. Xüsusilə NATO, ATƏT, BMT və İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumlarla əməkdaşlıq əlaqələrinin gücləndirilməsi milli təhlükəsizliyin beynəlxalq təminatçılarından biri olmuşdur [4, s.32].

Ən mühüm layihələrdən biri olan Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri regionda Azərbaycanın strateji rolunu artırmış və enerji təhlükəsizliyini təmin etmişdir. Bu layihələr yalnız iqtisadi deyil, həm də geosiyasi təhlükəsizliyin gücləndirilməsinə xidmət etmişdir.

***5. Milli həmrəylik və daxili sabitlik.*** Heydər Əliyev təhlükəsizliyin təminində milli həmrəyliyi xüsusi yerə qoyurdu. O, dəfələrlə qeyd etmişdir ki, "bizim gücümüz birliyimizdədir". Cəmiyyətin

bütün təbəqələrinin birliyini təmin etmək, siyasi və dini dözümlülüyü qorumaq, vətəndaş həmrəyliyini möhkəmləndirmək dövlət təhlükəsizliyinin vacib şərtləri hesab olunurdu.

***Nəticə.*** Heydər Əliyevin rəhbərliyi ilə formalaşmış milli təhlükəsizlik konsepsiyası Azərbaycanın müasir təhlükəsizlik sisteminin təməlini təşkil edir. Onun uzaqgörən siyasəti nəticəsində dövlətin təhlükəsizlik prioritetləri sistemli şəkildə müəyyən olunmuş, daxili və xarici təhdidlərə qarşı effektiv cavab mexanizmləri yaradılmışdır. Hazırda da Azərbaycan Respublikasının təhlükəsizlik siyasəti Heydər Əliyevin müəyyən etdiyi prinsiplərə əsaslanaraq inkişaf edir və regionda sabitliyin, sülhün və tərəqqinin əsas təminatçılarından biri kimi çıxış edir.

Heydər Əliyevin rəhbərliyi altında formalaşdırılmış və inkişaf etdirilmiş milli təhlükəsizlik konsepsiyası Azərbaycanın müstəqil dövlət quruculuğunun ən mühüm dayaqlarından biri olmuşdur. Ulu Öndər Heydər Əliyev ölkənin təhlükəsizliyini yalnız hərbi müdafiə ilə məhdudlaşdırmamış, onu daha geniş – siyasi sabitlik, iqtisadi dayanıqlılıq, sosial rifah, ideoloji bütövlük və informasiya təhlükəsizliyi kontekstində dəyərləndirmişdir. Bu yanaşma milli təhlükəsizlik konsepsiyasının kompleks və sistemli şəkildə formalaşdırılmasına imkan yaratmışdır [12].

Heydər Əliyev dönəmində Azərbaycanın strateji maraqları əsasında müəyyən edilmiş milli təhlükəsizlik prioritetləri dövlətin daxili və xarici siyasətinin əsas istiqamətlərinə çevrilmişdir. O, ilk növbədə ölkənin suverenliyi və ərazi bütövlüyünün qorunmasını, siyasi sabitliyin təmin edilməsini, separatizm və ekstremizmə qarşı mübarizəni, enerji və iqtisadi təhlükəsizliyi əsas hədəf kimi müəyyənləşdirmişdir. Eyni zamanda, qonşu dövlətlərlə qarşılıqlı hörmət və əməkdaşlıq prinsiplərinə əsaslanan xarici siyasət kursu ilə regional sabitliyin qorunmasına da ciddi töhfələr vermişdir.

Milli təhlükəsizlik sahəsində hüquqi-normativ bazanın yaradılması, güc strukturlarının modernləşdirilməsi və milli təhlükəsizlik orqanlarının peşəkar kadrlarla təmin olunması istiqamətində mühüm addımlar atılmışdır. Bu tədbirlər nəticəsində Azərbaycan həm daxili təhlükəsizlik, həm də beynəlxalq təhdidlərə qarşı davamlı müqavimət qabiliyyəti qazanmışdır.

Heydər Əliyevin siyasi irsi bu gün də Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsasını təşkil edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu konsepsiya müasir çağırışlara uyğun şəkildə inkişaf etdirilərək, regional və qlobal miqyasda artan risklərə qarşı effektiv müdafiə mexanizmlərinə çevrilmişdir. Bu da göstərir ki, Heydər Əliyevin əsasını qoyduğu milli təhlükəsizlik fəlsəfəsi Azərbaycanın dövlətçilik tarixində uzunmüddətli və strateji əhəmiyyət daşıyan bir mirasdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası : [Elektron resurs] / https://e-qanun.az/framework/897 [29.04.2025].
2. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / https://e-qanun.az/framework/5455 [29.04.2025].
3. Həsənov Ə. M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, "Letterpress", 2011, 440 s.
4. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı, Çaşıoğlu, 2002, 530 s.
5. Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı, "Letterpress", 2013, 452 s.
6. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan", 2005, 752 s.
7. Həsənov Ə. M. Geosiyasət. Dərslik. Bakı, "Aypara-3", 2010, 604 s.
8. A.Abbasbəyli, E.Nəcəfov Beynəlxalq münasibətlər nəzəriyyəsi Mütərcim, 2007.- 206 s.
9. Webb K. Information Terrorism in the New Security Environment // Journal of Information Warfare, Vol.6, No.2, 2 (2007), p.15-24. - https://www.jstor.org/stable/26503475#:~:text=A%20non%2Dstate%20actor's%20premeditated,nation%20or%20series%20of%20nations. [29.04.2025].
10. Counter-Terrorism. Module 1: Introduction To International Terrorism / UNODC, Education for Justice. The Doha Declaration: Promating A Culture of Lawfulness. Vienna, United Nations, 2018,

24 p. - https://www.unodc.org/documents/e4j/18-04932_CT_Mod_01_ebook_FINALpdf.pdf [29.04.2025].
11. Statement by Mr. Tofig F. Musayev, Chargé d'affaires a.i. and Deputy Permanent Representative of the Republic of Azerbaijan to the United Nations, at the Sixth Committee of the sixty-eighth session of the United Nations General Assembly under agenda item 110 "Measures to Eliminate International Terrorism", 4th meeting, 08 October 2013 : [Electronic resource] / https://www.un.org/en/ga/sixth/68/pdfs/statements/int_terrorism/azerbaijan.pdf [29.04.2025].
12. Azerbaijan: Foreign travel advice / Gov.UK: Government services and information. - https://www.gov.uk/foreign-travel-advice/azerbaijan/safety-and-security [29.04.2025].
13. Law of the Republic of Azerbaijan on the struggle against terrorism / Council of Europe, March 2007, 6 p. - https://rm.coe.int/ct-legislation-azerbaijan-struggle-against-terrorism/16806415cd [29.04.2025].
14. Country Reports on Terrorism 2020: Azerbaijan / U.S. Department of State. - https://www.state.gov/reports/country-reports-on-terrorism-2020/azerbaijan/ [29.04.2025].
15. Position paper on the use of foreign terrorist fighters by Armenia in the course of its agression aganist the Republic of Azerbaijan starling from 27 September 2020: [Elektron resurs] / https://www.unodc.org/documents/commissions/Congress/documents/written_statements/Member_States/Position_paper2_Azerbaijan.pdf [29.04.2025].
16. Elkhan Mehdiyev. Security Sector Reform in Azerbaijan: Key Milestones and Lessons Learned. DCAF – Geneva Centre for Security Sector Governance, 45 p. ISBN: 978-92-9222-594-0. - https://www.dcaf.ch/sites/default/files/publications/documents/SSR_in_Azerbaijani_feb2021.pdf [29.04.2025].
17. Elvin Talışinski. İnformasiya terrorizmi beynəlxalq terrorizmin forması kimi / 12 sentyabr 2018. - https://sia.az/az/news/social/698940.html [29.04.2025].

**BEYLER MAHARRAMOV**
*Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*Master in National Security and Political Strategy*

## HEYDAR ALIYEV AND THE NATIONAL SECURITY CONCEPT OF AZERBAIJAN

Heydar Aliyev played an important role in the formation of the national security concept of Azerbaijan. Under his leadership, the independence, territorial integrity and political stability of the state were ensured, and the main strategies in the field of security were defined. Balanced relations in foreign policy, and law enforcement and army building were strengthened domestically. Heydar Aliyev's political legacy is based on the protection of national interests and taking flexible measures against geopolitical threats. This concept still forms the basis of the country's security policy today.

*Keywords:* Heydar Aliyev, national security concept of Azerbaijan, national security strategy, Heydar Aliyev's political iris, security policy of Azerbaijan.

*Daxil olma tarixi*: 29.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№2(12) 2025, 21-24

UOT 94(479.24)

**ƏSGƏR ƏSGƏROV**
*Bakı Dövlət Universiteti*
*Tarix fakültəsinin "Tarix" ixtisası üzrə IV kurs tələbəsi*
**esgeresgerov541@gmail.com**

# ŞUŞANIN ERMƏNİ VANDALİZMİNƏ MƏRUZ QALMIŞ TARİXİ VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Məlikzadə

*Məqalədə dünyanın ilk insan mərkəzlərindən biri olan doğma Qarabağımızın mədəniyyət beşiyi Şuşa şəhərinin tarixi-mədəni və dini abidələrinin Azərbaycan tarixində özünəməxsus yerindən bəhs olunur. İşğal dövründə erməni qəsbkarlarının abidələrimizə, mədəni irsimizə qarşı törətdiyi vandalizm siyasəti araşdırılır və qeyd olunub.*

*Açar sözlər:* Qarabağ, Şuşa, Azərbaycan, Abidə, Mədəni irs, Vandalizm.

***Giriş.*** İki əsrə yaxındır ki, Azərbaycan xalqına qarşı davam edən erməni təcavüzünün qurbanları həm də tarix və mədəniyyət abidələrimizdir. Tarixi-mədəni abidələr xalqımızın milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini və adət-ənənələrini özündə əks etdirən yadigarlardandır. Buna görə də Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən, maddi-mədəniyyət nümunələrini, eyni zamanda tarixi-dini abidələri məhv etmək, erməniləşdirmək məsələsi erməni din xadimlərinin və Ermənistanın təcavüzkar siyasətinin tərkib hisslərindən biridir.

***Əsas hissə.*** 30 il müddətində Qarabağ, xüsusilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhəri və onun mədəniyyət abidələri erməni vandalizminə məruz qalmışdır. 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən xanlığın inzibati mərkəzi kimi qurulan Şuşada 300 tarixi abidə, qədim yaşayış binası, 870 m uzunluğunda qala divarları vardı [3, s.12].

Şuşa şəhəri 1992-ci ilin may ayının 8-də erməni hərbi qüvvələri tərəfindən işğal edildiyi vaxtdan 2020-ci ilin noyabr Zəfərinə qədər olan dövrdə onun tarixi-mədəniyyət və islam dövrü abidələri - XVIII əsrə aid Şuşa qalasının divarları, İbrahimxəlil xanın bürcü, xan qızı Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin türbəsi, Üzeyir Hacıbəylinin, Bülbülün, Qasım bəy Zakirin ev muzeyləri, Hacıqulların malikanəsi, Şuşa Realnı məktəbi, Şuşa şəhər tarix-diyarşünaslıq muzeyi, Yuxarı Gövhər Ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Saatlı məscidi, Mamayı məscidi və s. bu kimi başqa tarixi abidələr erməni vandalizminə məruz qalmışdır.



*Şuşa, qala divarları*



*İbrahim xanın bürcü*



*Xan qız Natavanın evi*

Şuşa şəhərini uzun illər düşmən hücumlarına qarşı müdafiə etmiş Şuşa qalası dairəvi mühafizə bürclərinə malikdir. İşğal zamanı top atəşləri nəticəsində dağıntılara məruz qalan qalanın böyük bir hissəsi Şuşa şəhəri işğaldan azad edildikdən sonra 2021-ci ilin yanvar-may aylarında bərpa edildi [1, s.25].



*Molla Pənah Vaqifin türbəsi*



*Üzeyir Hacıbəylinin ev muzeyi*



*Şuşa Realnı məktəbi*

Azərbaycan şairəsi, xan qızı Xurşudbanu Natəvana məxsus iki mərtəbəli ev Şuşa şəhərində yerləşən XVIII-XIX əsrlərə aid tarixi yaşayış binalarından biri hesab olunur. 10 oktyabr 1932-ci ildə Bülbülün təşəbbüsü ilə bu binada Azərbaycanda ilk uşaq musiqi məktəbi yaradılmışdı .1987-ci ildə aparılan bərpa işlərindən sonra bina Xurşidbanu Natəvanın ev-muzeyi kimi fəaliyyətə başlamışdır. Təəssüflər olsun ki, işğal dövründə erməni vandalizmi nəticəsində digər maddi-mədəniyyət abidələrimiz kimi Xurşidbanu Natəvanın ev-muzeyi də dağıdılmış və xarabalığa çevrilmişdir [1, s.15].

1977-ci ildə A.V.Salamzadə və E.İ.Kanukovun layihəsi əsasında Molla Pənah Vaqifin məzarı üzərində muzey-məqbərə kompleksinin inşasına başlanılmış, 1982-ci ildə kompleksin açılışında dövlət nümayəndələri, tanınmış ədəbiyyat və mədəniyyət xadimləri iştirak etmişlər. Burada M.P. Vaqifin Şuşa həyatını əks etdirən, dövrə aid olan 80-ə yaxın eksponat sərgilənirdi. 1992-ci ilin may ayında Ermənistan Silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğalı nəticəsində kompleksin binası və burada sərgilənən onlarla eksponat məhv edilmiş, aparılması mümkün olan eksponatlar isə Ermənistana daşınmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci ilin yanvar ayının 14-də bölgəyə səfərindən sonra kompleksdə bərpa işlərinə başlanılmış və 2021-ci ilin avqust ayının 29-da məqbərənin Prezident İlham Əliyev tərəfindən açılışı baş tutmuşdur [2, s.184].

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin Şuşada yerləşən ev muzeyi 1959-cu ildə yaradılmış və 1992-ci ilin mayına, Şuşanın erməni qəsbkarları tərəfindən işğalına qədər fəaliyyət göstərmişdir. Muzeydə Hacıbəyovlar ailəsinə məxsus ev əşyaları, Üzeyir bəyin şəxsi əşyaları, şəkilləri, kitabları, ona həsr olunmuş və bağışlanmış kitablar sərgilənirdi. Muzey rəhbərliyinin səyləri nəticəsində eksponatların bir hissəsi, bəstəkarın Bakıda yerləşən ev muzeyinin fondlarına yerləşdirilmişdir. İşğal dövründə muzey binası erməni vandalizminə məruz qalmış və dağıdılmışdı. 2020-ci ildə Şuşa şəhəri işğaldan azad edildikdən sonra muzeydə bərpa işlərinə başlanıldı [1, s.50-51].

Bülbülün ev muzeyi 1788-ci ildə inşa edilən binada yerləşirdi və muzey 1982-ci il avqustun 31-dən 1992-ci ilin mayına qədər fəaliyyət göstərmişdi. Muzeydə Bülbülün yaradıcılıq, pedaqoji, ictimai fəaliyyəti haqqında sənədlər nümayiş olunurdu. Ermənistan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğal etməsi nəticəsində muzeyin 6000 mindən artıq eksponatı məhv edilmiş və aparılması mümkün olan eksponatlar isə Ermənistana aparılmışdır. Bülbülün muzeyin həyətində yerləşən heykəli erməni vandalları tərəfindən güllələnmiş, muzeyin binası isə xarabalığa çevrilmişdi. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdikdən sonra muzey bərpa olunaraq, 2021-ci ildən istifadəyə verildi [3, s.12].

1851-ci ildə 3 mərtəbəli sarayda 46 otaq və iki böyük zalı olan, milli üslubda tikilmiş Xoca Mərcanlı məhəlləsindəki Hacıqulların malikanəsi də 1992-ci ildə ermənilər tərəfindən Şuşanın işğalı zamanı top atəşinə tutularaq, divarları dağıdılmışdır [4, s.206].

1881-ci ildən Şuşada fəaliyyət göstərən Realnı məktəbin binası da, erməni vandalları tərəfindən yandırılaraq, xarabalığa çevrilmişdir.

Şuşa tarixi-diyarşünaslıq muzeyində XVIII əsrdə, XX əsrin əvvələrinə qədər Şuşa şəhərinin tarixini əks etdirən fotoşəkillər, sənədlər tarixi əhəmiyyətli yaşayış evlərinin sxemləri və s. saxlanırdı. Şuşa Ermənilər tərəfindən işğal edildikdən sonra, muzey binası dağıdılmış və eksponatların xeyli hissəsi məhv edimişdir [1, s.52].

Şuşa şəhərinin məscidləri içərisində öz monumentallığı ilə seçilən Yuxarı Gövhər Ağa məscidi 1883-1884-cü illərdə İbrahimxəlil xanın qızı Gövhərağa xanımın vəsaiti hesabına memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilib.1969-cu ildən 1992-ci ildə Şuşanın işğalına qədər tarix muzeyi kimi istifadə olunub. Ermənistanın Şuşanı işğalda saxladığı dövürdə Yuxarı Gövhər Ağa məscidinin interyeri məh edilib, minarələrinin dekoru zədələnib, örtükləri dağıdılıb. Məscid ərazisində yerləşən mədrəsə də dağıntılara məruz qalmışdır. 2020-ci ilin noyabrın 8-də Şuşanın işğaldan azad edilməsindən sonra Heydər Əliyev Fondunun təşkilatçıllığı ilə məsciddə bərpa-təmir işləri aparılmışdır [1, s.85].



Aşağı Gövhər Ağa məscidi – dövrün məşhur xeyriyyəçilərindən olmuş Gövhər Ağa xanımın hesabına tikilən Aşağı Gövhər Ağa məscidi 1874-1875-ci illərdə memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən inşa edilmişdir. 1992-ci ildə Şuşanın Ermənilər tərəfindən işğalı zamanı məscidin binası və minarələri zirehli texnikanın atəşlərinə məruz qalaraq dağıdılmış, yalnız divarları günümüzə qədər qala bilmişdir [4, s.58].



Saatlı məscidi – 1883-cü ildə Şuşanın Saatlı məhəlləsində memar Kərbəlayı Qarabaği tərəfindən Pənahəli xanın 1759-cu ildə Şuşada tikdirdiyi məscid və mədrəsinin yerində inşa edilmişdi. Saatlı məscidi Kərbəlayı Səfixanın Qarabağda tikdiyi minarələri məscidlərin sonuncusu hesab edilirdi. 1992-ci ilin mayında Ermənistanın Silahlı Qüvvələri tərəfindən işğal zamanı məscidin minarəsi top atəşi ilə dağıdılmış, məscid binası xarabalığa çevrilmişdir [1, s.87].

Erməni işğalçılarının Şuşada tarixi abidələrimizə qarşı törətdiyi cinayətlər "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasına da ziddir [2, s.179].

Erməni qəsbkarları işğal dövründə Qarabağda, xüsusilə də Şuşada bu torpaqların əzəli Azərbaycan torpaqları olduğunu təsdiq edən tarixi mədəni abidələrimizi məhv edərək, onlara qarşı vandalizm aktları həyata keçirməklə, sanki, bu bölgədə bir daha azərbaycanlıların yaşamayacaqlarına özlərini inandırmağa çalışırdılar. Bu məqsədlə tarixi mədəniyyət abidələrimizdən olan alban abidərini erməniləşdirməklə, eyni zamanda tarixi mədəniyyət abidələrimizin yerində erməni kilsələrini, monumentlərini inşa etməklə, Azərbaycanın bu bölgədəki izlərini silməyə, bununlada gələcək nəsillərə və dünyaya bu torpaqların tarixi erməni torpaqları olduğunu göstərməyə çalışırdılar.



***Nəticə.*** 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbə nəticəsində tarixi Azərbaycan torpaqları işğaldan azad edilsə də, təəssüf ki, Qarabağ bölgəsində, o cümlədən Şuşa şəhərində Azərbaycanın zəngin tarixi-mədəni irsinin böyük bir hissəsi erməni vandalizmdən xilas ola bilmədi.

ƏDƏBİYYAT

1. İsmayılov F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər. Bakı, " Elm və təhsil", 2016, 174 s.
2. Kərəm Məmmədov, Qənirə Pirquliyeva, Fəxriyyə Həvilova. Qarabağın mədəni irsi və erməni vandalizmi.- "Qarabağ Azərbaycandır!". "Zəfər epopeyası" kitabı. Bakı, BDU, 2021, s.163-188.
3. Ulduzə Qaraqızı. Azərbaycanın tarixi abidələri və erməni vandalizmi / Olaylar. - 2013. -14 may. -S.12. - https://anl.az/down/meqale/olaylar/2013/may/309483.htm

4. Məmmədov R.F., Əfəndiyeva H.E. Azərbaycan Respublikasının tarixi və mədəniyyət abidələrinin beynəlxalq-hüquqi qorunması. Bakı, "Səda", 2015, 328 s.

**ASGAR ASGAROV**
*Baku State University,*
*4 th year student of the faculty of history*

**THE HİSTORİCAL AND CULTURAL MONUMENT OF SHUSHA EXPOSED TO ARMENİAN VANDALİSM**

The Article discusses the unique significance of the historical,cultural and religious monuments of the city of Shusha the cultural cradle of our native Karabakh,which is one of the earliest human centers in the world,in the context of Azerbaijani history.İt examines and highlights the policy of vandalism carried out by Armenian usurpers against our monuments and cultural heritage during the occupation period.

*Keywords*: Karabakh, Shusha, Azerbaijan, monument, cultural heritage, vandalism.

*Daxil olma tarixi*: 21.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*
*№2(12) 2025, 25-30*

**UOT 32:93/94**

**ƏSGƏR MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin*
*"Türk xalqları tarixi" kafedrasının magistrantı*
**asgermemmedli2020@gmail.com**

# TÜRKİYƏ-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNƏ BEYNƏLXALQ AKTORLARIN MARAQLARI KONTEKSTİNDƏ BAXIŞ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Məqalədə Türkiyə-Ermənistan münasibətləri beynəlxalq aktorların maraqları kontekstində, geosiyasi və geostrateji maraqlar baxımından araşdırılır. Həmçinin, günümüzdə Dağlıq Qarabağ münaqişəsi və qondarma "erməni soyqırımı" məsələlərinin iki dövlət arasında münasibətlərin normallaşması məsələsinə mühüm təsirinin olmasına diqqət yetirilir. Məqalədə müqayisəli təhlil əsasında həmçinin, regionda və beynəlxalq aləmdəki güc mərkəzlərinin (Rusiya, ABŞ, Avropa İttifaqı) bu əlaqələrə təsiri öyrənilir. Qeyd edilir ki, Rusiya özünün yaxın qonşusu olan Ermənistanla əlaqələrini gücləndirmək və Cənubi Qafqazda nüfuzunu artırmaq məqsədilə Ermənistanın Türkiyə ilə münasibətlərində mühüm rol oynamağa cəhd göstərir. ABŞ da özünün geosiyasi maraqlarını nəzərə alaraq, bu münasibətlərdə həm Türkiyəyə, həm də Ermənistana balanslı bir yanaşma sərgiləməyə çalışır. Avropa İttifaqı da regional sabitliyin və demokratik inkişafın təşviqi məqsədilə hər iki ölkə ilə münasibətləri normallaşdırmaq üçün təşəbbüslər irəli sürür. Məqalədə beynəlxalq aktorların öz maraqlarını təmin etmək üçün Türkiyə və Ermənistana necə təzyiq göstərə biləcəkləri, bu təzyiqlərin nə dərəcədə uğurlu ola biləcəyi; iki ölkənin daxili siyasəti və milli maraqlarının bu beynəlxalq əlaqələrə necə təsir etdiyi məsələlərilə bərabər həm də, hər iki ölkənin daxili siyasətindəki güclü millətçilik və tarixə dayalı təzyiqlərdən necə təsirləndiyi məsələsinin də araşdırılmasına cəhd edilir. Məqalədə eyni zamanda, iki ölkə arasındakı mövcud gərginlikləri həll etmək üçün hansı addımların atıla biləcəyi məsələsinə də toxunulur.*

*Açar sözlər:* Türkiyə-Ermənistan münasibətləri, soyqırım iddiaları, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi, beynəlxalq aktorlar, "qeyri-ənənəvi diplomatiya".

***Giriş.*** Ermənistan və Türkiyə ağır keçmişlərinin mirasını daşıyan və bu günə qədər normal ikitərəfli münasibətlər qura bilməyən iki dövlətdir. Dövlətçiliklərinin başlanğıcından bəri onların arasında sabit xarici siyasət, ticarət və siyasi əlaqələrin mövcud olmadığı müşahidə olunur. Bir çox dövlət üçün siyasi və iqtisadi təşəbbüslər münasibətləri inkişaf etdirmək üçün kifayət etsə də, bu iki dövlət üçün sadəcə bunlar yetərli deyildir. İkitərəfli münasibətlər 1915-ci il hadisələri ətrafında donmuş vəziyyətdə qalmaqdadır və hələ də hər hansı əməli nəticənin əldə olunması yolunda əsas maneələrdəndir. Hər iki tərəf 1915-ci il hadisələrinə dair mahiyyətcə bir-birinə zidd iddiaları müdafiə etməkdə davam edir. Bu hadisələrə dair fərqli yanaşmalar və iddialar qarşılıqlı inkar və "digər" tərəfin qavranılması vasitəsilə hər iki xalqın milli kimliyinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Hər iki dövlətin bir-birinə qarşı xarici siyasəti də bu dərin şəkildə formalaşmış və qurulmuş milli kimliklər üzərindən müəyyənləşdirilməkdədir. Bundan əlavə, erməni diasporu da Ermənistanın milli kimliyinin formalaşmasında mühüm rol oynamışdır. Konstruktivist nəzəriyyə xarici siyasət aktorlarının milli kimliklərinin formalaşmasından hansı dərəcədə təsirləndiklərini izah etməyə çalışır. Mütəxəssislər arasında Türkiyə və Ermənistanın bir-birinə yönəlik xarici siyasətlərində mövcud olan bu qurulmuş milli kimliklərin ikitərəfli münasibətlərin inkişafına ciddi maneə yaratdığı ilə bağlı fikirlər də mövcuddur. Bu baxımdan, müəyyən araşdırmalarda qeyd edilir ki, uzunmüddətli, pozitiv və sülhə əsaslanan münasibətlərin qurulması və barışa nail olunması üçün iki mərhələli həll modelinə ehtiyac vardır. Birinci mərhələ tarixi və siyasi məsələlərin həllini əhatə edir. Bununla yanaşı, ortaq ticarət və iqtisadi fəaliyyətlərin təşviqi də sülh

prosesinə müsbət töhfə verə bilər. Əsas diqqət yetirilməli olan ikinci mərhələ isə yeni milli kimliklərin formalaşdırılması məsələsinə xüsusi diqqət yetirilməlidir. Bu mərhələdə hər iki tərəfin bir-birinə münasibətdə öz milli kimliklərini yenidən qurması zəruri ola bilər [1, s.63].

Türkiyə ilə Ermənistan arasındakı münasibətlər bir sıra araşdırmaçılar tərəfindən qeyri-ənənəvi diplomatiyaya dayalı, yəni iki dövlət arasında diplomatik münasibətlər qurulmadan mövcud olan münasibətlər kimi xarakterizə edilir. II Qarabağ müharibəsinə qədər aparılan araşdırmalarda ümumilikdə, SSRİ-nin süqutu və Ermənistanın müstəqillik əldə etdiyi yeni dünya düzəni şəraitində Türkiyə-Ermənistan münasibətlərinin bir birini əvəz edən 4 mərhələdən keçdiyi qeyd edilirdi:

I mərhələ - 1991-1993-cü illəri əhatə edir. Bu illər tərəflərin, aralarındakı qarşılıqlı etimadsızlığa baxmayaraq, münasibətlərini "sıfırdan başlamağa" cəhd etdikləri dövr kimi xarakterizə edilir [6, s.38].

II mərhələ - 1994-2008-ci illər: münasibətlərdə durğunluq mərhələsi. 1996-cı ildə Türkiyə Xarici İşlər nazirliyindən bildirilmişdi ki, Ermənistan Azərbaycan əleyhinə hərəkətlərinə son qoymayana qədər onunla sərhədlərini bağlı saxlayacaq. Bu mərhələdə Türkiyə, Azərbaycan və Gürcüstan Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Xətti (BTC), Bakı-Tbilisi-Ərzirim Qaz Boru Xətti (BTƏ), Bakı-Tbilisi-Kars Dəmiryolu Xətti (BTK) layihələri çərçivəsində əməkdaşlığı genişləndirdilər, iqtisadi baxımdan müəyyən uğurlar qazandılar. Bütün layihələrdən təcrid olunmuş Ermənistanın vəziyyəti isə daha da ağırlaşdı. Hətta, Forbes jurnalının tərtib etdiyi iqtisadi vəziyyəti ağır olan ölkələr siyahısında Ermənistanın adı 2-ci sırada yer almış oldu.

III mərhələ - 2008-2009-cü illər: münasibətlərdə dəyişiklik dövrü. Bu mərhələdə münasibətlərin normallaşması istiqamətində müəyyən işlər görüldü. ilk olaraq, 2008-ci ilin əvvəllərində öncə "pendir diplomatiyası", daha sonra "futbol diplomatiyası" gündəmə gəldi. 2008-ci ilin iyun ayında Ermənistan prezidenti S.Sarkisyan Türkiyə prezidenti Abdulla Gülü futbol üzrə dünya çempionatı çərçivəsində Yerevanda keçiriləcək Ermənistan-Türkiyə oyununa dəvət etdi. 1 il sonra, 2009-cu ilin oktyabr ayında özü Bursada cavab oyununda iştirak etdi. Daha sonra iki dövlət arasında münasibətlərin normallaşdırılması istiqamətində nəticə etibarilə təsdiqlənməmiş qalsa da, ilk addım olaraq Sürix protokolları imzalandı.

IV mərhələ - 2010-cu ildən başlayıb günümüzdə də davam etməkdə olan mərhələdir. Bu mərhələ münasibətlərdə durğunluğa geri dönüş mərhələsi kimi qiymətləndirilir [6, s.39-40].

Son mərhələ ilə bağlı qeyd etməyi lazım bilirik ki, bu mərhələ artıq "günümüzdə də davam etməkdədir" yox, II Qarabağ müharibəsində Azərbaycanın qələbəsinə qədər olan dövrü əhatə etmişdir desək, daha doğru olacaq. Belə ki, Azərbaycanın qələbəsindən sonra yaranmış yeni geosiyasi gerçəklər baxımından dövlətlər arasında münasibətlərin normallaşdırılması istiqamətində fəaliyyətlərin yeniləndiyini görməkdəyik.

Qeyd edilməlidir ki, Türkiyə Ermənistanın müstəqilliyini tanıyan (16 dekabr 1991) ilk dövlətlərdən biri olsa da, iki ölkə arasındakı diplomatik əlaqələr hələ də qurulmamışdır. Hətta, Türkiyə 1993-cü ildə, Ermənistanın Azərbaycan torpaqlarını işğalına cavab olaraq, Ermənistanla quru sərhəddini bağlamışdır. Türkiyə, Ermənistanla diplomatik əlaqələr qurmaq üçün onun üç ön şərtini yerinə yetirməsini tələb etmişdir. Bu şərtlər bunlardır:

- Türkiyəyə qarşı ərazi iddialarından imtina etməsi;
- Osmanlı İmperiyasına qarşı "soyqırımı" ittihamları və bunun beynəlxalq aləmdə tanınması tələblərindən əl çəkməsi;
- Azərbaycan qarşı "təcavüzkar siyasət"dən imtina etməsi.

***Münaqişələrin mənşəyi.*** Türklər və ermənilər XIX əsrin sonlarına qədər sülh içində yaşamışdılar. Dövrün mənbələrində Osmanlı təbəəsi olan ermənilərin "sadiq millət" hesab edilməsi ilə bağlı məlumatların olduğu da bir həqiqətdir. Lakin Osmanlı-Rus müharibələri qarşılıqlı əlaqələrin təbiətini dramatik şəkildə dəyişdi. Çar Rusiyası, bölgəyə nəzarət etmək və uzun müddət arzusunda olduğu Türk boğazlarını ələ keçirmək üçün Osmanlıları imperiyanın daxilindən zəiflətməyə qərar verdi. Bu planını həyata keçirmək üçün Rusiyanın Osmanlı təbəələri arasından seçdiyi serblər, bolqarlar, yunanlarla bərabər ermənilər də vardı: bir tərəfdən onlarla dini yaxınlıq var idi, digər tərəfdən isə onların "müstəqil olmaq" ideyası ilə asanlıqla manipulyasiya oluna bilərdi. Rusiya, Osmanlı torpaqlarında erməni knyazlığı yaratmağa çalışarkən, Fransa və İngiltərə bu prosesi yaxından izləyir və fürsət gözləyirdilər.

Fransa və İngiltərə, Rusiyanın Şərqi Anadoluya nüfuz etməsini, İskəndərun və Basra Körfəzinə aparan yolları nəzarətə almasını heç vaxt qəbul etmədilər. Növbəti Osmanlı-Rusiya müharibəsi, rəsmi olaraq 13 iyul 1878-ci ildə Berlin müqaviləsi ilə başa çatdı və Avropada yeni bir siyasi tarazlıq yaratdı ki, bu da 1699-cu il Karlovitsa (Karlofça) müqaviləsindən sonra Osmanlı təsirini Avropada məhdudlaşdıran ikinci addım olaraq qiymətləndirilir. Berlin müqaviləsinin 16-cı maddəsinə görə, Osmanlılar şərqdəki altı əyalətində ("vilayeti sitte"də - Ə.M.) erməni azlığının hüquqlarını yaxşılaşdırmaq üçün islahatlar həyata keçirməli idilər: Sivas, Erzurum, Harput (indiki Elazığ), Diyarbakır, Bitlis və Van. Bu əyalətlər daha sonra "sancaq" adlanan alt-əyalətlərə bölündü. Bəzi digər müsəlman və qeyri-müsəlman qruplardan fərqli olaraq, əhalinin əksəriyyəti əsasən türk və kürd idi. Osmanlı idarəçiliyi üçün, əhalisi əksərən feodal qaydalarla yaşayan və əhəmiyyətli şəhər mərkəzlərinin az olduğu, geniş və yayılmış bir azlıq üçün islahatları həyata keçirmək praktiki olaraq mümkün deyildi. Bu maddə, müsəlman-erməni münasibətlərinə təhdid yaradan bir addım idi və məhz bu da baş verdi [2, s.96]. Qeyd edək ki, bu dövrdən başlayaraq böyük dövlətlərin Osmanlıya münasibətdə ermənilərdən istifadə cəhdlərinin artması baxımından, bir sıra araşdırmaçılar "erməni məsələsi"ni böyük dövlətlərin xarici siyasətindəki məlum "Şərq məsələsi"nin son vəya geçikmiş variantı da adlandırırlar.

***Beynəlxalq aktorların təsiri.*** Türkiyə və Ermənistan arasındakı münasibətlərin yaxşılaşdırılması və normallaşması prosesi yalnız iki ölkənin daxili siyasəti və maraqları ilə deyil, həm də müxtəlif beynəlxalq aktorların təsiri ilə formalaşır. Bu beynəlxalq aktorlar, həm regional, həm də qlobal səviyyədə, hər iki ölkə ilə əlaqələrini və geosiyasi maraqlarını nəzərə alaraq, müvafiq təsirlərini göstərirlər. Ən əhəmiyyətli aktorlar arasında ABŞ, Avropa İttifaqı, həmçinin Qafqaz dövlətləri olmaları baxımından onlardan bir addım olan Rusiya və İran yer alırlar. Onların Türkiyə və Ermənistan arasındakı münasibətlərə təsirini araşdırmaq, bu prosesin necə inkişaf etdiyini anlamağa kömək edir.

*Rusiya* Ermənistanın əsas müttəfiqi (II Qarabağ müharibəsində qədər – Ə.M.) və Cənubi Qafqazda əhəmiyyətli nüfuz sahibi olan bir gücdür. Ermənistana verdiyi hərbi və iqtisadi dəstək ölkənin xarici siyasətində Rusiyanın dominant rolunu gücləndirir. Hazırda Türkiyə-Ermənistan münasibətlərinin yaxşılaşdırılması kontekstində, Rusiya Ermənistanın atacağı addımları diqqətlə izləyir. Bu yaxınlaşmanın özünün Ermənistandakı təsirinin zəifləməsi riskini yarada biləcəyini unutmayan Rusiya, nə qədər qəribə görünsə də, bu yaxınlaşmanı hazırki mövcud vəziyyətdə Cənubi Qafqazda özünün nüfuzunun qorunması üçün bir vasitə olaraq da qiymətləndirir. Bu baxımdan, Ermənistanın Türkiyə ilə münasibətlərinin normallaşması istiqamətindəki diplomatik təşəbbüslərini dəstəkləsə də, həddindən artıq açıq şəkildə müdaxilə etməməyə də çalışır.

*Amerika Birləşmiş Ştatları* Cənubi Qafqazda da, adətən olduğu kimi, sabitlik və demokratiyanın təşviqində maraqlı olduğunu bildirir; həm Türkiyə, həm də Ermənistanla əlaqələrini gücləndirməyi hədəfləyir, lakin bu əlaqələrdə balanslı bir yanaşma sərgiləməyə çalışır. Ermənistanın ABŞ ilə münasibətləri əsasən Dağlıq Qarabağ münaqişəsi və Ermənistanın demokratiya sahəsindəki inkişafı üzərində qurulmuşdur. Türkiyə ilə əlaqələrdə isə, ABŞ, NATO müttəfiqi olan Türkiyənin strateji əhəmiyyətini nəzərə alaraq, hər zaman və bir sıra məsələlərdə olmasa da, əsasən iki ölkə arasında qarşılıqlı anlaşma və əməkdaşlığı dəstəkləyir. ABŞ, həmçinin erməni lobbisinin təsiri ilə, Ermənistanın beynəlxalq aləmdə daha geniş dəstək tapması üçün təşəbbüslər irəli sürür. Bu səbəbdən, ABŞ-ın bu iki ölkə arasındakı münasibətlərin yaxşılaşdırılmasında aktiv rolu var, amma eyni zamanda, ABŞ-ın öz geosiyasi maraqları da bu münasibətləri tənzimləyir.

*Avropa İttifaqı*, regional sabitlik və inkişafın təşviqi məqsədilə Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşdırılmasını; həmçinin xüsusilə Ermənistanın demokratik inkişafına və hüquq dövlətinin gücləndirilməsinə yönəlmiş təşəbbüsləri dəstəkləyir. Türkiyə ilə münasibətlərdə isə Aİ, sözdə Türkiyənin Avropa inteqrasiyasına dəstək verərək, münasibətlərin yaxşılaşmasını bildirsə də, əməldə bir çox hallarda Türkiyə siyasətində ikili standartlar yanaşmasını görməkdəyik.

Burada yeri gəlmişkən qeyd edək ki, regionda iqtisadi əməkdaşlığın inkişafına, mübahisələrin diplomatik yollarla həllinə önəm verdiyini bildirən həm ABŞ, həm də Avropa İttifaqı Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması üçün lazım gələrsə "Ankaraya təzyiq göstərməyi" də mümkün hesab edirlər [7, s.123].

İran Cənubi Qafqazda mövcud olan bir digər mühüm beynəlxalq aktordur və Türkiyə ilə Ermənistan arasında münasibətlərin yaxşılaşdırılmasında da müəyyən təsirə malikdir. İran, xüsusilə Ermənistanla sıx iqtisadi əlaqələrə malikdir və bu əlaqələr regionda İranın təsirini gücləndirməsi üçün zəruridir. Türkiyə-Ermənistan münasibətlərinin normallaşması İranın Cənubi Qafqazda geosiyasi mövqeyini İranın istəmədiyi formada dəyişə bilər. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dəstək verdiyini bəyan edən İranın da digər aktorlar kimi, münaqişənin həlli deyil, "dondurulması", "nizamlanması" maraqlarına daha çox uyğun idi. Bu baxımdan, Ermənistanın bu münaqişədə mövqeyinin güclənməsi İranın maraqları ilə üst-üstə düşürdü. İranın bu iki ölkə arasındakı diplomatik proseslərə nəzarət etməsi və bəzən bu proseslərdə fəal şəkildə iştirak etməsi mümkündür.

Beynəlxalq təşkilatlar, xüsusilə BMT və ATƏT Türkiyə və Ermənistan arasında əlaqələrin normallaşdırılması istiqamətində uzun müddətdir ki, vasitəçi rolunu oynamağa cəhd göstərirlər. Bu istiqamətdə fəaliyyətləri haqda geniş bəhs etmədən sadəcə onu qeyd etməyi lazım bilirik ki, bütün cəhdlər uğursuzluqla nəticələnir. Uğursuzluğun səbəbi isə, hər zaman və hər yerdə olduğu kimi, mahiyyət etibarilə böyük güclərarası mübarizədir.

***Diplomatik təşəbbüslər və nəticələri.***

1.Dipomatik təşəbbüslər

a) 2009 Protokolları (Sürix Protokolları):

2009-cu ildə Türkiyə və Ermənistan arasında "Sürix protokolları" imzalanmışdı. Bu protokollar, iki ölkə arasında diplomatik münasibətlərin qurulması və sərhədlərin açılması məqsədini güdürdü. Lakin protokolların həyata keçirilməsi, Ermənistanın Dağlıq Qarabağ məsələsindəki mövqeyi və digər siyasi faktorlarla bağlı staqnasiya etdi və nəticə etibarilə protokollar ratifikasiya olunmadı.

b) 2021-ci ildə təşəbbüslər:

2021-ci ildən etibarən, Türkiyə və Ermənistan arasında əlaqələrin normallaşdırılması üçün yeni diplomatik dialoq başlandı. Hər iki tərəf müsbət addımlar atmağa razı oldu, xüsusilə Türkiyənin Ermənistanla diplomatik əlaqələrini bərpa etmək və sərhədləri açmaq istiqamətindəki mövqeyi, Ermənistanın da bununla bağlı müsbət cavablar verməsi bu təşəbbüslərin başlanğıcını qoydu.

c) Azərbaycan-Ermənistan-Türkiyə diplomatik həmkarlığı:

2020-ci ildəki Dağlıq Qarabağ müharibəsi sonrası regionda yeni geosiyasi reallıqlar formalaşdı. Türkiyə Azərbaycanın yanında yer alaraq Ermənistanla münasibətlərin normallaşmasına dair müzakirələrə qatıldı. Bu proses, həmçinin Türkiyənin Ermənistanın regionda sabitlik və iqtisadi əməkdaşlıq üçün öz mövqeyini dəyişməsinə səbəb oldu.

2. Nəticələr və çağırışlar

a) Diplomatik münasibətlərin yoxlanılması və təzyiqlər:

2021-ci ilin sonlarına doğru Türkiyə və Ermənistan arasında diplomatik əlaqələr müsbət tərəfə doğru irəliləsə də, hər iki ölkədə bu təşəbbüslərin tətbiqini əngəlləyən faktorlar qalmaqdadır. Ermənistanın daxili siyasi təzyiqləri və millətçilik narahatlıqları, Azərbaycanın Qarabağ bölgəsindəki mövqeyi ilə bağlı çəkilən narahatlıqlar, bu prosesin inkişafını çətinləşdirir.

b) İqtisadi və ticarət əməkdaşlığı üzərindən potensial:

Münasibətlərin yaxşılaşdırılması yalnız siyasi deyil, həm də iqtisadi əməkdaşlıq üçün yeni imkanlar yarada bilər. Sərhədlərin açılması, ticarət yollarının bərpası və digər sahələrdə əməkdaşlıq, hər iki ölkənin iqtisadi inkişafına töhfə verə bilər. Bu xüsusilə, Ermənistanın iqtisadiyyatını gücləndirmək üçün mühüm bir fürsət ola bilər.

c) Regionda sabitlik və təhlükəsizlik təminatı:

Türkiyə-Ermənistan münasibətlərinin yaxşılaşdırılması Cənubi Qafqazda sabitliyi artırmaq və uzunmüddətli regional əməkdaşlıq üçün zəmin yarada bilər. Ancaq bu, yalnız iki ölkə arasında deyil, həm də Azərbaycanın, Rusiyanın və digər güc mərkəzlərinin bu prosesə olan yanaşmalarına bağlıdır.

3. Nəticələr

Türkiyə-Ermənistan münasibətlərinin yaxşılaşdırılması üçün atılan diplomatik addımlar, həm regional sabitlik, həm də iki ölkə arasındakı qarşılıqlı anlaşmanın inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Bununla belə, qarşıya çıxan geosiyasi, tarixi və daxili siyasi çətinliklər bu prosesi ləngidə

bilər. Diplomatik təşəbbüslər, hər iki ölkənin milli maraqlarını nəzərə alaraq, uzunmüddətli sabitlik və əməkdaşlıq yolunda daha diqqətli və planlı yanaşmalar tələb edir.

Cənubi Qafqaz regionunun üç ölkəsi, yəni Ermənistan, Azərbaycan və Gürcüstan, Sovet İttifaqının dağılmasından sonra aktiv və çox yönlü xarici siyasətini qoruyub saxlayan Türkiyənin əlaqələrində əsas yerlərdən birini tuturlar. Lakin Türkiyənin bu dövlətlərlə əlaqələri heç də eyni səviyyədə qurulmayıb. Bəzi araşdırmaçılar bu fərqliliyin ilk növbədə bu ölkələrin tarixi, etnik, iqtisadi, mədəni, dini və linqvistik aspektləri ilə bağlı olduğu fikrindədirlər [məsələn: 4, s.1]. Bu fikirlərlə razılaşmadığımızı qeyd etmək istərdik. Türkiyənin Qafqaz regionun "3 daxili üçbucaq" ölkəsi ilə münasibətlərinə baxarsaq, bu 3 dövlətin hər üçü ilə tarixi birliyi; yalnız Azərbaycanla soy kökü, dini və linqvistik birliyi mövcuddur. Gürcüstanla soy kökü, dini və linqvistik birliyinin olmaması bu dövlətlə münasibətlərinin strateji partnyorluq səviyyəsində qurulmasına nədənsə heç mane olmur. Ermənistanla münasibətlərin olmamasını isə yenə "bu birliyin" olmaması ilə izah etmək, problemin geosiyasi aspektlərini diqqətdən kənar qoymaq, hesab edirik ki, konyukturanın təsiri ilə hərəkət etməkdir, məsələlərə elmi deyil, diletant yanaşmanın nəticəsidir.

Türkiyə ilə Ermənistan arasındakı əlaqələrin mərkəzində təbii olaraq türk və erməni aktorları dayanır. Erməni aktoru anlayışı Türkiyə üçün əsasən üç müstəvidə görünür: Ermənistan Respublikası, erməni diasporu və Türkiyədə yaşayan ermənilər. Ankaranın nöqteyi-nəzərindən, dövlətlərarası əlaqələr, şübhəsiz ki, türk-erməni münasibətlərinin daha geniş bir çərçivəsindən təsirləndiyi üçün bu üç müstəvi bir-birinə sıx bağlıdır. Öz növbəsində, ermənilərin də türk aktoruna münasibətində qeyri-müəyyənlik özünü göstərməkdədir. Erməni dilində (həm də yalnız erməni dilində deyil. – Ə.M.) həm Türkiyə türkləri, həm də azərbaycanlılar ("Azəri türkləri", "Azərilər" də deyilir) eyni sözlə -Türk deyərək- ifadə edilir. Azərbaycan ərazisinin 20 faizinin işğalı ilə nəticələnən və Türkiyə ictimaiyyətində Azərbaycana, "türk qardaşa" güclü həmrəylik hissinin yaranmasına səbəb olan ermənilər və azərbaycanlılar arasındakı Dağlıq Qarabağ münaqişəsi türklər və ermənilərin bir-birinə qarşı mövcud olan mənfi rəylərini daha da gücləndirir. Beləliklə, Ermənistanın Türkiyə ilə münasibətlərindən bəhs edərkən, bir də Ermənistan-Azərbaycan münasibətlərinin bu məsələyə təsiri də nəzərə alınmalıdır.

***Nəticə.*** Türkiyə - Ermənistan münasibətləri sadəcə iki dövlət arasındakı münasibət kimi nəzərdən keçirilməməlidir. Bu münasibətlər hazırki dünya siyasətinin ilk baxışdan sadə görünsə də, əslində ən dolaşıq halqalarından biridir. Türkiyənin və Ermənistanın bir-birləri ilə olan münasibəti, onların hər ikisinin eyni zamanda Azərbaycanla, həmçinin Rusiya ilə, ABŞ-la, Aİ, İran və bölgədə maraqları digər aktorlarla olan münasibətləri deməkdir. Təsadüfi deyil ki, Ermənistan tərəfin Türkiyə əleyhinə ittiham dolu çıxışlarında tez-tez Azərbaycanın adı çəkilir, Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tərəf olduğu bildirilir [6, s.41]. "Türkiyə ilə Ermənistan arasında münasibətlər normallaşarsa, Ermənistan-Azərbaycan münasiqəşəsinin həll olunacağı və regionda sülh əldə olunacağına doğru mühüm addım atılmış olar" fikrinə gəlincə isə, qeyd etmək istərdik ki, Cənubi Qafqazda Ermənistan-Azərbaycan münaqişəsindən başqa, Rusiya-Gürcüstan ziddiyyətləri də mövcuddur. bu baxımdan, regionda dayanıqlı sülhə nail olmaq üçün region dövlətlərinin hər birinin həm ayrı-ayrılıqda, həm də birlikdə səy göstərməsi vacib şərtdir. Ən önəmlisi isə, ilk addım olaraq beynəlxalq münasibətlər sistemi nizama salınmalı, böyük dövlətlər hazırki dünya siyasətlərində müvafiq dəyişikliklər etməlidirlər [6, s.41].

## ƏDƏBİYYAT

1. Ebru Coban Ozturk. National Identity and the Role of Diaspora: A Constructivist Approach to Turkish-Armenian Relations // International Journal of Humanites and Social Science, Vol. 5, No. 9 (1), September 2015, p.63-70. - https://www.ijhssnet.com/journals/Vol_5_No_9_1_September_2015/6.pdf [27.04.2025].

2. Davut Han Aslan, Osman Kaan Celiktas. The Relatıonship Of Turkey With Armenia // Kwartalnik Naukowy Uczelni Vistula, August 27, 2015, 2(44), p.90-101. - https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=2797242 [27.04.2025].

3. Fırat Berk Sivaslıoglu. The Century of Turk(iye): A Comparative Examınation of Eurasianist Identity In Turkish Media Sphere Amidst Nagorno-Karabakh Conflicts. Thesis for Master's Degree. Lund University, May 2024. -

https://www.researchgate.net/publication/383433623_THE_CENTURY_OF_TURKIYE_A_COMPARATIVE_EXAMINATION_OF_EURASIANIST_IDENTITY_IN_TURKISH_MEDIA_SPHERE_AMIDST_NAGORNO-KARABAKH_CONFLICTS [27.04.2025].
4. Nüşabə Bağırova. Ankaranın Cənubi Qafqaz Siyasəti kontekstində Türkiyə-Ermənistan münasibətləri (1991-2010). - https://bakuresearchinstitute.org/some-methodologicalelementsof-the-phd-thesis-the-relations-between-turkey-and-armenia-in-the-context-ofankaras-southcaucasian-policy-1991-2010-2/?print=pdf [27.04.2025].
5. Kevorkian R. The Armenian Genocide: A Complete History. London and New York: I.B. Tauris, 2011, 1037 p. - https://www.academia.edu/27933592/The_Armenian_Genocide_A_complete_History_By_Reymond_Kevorkian [27.04.2025].
6. Ruintən S. Yeni dünya düzəni şəraitində Türkiyə Cümhuriyyəti – Ermənistan münasibətlərinə baxış // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2015, №3, s.37-43. - http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Humanitar%202015%203/37-43.pdf [27.04.2025].
7. Ruintən S., Əlisgəndərli C. Ermənistan ictimaiyyəti Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması haqqında (sosial sorğu nəticələrinə əsasən) // Tarix və onun problemləri, №1, 2013, s.122-132. - http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2013%20%20%201/seh.122-132.pdf [27.04.2025].

**ASGAR MAMMADLI**
*Master's student of the Department of History of Turkic peoples of Baku State University*

## A REVIEW OF TURKEY-ARMENIA RELATIONS IN THE CONTEXT OF INTERNATIONAL ACTORS' INTERESTS

This article analyzes Turkey-Armenia relations in the context of international actors' interests. The research explores the historically tense relations between the two countries from the perspective of geopolitical and strategic interests. It particularly focuses on how the Nagorno-Karabakh conflict and the Armenian Genocide have created significant obstacles to the normalization of bilateral relations. The article also examines the influence of power centers in the region and the international sphere, including Russia, the United States, and the European Union, on these relations. Russia plays a crucial role in strengthening its ties with Armenia, a close neighbor, as part of its broader strategy to enhance its influence in the South Caucasus. The United States, considering its own geopolitical interests, strives to maintain a balanced approach in its relations with both Turkey and Armenia. Meanwhile, the European Union advocates for regional stability and democratic development, proposing initiatives aimed at normalizing relations between the two countries. The article further investigates how international actors can exert pressure on Turkey and Armenia to align with their strategic goals, and assesses the effectiveness of these pressures. Additionally, it discusses how domestic politics and national interests shape these international relations. The study seeks to understand how the strong nationalism and historical pressures within both Turkey and Armenia influence their foreign policies and diplomatic engagements. Overall, the article provides an in-depth analysis of how international power dynamics impact Turkey-Armenia relations and explores the potential steps both countries could take to resolve existing tensions.

*Keywords:* Turkey-Armenia relations, genocide allegations, the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict, international actors, "non-traditional diplomacy".

*Daxil olma tarixi*: 27.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№2(12) 2025, 31-38

UOT 94

**XALİDƏ AĞAZADƏ**
*Bakı Dövlət Universitetinin SABAH qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi*
**agazade.xalide.2022@gmail.com**

# "QIZIL ALMA" KONSTANTİNOPOL: QURULUŞUNDAN 1453-CÜ İLDƏ FƏTHİNƏ QƏDƏRKİ TARİXİNƏ BAXIŞ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Dünya tarixində bəzi fəthlər var ki, hökmdarlar üçün türk deyimincə desək, "Qızıl Alma" rolunda olmuşdur. Belə fəthlərdən biri Konstantinopolun fəthidir. Üç böyük mədəniyyətə paytaxtlıq edən bu şəhər tarix, siyasət, ticarət və mədəniyyətin ən önəmli mərkəzlərindən biri olmağı yüzillər boyu qoruyub, tarix səhnəsinə çıxdığı gündən etibarən diqqət mərkəzində olub. Hz.Məhəmməd peyğəmbərin müjdələdiyi bu şəhər bir çox ölkələrin hücumları, mühasirələrin olması tarixi sənədlərdə öz əksini tapıbdır. Bir sıra Osmanlı sultanlarının fəth cəhdləri, nəhayət, Sultan II Mehmetin dövründə uğurla yekunlaşdı. II Mehmet bu fəthdən sonra "Fateh" titulu ilə tarixdə iz buraxıbdır. Konstantinopolun türklər tərəfindən fəthi Dünya tarixinə də təsirsiz ötüşmədi. Belə ki, bu fəth mənbələrdə "bir əsri bağlayıb, bir əsri açan tarix" kimi qeyd olunur. Beləliklə, Konstantinopolun fəthi tarixə vurulmuş bir möhürdür. Hazırkı məqalədə, mövcud tarixşünaslıq əsərləri əsasında mövzunun araşdırılmasına cəhd ediləcəkdir.*

*Açar sözlər*: Konstantinopol, Bizans, fəth cəhdləri, Osmanlı, II Mehmet, İstanbul.

***Giriş.*** Yəqin ki, hər kəs üçün maraqlı olan bir sual var: Konstantinopolun digər şəhərlərdən fərqi və əhəmiyyəti nə idi? Konstantinopola dövrün imperiyaları niyə bu qədər maraq göstərirdi? 1453-cü ildə şəhərin türklər tərəfindən fəthinin Osmanlı və dünya tarixi üçün nəticəsi necə oldu? Türkiyə və Avropa mənbələrində geniş şəkildə işıqlandırılan bu sualların cavabını biz də hazırki məqalədə müqayisəli təhlil şəklində aydınlaşdırmağa çalışacağıq.



***Konstantinopolun 1453-cü ilə qədərki tarixi.*** Miladdan sonra (m.s.) 284-305-ci illərdə hakimiyyətdə olan Roma imperatoru Diocletian imperiyanın bir şəxs tərəfindən idarə edilə bilməyəcəyini anlayıb, ölkəni dörd idarəetməyə böldü [1]. İmperator özü şərqdə idarəni seçdi. Gənc Konstantin isə atası öldükdən sonra qərbdə iqtidara gəldi, 312-313-cü illərdə digər ərazilərdəki hökmdarları məğlub etdi və imperatorluğu yenidən birləşdirdi. Yeni paytaxtın harada olmalı olduğundan əmin olmayan Konstantin, onun "Yeni Roma" adı ilə köhnə Romanın ətrafında inşa etmək istəyirdi. Bunun səbəbi isə, şəhərin imperatorluğun mərkəzinə yaxın olduğundan çox üstünlüyü vardı. Bundan başqa, şəhər ətrafı su ilə əhatə olunacaqdı ki, bu da müdafiə işini asanlaşdırmaqdan əlavə olaraq, Haliç limanı ilə yanaşı Fərat sərhədinə və Dunay çayı ərazisinə asanlıqla çıxış əldə edə bilinirdi. Həyata keçirilən tədbirlər siyahısına vergilər və xəzinə hesabına inşa işlərinə başlanılması; şəhərin əhalisinin sayını artırmaq üçün tədbirlərin görülməsi; Böyük İsgəndər, Sezar və didər məşhur sərkərdələrin heykəllərini mərkəzlərdə ucaltmaq kimi məsələlər də əlavə olunmuşdu. Bunlarla yanaşı, əhali üçün yetərli su mənbəyi yaradıldı. Su problemi olmayan Köhnə Romadan fərqli olaraq, Yeni Romada yaz və baharın əvvəllərində quraqlıq və yağışlar zamanı su problem ilə qarşı-qarşıya qalırdılar. Bu isə şəhərə hücum olacağı təqdirdə, əhali üçün su probleminin meydana çıxmasına səbəb ola bilərdi. Bu məqsədlə, hal-hazırda da mövcud olan Binbirdirek Sarnıcı inşa edildi [2].

Köhnə Romadan fərqli olaraq Yeni Romada xristianların etiqad azadlığı tanındı. Konstantinin özünün xristianlığı qəbul edib-etmədiyi məsələsi hələ də mübahisəlidir. Beləliklə, 330-cu ildə Kons-

tantin imperatorluğun yeni paytaxtının - sonrakı dövrdə imperatorun özünün adı ilə Konstantinopol adlandırılacaq Yeni Romanın ("Nova Roma"nın) əsası qoyuldu [1; 2]. "Konstantinopol dövrün iqtisadi və mədəni mərkəzi olmaqla bərabər, yunan klassiklərinin, həm də xristian ideallarının mərkəzi olacaqdı [1]. Konstantin yeni paytaxtı inşa edərkən onu xristian mərkəzi etməkdən ziyadə, romalılar və imperatorluq üçün əbədi şəhər yaratmaq istəyirdi ki, özlərinə xas xüsusiyyətləri ilə seçilən şəhər kimi yaddaşlarda qalsın [3]. Yeni paytaxta əhalinin diqqətinin cəlb etmək məqsədilə sənətkar, tacirlər, təsərrüfatda işləyənlərə təmənnasız taxıl, yemək verilirdi. Hətta bu məqsədlə 117 məntəqə də yaradılmışdı. Digər tədbir isə dövlət məmurlarının şəhərə cəlb edilməsi idi. Məsələn, senatorlar köhnə Romada yaşayırdılar, burada mülkləri, torpaqları vardı. Konstantin onları yeni şəhərə çəkmək üçün paytaxt ətrafı torpaqları onlara verməyi vəd etdi [2]. Romalılar yeni paytaxtın yaradılmasına etiraz etmirdilər, çünki bu şəhərdə "yeni idarə"nin olacağını düşünürdülər ki, "Yeni Roma"nın tarixdə iz buraxan, əbədi şəhər olacağını zənn etmirdilər. Lakin tamamilə bunun əksi oldu, romalılarda yoxsulluq artmağa başladı, Konstantinopol zəngin şəhərə çevrildi. Vandalların Romaya olan hücumu nəticəsində taxıl anbarlarını da itirdi, bu əhalinin vəziyyətini daha da ağırlaşdırdı [3].

Yeni Romada Köhnə Romadan fərqli cəhətləri var idi. Məsələn, köhnə Romada hökmdarlar "bərabərlər arasında birinci" hesab edilirdilər, yəni xalqa bağlı idilər, öz saraylarına belə piyada xalqın müşayiəti ilə gedirdilər. Lakin Konstantinopolda hökmdarlar ənənədən fərqli olaraq "tanrılaşdırılırdı", əlçatmaz hesab olunurdular, görkəmli saraylar inşa etdirib həmin sarayda yaşayırdılar [1].

Habelə, "Yeni Roma" xristianlığın kürəsi halına gətirilməsi, həmçinin qlobal şəhərə çevrilməsi tədbirləri məqbuldur. Roma imperatorluğunun təktanrıçılıq (monoteist) dinə dönməsi Akdeniz toplumunda yeni kimlik və mədəni tərəqqini formalaşdırdı [3]. Köhnə Romanın süqutundan sonra Konstantinopol daha da inkişaf etdi, mədəniyyət nümunələrdən biri kimi Ayasofyanı qeyd edə bilərik. Ayasofya, əslində, 404-cü ildə orada inşa edilmiş ilk kilsənin yerində 415-ci ildə bir üsyan sırasında yanmasından sonra yenidən inşa edilmişdi. Yustinian tərəfindən təkrar inşa etdirilən Ayasofya, min ilə yaxın zamanda ən böyük qübbəli kilsə olaraq qaldı. Təbii ki, bu abidənin o zaman və çox daha sonralar Konstantinopolun ən önəmli simvollarından biri halına gəlməsi və bir çox başqa memarlıq abidələrinə nümunə olması təəccüblü deyildir. Ayasofya haqqında tarixçi Prokopius deyib: *"Ayasofya gökyüzüyle boy ölçüşecek bir yüksekliğe çıkıyor ve sanki diğer binalardan yükseliyormuş gibi yüksekte duruyor ve şehrin kalıntılarına bakıyor... Ayasofya tarif edilemez bir güzellikle coşuyor"* [1].

***Hz.Məhəmmədin "Fəth hədisi". Konstantinopolun fəthi cəhdləri.*** Konstantinopol Konstantinin varisləri dövründə də daha da tərəqqi etdi. Bu tərəqqi 1204-cü ildə IV xaç yürüşünədək davam etdi. Bu dövrə qədər şəhərə hücumlar olsa belə, şəhər hücumlar qarşısında tab gətirə bildi. Şəhər ilə bağlı Hz.Məhəmmədin fikirləri elmi araşdırmalarda "Fəth hədisi" kimi qeyd olunur [5]. Peyğəmbərimizin sadəcə İstanbulun deyil, İslama, Müsəlmanlara və insanlığa xidmətdə olacaq başqa önəmli yerlərin də (İraq, Şam və b.) fəthi müjdəsini verdiyi və həmin şəhərlərin həqiqətən də fəth edildiyi məlumdur [6]. Amma mənbələrdə daha çox İstanbulla bağlı hədisdən daha çox bəhs edilir, çünki bu fəthin sadəcə Müsəlmanlara və ya İslam dünyasına deyil, bütünlükdə dünyaya mühüm təsiri olub. Ümumiyyətlə, Fəth ifadəsi İslam mədəniyyətinə *Hudeybiye Antlaşması ilə (628) daxil olubdur* [5]. Fəthin həm müharibə, həm də sülh yolu ilə edilə biləcəyini ümmətinə göstərən Hz.Məhəmməd İslamın qarşısında ən böyük 2 maneə olan Bizans və Sasani dövlətlərini hədəf olaraq göstərmişdi. *"Kisra yok olursa kendisinden sonra kisra, kayser yok olursa kendisinden sonra kayser olmaz. Onların hazineleri Allah yolunda taksim olunacaktır"* [5, s.284].

İstanbulla bağlı hədisin deyilməsi müxtəlif formalarda təqdim edilir. Səhabələrdən Abdullah belə qeyd edir: *"Biz huzur-ı saadette not tutar ve Hz. Peygamber'in hadislerini kaydederdik. Bir defasından içimizden birisi, Hz. Peygamber'e "Ey Allah'ın Resulü! Önce hangi şehir fethedilecektir; Kostantiniyye mi, yoksa Roma mı?" sorusunu yöneltmiş, o da "Önce Heraklios'un şehri, yani Kostantiniyye fethedilecektir"* cavabını vermişdi [yenə orada]. Demək olar ki, bütün erkən hədislərdə və tarixi mənbələrdə rast gəlinən və Bizans paytaxtına qarşı yürüşlərdə iştirak edənlərin böyük maddi və mənəvi mənfəətlər qazanacağına işarə edən bu rəvayətlər sonradan gələn səhabələrin və müsəlmanların İstanbulun fəthinə diqqət yetirməyə və onu həyata keçirilməsi zəruri olan müqəddəs bir ideal kimi qəbul etmələrinə səbəb oldu. *"İstanbul mutlaka fethedilecektir, onu fetheden ordu ne güzel ordu, onu fetheden*

*komutan ne güzel komutandır" ifadəsi artıq bu fəthə olan marağı artırdı* [5, s.284]. Burada xüsusi olaraq vurğulanmalıdır ki, mötəbər rəvayətlərin yer aldığı "Kutub əs-sittə" adlı hədis kitablarında bir hədisin yer almaması onun səhih olmadığı anlamına gəlmir və bu kitablarda yer almayan çoxlu səhih sayılan hədislər vardır. Çünki hədisin səhih olub-olmaması onun hansı kitabda olması ilə deyil, onu rəvayət edən şəxslərin məqamı və etibarlılığı ilə müəyyən edilə bilər. "Fəth hədisi" Osmanlı mənbələrində İstanbulun fəthindən xeyli sonra çıxmağa başlamışdır [5, s.285; 7, s.30-78]. Müsəlmanların şəhərə ilk hücumları Hz.Osman dövründə başlayıbdır. Lakin Osmanın öldürülməsi, hakimiyyət uğrunda mübarizələr, hakimiyyət dəyişikliyi, Hz.Əlinin iqtidara keçməsi, ölkədəki qarışıqlıq müsəlmanların daxili işlərdəki problemləri həlli yolunda olduğundan fəth məsələsi gündəmdən düşdü. Bizans da müdafiə sistemini gücləndirmək tədbirlərinə başladı [5, s.287]. Müaviyə dövründə də gəmilərlə İstanbula gəlmiş lakin uğursuzluğa düçar olubdur. Yezid ibn Müaviyənin komandanlığında ordu hücuma başlamışdı, hətta bu orduda səhabələrdən 90 yaşlarında olan El Ensari də vardı, tək qarşıya qoyduqları məqsəd Peyğəmbərin övgüsünə nail ola bilmək idi [4]. Lakin bu yürüş də uğursuzluqla nəticələndi. Uğursuzluğun səbəb kimi ərəblərin vərdiş etmədikləri qış vaxtının olması və hücumun uzanması ilə bağlı olaraq ordu arasında yayılan xəstəlik hesab olunur [5, s.287]. Əməvi xəlifələri Süleyman ibn Abdulməlik, Hişam ibn Abdulməlik və Abbasi xəlifəsi Məhəmməd El Mehdi dövründə də hücum cəhdləri uğursuz nəticələnibdir. Harun Ər-Rəşid zamanında isə Roma imperatoruna qarşı 3 dəfə müharibə elan edilib, Ereğliyə qədər irəliləyib [4], lakin fəth gerçəkləşmədi. İslam hökmdarları 200 ilə qədər hücumları dayandırıblar, bunun səbəbi kimi Şiə Fatimilərinin getdikcə böyüməsi və tərəqqisi ilə də əlaqələndirilir [yenə orada].

Osmanlılarda Konstantinopola ilk hücum cəhdi edən İldırım Bəyazid olubdur (1390). Cəsur Sultan 4 dəfə hücum edərək, sonuncu hücumda İstanbulu tam ələ keçirməyə çox yaxınlaşmışkən, Teymurilərin Anadoluya girməsi səbəbindən hücumu dayandırmışdır. 1402-ci ildə İldırım Bəyazid Ankara döyüşündə Teymurilərə məğlub olub, nəticədə şəhər yenə də fəth edilə bilməyibdir. Lakin Bəyazidin bu hücumu Avropada böyük səs-küyə səbəb oldu. J.Zinkeisen, uzunmüddət davam edən hücumda Bizansın tərəfdar sayı azalmışdı və çarəsizlik içində olan xalqın bir hissəsi Osmanlı tərəfinə keçdiyini qeyd edibdir [5, s.292]. Sultan II Murad Bizans imperatorunun barış təklifini də qəbul etmədi [yenə orada]. Sultan II Murad zamanında şəhərə olan hücum uğurla nəticələnməyə doğru gedirdi. Topçu qoşunlarının dəstəyi ilə ordu Marmaradan Haliçədək uzanan müdafiə divarlarını mühasirəyə alaraq şəhərə giriş-çıxışı nəzarətə aldılar; Topqapı ilə Edirneqapı arasındakı müdafiə üzərinə hücumlarını daha da artırdılar. Roma imperatorunun təşviqi ilə Osmanlıda Yalançı (Düzmece) Mustafa üsyanı, habelə Bursaya olan hücumlara görə hücumu dayandırmaq məcburiyyətində qalmışdır. Lakin II Murad fəth hazırlıqlarını tamamlamışdı, oğlu II Mehmedə yazdığı vəsiyyətnamədə İstanbulun fəthinə təşviq edib [4]. Bu illər ərzində Bizanslılar təhlükəni anlamış və müdafiə tədbirlərini gücləndirmişdilər. Belə ki, IV əsrdən etibarən bilinən "Grejuva ateşinin (Rum atəşi)" istifadə edilə biləcəyi iki qatlı böyük savaş gəmiləri hazırladılar [5]. Lakin hücum cəhdləri ərəfəsində IV xaç yürüşü (1204-1261) şəhərin xaraba vəziyyətə düşməsinə səbəb oldu, şəhər müdafiə qabiliyyətini itirdi.

***Konstantinopolun fatehi, "Sultanü'l-berreyn", "Hakanü'l-bahreyn", Kayser-i Rum, Osmanlı Sultanı Fateh Mehmed** *və Konstantinopolun fəthi.*** Öz dövrünün ən intellektual hökmdarı olan Sultan II Mehmed tarixdə "Fateh", "Kayser-i Rum", "Xəlifə", "İki karanın Sultanı", "İki dənizin sultanı" və b. adlarla məşhurlaşmışdır. Haqqında aparılan araşdırmalardan aydın olur ki, Mehmed dövrünün universal, bütün keyfiyyətləri özündə birləşdirən hökmdarı olubdur. Məşhur tarixçi İlber Ortaylı Mehmed barədə yazır ki, *"Dövrünün iyi təhsilli, disiplinli böyüdülən sultanıdır"*. Mehmedin sadəcə hərbi sahəyə önəm verən sultan olmadığını, onun imperatorluqda mədəni, iqtisadi, hüquqi sahələrə yönələn addımları sübut etmişdir [10]. Dövrün hökmdarları sadəcə bir dil öyrənməklə kifayətlənərkən, Mehmed bir neçə dildən xəbərdar idi. Belə ki, şeir yazacaq qədər farsca, qələm oynadacaq qədər ərəbcə, habelə italyanca, yunanca bilirdi [9].

---

* *Fateh Sultan Mehmed rəsmi bir ünvan olaraq "Sultanü'l-berreyn" və "Hâkânü'l-bahreyn", yəni "iki karanın sultanı" və "iki denizin hakanı" ünvanından da istifadə etmişdir. İki kara – Anadolu və Rumeli, iki dəniz – Ege və Qara dəniz.* – Bu haqda ətraflı: Halil İnalcık. İki Karanın Sultanı, İki Denizin Hakanı, Kayser-I Rum Fatih Sultan Mehemmed Han. İstanbul, İş Bankası Kültür Yayınları, 2019, 848 s.

Ortaya sual çıxır, Sultan II Mehmed İstanbulu fəth etməsəydi bu qədər tanınardı mı? Mehmed bu fəthi etməsəydi belə, yenə məşhur dövlət xadimi kimi məşhurlaşardı, lakin İstanbulun fəthi ilə fəaliyyətini taclandırdı, dünyaya Osmanlının, türkün gücünü nümayiş etdirdi və adını tarixə qızıl hərflərlə yazdırdı.

*"Ya İstanbul beni alacak, ya ben İstanbulu"* deyən II Mehmedin ən böyük xəyalı, Bizansın qəlbi sayılan İstanbulu (Konstantinopolu) fəth etmək idi. Mehmed iqtidarını daha da möhkəmləndirmək üçün bu fəthi vacib sayırdı. Əleyhdarlarının olmasına rəğmən, fəthdən sonra önəmli dəyişiklik gözləyənlər fəth məsələsini böyük sevinclə qarşıladılar, lakin bu məsələnin ağırlığını anlayanlar da məcbur razı oldular, azlıq çoxluğa tabe olmalıdır [12; 13]. Fəth ərəfəsində Konstantinopolun vəziyyəti barədə V əsr Yunan tarixçisi və şahidi Georges Sphrantzesə görə, şəhəri müdafiə edən ordu 5.000-dən az adamdan ibarət idi [11]. Ən pisi isə bir zamanların böyük donanmasına sahib olan Bizans, fəth ərəfəsində sadəcə 26 gəmisi mövcud idi. Bizanslılar, insan, gəmi, silah cəhətdən ümidsiz şəkildə az idi. Bu hücumdan qalibiyyətlə ayrılmağın tək yolu "İlahi müdaxilə" ola bilərdi. Xaçlıların yürüşündən sonra, şəhər özünə gələ bilməmişdi. Əhali sayı 30 min civarında idi. Əhali də artıq etirzalar edirdilər, latınlara qarşı kin və nifrət mövcud idi. Şəhərdə, *"Latin külahı görmektense Türk sarığı görmek evladır"* sözü mövcud vəziyyəti açıq ifadə edirdi [12]. Ölkənin dağınıq vəziyyəti; müdafiə qabiliyyətinin zəif olması üstəlik Sultan Mehmedin müdrik planları Konstantinopolun fəthi ilə nəticələndi. Mehmet dövründə Konstantinopolun fəth edilmə səbəblərinə: İpək yolunun Avropaya açılan qoluna hakim olmaq; quru və dəniz ticarəti baxımından, iqtisadi cəhətdən İstanbulun mühüm bir coğrafi mövqeyə sahib olması, İstanbulun geosiyasi mövqeyi, Boğazlara nəzarət etmək, Anadolu və Rumeli arasındaki əsgər tədarükü üçün əhəmiyyəti böyük idi və ən böyük səbəb Hz.Məhəmmədin hədisi idi [13].

Mehmed hazırlıqları başlatdı, İstanbulun açarı Bizansın güclü müdafiə divarlarını keçmək idi, bunu nəzərə alan Mehmed Ədirnədə "Şahi" adlı böyük toplar hazırlatdı, bu topların hazırlanmasında macar əsilli usta Urbanın böyük xidməti olmuşdu [14]. Digər tədbirlərə Qara dənizin şimalından gələ biləcək yardımları qarşısını almaq üçün Anadolu Hisar (Güzelce Hisar) qarşısına Rumeli hisar (Boğazkəsən) inşa olundu, bununla nəzarət türklərə keçdi. İstanbul yaxınlığında Silivrə və Vize qalaları alındı [13]. Mehmedin bu geniş miqyaslı hazırlıqlarını görən Bizans da müdafiəni gücləndirmək niyyətində idi, xalqı silahlandırdı, ərzaq, silah təminatı yaratdı. Dövrün tarixçilərdən biri olan Dukas "Kronik" əsərini dövrün şahidi olaraq yazırdı: *"Artık Konstantinopolis'in sonu geldi. Çanlar bizim için çalmaya başladı. Tanrım! Canımızı al ki bu kulların şehrin elden gidişini kendi gözleriyle görmesinler. 'Bu şehri muhafaza eden azizler nerededir?' demesinler*" deyə ağlaşaraq dualar edildiği [18]. Son Bizans imperatoru XI Konstantinin tək təsəllisi isə "Rum atəş"inə sahib olmaq idi [11]. Georges Sphrantzesə görə, Osmanlı ordusu 200.000 nəfərdən ibarət idi, lakin modern tarixçilər daha inandırıcı olan 60-80.000 nəfərdən təşkil olunan ordudan bəhs edirlər [11]. Ordu 2 aprel 1453-cü ildə Konstantinopol müdafiə divarları qarşısında toplananda, Bizanslılar Mehmedin toplarını ilk dəfə gördülər. 5 apreldə Mehmet Bizans imperatoruna təslim olmaq tələbi göndərir: *"Şəhərin boş olaraq təslim edilməsi kafidir*" deyərək, İstanbulu döyüşsüz təslim edərsə, ona qardaşlarının yanına getməsinə icazə verəcəyini söyləyib, dostluq vəd etdi. Amma Konstantin, şəhəri öz istəkləri ilə Osmanlılara təslim edəcək olurlarsa hər kəsin onları aşağılayarak, alçaldılacaqlarını düşündüyü üçün bu təklifi qəbul etmədi [18]. 6 apreldən etibarən 54 gün davam edən mühasirə başladı. Cənubda Romanos Qapısı (Topkapı) ilə Selimbriya Qapısı (Silivrikapı) arasındakı müdafiəsi Bizans-Venesiya qüvvələri tərəfindən həyata keçirilirdi. Mühasirə başlayan gün imperator Konstantin min zirehli və silahlı əsgərini həm camaatın, həm də Osmanlı ordusunun gördüyü divarlara gətirdi. Onun məqsədi xalqın mənəviyyatını yüksəltmək və Osmanlıları qorxutmaq idi [14]. Osmanlılar buna məhəl qoymadılar və mühasirəyə başladılar. Əvvəlcə topların yerləşdiriləcəyi nöqtələri müəyyənləşdirdilər. Bunun üçün divarların ən zəif yerlərini seçdilər. Qalata cəbhəsində Zağanos Paşanın qüvvələri, divarların cənub hissəsində Anadolu Bəylərbəyi İshaq Paşa, şimal hissəsində isə Rumeli Bəylərbəyi Karaca Paşa yerləşmişdi. Romanos Qapısı (Topkapı) və Adrianapol Qapısı (Ədirnəkapı) arasındakı mərkəzi fasadda, II Mehmed yeniçəriləri ilə birlikdə yerləşmişdi. Osmanlı ordusu top lülələrini divarlara doğru çevirdikdən sonra II Mehmet vəziri Vəli Mahmud paşanı imperator Konstantinin yanına göndərdi və şəhərin təslim olmasını tələb etdi. Lakin Konstantin bunu qəbul etmədi. Beləliklə, ilk artilleriya atəşi 12 aprel 1453-cü ildə başladı. Top atəşi çox güclü idi

və səs-küy Bizanslıları ruhdan salırdı. Bizanslılar müxtəlif üsullarla divarlardakı boşluqları düzəltməyə çalışırdılar [14].

Müdafiəçilər gün ərzində öz kiçik topları ilə cavab atəşi açmaqdan, topları ən böyük deşikləri açan hücumçuları tutmaqdan və hər gecə qayalardan, silah lülələrindən və əllərinə düşən hər şeydən istifadə edərək bu boşluqları düzəltməyə çalışmaqdan başqa bir şey edə bilməzdilər [11]. Top atəşləri aprelin 18-dək davam etdi. Və nəhayət, Osmanlı mərkəzi ordusunun yerləşdiyi nöqtədə birinci və ikinci divarlarda iri yarıqlar açıldı. Divarların qarşısındakı xəndək doldu, Osmanlı ordusu həmin gecə hücuma keçdi. II Mehmed döyüş qüllələri tikərək hücuma dəstək verdi. Lakin istənilən nəticəni əldə etmək mümkün olmadı. Osmanlılar quru ilə yanaşı dənizdən hücuma başladılar. Belə ki, 1453-cü il aprelin 15-də Haliçin qarşısına gələn Osmanlı donanması geri çəkilmək məcburiyyətində qaldı. Aprelin 20-də bir Bizans və üç Genuya qalyonundan ibarət yardım donanması İstanbula yaxınlaşdı. Bunun üzərinə Baltaoğlu Süleyman bəy 18 gəmi ilə yardım donanmasının qarşısını almağa getdi. Lakin o, uğur qazana bilmədi. Osmanlı donanması ağır itki verdi. Təpədən döyüşü seyr edən, Mehmed o qədər qəzəblənmişdi ki, atına minib dənizə girdi. Daha sonra o, Baltaoğlu Süleymanı baş admiral vəzifəsindən azad etdi [14].

Həm quruda, həm də dənizdə baş verən bu uğursuzluqlardan sonra II Mehmed donanmanın Qalata divarlarının qarşısından Qızıl Buynuza doğru sürüşdürülməsini əmr etdi. Bəzi xarici mənbələrdə Mehmedin hücuma başladığından etibarən bu hadisəyə hazırlıq gördüyünü, lakin münasib zamanı gözlədiyini yazırlar. M. Filippides və V. Hanak İstanbulun mühasirə və süqutunu təsvir edən "The Siege and Fall of Constantinople" adlı araşdırmalarında qeyd edirlər ki, II Mehmedin bir müddətdir gəmiləri hərəkətə keçirməyi planlaşdırdığı və yeni Venesiya gəmilərinin yola düşdüyünü öyrəndikdə, planını tez həyata keçirdi. Tarixçilər gəmilərin hansı istiqamətdə getdiyi mövzusunda ortaq məxrəcə gəlməyiblər. Adı çəkilən araşdırmada gəmilərin təqribən 9 kmlik bir marşrutla getdiyi yazılıb. Prof.Dr. Emecen yazır ki, *"Buna görə də Dolmabahçedən çəkilmənin mümkün olduğunu düşünürük. Tophanedən çəkilsəydi, gəmilər qarşı tərəfdən görünərdi, yəni Bizans bundan xəbərdar olardı".* Bu və daha artıq fərqli fikirlər mövcud olsa da, gəmilərin hara endirildiyi bəlli olmasa da, tarixçilər bu gəmilərin ya Kasımpaşada, ya da Eyübla üzbəüz yerə endirildiyini ortaq fikir qəbul edirlər [15]. Gəmilərin keçəcəyi məsafə 2-4 kilometr idi. Marşrut meşəlik idi. Əsgərlər sürətlə ağacları kəsdilər. Ağacları zeytun yağı ilə yağladıqdan sonra yerə bərkidiblər. Bizanslıların xəbər tutmaması məqsədilə gəmilər aprelin 21-dən 22-nə keçən gecə quru yolu ilə hərəkətə gətirildi. Əslində, Bizanslıların diqqətini yayındırmaq üçün Romanos Qapısı (Topkapı) ətrafında böyük bir yarıq açıldı. Bizanslılar bu yarığı bağlamağa çalışarkən gəmilər Qızıl Buynuza endirildi. Səhər Osmanlı donanmasının 72 gəmisi Qızıl Buynuzda idi [14].

Prof.Dr. Emecene görə, Haliçə atılan gəmilər İstanbulun fəthində çox da əhəmiyyətli bir hərbi rol oynamadı*: "Çünki gəmilər endiriləndən sonra gəmilərlə bağlı planlaşdırılan hər hansı bir tədbir görmürük. Bizanslılar bu gəmiləri yandırmağa cəhd göstərsələr də, bu baş tutmayıb"* [15]. Lakin ekspertlər bu hadisənin Osmanlılara böyük motivasiya verdiyi və Bizans tərəfində ciddi mənəvi itkilərə səbəb olduğu qənaətindədir. Greenviç universitetindən Talbot yazır: *"Əlbəttə, biz bilmirik ki, Osmanlılar gəmiləri endirməsəydilər İstanbulu ala bilərdilər, ya yox. Amma gəmilərin quruda hərəkət etməsi Osmanlılar üçün böyük bir mənəvi dəstək oldu ... digər tərəfdən, bu, Qızıl Buynuzda təhlükəsiz olduqlarını düşünən Bizanslılar üçün böyük bir ruh düşkünlüyü olmalı idi. Ona görə də bu, quruda divarları vuran toplar qədər hərbi təsirə malik olmasa belə, kənardan baxıldığında Osmanlının bu hərəkəti böyük bir qələbə idi"*[yenə orada]. Hətta osmanlı əsgərləri yerin altından da mübarizə aparıblar, belə ki, osmanlı lağımçıları tunellər açıblar, bunun fərqinə varan Bizans da tunellərini açdılar. Yerin altındakı vuruşmalarda Bizans itki verməklə bərabər vəziyyətin çətinliyi onları daha da qorxutdu.

İmperator Konstantinin işi getdikcə çətinləşirdi. Osmanlı donanması Qızıl Buynuzda idi. Müharibə həm yerin üstündə, həm də yerin altında şiddətlə gedirdi. Üstəlik, qıtlıq imperatorun müdafiəsini daha da çətinləşdirirdi. II Mehmet İsfəndiyaroğlu Qasım bəyi imperator Konstantinin yanına səfir göndərdi və ondan təslim olmasını istədi. Ancaq Konstantin yenidən imtina etdi. Həmin günlərdə Macarıstan Krallığının səfiri düşərgəyə gəldi [14]. O, mühasirə qaldırılmasa, Macarıstan-Bizans ittifaqının yaranacağını və böyük bir səlibçi donanmasının yolda olduğunu bildirdi. Bunun üzərinə mayın 27-də

Osmanlı düşərgəsində toplantı keçirildi və son hücumun mayın 29-da həyata keçirilməsi qərara alındı. Döyüş mayın 29-da günəş doğmadan başladı. Şiddətli döyüşün sonunda yeniçərilər açdıqları boşluqlardan içəri girə bildilər. Adi top atəşindən sonra əvvəlcə ikinci dərəcəli qoşunlar göndərildi, daha sonra daha yaxşı silahlanmış qoşunların ikinci dalğası işə salındı və nəhayət, bu dəfə yeniçərilərdən ibarət üçüncü dalğa – Mehmed ordusunun yaxşı qazılmış və yüksək əzmkar elitası divarlara hücum etdi. Bu üçüncü dalğa zamanı divarları müdafiə etmək üçün qadın və uşaqları müdafiəyə cəlb edən Bizanslılar fəlakətlə üzləşdi. Yeniçərilər Quru divarlarındakı kiçik Kerkoporta qapısından istifadə etməkdən çəkinmədilər. Onlar divarın başına çıxıb Osmanlı bayrağını qaldırdılar, sonra əsas darvazaya doğru hərəkət edərək yoldaşlarının şəhərə axışmasına icazə verdilər [14].



Nəhayət, 53 günlük mühasirədən sonra II Mehmed vəzirləri və komandanlarının müşayiəti ilə Romanos qapısından (Topkapı) İstanbula daxil oldu. İstanbulun fəthi ilə bir dövrün bitməsi və yeni çağın başlanğıcının əsası qoyuldu. Fateh Sultan Mehmed şəhərə həmin gün günorta saatlarında ağ atın belində Topqapı istiqamətindən daxil olub, Ayasofyaya doğru irəliləyir. At meydanını keçib, Ayasofya önünə gəlir, burada toplanan xalqa can və mallarının təhlükəsizlikdə olacağını söyləyib onları təsəlli etdi *"Biz torpaqları deyil, könülləri feth etməyə gəlirik"* [18]. Şəhərə girərkən fəthin mənəvi atası hesab edilən Ağ Şəmsəddin də Fatehin yanında olur. Bizanslılar Ağ Şəmsəddini Sultan Mehmet hesab edərək ona gül dəstələri verirlər. O isə gənc Fatehi göstərərək: *"Sultan budur, gülləri ona verin"*, deyir. Fateh isə: "Sultan mənəm, ancaq İstanbulun fəthinin mənəvi atası odur" deyə Ağ Şəmsəddini göstərir. Bununla da, Sultan Mehmed "Fateh" habelə "Kayseri Rum", "Çağ açan hökmdar" və daha çox ləqəblər qəbul edir. Habelə, 1453-cü ildən bəri Osmanlı tarixində "Yüksəliş dövrü" yaxud imperiyaya çevrilmə tarixi kimi götürülür.

***Fəthin dünyaya təsiri və əhəmiyyəti.*** Fəthə qədər Bizans imperiyası Osmanlı torpaqları üçün təhlükə idi. Fəthlə bu təhlükə aradan qaldırıldı, boğazların müdafiəsi asanlaşdı. İstanbul Osmanlı imperiyasının paytaxtı oldu. İstanbulun fəthi ilə Osmanlının İslam dünyasındakı nüfuzu da artdı. Fəthin siyasi uğurları ilə yanaşı, mühüm iqtisadi qazanclar da var idi: Qara dənizi Aralıq dənizi ilə birləşdirən ticarət yolları Osmanlının əlinə keçdi, əlavə olaraq, İpək Yolunun Avropaya çatan qolu Osmanlının himayəsinə keçdi. Lakin fəthdən sonra Fateh Sultan Mehmet şəhəri imperatorluğun mərkəzi etmək üçün çoxlu tədbirlər gördü. Nedimin söylədiyi *"İstanbulu Mehmet yaptı"* fikrinin düzgünlüyü var [8]. Çünki Mehmet Osmanlıya yaraşar paytaxt etmək istəyirdi. Şəhərin infrastrukturunu qurdu, müasir dövrdə də məşhur olan Qapalı Bazar, Tahtakale və s. küçələr, məhəllələr, komplekslər inşa edildi [yenə orada].

İstanbulun fəthindən çox sonralar Napaleon Bonapartın: *"Əgər dünya tək bir ölkə olsaydı, paytaxtı İstanbul olardı"* sözləri çox şeyi ifadə edir [13]. Fəthin dünyaya təsirindən danışarkən qeyd edilməlidir ki, pravoslavlığın mərkəzi hesab edilən Şərqi Roma (Bizans) imperiyası tarix səhnəsindən silindi; Qala surlarının (divarlarının) topçuların dəstəyi ilə məhv edilə biləcəyi gerçəkliyi Avropada feodal pərakəndəliyinin sürətlə dağılmasına səbəb oldu ki, bu da krallıqlara sərf edirdi, çünki onlar müstəqilləşirdilər; Ticarət yollarının Osmanlının nəzarətinə keçməsi ilə avropalılar yeni ticarət yolları axtarışına başladılar ki, bununla da coğrafi kəşflər də edildi; ən əsası, İstanbulun fəthi hadisəsi, çox sayda tədqiqaçıların dediyi kimi, orta əsrlərin sonu yeni dövrün başlanğıcı oldu.

Bütün bu sadaladıqlarımız fəthin müsbət əhəmiyyətləridir. İstanbulun fəthi ilə bağlı Bizans tarixçiləri tərəfindən də yazılmışdır. Dövr tarixçilərindən Dukas, bu fəthi gözdən salmağa çalışıb, əsərində Mehmeddən "zorba" deyə bəhs edib: *"Bu fəlakətdir, tük ürpədicidir. Müqəddəs məbədlərimizin yerində türklər var və onlar həvarilərin və din şəhidlərinin qalıqları üzərində şəhəri qurublar"* [19]. Məhz bu fikir qərbin baxış bucağını belə istiqamətləndirdi. Çünki dövrün şahidinin yazdıqlarına inanırlar, lakin Dukas hadisələrə subyektiv fikrini qatıbdır. Fəth nə qədər Avropa dövlətlərinin gözündə "işğal" kimi dəyərləndirilirsə belə, İstanbulun türklər tərəfindən fəthi zamanı və sonrasında xaç yürüşlərindən fərqli olaraq şəhər dağıdılmadı, talan edilmədi.

Şəhərin fəthini həzm edə biməyən Avropa dövlətləri onu geri almaq üçün tədbirlərə başladılar. Məsələn, Neapol kralı 1454-cü ilin yayında xristianlsrın qisas alacağını və səlib yürüşü təşkil edilərsə, ekspedisiyaya şəxsən rəhbərlik edəcəyini bəyan etdi. O, digər Avropa şahzadə və padşahlarının ondan nümunə götürərək türklərə qarşı tədbir görəcəklərinə və beləliklə, bu "kafirləri" Avropadan qovacaqlarına ümid etdiyini bildirdi. Ancaq bu, yalnız sözdə qaldı [17]. Avropalılar artıq Fatehin gücünü bilirdilər. Fateh Mehmedin *"Benim kudretimin ulaştığı yerlərə, onların hayelleri bile ulaşamaz"* sözləri gerçəkliyi tam əks etdirirdi. Fateh Mehmed vəfat edəndə Venesiyalılar "Böyük qartal öldü" deyərək sevinirdilər [10], bu isə artıq Fateh Sultan Mehmedin işlərinin, zəfərlərinin Avropada necə səs saldığını açıq-aydın göstərirdi.

***Nəticə.*** Dünyaya səs salan, müasir dövrümüzdə də tədqiqi bitməyən Konstantinopolun fəthi türklər tərəfindən tarixə vurulan möhür hesab oluna bilər. Bu fəth bir dinin digər dinə qarşı zəfəri deyil, inkişafın gerilik üzərində zəfəridir. İstanbul günümüzdə də əzəməti, gözəlliyi ilə seçilir. İstanbulun Fatehi Sultan Mehmedi Göktürklərin Bumin xanı, Səlcuqluların Toğrulu və, ən əsası, İstanbulu XX əsrdə işğalçılardan təmizləyən Atatürklə eyni tərəziyə qoya bilərik. Beləliklə, Osmanlı tarixinin mübarək sərkərdəsi Fateh Sultan Mehmed türklərin gücünü, türkün mərhəmətini, türkün əyilməyəcəyini, məqsədlərinə çatmaq yolunda son damla qanına qədər vuruşacağını bütün dünyaya bir daha nümayiş etdirdi.

## ƏDƏBİYYAT


1. Konstantinopolis / World History Encyclopedia, Türkçe. - https://www.worldhistory.org/trans/tr/1-700/konstantinopolis/ [15.04.2025].
2. İstanbul'un (Konstantinopolis) 1700 Yıllık Kuruluş Hikayesi. - https://rutube.ru/video/354ff9cad044eee7209883fd1e605a65/ [15.04.2025].
3. Bir Dünya Şehri Olarak Konstantinopolis / Büyük Istanbul Tarihi. Antik Çağdan XXI. Yüzyıla. - https://istanbultarihi.ist/9-bir-dunya-sehri-olarak-konstantinopolis [15.04.2025].
4. Завоевание Стамбула (1453 г.) | Войны султана Мехмеда II # 1
5. Mustafa Sabri Küçükaşcı. Fetih Hadisi Ve Müslümanlarin İstanbul Kuşatmalari. -Antik Çağ'dan XXI. Yüzyıla Büyük İstanbul Tarihi. Siyaset ve Yönetim. Cilt II. Kuşatmalar ve Fetih. İstanbul, İSAM, 2015, s.284-293. - https://www.academia.edu/50782526/Fetih_Hadisi_ve_M%C3%BCsl%C3%BCmanlar%C4%B1n_%C4%B0stanbul_Ku%C5%9Fatmalar%C4%B1 [15.04.2025].
6. Peygamberimizin, Başka bir şehir değil de İstanbul'un fethini müjdelemesinin zahiri sebep ve hikmeti nedir? / Sorularla İslamiyet, 25.12.2023. - https://sorularlaislamiyet.com/peygamberimizin-baska-bir-sehir-degil-de-istanbulun-fethini-mujdelemesinin-zahiri-sebep-ve-hikmeti [15.04.2025].
7. Feridun M. Emecen. Fetih ve Kıyamet: 1453 İstanbul'un Fethi ve Kıyamet Senaryoları. İstanbul, Tımas Yayınları, 2012, 377 s.
8. Halil İnalcık ve İlber Ortaylı Fatih Sultan Mehmet'I Anlatıyor… - TRT Arşiv, 1985. - https://www.youtube.com/watch?v=pWVB7__LLeE [15.04.2025].
9. Prof. Dr. İlber Ortaylı, Fatih Sultan Mehmet ve fetih ile ilgili anlatıyor / İstanbul'un Fethi'nin 567. yıldönümünde ünlü tarihçi Prof. Dr. İlber Ortaylı, İstanbul'un Fatih'i Fatih Sultan Mehmet'in entelektüel kişiliğini anlattı. Cumhuriyet TV. - https://www.youtube.com/watch?v=1Kc7smkWJ_Q [15.04.2025].
10. Fatih İstanbul'u Fethetmeseydi Ne Olurdu? | Celal Şengör İle Olmasaydı Ne Olurdu / KAFA TV. - https://www.youtube.com/watch?v=vNpQ-xEU4ow [15.04.2025].
11. Mark Cartwright. 1453: İstanbul'un Fethi / Dünya Tarihi Ansiklopedisi (World History Encyclopedia), 23 Ocak 2018. - https://www.worldhistory.org/trans/tr/2-1180/1453-istanbulun-fethi/ [15.04.2025].
12. Mehmed II / TDV İslam Ansiklopedisi, 28. Cilt. Ankara, TDV, 2003, 395-407. - https://islamansiklopedisi.org.tr/mehmed-ii [15.04.2025].

13. Mehman Ağayev, Sevinc Əliyeva. Osmanlı tarixi. Dərs vəsaiti. Bakı, "Avropa" nəşriyyatı, 2021, 565 s. - https://www.academia.edu/53030319/Osmanl%C4%B1_Tarixi [15.04.2025].
14. İstanbul'un fethine gideen sürec / TRT Haber, 2018. Hazırlayan: Mine Çiftçi. - https://interaktif.trthaber.com/2018/istanbul-fetih/ [15.04.2025].
15. Aylin Yazan. 29 Mayıs İstanbul'un fethinin yıl dönümü: Osmanlı 1453'te gemileri Haliç'e nasıl taşındı? / BBC Türkçe, 29 Mayıs 2024. - https://www.bbc.com/turkce/articles/c4nn7rwwl4ko#:~:text=Tarih%C3%A7iler%20gemilerin%20ta%C5%9F%C4%B1nd%C4%B1%C4%9F%C4%B1%20rota%20%C3%BCzerinde,dola%C5%9Ft%C4%B1r%C4%B1larak%20Kas%C4%B1mpa%C5%9Fa'dan%20indirildi%C4%9Fini%20s%C3%B6yl%C3%BCyor. [15.04.2025].
16. Philippides M., Hanak W.K. The Siege and Fall of Constantinople in 1453: Historiography, Topography, and Military Studies. Routledge, 2011, 816 p.
17. Emecen F. Doğu ve Batı Dünyasında Fethin Yankıları / Yeditepe Fatih, 21 Mayıs 2021. - https://yeditepefatih.com/2021/nisan-mayis-haziran/dogu-ve-bati-dunyasinda-fethin-yankilari/ [15.04.2025].
18. Umut Sezer. İstanbul'un Fethi'nin Bizans'taki yansımaları / Haber ajandanet, 30.05.2021 [15.04.2025].
19. Bizanslı tarihçinin gözünden İstanbul'un Fethi / GZT Haber. - https://www.youtube.com/watch?v=iGWRUVdjyHQ&pp=ygUNI3R1cmtpeWVmZXRpaA%3D%3D [15.04.2025].

**KHALIDA AGHAZADE**
*Baku State University SABAH groups*
*3th year student of speciality of History Teacher*

## "GOLDEN APPLE" CONSTANTINOPLE: A HISTORY OVERVIEW FROM ITS FOUNDATION TO THE CONQUEST OF 1453

There are some conquests in world history that, in Ottoman terms, were the "Golden Apple" for the ruler. One such conquest is the conquest of Constantinople. This city, which served as the capital of three great civilizations, has maintained its status as one of the most important centers of history, politics, trade and culture for centuries and has been in the spotlight since its appearance on the stage of history. This city, which the Prophet Muhammad preached, has been attacked and besieged by many countries and is reflected in historical documents. A number of Ottoman sultans' conquest attempts were finally successfully completed during the reign of Sultan Mehmet II. Mehmet II left his mark in history with the title of "Conqueror" after this conquest. The conquest of Constantinople did not remain without an impact on world history. Thus, this conquest is recorded in sources as "the history that closed one century and opened another." Thus, the conquest of Constantinople is a seal on history. In this article, an attempt will be made to investigate the topic based on existing historiographical works.

*Keywords*: Constantinople, Byzantium, conquest attempts, Ottoman, Mehmet II, Istanbul.

*Daxil olma tarixi*: 15.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

UOT 94

**İLHAM ƏHMƏDOV**
*Bakı Dövlət Universtieti Türk xalqları tarixi kafedrası*
*Türk dünyası tarixi ixtisası üzrə II kurs magistrant*
**ilhamrasul19@gmail.com**

# TÜRKİYƏDƏ 1980-Cİ İL ÇEVRİLİŞİNİN UZUNMÜDDƏTLİ TƏSİRLƏRİ: 1990-CI İLLƏRİN SİYASİ BÖHRANI

*Elmi rəhbər:*
tarix elmləri doktoru Əsməd Muxtarova

*1980-ci ilin 12 sentyabrında Kənan Evrənin çevriliş vasitəsilə hakimiyyətə gəlməsindən sonra Türkiyənin siyasi və ictimai həyatında müxtəlif dəyişikliklər baş verdi. Kənan Evrən 32.Gün adlı arxiv kanalının "Kənan Evrən Çevrilişi izah edir" [1] başlıqlı reportajında jurnalist M.A.Biranda əsas məqsədinin çevriliş vasitəsilə Atatürk dəyərlərinin qorunub saxlanması, Ordunun hakimiyyətlər üzərində təsiri ənənəsini möhkəmlətmək istəməsi və küçələri cənginə alan sağ-sol çaxnaşmalarının qarşısını almaq olduğunu ifadə etmişdi. Yuxarıda sadalananlar barədə Türkiyə xalqının münasibəti fikir ayrılıqları ilə doludur. Tarixçilərin də bir qismi Kənan Evrənin xilasedici rolunda görürlər. Lakin çevrilişin uzunmüddətli təsirləri də qaçınılmaz oldu. Bir qism tarixçinin fikrinə görə 1990-cı illərdə Türkiyədə "Qaranlıq dövr" fenomeninin əsas memarlarından biri Kənan Evrən və rəhbərlik etdiyi çevrilişidir.*

*Açar sözlər:* 1980-ci il çevrilişi, MİT, mafiya, siyasi islamçılıq, postmodern çevriliş, sirli cinayətlər, Susurluq qəzası.

***Giriş.*** 1980-ci il 12 sentyabr çevrilişi Türkiyənin müasir tarixində dərin izlər buraxmış, ölkənin siyasi, sosial və iqtisadi strukturunu köklü şəkildə dəyişdirmişdir. Kənan Evrən başçılığı ilə həyata keçirilən bu hərbi müdaxilə 1970-ci illərin siyasi qütbləşməsinə və iqtisadi böhranına cavab olaraq ortaya çıxsa da, onun uzunmüddətli nəticələri 1990-cı illərdə Türkiyəni "qaranlıq dövr"-ə sürüklədi. Çevrilişin yaratdığı repressiv mühit, sol hərəkatların zəiflədilməsi, iqtisadi liberallaşma və ordunun siyasi rolunun güclənməsi kimi faktorlar 1990-cı illərdə "dərin dövlət", mafiya, siyasi islamçılıq və postmodern çevriliş kimi mürəkkəb fenomenlərin ortaya çıxmasına zəmin yaratdı. Xüsusilə Susurluq qəzası (1996) dövlət-polis-mafiya əlaqələrini üzə çıxararaq çevrilişin mirası olan qeyri-şəffaf strukturları ifşa etdi. Eyni dövrdə siyasi islamçılığın yüksəlişi və 1997-ci il postmodern çevrilişi Türkiyənin siyasi böhranını dərinləşdirdi. Susurluk hadisəsi, MİT (Milli İstihbarat Təşkilatı)-mafiya münasibətləri, siyasi islamçılığın güclənməsi və 28 fevral postmodern çevrilişi kimi əsas hadisələr çevrilişin uzunmüddətli təsirlərinə daxildir.

***Susurluq qəzası.*** 1980-ci il çevrilişinin Türkiyədə yaratdığı qeyri-şəffaf dövlət strukturları 1990-cı illərdə Susurluq qalmaqalı ilə bütün çılpaqlığı ilə üzə çıxdı. 3 noyabr 1996-cı ildə Balıkesir'in Susurluq bölgəsində baş verən avtomobil qəzası Türkiyənin siyasi tarixində dönüş nöqtəsi oldu. Qəza nəticəsində avtomobildə olan şəxslər – İstanbul Polis İdarəsinin keçmiş müdir müavini Hüseyn Qocadağ, axtarışda olan mafiya lideri Abdullah Çatlı və dövlət rəsmiləri ilə əlaqəli olan Gonca Us – dövlət, mafiya və cinayət aləmi arasındakı qaranlıq əlaqələri ortaya qoydu. Müxtəlif cinayətlərdə adı hallanan Abdullah Çatlının dövlət rəsmiləri ilə bir arada olması "sirli qətllərin" arxasındakı əl və ya əllər haqqında konsprisasiyaların da ortaya çıxmasına səbəb olmuşdu. Bir qism düşünürdü ki, dövlət bəzi maraqlarına xidmət etməyən şəxslərin cinayətlərini mafiya liderləri vasitəsilə törədir, həmçinin cinayətlərin təşkili və ört-basdır edilməsində MİT, JİTEM kimi qurumların gücündən istifadə edirdi. Bir qism isə bunu dövlətin deyil, dövlət içində hücrə dövlət təşkilatı və ya təşkilatlarının törətdiyinə inanırdı. Bu hadisə çevrilişdən sonra güclənən "dərin dövlət" strukturlarının Kürd məsələsi və narkotik ticarəti kimi sahələrdə necə fəaliyyət göstərdiyini göstərdi.1980-ci il çevrilişi dərin dövlətin formalaşmasında mühüm rol oynadı. Çevrilişdən sonra sol hərəkatların və Kürd təşkilatlarının repressiyası üçün xüsusi təhlükəsizlik qüvvələri və "kontrgerilla" kimi qeyri-rəsmi strukturlar yaradılmışdı. Bu strukturlar

1990-cı illərdə mafiya ilə əməkdaşlıq edərək qanunsuz fəaliyyətlərə, o cümlədən sirli cinayətlərə imza atdı. Susurluq hadisəsi bu əlaqələrin cəmiyyət tərəfindən görünməsinə səbəb oldu və dövlətə inamın sarsılmasına yol açdı. Məsələn, hadisədən sonra aparılan araşdırmalar zamanı Çatlı'nın MİT tərəfindən istifadə edildiyi və dövlət tərəfindən ona saxta sənədlər verildiyi üzə çıxdı. Kiprli jurnalist Qutlu Adalının 1996-cı ilin 6 iyulunda müəmmalı ölümündə də o dövrün Daxili İşlər Naziri Mehmet Ağarın adı ilə bərabər, Abdullah Çatlının da adı hallanmaqda idi.

"Çünki Qutlu Adalı qətli ilə Türkiyədəki dərin dövlət qurumları arasında əlaqələr mövcuddur. Bu əlaqələr Susurluk qəzası ilə sanki üzə çıxacaqmış kimi oldu, lakin daha irəli aparılmadı. Qutlu Adalı 6 iyul 1996-cı ildə qətlə yetirildi, Susurluk qəzası isə 1996-cı ilin noyabrında baş verdi. Bu qəzaya qədər Şimali Kipr Türk Respublikasında (KKTC) Adalı qətli ilə bağlı heç bir araşdırma komissiyası yaradılmamışdı. Susurluq qəzasında Abdullah Çatlının avtomobilinin arxasında tapılan silah İsrail istehsalı olan Uzi markalı silah idi. Adalı qətlində istifadə olunan silah da Uzi markalı idi. Türkiyə Böyük Millət Məclisində (TBMM) yaradılan Susurluk Komissiyasının hesabatlarından öyrənirik ki, bu silahlar İsrail tərəfindən Türkiyəyə hədiyyə edilir, lakin heç vaxt rəsmi qeydlərə daxil edilmir. Yəni kimsə bu silahları qeyri-rəsmi şəkildə istifadə edir. Susurluq qəzasında həlak olan Abdullah Çatlının "Mehmet Özbay" adını istifadə etdiyini bilirik və 1994-1996-cı illərdə Kiprin şimalına Mehmet Özbay adı ilə gələn bir neçə şəxs qeydə alınıb. Eyni zamanda, qəzada Melahat Özbay adı ilə həlak olan və Çatlının sevgilisi olan Gonca Us'un da adaya daxil olduğu qeydlər mövcuddur. Bunlar 1997-ci ildə yaradılan məclis araşdırma komissiyasında əldə edilən məlumatlardır. O dövrdə bir çox insan dinlənildi, lakin təhqiqatı konkret nəticələrlə tamamlamaq üçün kifayət qədər məlumat əldə oluna bilmədi." [2]. Susurluq qəzası çevrilişin yaratdığı repressiv və qeyri-şəffaf sistemin 1990-cı illərdəki siyasi böhranı dərinləşdirdiyini sübut etdi. Lakin qəzanın pərdəarxası haqqında faktlar detallı şəkildə tam olaraq ortaya çıxmadı.

***MİT və Mafiya.*** 1980-ci il çevrilişi Türkiyədə Milli İstihbarat Təşkilatının (MİT) siyasi rolunu gücləndirərək dövlət-mafiya əlaqələrinin formalaşmasına zəmin yaratdı. Çevrilişdən sonra sol hərəkatların və Kürd təşkilatlarının repressiyası üçün MİT "xüsusi əməliyyatlar"a cəlb olundu və bu prosesdə mafiya liderləri ilə əməkdaşlıq etdi. 1990-cı illərdə bu əlaqələr narkotik ticarəti, silah qaçaqmalçılığı və sirli cinayətlər kimi qanunsuz fəaliyyətlərdə özünü göstərdi. Susurluq qalmaqalı bu əlaqələrin ən bariz sübutu oldu, çünki hadisədə iştirak edən Abdullah Çatlı'nın MİT tərəfindən istifadə edildiyi və saxta sənədlərlə təmin olunduğu ortaya çıxdı. Çevrilişin repressiv siyasətləri MİT-in səlahiyyətlərini genişləndirdi və qeyri-rəsmi strukturların, məsələn, "kontrgerilla"nın yaranmasına səbəb oldu. "1990-cı illərin əvvəllərindən 1996-cı ilə qədər hüquqi mübarizə yollarının kifayət etmədiyi düşünüldüyü Kürd hərəkatının üzvlərinə qarşı çox sayda sirli qətllərin törədilməsi, bombalamalar, dərin dövlət və kontrgerilla müzakirələrini bir daha gündəmə gətirdi. Susurluq qəzasında həlak olan Abdullah Çatlı 1980-ci ildən əvvəl antikommunist hərəkatın gənclik lideri idi. Bu təsadüfi deyildi ki, Antikommunist hərəkatdakı yoldaşları da 1990-cı illərdən sonrakı fəaliyyətlərində Çatlı'nın yanında idi. Bu kadrın 1980-ci ildən əvvəl yeddi TİP-li (Türkiyə İşçi Partiyası) gənci evlərində öldürdüyü təsadüfən üzə çıxmışdı. 1970-ci illərdə kommunizmlə mübarizə məqsədilə istifadə edilən kadrlar 1990-cı illərin əvvəllərində Kürd hərəkatına qarşı mübarizə məqsədilə cəlb olunan kadrlarla eyni idi." [3]. "Yeşil" kod adı ilə ortaya çıxan Mahmud İldırımın da bənzər fəaliyyətlərdə adı hallanırdı. Kontrgerilla Kürd məsələsi ilə bağlı əməliyyatlarda mafiya ilə birgə fəaliyyət göstərirdi. Məsələn, 1990-cı illərdə Cənub-Şərqi Anadoluda baş verən sirli cinayətlərin bir çoxunun MİT-in dəstəklədiyi qruplar tərəfindən törədildiyi iddia edilir. İqtisadi liberallaşma isə mafiyanın güc qazanmasına imkan verdi, çünki çevrilişdən sonra dövlət nəzarətinin zəifləməsi qanunsuz iqtisadi fəaliyyətləri artırdı. MİT-mafiya əlaqələri 1980-ci il çevrilişinin yaratdığı birbaşa idarəçi ordu modeli sisteminin nəticəsi olaraq 1990-cı illərdə Türkiyənin siyasi böhranını dərinləşdirdi.

***Siyasi islamçılığın güclənməsi.*** 1980-ci il çevrilişi sol hərəkatları zəiflədərək Türkiyədə siyasi islamın yüksəlişinə yol açdı. Çevrilişdən sonra hərbi idarə sol ideologiyanı "təhlükə" kimi qiymətləndirmişdi və bunun qarşısını almaq üçün "Türk-İslam sintezi" ideologiyasını təşviq etdi. 1982-ci il Konstitusiyası ilə din dərsi məcburi edildi, dini təşkilatlara dəstək artdı və bu, siyasi boşluğu doldurmaq istəyən Milli Görüş hərəkatı kimi qrupların güclənməsinə səbəb oldu. 1990-cı illərdə Rifah Partiyası Nəcməddin Ərbakanın liderliyi ilə siyasal islamı geniş kütlələrə çatdırdı və 1995-ci il seçkilə-

rində böyük uğur qazandı. Siyasi islamçılığın yüksəlişi çevrilişin ideoloji və sosial mirası ilə sıx bağlı idi. Sol hərəkatların zəiflədilməsi və iqtisadi liberallaşmanın yaratdığı sosial narazılıq siyasi islamçılığın populyarlaşmasına artıq əsaslı zəmin yaratmışdı. Rifah Partiyası kasıb təbəqələrin dəstəyini qazanaraq neoliberal siyasətlərə alternativ təkliflər irəli sürürdü. Lakin bu yüksəliş dünyəvi elita və ordu tərəfindən təhdid kimi qəbul edildi, bu da 1997-ci il "postmodern çevrilişi" ilə nəticələndi. Lakin bu müdaxilə Türkiyədə siyasi qütbləşməni daha da dərinləşdirdi və siyasal islamın uzunmüddətli perspektivdə daha da güclənməsinə səbəb oldu. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, 1980-ci illərdə baş verən hadisələr müəyyən mənada libas dəyişdirərək yeni forma və yeni kimliklə yenidən yaşanmaqda idi. İdeoloji savaşlar yerini milli və dini mübahisələrə buraxmışdı. "12 Sentyabr 1980-ci il çevrilişini yaşamış ölkəmizdə hərbi idarəçiliyin sona erməsi və mülki idarəçiliyə keçid ilə birlikdə "sağ-sol çaxnaşmaları" yerini "Türk-Kürd", "Laik-Anti Laik", "Sünni-Ələvi" kimi münaqişələrə verib. 12 sentyabr 1980-ci il hərbi çevrilişi ilə dondurulmuş bu problemlər 1990-cı illərdə "terrorla mübarizə, Kürd məsələsi, faili məchul cinayətlər, siyasi İslam, kökdən dincilik, Ələvi məsələsi" [4] və sair kimi müzakirələrə səbəb olmuşdur" [5]. Siyasi islamçılar belə bir zəmində ortaya çıxıb ambisiyalarını bəyan etmişdilər. Siyasi islamçılığın güclənməsi 1980-ci il çevrilişinin ideoloji manipulyasiyalarının birbaşa nəticəsi idi. Bu proses Türkiyənin 1990-cı illərdəki siyasi böhranını dərinləşdirərək cəmiyyətdə ideoloji qütbləşməni artırdı və gələcək siyasi transformasiyalara (məsələn, AKP-nin hakimiyyətə gəlməsinə) zəmin yaratdı.

***Nəticə.*** 1980-ci il çevrilişi Türkiyənin siyasi tarixində dönüş nöqtəsi olaraq 1990-cı illərdə ölkədə dərin böhranlara yol açdı. Susurluq qəzası dövlət-mafiya-MİT əlaqələrini üzə çıxararaq cəmiyyətdə şəffaflıq və etimad krizisinə səbəb oldu. Çevrilişin tətbiq etdiyi Türk-İslam sintezi siyasi islamın güclənməsinə təkan verdi, bu da Rifah Partiyasının 1995-ci il uğuru ilə özünü göstərdi, lakin 1997-ci il postmodern çevrilişi ilə bu yüksəliş müvəqqəti olaraq dayandırıldı. 1970-ci illərin sağ-sol qarşıdurması ilə müqayisədə, 1980-ci il çevrilişinin təsirləri daha sistemli və dağıdıcı oldu, çünki o, dövlət strukturlarını kriminal şəbəkələrlə birləşdirərək "dərin dövlət" fenomenini gücləndirdi. 1970-ci illərdəki böhran əsasən ideoloji mübarizələrdən ibarət idisə, 1990-cı illərdəki böhran dövlətin öz daxilindəki qeyri-qanuni fəaliyyətlərlə dərinləşdi. Çevrilişin uzunmüddətli nəticələri Türkiyənin siyasi landşaftını dəyişdirərək 2000-ci illərdə yeni ideoloji və siyasi cərəyanların formalaşmasına zəmin yaratdı. Bu dövrün öyrənilməsi Türkiyənin demokratiya təcrübəsindəki çətinlikləri anlamaq üçün mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. 12 Eylül 1980 darbesi nasıl yapıldı? Kenan Evren anlatıyor |32.Gün arşivi. - https://youtu.be/lWsz5Q6OvA4?si=XdgvUOMD8dWUtiZp [30.04.2025].
2. Banu Tuna. Kıbrıs'ta geçmişle hesaplaşmak bir yana geçmişin üzeri kapatılıyor / Hafıza Merkezi, 06.07.2021. - https://hakikatadalethafiza.org/kibrista-gecmisle-hesaplasmak-bir-yana-gecmisin-uzeri-kapatiliyor [30.04.2025].
3. Ayşegül Sabuktay. Derin devletin izini sürmek / Heinrich Böll Stiftung Derneği Türkiye Temsilciliği. - https://tr.boell.org/tr/2014/06/16/derin-devletin-izini-surmek-yayinlar [30.04.2025].
4. Erman A. Kimlik ve Egemenlik: Ulus, Devlet ve Güvenlik Sorunları. İstanbul, Truva Yayınları, 2011, 129 s.
5. Türkiye Büyük Millet Meclisi, TBMM Meclis Araştırması Komisyonu Raporu (Cilt:1, Dönem:24, Yasama Yılı:3, S.Sayısı: 376). TBMM Darbeleri Araştırma Komisyonu. Ankara, 2012.

**ILHAM AHMADOV**
*2nd year master student of Department of History of the Turkic World of Baku State University*

## LONG-TERM EFFECTS OF THE 1980 COUP IN TÜRKIYE: THE POLITICAL CRISIS DURING THE 1990S

Following Kenan Evren's rise to power through the coup on September 12, 1980, various changes occurred in Türkiye's political and social life. In an interview titled "Kenan Evren Explains

the Coup" on the archival channel 32.Gün, Evren stated to journalist M.A. Birand that his main objectives were to preserve Atatürk's values through the coup, strengthen the tradition of the military's influence over governments, and prevent the right-left conflicts that had engulfed the streets. Public opinion in Türkiye regarding these objectives is deeply divided. Some historians view Kenan Evren as a savior, while others argue that he and the coup were among the primary architects of the "dark era" phenomenon in Türkiye during the 1990s, as its long-term impacts were inevitable.

*Keywords:* 1980 coup, MIT, mafia, political Islamism, postmodern coup, mysterious murders, Susurluk accident.

*Daxil olma tarixi*: 30.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

UOT 94(479.24); UOT 32:93/94

**NƏZRİN ALLAHVERDİYEVA**
*Bakı Dövlət Universiteti,*
*SABAH qrupları Tarix müəllimliyi ixtisasının III kurs tələbəsi*
**thistory55@gmail.com**

# AZƏRBAYCAN - MİSİR MÜNASİBƏTLƏRİ: QAFQAZDAN NİL VADİSİNƏ UZANAN BEYNƏLXALQ KÖRPÜ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru İqbal Ağayev

*Azərbaycan və Misir arasında münasibətlər müasir dövrümüz üçün sadə beynəlxalq əlaqələr kimi görünsə də bu iki dövlət arasındakı dəyərlər qədim tarixə əsaslanır. Orta əsrlərdə, xüsusilə, Məmlük dövləti dövründə Azərbaycan mənşəli sərkərdələr və alimlər Misir dövlətçiliyində mühüm rol oynamış, elmi və mədəni əlaqələr inkişafına öz töhfələrini vermişlər. XV əsrdə yaşanan siyasi gərginliklərə baxmayaraq, əlaqələr davam etmiş və xüsusilə təhsil sahəsində qarşılıqlı münasibətlər daim yüksələn xətlə inkişaf etmişdir. Beləliklə, uzun illər ərzində davam edən münasibətlər Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra yeni dinamika qazanmış, siyasi dialoq, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və mədəni əlaqələr sahəsində mühüm addımlar atılmışdır. Məqalədə Azərbaycan-Misir münasibətlərinin bugünkü inkişaf səviyyəsi, imzalanmış sənədlər və yüksək səviyyəli qarşılıqlı səfərlərin rolu təhlil edilir, iki ölkə arasında strateji əməkdaşlığın gələcək perspektivlərinə dair ümumi baxış təqdim olunur. Məqalənin yazılmasında məqsəd iki dövlət arasındakı münasibətləri artıq həllini tapmış Qarabağ münaqişəsi kontekstindən bir daha araşdırmaqdan ibarətdir.*

*Açar sözlər:* Azərbaycan, Misir, Qarabağ münaqişəsi, diplomatik əlaqələr, siyasi əməkdaşlıq.

***Giriş.*** Azərbaycan və Misir arasındakı münasibətlər təkcə müasir dövrün yox, eyni zamanda dərin tarixi köklərə malik olan çoxşaxəli əlaqələrin məhsuludur. Bu münasibətlərin ən parlaq dövrlərindən biri isə orta əsrlərə, xüsusilə XIII-XV əsrlərə təsadüf edir. Həmin dövrlər ərzində Misirdə hökmranlıq edən Məmlük sultanlığı türkdilli əhali arasında geniş dəstəyə malik idi və bu prosesdə Qafqazdan, o cümlədən Azərbaycandan olan sərkərdələr və alimlər mühüm rol oynayırdılar. Xüsusilə, Volqa-Ural boyu ərazilər və Mərkəzi Asiyanın ətraf bölgələrindən gətirilən hərbçilər Misir ordusunda yüksələrək yüksək vəzifələrə qədər çatmış və dövlət idarəçiliyində söz sahibi olmuşdular. Lakin onu da qeyd etmək lazımdır ki, bu münasibətlər hər zaman müsbət inkişaf yolu keçməmişdir. Misir Məmlük dövlətinin Azərbaycanla olan əsas əlaqələri Baharlı sülaləsinin dövrünə təsadüf edir. Belə ki, XV əsrin əvvəllərində yaxınlaşan Teymurilər təhlükəsi səbəbi ilə Qara Yusif və Sultan Əhməd Məmlük dövlətinə sığınmaq üçün bu ərazilərə yollansalar da, Məmlük hökmdarı onları zindana saldırmışdı. Buna səbəb Məmlük hökmdarının bu addımı atmasına səbəb Osmanlı sultanı I Bəyazidin Ankara yaxınlığındakı ağır məğlubiyyəti olmuşdu. Əmir Teymurun ölümündən sonra Qara Yusif və Sultan Əhməd azadlığına qovuşmuş, bununla da XV əsrdən etibarən hər iki dövlət arasında siyasi əlaqələr bərpa olunmuş, elm və mədəni əlaqələrin inkişafına yol açmışdır. Xüsusilə təhsil almaq üçün ərəb ölkələrinə yollanan tələbələrin arasında yolunu Misirdən salanlar da vardı.

Daha sonrakı dövrlərdə xüsusi ilə 1517-ci ildə Yavuz Sultan Səlimin Misiri fəth etməsi ilə Məmlük dövlətinin süqut etməsi Misirlə birbaşa münasibətlərimizə təsir göstərdi.

XIX əsrdə Misirin Osmanlı imperiyası daxilində xüsusi statusa malik olması və modernləşmə prosesinə başlaması, eyni zamanda Azərbaycanın çar Rusiyasının tərkibinə daxil olması, iki ölkə arasında əlaqələrin formasını bir daha dəyişdirdi. XIX əsrin ortalarından etibarən Azərbaycan ziyalıları və ticarətçiləri Misirlə yenidən maraqlanmağa başladılar. Misirin böyük şəhərləri, xüsusilə Qahirə və İsgəndəriyyə, dövrünün Osmanlı dünyasının mühüm intellektual və iqtisadi mərkəzlərindən birinə çevrilmişdi.

XIX əsrin sonlarında və XX əsrin əvvəllərində baş verən siyasi proseslər – o cümlədən, I Dünya müharibəsi və Osmanlı imperiyasının süqutu – Azərbaycan və Misir arasındakı əlaqələrə yeni bir nəfəs verdi. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə Azərbaycan beynəlxalq arenaya çıxmağa başladı və İslam dünyasının müxtəlif ölkələri ilə əlaqə qurmağa çalışdı. Hər iki ölkənin öz müstəqilliklərini qorumağa və xarici təsirlərə qarşı müqavimət göstərməyə çalışması bu dövrlər üçün oxşar cəhət hesab edilə bilər.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Misirlə rəsmi əlaqələr zəiflədi. Buna baxmayaraq qeyd etməliyik ki, 1952-ci il iyulun 23-də Misirdə Camal Əbdül Nasirin rəhbərliyi ilə baş verən inqilab nəticəsində monarxiyanın devrilməsi və 1953-cü ildə Misirin respublika elan edilməsi və Azərbaycanın bir hissəsi olduğu SSRİ ilə əlaqələrin inkişaf etməyə başlamasına, dolayı yolla Misirlə münasibətlərimizin bərpasına etməsinə səbəb oldu.

Beləliklə, orta əsrlərdən XX əsrə qədər Azərbaycan və Misir arasındakı münasibətlər müxtəlif mərhələlərdən keçmiş, hərbi, siyasi, elmi və iqtisadi sahələrdə fərqli formalar almışdır. Məhz bunun nəticəsidir ki, hər iki dövlət arasında bu gün də siyasi, iqtisadi, elm və təhsil, idman və mədəniyyət sahələrində müəyyən addımlar atılır.

***Misir Ərəb Respublikası (MƏR) və Azərbaycan Respublikası arasında siyasi əlaqələr. Diplomatik münasibətlər. Qarabağ münaqişəsində Misirin mövqeyi.*** Azərbaycan Respublikası ilə MƏR arasında diplomatik münasibətlərin əsası 1991-ci ilin sonlarında qoyulmuşdur. Həmin il dekabrın 26-da Misir Azərbaycanın dövlət müstəqilliyini tanımış, bununla da iki ölkə arasında gələcək əməkdaşlığın təməli atılmışdır. Qısa müddət sonra, 1992-ci il mart ayının 27-də rəsmi olaraq diplomatik əlaqələr qurulmuşdur. Bu hadisə hər iki ölkənin qarşılıqlı maraqlara əsaslanan münasibətlərin göstəricisi idi.

İki dövlət arasında münasibətlərin yeni keyfiyyət göstəricisi isə 1993-cü ilin aprel ayından etibarən MƏR-in Bakıdakı səfirliyinin fəaliyyətə başlaması ilə bağlıdır. 1994-cü ilin yanvar ayında isə Azərbaycan Respublikasının Qahirədəki səfirliyi öz qapılarını açmış, bu isə öz növbəsində dövlətlər arasında müxtəlif sahələrdə əlaqələrin qurulmasında müsbət təsirə malik olmuşdur. Lakin qeyd etmək lazımdır ki, ölkələr arasında münasibətlərə əsas yön verən addım dövlət başçılarının səfərləri və görüşlərinin təşkil olunması ilə əlaqədardır. Belə ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ 1994-cü ilin sentyabr ayında Misirə səfər edərək ölkələr arasındakı əməkdaşlığın ilkin konturlarını müəyyən etmişdir.

"Ulu Öndər Misir–Azərbaycan Dostluq Cəmiyyətinin nümayəndələri ilə görüşdə qeyd etmişdi ki, iki ölkə arasında əlaqələrin tarixi çox böyükdür. Bizim xalqlarımız uzun əsrlər boyu bir-biri ilə sıx əlaqədə olub, bir-birinə kömək göstəriblər. Bizim milli, dini, tarixi ənənələrimizdə çox oxşarlıq, eynilik var. Qarabağ münaqişəsində Misirin daim Azərbaycanı dəstəkləməsi, beynəlxalq təşkilatlarda ölkəmizin ədalətli mövqeyini müdafiə etməsi münasibətlərimizdəki səmimi dostluq bağlarını daha da gücləndirib" [2]. Prezident Heydər Əliyevin də nitqindən aydın olduğu kimi Qarabağ məsələsi fonunda Misirlə münasibətlərimiz xüsusi önəm kəsb etməkdə idi. Belə ki Misir, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrə dəstək vermiş, bu sənədlərdə Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq tanınmış sərhədləri daxilində suverenliyini təsdiq etmiş və erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmasını tələb etmişdir.

Həmçinin Baş katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərməyi xahiş etmişdir [3].

Bununla yanaşı, 1994-cü ilin dekabrında Kasablankada keçirilən İslam Əməkdaşlıq Təşkilatının VII Zirvə görüşündə Misir Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dair qətnamənin qəbulunu dəstəkləyən ölkələrdən biri olmuşdur. Konfransın yekun iclasında qəbul edilmiş bəndlərə əsasən, 70-73-cü maddələr Azərbaycan-Ermənistanın Qarabağ münaqişəsinə aydınlıq gətirir. Bu mənada 72-ci maddə xüsusilə diqqəti çəkir: "Ermənistan və Azərbaycan arasında mövcud münaqişə dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanmaqla, ədalətli və sülh yolu ilə həll edilməlidir. Bu kontekstdə həm Ermənistan, həm Azərbaycan, həm də ATƏM-in Minsk Qrupuna üzv dövlətlər təşkilatın vasitəçiliyi ilə aparılan sülh prose-

sində konstruktiv iştirak etməli, eyni zamanda sülhün əldə olunmasına maneə yarada biləcək addımlardan çəkinməlidirlər” [4].

Əfsus ki, Misirin ölkəmizə olan bu mövqeyi mənfur qonşularımız tərəfindən heç də birmənalı qarşılanmamışdır. Hətta məsələ ilə bağlı Erməni xarici işlər nazirliyinin arxiv səhifəsində belə bir məlumat qeyd olunur: “Ermənistan Misirə qarşı müsbət münasibət sərgiləyir, çünki Misir Azərbaycanın işğal olunmuş əraziləri məsələsində Ermənistanın mövqeyinə zidd olmayan, mübahisəli bir mövqe tutur” [5].

Bu isə öz növbəsində onu sübut edir ki, Misir Azərbaycanın mövqeyini dəstəklədiyi üçün ermənilər narazı idilər və bunu "mübahisəli münasibət" kimi təqdim etmişdilər.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev isə 2008-ci ilin may ayında bu qədim ərəb ölkəsinə rəsmi səfər etmiş, bir sıra mühüm görüşlər keçirmiş və ikitərəfli əməkdaşlığın genişlənməsi istiqamətində yeni razılaşmalara imza atmışdır. Azərtacın verdiyi məlumata əsasən, 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan Bakı Prosesi müsəlman ölkələri ilə Avropa dövlətlərini bir araya gətirməklə mədəniyyətlərarası dialoqun dünya miqyasında təbliğinə güclü təkan verdi. Bu Proses çərçivəsində Azərbaycan tərəfindən iki ildən bir təşkil edilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Birləşmiş Millətlər Təşkilatı tərəfindən sözügedən sahədə önəmli beynəlxalq platforma kimi tanınıb. Ərəb ölkələri, mütəmadi olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə öz dəstəyini də ifadə ediblər. Bir sıra ərəb dövlətləri, xüsusilə İraq və Misir illərdir mina problemindən əziyyət çəkir. Ölkəmiz mina probleminə beynəlxalq aləmdə daha çox diqqət çəkmək istiqamətində ərəb ölkələri ilə əməkdaşlıq edə bilər [6]. Beləliklə, iki dövlət arasındakı siyasi münasibətlər daha sonrakı dövrlər üçün də öz əhəmiyyətli rolunu qoruyub saxlamış oldu. Bunun əsas nümunələrindən biri kimi 2016-cı ildə Qahirədə baş vermiş terror aktını, həmçinin 2017 -ci ildə Ər-Rauda məscidinə silahlı hücum hadisələrini misal göstərmək olar. Belə ki, Ali Baş Komandanımız hər iki hadisə ilə bağlı kəskin mövqeyini bildirmiş, bu da öz növbəsində Misir xalqına dərin ehtiram göstərdiyini təsdiqləmişdir [7; 8].

Bu illər ərzində sadəcə dövlət başçıları deyil, həm də xarici işlər nazirləri səviyyəsində aparılan dialoqlar da münasibətlərin dərinləşməsində önəmli yer tutur. Azərbaycanın sabiq xarici işlər naziri Elmar Məmmədyarov müxtəlif illərdə - 2005, 2009 və 2016-cı illərdə Misirdə rəsmi və işgüzar səfərlərdə olmuş, bu səfərlər çərçivəsində ikitərəfli münasibətlərin geniş spektrini əhatə edən məsələlər müzakirə olunmuşdur. Hazırkı nazir Ceyhun Bayramov da bu diplomatik ənənəni davam etdirərək 2023-cü ilin fevralında Qahirəyə işgüzar səfər etmişdir. Misir tərəfdən isə dövrünün xarici işlər nazirləri: Əhməd Əbul Qeyt və Sameh Şukri 2010 və 2019-cu illərdə Bakıya səfər etmiş, dostluq münasibətlərinin inkişafına töhfə vermişlər.

Qeyd etmək lazımdır ki, dövlətlər arasında əməkdaşlığın vacib tərkib hissələrindən biri də parlamentlərarası münasibətlərin təşkil olunmasından asılıdır. Hazırda Azərbaycan Respublikasının Milli Məclisində yaradılmış Azərbaycan-Misir parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Misir Nümayəndələr Palatasında isə Misir-Azərbaycan dostluq assosiasiyası fəaliyyət göstərir. Bu qurumların rəhbərliyi müvafiq olaraq deputat Ceyhun Məmmədov və Misirli siyasətçi Əli Cüməyə həvalə olunmuşdur. Parlament sədrinin səfərləri də bu əlaqələrin inkişafına töhfə vermişdir. 1997-ci ildə mərhum spiker Murtuz Ələsgərovun, 2023-cü ilin fevralında isə hazırkı spiker Sahibə Qafarovanın Misirə etdiyi rəsmi səfərlər bu istiqamətdə əhəmiyyətli addımlar kimi qiymətləndirilə bilər. Parlament sədrlərinin görüşləri ilə yanaşı ölkələr arasında millət vəkillərinin də rəsmi görüşləri baş tutmuşdur. Bunların içərisində millət vəkili Qənirə Paşayevanın 2017-ci ildə Misirə etdiyi səfər xüsusi önəm daşıyır. Bunun əsas səbəbi isə Xocalı soyqırımına Misir hökuməti tərəfindən rəsmi qiymətin verilməsi ilə bağlı idi. İclas zamanı Misir parlamenti sədrinin 1-ci müavini Mahmud Əş-Şərif və Dini Məsələlər Komitəsinin sədri Üsəmə Əl-Abdaya Qarabağ problemi ətrafında son vəziyyətlə bağlı məlumat verilmiş, eyni zamanda Ermənistanın işğal etdiyi torpaqlarımzda törətdiyi vandalizm aktları haqqında müzakirələr aparılmışdır. Müzakirələr zamanı Q.Paşayeva soyqırımlara bağlı qəti mövqeyini sərgiləmiş və bunu daha sonrakı müsahibələrində də bildirmişdir: “Evinə dönə bilməyən azərbaycanlı qaçqın və məcburi köçkünlərin, bütün Azərbaycan xalqının müsəlman ölkəsi Misirdən gözləntilərini də açıq söylədim. Qarabağ məsələsində bundan sonra Azərbaycanı daha da fəal müdafiə etməklə yanaşı,

Misir parlamenti tərəfindən Xocalı soyqırımını kəskin qınayan, pisləyən sənədin qəbulu ilə bağlı da danışdıq. Yəni, Xocalı soyqırımı ilə bağlı Misir parlamentinin rəsmi mövqeyinin açıq şəkildə ortaya qoyan bir sənədin qəbul edilməsinin ədalətin dəstəklənməsi baxımından nə qədər böyük əhəmiyyət daşıdığını açıq şəkildə dostcasına söylədik. Komitələr səviyyəsindən başlayaraq, bu istiqamətdə addımların atılmasının vacibliyi barədə danışmaqla yanaşı, Xocalı soyqırımı ilə bağlı sənəd qəbul edən ölkələr barədə də danışdıq" [9].

Q.Paşayeva qeyd edib ki, eyni zamanda, parlamentlərarası əməkdaşlığın genişlənməsi, Misir parlamentində Azərbaycanla əməkdaşlıq qrupunun qısa zamanda formalaşmasının vacibliyi, diplomatik pasportların vizadan azad olunması kimi məsələləri də səfirlə birlikdə diqqətə çatdırdıq və bu məsələ müzakirə olundu: "Misir parlamentini sədrinin 1-ci müavini Mahmud Əş-Şərif bildirdi ki, ərazi bütövlüyü, Dağlıq Qarabağ problemi ilə bağlı Misirin dəstəyi bundan sonra da davam edəcək və ölkəsi Azərbaycanla əməkdaşlığın inkişafında çox maraqlıdır. Səsləndirdiyimiz təkliflərlə bağlı məsələlərə baxılacağını deyən Mahmud Əş-Şərif bütün istiqamətlərdə əməkdaşlığın genişlənməsi üçün addımlar atılacağını bildirdi. Azərbaycanda keçiriləcək beynəlxalq tədbir çərçivəsində yaxın günlərdə ölkəmizə səfər dərəcəyini deyən Misirin Dini Məsələlər Komitəsinin sədri Üsamə Əl-Abda da, Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi diqqət edəcəklərini bildirdi" [9].

Beləliklə bu görüşdən sonra Misir parlamentində Azərbaycanla əməkdaşlığın genişləndirilməsi, Xocalı soyqırımı ilə bağlı sənədin qəbul edilməsi və Azərbaycanın ərazi bütövlüyünə dəstəyin davam etdirilməsi məsələləri müzakirə olunmuş, Misir rəsmiləri Azərbaycanla bütün istiqamətlərdə əməkdaşlığın inkişafına maraqlı olduqlarını ifadə etmiş və bu sahədə konkret addımlar atacaqlarını bildirmişlər.

Misirlə olan münasibətlərin bir qismi Qoşulmama Hərakatı ilə də bir başa bağlıdır. Qeyd etmək lazımdır ki Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına tamhüquqlu üzv qəbul edilmiş və 2019–2023-cü illərdə təşkilata sədrlik etmişdir. MƏR-in Xarici İşlər naziri Sameh Şükri sədr seçilməmiz münasibəti ilə dövlətimizə olan inamını Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Toplantısında ifadə etmişdir [10].

Bu müddət ərzində Misir və Azərbaycan Hərəkat çərçivəsində sıx əməkdaşlıq etmiş, Qarabağ məsələsi daxil olmaqla bir sıra beynəlxalq məsələlərdə ortaq mövqe sərgiləmişdir.

Misir Azərbaycanın ərazi bütövlüyünü Qoşulmama Hərəkatının sənədlərində dəstəkləyən ölkələrdən biri olmuşdur. Bu 2020-ci ilin sentyabr-noyabr aylarında baş verən İkinci Qarabağ müharibəsi zamanı Misirin mövqeyinə də böyük təsir göstərmiş, rəsmi olaraq neytral bir mövqe sərgiləsə də, Azərbaycanın ərazi bütövlüyünə hörmət prinsipini dəfələrlə vurğulamışdır. Müharibə zamanı Misir XİN münaqişə ilə bağlı verdiyi bəyanatda tərəfləri atəşkəsə və beynəlxalq hüquq çərçivəsində münaqişənin sülh yolu ilə həllinə çağırmışdır. Bəyanatda, dolayısı ilə Azərbaycanın ərazi bütövlüyünə hörmət olunması ideyası da əks olunmuşdu.

Bununla yanaşı Misir mediasında yayımlanan xəbərlərdə də Azərbaycanın öz torpaqlarını azad etdiyi vurğulanırdı. Misirin tanınmış xəbər agentlikləri ("Al-Ahram", "Middle East News Agency" və digərləri) hadisələri işıqlandırarkən, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyindən bəhs etmiş, Ermənistanın işğalçı siyasəti haqqında da məlumat vermişdilər.

İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın bir çox müsəlman ölkələrindən dəstək ala bilməməsinin səbəblərindən biri də Misir kimi ölkələrin Azərbaycana qarşı açıq müxalif mövqe tutmaması ilə izah oluna bilər. Ermənistanla Misir arasında geniş diplomatik əlaqələrin mövcud olduğunu Misir Ərəb Respublikasının Ermənistandakı səfiri Mohamed Saad öz müsahibələrindən birində vurğulamışdır. Bununla belə, Misir rəsmi dairələri Ermənistanın Qarabağla bağlı iddialarını dəstəkləməmişdir. Hələ 2010-cu illərdə M.A.Saad məsələ ilə bağlı Misirin hər zaman sülh tərəfdarı olduğunu, bu baxımdan ATƏT-in Minsk Qrupunun göstərdiyi səylərə görə minnətdarlıq ifadə etdiyini bildirmişdir [11].

Hərçənd ki bu illər ərzində Minsk qrupu fəaliyyətləri öz uğurlu nəticəsini göstərmədi. Məsələ ilə bağlı Prezident İlham Əliyev hələ 2003-cü ildə Cenevrədə keçirilmiş Zirvə görüşündə, həmçinin BMT-nin baş katibi Kofi Annana da bildirmişdir: "Münaqişənin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupunun fəaliyyətinin heç bir nəticə vermədiyini təəssüflə xatırlayaraq bildirirəm ki, BMT, digər beynəlxalq təşkilatlar münaqişəyə son qoyulması ilə bağlı qəti sözlərini deməlidir" [1, 162].

2020-ci ilin 27 sentyabrında Azərbaycan Ordusu Ermənistanın növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatına başladı. 44 gün davam edən İkinci Qarabağ Müharibəsi xalqımızın yenilməz ruhunun, ordumuzun peşəkarlığının və qəhrəmanlığının bariz nümunəsi oldu. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa və digər işğal altında olan şəhər və kəndləri mərdliklə azad etdi. Xüsusilə Şuşanın azad olunması Azərbaycanın hərbi tarixinə qızıl hərflərlə yazıldı. Bu qələbə münasibətilə Üçtərəfli bəyanatın imzalanmasından sonra Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyəti və təsisçiləri Prezident İlham Əliyevə öz təbriklərini bildirmiş, həmçinin Azərbaycanın bütün dünya ölkələri tərəfindən tanınan ərazi bütövlüyü və suverenliyinin bu razılaşma sayəsində bərpa olunacağına inamını qeyd etmişdir [12].

Müharibədən sonrakı dövrlərdə də Misir Ərəb dövləti olaraq Azərbaycanda quruculuq işlərinin fəaliyyət göstərməsində iştirak etmişdir. Bu gün də Misirlə olan əlaəqələrimiz özünün inkişafını yaşayır. Belə ki, 9 iyun 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və MƏR-in Prezidenti Əbdülfəttah əs-Sisi Qahirədə mühüm görüş keçirmişlər. Bu görüş iki ölkə arasında mövcud əməkdaşlığın daha da dərinləşdirilməsi və yeni istiqamətlərdə inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Görüş zamanı tərəflər siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin genişləndirilməsi məsələlərini müzakirə etmiş, qarşılıqlı səfərlərin intensivliyinin və siyasi dialoqun artırılmasının vacibliyini vurğulamışlar. Prezidentlər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində, xüsusən də BMT, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı daxilində əməkdaşlığın gücləndirilməsinə dair ortaq mövqe bildirmişlər.

Burada qeyd edilməli məsələlərdən biri də Fələstin ilə bağlı idi. Hər iki ölkə rəhbəri müasir dövrümüzün əsas məsələsinə xüsusi diqqət yetirmiş, Prezident İlham Əliyev Azərbaycanın müstəqil Fələstin dövlətinin yaradılmasını və Şərqi Qüdsün onun paytaxtı olmasını dəstəklədiyini bəyan etmişdir. Bu mövqe iki ölkənin beynəlxalq hüquqa və ədalətə əsaslanan ortaq prinsiplərini bir daha təsdiqləmişdir.

Bu müzakirələrdə İqtisadi əməkdaşlığın yeni mərhələyə keçməsi üçün konkret addımlar müzakirə olunmuş, ticarət, nəqliyyat, enerji və infrastruktur sahələrində birgə fəaliyyətin gücləndirilməsi qərara alınmışdır. Bu məqsədlə Azərbaycan-Misir Hökumətlərarası Birgə Komissiyasının fəaliyyəti daha da aktivləşdirilməsi və yaxın zamanlarda növbəti iclasın keçirilməsi də planlaşdırılmışdır. Regional təhlükəsizlik məsələlərinə də toxunulmuş, xüsusən də Cənubi Qafqazda davamlı sülh və sabitliyin təmin olunmasının əhəmiyyəti vurğulanmışdır. Prezidentlər bu istiqamətdə səylərin artırılmasının vacibliyi barədə ortaq razılığa gəlmişlər.

Beləliklə, 2024-cü il Qahirə görüşü Azərbaycan və Misir arasında strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirmiş, dostluq və əməkdaşlıq münasibətlərinin gələcək inkişafı üçün möhkəm təməl yaratmışdır [13].

***Nəticə.*** Azərbaycan ilə Misir arasındakı əlaqələr tarix boyunca müxtəlif dövrlərdə müxtəlif xarakter daşısa da, hər iki ölkə üçün strateji əhəmiyyət kəsb etmişdir. Orta əsrlərdən etibarən iki xalq arasında yaranan əlaqələr, ticarət və mədəni mübadilə ilə yanaşı, dini və siyasi münasibətlərin də əsasını qoymuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Misir ilə diplomatik əlaqələrin qurulması cəhdləri həmin dövrdəki beynəlxalq şəraitin təsiri ilə məhdud olsa da, gələcəkdə bu əlaqələrin inkişafına zəmin yaratmışdır. 1991-ci ildən sonra Azərbaycan Respublikasının müstəqilliyini bərpa etməsindən sonra, ölkə ilə Misir arasında əlaqələrin yeni mərhələsi başlanmışdır. Bu dövr ərzində imzalanmış bir çox ikitərəfli sənədlər, diplomatik səfərlər və iqtisadi əməkdaşlıq sahəsindəki irəliləyişlər, əlaqələrin daha da dərinləşməsinə imkan yaratmışdır. Azərbaycanın Misir ilə əlaqələrindəki inkişaf, həmçinin iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsindəki əməkdaşlığı ilə tamamlanmışdır. Bu illər ərzində Azərbaycan və Misir arasında imzalanmış 50-dən artıq sənəd iki ölkə arasında hüquqi bazanın formalaşmasında mühüm rol oynamış, iqtisadi, mədəni, təhsil, turizm və digər sahələrdə əməkdaşlığın inkişafına zəmin yaratmışdır.

Bütün bunlar Azərbaycanın Misir ilə əlaqələrinin yalnız keçmişə əsaslanmadığını, eyni zamanda gələcəkdə də inkişaf edəcəyini nümayiş etdirir. Strateji əməkdaşlıq, həm iqtisadi, həm də mədəni sahələrdə yeni imkanlar açmaqla yanaşı, beynəlxalq arenada da bu iki ölkənin təsirini artırmağa yönəlmiş addımların atılması vacibdir. Müasir dövrün tələbləri nəzərə alındıqda, bu əlaqələrin daha da

gücləndməsi, hər iki ölkənin milli maraqlarını qorumağa və bölgədəki sabitliyi təmin etməyə kömək edəcəkdir.

ƏDƏBİYYAT

1. Əliyev İ. İnkişaf məqsədimizdir. II kitab. Bakı, Azərnəşr, 2009, 432 s.
2. Misir-Azərbaycan münasibətləri mahiyyətcə yeni mərhələyə qədəm qoyub / AZƏRTAC, 10 iyun 2024. - https://azertag.az/xeber/misir_azerbaycan_munasibetleri_mahiyyetce_yeni_merheleye_qedem_qoyub__serh-3048438 [20.04.2025].
3. Təhlükəsizlik Şurasının 884 (1993) saylı qətnaməsi. (Dağlıq Qarabağ və onun ətrafında münaqişəyə dair.) 12 noyabr 1993. Birləşmiş Millətlər Təşkilatının Rəqəmsal kitabxanası. - https://digitallibrary.un.org/record/176731?v=pdf [20.04.2025].
4. Final Communique of The Twenty-Second Islamic Conference of Foreign Ministers Casablanca, Kingdom of Morocco. 10-12 Dekabr 1994. - https://www.oic-oci.org/docdown/?docID=4320&refID=1212 [20.04.2025].
5. The Official Website of the Embassy of Egypt in Yerevan, Armenia. 04 Mart. 2016. - https://web.archive.org/web/20160304115008/http://www.mfa.gov.eg/English/Embassies/Egyptian_Embassy_Armenia/bilateralrelations/Pages/History.aspx [20.04.2025].
6. Azərbaycan-Misir münasibətləri inkişafının yeni mərhələsinə qədəm qoyub / AZƏRTAC, 08 iyun 2024. - https://azertag.az/xeber/azerbaycan_misir_munasibetleri_inkisafinin_yeni_merhelesine_qedem_qoyub-3045650 [23.04.2025].
7. Misir Ərəb Respublikasının Prezidenti Zati-aliləri Cənab Əbdülfəttah əs-Sisiyə / Azərbaycan.- 2016.- 13 dekabr.- S.2. - https://www.anl.az/down/meqale/azerbaycan/2016/dekabr/518890.htm [23.04.2025].
8. Misir Ərəb Respublikasının Prezidenti Zati-aliləri Cənab Əbdülfəttah əs-Sisiyə / Azərbaycan.- 2017.- 28 may.- S.2. - https://www.anl.az/down/meqale/azerbaycan/2017/may/545041.htm [24.04.2025].
9. Millət vəkili Misir parlament üzvləri ilə Dağlıq Qarabağ münaqişəsi barədə müzakirələr aparıb / Xalq Cəbhəsi, 18 dekabr 2017. - https://www.xalqcebhesi.az/news/politics/24765.html [24.04.2025].
10. Misirin Xarici İşlər naziri: Azərbaycan Qoşulmama Hərəkatına əhəmiyyətli töhfələr verir / Azərbaycan.- 2019.- 27 oktyabr.- S.5. - https://www.anl.az/down/meqale/azerbaycan/2019/oktyabr/680017.htm [24.04.2025].
11. Egypt to Continue maintaing its balanced stance on Karabakh conflict. Interview with Ambassador of the Arab Republic of Egypt to Armenia Mohamed Alaaeldin Saad Elleissy / Armenian News, 04 oktyabr 2010. - https://news.am/eng/news/76573.html#google_vignette [26.06.2025].
12. Azərbaycan Respublikasının Prezidenti zati-ailələri Cənab İlham Əliyevə / Azərbaycan.- 2020.- 19 noyabr.- S.3. - https://www.anl.az/down/meqale/azerbaycan/2020/noyabr/729712(meqale).pdf [26.04.2025].
13. Azərbaycanla Misirin Mövqeyi bütün beynəlxalq məsələlərdə üst-üstə düşür / Azərbaycan, 9 iyun 2024. - http://www.anl.az/down/meqale/azerbaycan/2024/iyun/898607(meqale).pdf [26.06.2025].
14. Azərbaycan Xarici İşlər nazirliyi. Misir Ərəb Respublikası. - https://mfa.gov.az/az/category/afrika/misir [20.04.2025].

**NAZRIN ALLAHVERDIYEVA**
*Baku State University,*
*SABAH Groups. 3rd-year student of History Teaching*

## AZERBAIJAN-EGYPT RELATIONS: AN INTERNATIONAL BRIDGE STRETCHING FROM THE CAUCASUS TO THE NILE VALLEY

Although the relations between Azerbaijan and Egypt may seem like ordinary international ties in the modern era, the values shared by these two nations are rooted in ancient history. During the

Middle Ages, particularly in the Mamluk period, Azerbaijani-origin commanders and scholars played a significant role in the statehood of Egypt and contributed to the development of scientific and cultural relations. Despite political tensions in the 15th century, the ties endured, and especially in the field of education, mutual relations consistently advanced. Over the years, these longstanding relations gained new momentum after Azerbaijan restored its independence, with significant progress made in political dialogue, cooperation within international organizations, and cultural exchange. The article analyzes the current level of development in Azerbaijan-Egypt relations, the role of signed agreements and high-level mutual visits, and offers a general perspective on the future of strategic cooperation between the two countries. The purpose of the article is to re-examine the bilateral relations in the context of the post-Karabakh conflict resolution.

*Keywords:* Azerbaijan, Egypt, Karabakh conflict, diplomatic relations, political cooperation.

*Daxil olma tarixi*: 29.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*
*№2(12) 2025, 50-54*

**UOT 327**

**NURLAN UMUDOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası,*
*Milli təhlükəsizlik və siyasi strategiya ixtisası üzrə magistrant*
**umudovnurlan65gmail.com**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN RUSİYA VƏ TÜRKİYƏ İLƏ MÜNASİBƏTLƏRDƏ BALANSLI SİYASƏTİ

*Elmi rəhbər:*
siyasi elmlər doktoru Elşad Mirbəşiroğlu

*Məqalədə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə Türkiyə və Rusiya ilə münasibətlərdə apardığı balanslı siyasət, diplomatik əlaqələr və bu sahə ilə əlaqəli məsələlər yer almışdır. Məqalədə dövlətlərarası münasibətlərdə balansın yaradılması, qorunması, bu münasibətlərin regional və qlobal siyasətə təsiri göstərilir. Nəticə olaraq həyata keçirilmiş balanslı siyasətin Azərbaycan Respublikasının müstəqilliyinin qorunmasında və möhkəmlənməsində rolu qeyd olunur.*

*Açar sözlər:* Heydər Əliyev, Azərbaycan, Rusiya, Türkiyə, balanslı siyasət, region.

***Giriş.*** Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının azadlığında, Azərbaycan Respublikasının müstəqilliyinin qorunmasında, dövlətin xarici siyasətinin formalaşdırılmasında və inkişafında əvəzsiz rol oynamış və böyük töhfələr vermişdir. 1990-cı illərin başlanğıcından etibarən Azərbaycan Respublikasının qarşılaşdığı mürəkkəb geosiyasi çətinliklər, regionda baş verən münaqişələr və yeni dünya nizamının qurulması prosesləri dövlətin maraqlarına və təhlükəsizliyinə ciddi təhdid yaradırdı. Bu cür periodda həm dövlətin təhlükəsizliyi üçün, həm də maraqlarının təmin edilməsi üçün çevik və düşünülmüş xarici siyasət xəttinə ehtiyac duyulurdu. Bu siyasətin ən mühüm istiqamətlərindən biri də məhz Türkiyə və Rusiya kimi güclü region dövlətləri ilə balanslaşdırılmış və qarşılıqlı əlaqələrə əsaslanan münasibətlər yaratmaq olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan Respublikası həm Rusiya, həm də Türkiyə ilə sıx əlaqələr yaratmış, dövlətimizin milli maraqlarını qoruyaraq sabit inkişaf yolunu təmin etmişdir. Bunun sayəsində 1990-cı illərdə mövcud olmuş həmin ağır siyasi, iqtisadi və hərbi vəziyyətdən müstəqil şəkildə çıxaraq 2020-ci ildə ərazi bütövlüyümüzü, 2023-cü ildə isə suverenliyimizi bərpa etmişik. Bu məqalədə Heydər Əliyevin Rusiya və Türkiyə ilə münasibətlərdə həyata keçirdiyi balanslı siyasət qeyd olunur və Ulu Öndərin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsindəki rolu göstərilir.

***1990-cı illərin əvvəllərində geosiyasi vəziyyət.*** Azərbaycan Respublikası 1991-ci il 18 oktyabr tarixində müstəqilliyini bərpa etməsi ilə birlikdə bir çox daxili və xarici çətinliklərlə üzləşmişdir. Həmin dövr Azərbaycan üçün həm siyasi, həm iqtisadi, həm də hərbi baxımdan mürəkkəb və məşəqqətli dövr olmuşdur. SSRİ-nin süqutu ilə yeni yaranmış dövlətlər arasında ərazi iddiaları, regional münaqişələr, iqtisadi problemlər, hərbi çatışmazlıqlar dövlət daxilində böhran vəziyyətini daha da dərinləşdirirdi.

Hakimiyyətdə olan qüvvələrin səriştəsiz və pərakəndə idarəçiliyi, fəaliyyəti Azərbaycan Respublikasının müstəqilliyini daha da təhdid altına salırdı. Ayaz Mütəllibovun rəhbərliyi dövründə Qarabağ müharibəsində itkilər daha da artmış, vəziyyət daha da gərginləşmişdi. Əbülfəz Elçibəyin isə "türkçülük, turançılıq" ideya və təşəbbüsləri regionda yeni problemlərə səbəb olmuşdur. Bu fikirlərlə Rusiya və İrana qarşı açıq şəkildə düşmən mövqeyi sərgiləyərək, Azərbaycan üçün təhdidlərin artmasına gətirib çıxarmışdır. Nəticə etibarı ilə Rusiya və İran Azərbaycan ilə münasibətlərdə daha sərt mövqe tutmuş, dövlətlərarası münasibətlər xeyli dərəcədə gərginləşmişdir [3].

Bütün bu hadisələr çərçivəsində Rusiya və İranın açıq və gizli yollarla Ermənistana dəstəyi artmış, 1-ci Qarabağ Müharibəsində onları Azərbaycana qarşı müharibədə gücləndirmişdilər. Bu da heç

də yaxşı olmayan vəziyyəti daha da pisləşdirmişdir. Regionda təklənən Azərbaycan, xarici siyasətində olduqca çətin bir vəziyyətə düşmüşdür.

Bu təzyiqlərin davamı olaraq Rusiya tərəfindən Azərbaycanın təbii karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasına maneələr yaradılır, bu proseslərin Rusiya ərazisindən keçən neft-qaz boru kəmərləri vasitəsilə aparılmasına nail olmaq istəyirdilər. Bununla da Azərbaycan Respublikasını özlərindən asılı vəziyyətə salmaq və bütün məsələlərdə Rusiyanın göstərdiyi xətt üzrə hərəkət etməyini təmin etmək istəyirdilər [3].

Bütün bu faktorlar və amillər Azərbaycanın həmin illərdə necə ciddi təhdidlər altında olduğunu göstərməklə yanaşı, həmçinin, müstəqilliyin də təhlükə altında olduğunu ortaya çıxarırdı. Belə bir dövrdə Azərbaycanın müstəqilliyini qorumaq və regional sabitliyi təmin etmək üçün balanslı və çevik xarici siyasətin həyata keçirilməsi vacib hal almışdır.

Heydər Əliyevin həyata keçirdiyi balanslı xarici siyasət nəticəsində Azərbaycan həm Rusiya, həm də Türkiyə ilə sıx münasibətlər quraraq regional və beynəlxalq siyasətdə özünün strateji mövqeyini gücləndirmişdir. Nəzərdə tutulmuş olan balanslı siyasət Azərbaycanın müstəqilliyini qorumaqla yanaşı, dövlətin gücünü artıraraq, sabit və dayanıqlı inkişaf yoluna çıxarmışdır.

***Heydər Əliyev dövründə Rusiya ilə yaradılmış münasibətlər.*** Sovet İttifaqının süquta uğraması ilə Azərbaycan Respublikası Rusiyanın təsir dairəsindən çıxmağa çalışsa da, ölkənin tarixi, siyasi və iqtisadi baxımdan Rusiya ilə əlaqələri olduğundan bu proses böyük çətinliklər yaratmışdır. Yuxarıda da qeyd olunduğu kimi hakimiyyətdə olmuş mövcud qüvvələrin səriştəsiz fəaliyyəti, Ermənistanın Dağlıq Qarabağ və ətraf əraziləri işğal etməsi iki dövlət arasında, yəni Rusiya və Azərbaycan arasında ciddi problemlərə, gərginliklərə səbəb olmuşdur.

Azərbaycanın xarici siyasətində Rusiyanın yox görülməsi, bütünlükdə türk ideyasına yönəlmək fikirləri regionun ən böyük və təhdidkar qüvvəsinə qarşı açıq çağırışlar hesab olunurdu. Bu da Azərbaycanı Rusiya üçün hədəf nöqtəsinə çevirirdi. Bunun qarşısını almaq, münasibətləri yaxşılaşdırmaq isə hakimiyyətdə olan qüvvələrin bacara biləcəyi iş deyildi. Buna görə də Heydər Əliyevin hakimiyyətə qayıdışı qaçınılmaz və əhəmiyyətli idi.

Ümummilli Lider Heydər Əliyev dövlətin müstəqilliyinin qorunması, xarici siyasətin balanslı idarə edilməsi üçün region dövlətləri ilə gərginliyin aradan qaldırılmasını, onlarla dostluq və qonşuluq münasibətlərinin qurulmasının vacib olduğunu anlayırdı. Bütün bunların həyata keçirilməsi üçün region dövlətləri ilə gərginliyin azaldılması, münasibətlərin inkişaf etdirilməsi vacib məsələlər olaraq qarşıda dayanırdı.

Azərbaycanın sahib olduğu neft və təbii qaz ehtiyatları ilə yanaşı, strateji mövqeyi də Rusiyanın Azərbaycandakı maraqlarını gücləndirirdi. Heydər Əliyev bu məqsədlə 1993-cü ildə Rusiya və İranın təzyiqini azaltmaq məqsədilə xarici neft şirkətləri ilə danışıqları dayandırdığını bildirmişdir. Rusiya ilə əlaqələri inkişaf etdirmək üçün atılan digər bir addım isə 1994-cü ildə Müstəqil Dövlətlər Birliyinə üzv olmaq idi [7, s.230].

Azərbaycanın xarici siyasətinin ən önəmli hissələrindən biri təbii resurslarının işlənməsi və bunların dünya bazarına çıxarılması olmuşdur. Xəzər dənizindəki enerji ehtiyatlarının istifadəsini nəzərdə tutan və 20 sentyabr 1994-cü ildə imzalanan "Əsrin Müqaviləsi" Rusiya ilə münasibətlərin inkişaf etdirilməsində daha bir mühüm addım olmuşdur. Rusiya neft şirkəti olan "Lukoil"-in 10%-lik payla konsorsiuma daxil olması ilə ikitərəfli münasibətlərdə iqtisadi maraqların qorunması və təmin edilməsi özünü əks etdirmişdir [2].

İmzalanmış olan müqavilə ilə birgə müxtəlif dövlətlərin şirkətləri ilə də uğurlu siyasət və əməkdaşlıq təmin olunmuş, bununla da həmin dövlətlərin dəstəyi sayəsində regionda sabitlik və balans artmışdır. Heydər Əliyev balanslı siyasət çərçivəsində beynəlxalq güc nisbətlərini nəzərə alaraq bu cür siyasi xətt seçmiş və onu həyata keçirmişdir. Buna əlavə olaraq 1997-ci ildə Bakı-Novorossiysk neft kəməri layihəsi imzalandı ki, bu da Rusiya ilə iqtisadi əməkdaşlığı daha da möhkəmləndirdi [5].

Rusiya Qarabağ münaqişəsində həlledici aktor rolunu özündə əks etdirən qüvvə olaraq çıxış edirdi. Buna görə də Heydər Əliyev diplomatik bacarığı ilə Rusiyanın bölgədə destruktiv təsirini azaltmaq istiqamətində fəliyyət göstərməyə başladı. Eyni zamanda Azərbaycan Rusiyaya qarşı sərt mövqe tutmaqdan yayınaraq, iqtisadi əməkdaşlığı qorumağa üstünlük verdi.

Rusiya isə öz siyasətinə uyğun olaraq rus silahlı qüvvələrinin Azərbaycanın daxilində yerləşdirilməsini, Türkiyə ilə İran sərhədlərinin rus hərbi birləşmələri tərəfindən qorunmasını istəyirdi. Heydər Əliyev isə Rusiya ordusunun Dağlıq Qarabağda ordu yerləşdirmə istəyinə qarşı çıxaraq, Azərbaycanda Rusiyanın aktivləşməsinə və möhkəmlənməsinə şərait yaratmamışdır. Bunun əksinə, Azərbaycanda qalan rus birləşmələrini və əsgərlərini dövlətin sərhədlərindən çıxarmağa müvəffəq olmuşdur [3].

Münasibətlərin daha yüksək səviyyədə inkişaf etdirilməsi və balansın qorunub saxlanılması məqsədilə 1997-ci ilin iyulun 3-də imzalanmış "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Bəyannamə"sinin mühüm əhəmiyyəti mövcuddur. Bu müqavilə o dövrdə ikitərəfli münasibətlərin müqavilə-hüquqi bazasını təşkil edən əsas sənəd statusunu aldı və Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında münasibətlərin möhkəmlənməsinə töhfə verdi. Bununla yanaşı 7 mart 1997-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradıldı və ilk rəhbəri Eldar Qəhrəmanov olmuşdur [4].

Digər tərəfdən, Rusiya ilə münasibətləri inkişaf etdirməyə çalışan Heydər Əliyev Türkiyə və digər Qərb ölkələri ilə də əlaqələri qoruyub saxlamağa və inkişaf etdirməyə çalışırdı. Bu xüsusda Türkiyə ilə balanslı siyasətin həyata keçirilməsi məsələlərini də qeyd etmək yerində olardı.

***Heydər Əliyev dövründə Türkiyə ilə yaradılmış münasibətlər.*** Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər "bir millət, iki dövlət" anlayışı ilə dərin dostluq və strateji əlaqələr çərçivəsində davam etdirilməkdədir. Azərbaycan Respublikasının müstəqilliyini 9 noyabr 1991-ci ildə tanıyan ilk dövlət məhz Türkiyə olmuşdur. Azərbaycan ilə Türkiyə arasında 14 yanvar 1992-ci ildə imzalanan protokol əsasında diplomatik əlaqələr qurulmuş və Baş Konsulluq olaraq fəaliyyət göstərən təmsilçilik münasibətləri səfirlik səviyyəsinə yüksəldilmişdir. Bu dövrdə 100-dən çox anlaşma, protokol və müxtəlif əməkdaşlıq razılaşmaları və müqavilələri imzalanmışdır. İqtisadiyyat, ticarət, təhsil, mədəniyyət sahələrində və elmi sahələrdə iki ölkə arasında imzalanan bir çox müqavilə hələ də qüvvədədir [3].

1994-cü ilin fevral ayının 8-10-u tarixləri arasında Heydər Əliyevin Türkiyəyə etdiyi rəsmi bir ziyarətdə, Türkiyə ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq sazişi, müdafiə və hərbi yardım barədə sazişlər də daxil olmaqla 16 saziş və protokol imzalanmışdır. Dönəmin baş naziri olmuş Süleyman Dəmirəl ilə birlikdə Heydər Əliyev bundan sonrakı əlaqələrin təməlini qoymuşdur [1, s.47].

"Əsrin Müqaviləsi"nin imzalanması Rusiya ilə münasibətlərdə nə qədər mühüm rol oynamışdısa, eyni şəkildə Türkiyə ilə də əlaqələrin güclənməsinə, inkişafına və birgə əməkdaşlığa böyük töhfə vermişdir. 12 aprel 1995-ci ildə Baş nazir Tansu Çiller "Əsrin Müqaviləsi"ndə Türkiyənin 1,75%-lik payını 6,75%-ə yüksəldən müqaviləni imzalamaq üçün Bakı şəhərinə gəlmiş və bu ikitərəfli əlaqələrin daha da inkişaf etməsinə mühüm dərəcədə töhfə vermişdir [1, s.48].

Bunun yanı sıra Azərbaycan üçün əhəmiyyətli olan neft-qaz ehtiyatlarının dünya bazarına çıxarılmasında Türkiyənin xüsusi rolu olmuşdur. Rusiyadan asılılığı azaltmaq və müstəqil siyasət yürütmək üçün alternativ enerji daşıma yollarını axtaran Heydər Əliyev çıxış yolunu məhz Gürcüstan və Türkiyə üzərindən keçən boru kəmərlərində gördü. Beləliklə, Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin yaradılması baş tutdu.

1999-cu il noyabrın 18-də İstanbulda keçirilən Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) konfransı əsnasında keçirilən tədbirdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin iştirakı ilə "Xam Neftin Bakı-Tbilisi-Ceyhan Magistral İxrac Boru Kəməri vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən nəql edilməsi" haqqında saziş imzalanmışdır. Bu saziş regionun enerji təhlükəsizliyini artırmaqla yanaşı, iqtisadi əməkdaşlığı möhkəmləndirən əhəmiyyətli bir addım olmuşdur [6].

Bu sayədə həm ikitərəfli münasibətlərdə yüksək inkişaf əldə edildi, həm də Azərbaycanın təhlükəsiz siyasi-iqtisadi fəaliyyətinin təminatı əldə olundu.

Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərdə türkdilli ölkələrin əməkdaşlığına da xüsusi diqqət yetirilmişdir. Heydər Əliyev Türk Şurasının formalaşmasında aktiv iştirak edərək, həm regionda, həm də qlobal səviyyədə etibarlı əlaqələr yaratmışdır. Bu siyasət nəticəsində Azərbaycan öz regional nüfuzunu artırmışdır.

Heydər Əliyevin rəhbərliyi dövründən bu yana Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası müstəqilliyini elan etməsindən bu yana, Türkiyə dövlətin təhlükəsizliyi və müdafiəsi sahəsində əhəmiyyətli tərəfdaşlardan, müttəfiqlərdən biri oldu. Bu əməkdaşlıq, həmçinin, Türkiyənin bir NATO üzvü olması ilə də strateji baxımdan vacib idi. Dolayı yollarla da olsa, regionda baş verə biləcək yeni bir münaqişədə NATO ilə münasibətlərə heç bir xələl gəlməyəcək və əməkdaşlıq inkişaf edəcəkdir.

Heydər Əliyevin və digər əhəmiyyətli şəxslərin öndərliyində Azərbaycan və Türkiyə arasında bir sıra hərbi sazişlər və protokollar imzalanmış, qarşılıqlı hərbi təlimlər və təcrübə mübadiləsi həyata keçirilmişdir. 1994-cü ilin fevral ayında baş tutmuş səfər tərkibində hərbi əməkdaşlıq sahəsindəki anlaşmalar da imzalanmışdır. Bu müqavilələrin məqsədi iki ölkənin hərbi qüvvələrinin qarşılıqlı şəkildə gücləndirilməsi və ortaq təhlükəsizlik maraqlarının təmin edilməsi olmuşdur [1, s.47].

Yuxarıda qeyd olunanlara əlavə olaraq, bu dövrdə Türkiyə ilə müdafiə sahəsindəki əlaqələr yalnız ikitərəfli deyil, həm də regional təhlükəsizlik məsələləri üzərində cəmlənmişdir. İki ölkə arasında terrorizm və digər regional təhlükələrə qarşı birgə mübarizə aparmaq üçün bir çox birgə əməliyyat və proqramlar həyata keçirilmişdir. Bu hərbi əməkdaşlıq Azərbaycanın müstəqil xarici siyasətinin və təhlükəsizliyinin təminatı baxımından önəmli bir amil olmuşdur.

Nəticə etibarı ilə Heydər Əliyevin rəhbərliyi dövründə Türkiyə ilə hərbi əməkdaşlıq inkişaf etdirilmiş və Azərbaycanın regional və qlobal təhlükəsizliyini təmin etməkdə əsas rollardan birini oynamışdır. Bu da iki ölkə arasındakı strateji əlaqələri daha da gücləndirmişdir.

***Nəticə.*** 1990-cı illərin başlanğıcı Azərbaycan Respublikasının tarixində dərin siyasi, iqtisadi və hərbi çətinliklərlə, böhranlarla dolu bir dövr olmuşdur. Azərbaycan müstəqilliyini yeni bərpa etmiş bir dövlət olaraq həm daxili problemlərlə, həm də xarici təhlükə və təzyiqlərlə üz-üzə qalmışdır.

Belə bir mürəkkəb və ziddiyyətli geosiyasi mühitdə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan üçün yeni bir mərhələ başlandı. Ulu Öndərin həyata keçirdiyi yerində və balanslı siyasət nəticəsində Azərbaycan regional güclərlə münasibətlərini qısa zamanda normallaşdırdı, geosiyasi təcriddən azad oldu və öz maraqlarını qorumağa, təmin etməyə başladı. Xüsusilə də Rusiya ilə münasibətlərin strateji və praqmatik cəhətdən yenidən qurulması, MDB-yə üzvlük və Lukoil-in “Əsrin Müqaviləsi”nə daxil edilməsi Azərbaycanın həm iqtisadi, həm də siyasi təhlükəsizliyini təmin etməkdə mühüm rol oynadı.

Heydər Əliyevin uzaqgörən və praqmatik siyasəti nəticəsində Azərbaycan həm müstəqilliyini qoruyub saxlaya bildi, həm də enerji resurslarından səmərəli istifadə edərək beynəlxalq siyasətdə öz mövqeyini gücləndirdi. Region dövlətləri ilə münasibətlərdə mövcud gərginlik öz yerini qarşılıqlı maraqlara, əməkdaşlığa və dialoqa ayırdı. Bu isə Azərbaycanın daxili sabitliyinə, iqtisadi inkişafına və dövlətçiliyinin möhkəmlənməsinə xidmət edən əsas amillərdən biri oldu.

Yekun nəticə olaraq demək olar ki, həmin dövrdə həyata keçirilmiş balanslı siyasət, xüsusilə Rusiya ilə əlaqələrin yeni əsaslar üzərində qurulması, Türkiyə ilə münasibətlərin qorunub saxlanılması və inkişaf etdirilməsi Azərbaycanın müstəqilliyini və suverenliyini qorumaqla yanaşı, ölkənin gələcək inkişafı üçün də dayanıqlı təməl yaratdı.

## ƏDƏBİYYAT

1. Babayev R. *Azərbaycan’da Türkiye ve Rusya Algısı; Azərbaycan’ın Türkiye ve Rusya ile İlişkileri*. Basılmamış Yüksek Lisans Tezi. Sakarya, Sakarya Üniversitesi SBE, 2019.
2. *Əsrin Müqaviləsi* / [Elektron resurs]: https://azerbaijan.az/related-information/132 [30.04.2025].
3. Sariahmetoğlu N. *Karabağ Sorununun Çözüm Sürecinde Türkiye ve Rusya* // Marmara Türkiyat Araştırmaları Dergisi, Cilt 3, Sayı 2, Sonbahar 2016, s.93-119. - https://dergipark.org.tr/tr/download/article-file/312088 [30.04.2025].
4. *Azərbaycan–Rusiya Münasibətləri //* Vikipediya, Azad Ensiklopediya. - https://az.wikipedia.org/wiki/Azərbaycan–Rusiya_münasibətləri#%İmzalanan_müqavilələr [30.04.2025].

5. *Bakı-Novorossiysk Neft Kəməri //* Vikipediya, Azad Ensiklopediya. - https://az.wikipedia.org/wiki/Bakı-Novorossiysk_neft_kəməri [30.04.2025].
6. *Bakı–Tbilisi–Ceyhan Neft Kəməri //* Vikipediya, Azad Ensiklopediya. - https://az.wikipedia.org/wiki/Bakı–Tbilisi–Ceyhan_neft_kəməri#Tarixi [30.04.2025].
7. Yamaç M. *Azerbaycan ve Türkiye İlişkilerinin Stratejik Önemi* // Turkish Studies (Elektronik), Yıl: 2022, Cilt: 17, Say: 7, s.227-246. http://dx.doi.org/10.7827/TurkishStudies.63463 [30.04.2025].

**NURLAN UMUDOV**
*Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*Master in National Security and Political Strategy*

## THE BALANCED POLICY OF THE NATIONAL LEADER HEYDAR ALIYEV IN RELATIONS WITH RUSSIA AND TURKEY

The article discusses the balanced policy and diplomatic relations led by National Leader Heydar Aliyev during his leadership in relations with Turkey and Russia. It highlights the establishment and preservation of balance in interstate relations and the impact of these relations on regional and global politics. As a result, the role of the balanced policy in safeguarding and strengthening the independence of the Republic of Azerbaijan is emphasized.

*Keywords:* Heydar Aliyev, Azerbaijan, Russia, Turkey, balanced policy, region.

*Daxil olma tarixi*: 30.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

№2(12) 2025, 55-61

UOT 94

**PƏNAH XANLAYEV**
*Bakı Dövlət Universiteti Tarix ixtisası üzrə III kurs tələbəsi*
ORCID ID: 0009-0001-7167-653X
**penahxanlayev@gmail.com**

# ELXANLI HÖKMDARI GEYXATU XANIN HAKİMİYYƏTİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Bayram Quliyev

*Məqalədə Elxanlı hökmdarı Geyxatu xanın hakimiyyəti dövrü (1291-1295) araşdırılır. Elxanilər dövləti tarixində Geyxatu xanın hakimiyyəti dövrü xanın Anadolu səfəri, dövlət daxilindəki mübarizələr və uğursuz maliyyə islahatı baxımından xüsusi yerə malikdir. Araşdırmada Geyxatu xanın hakimiyyətə gəlmə şəraiti, Anadoludakı hadisələr, daxili siyasətdəki təzadlı qərarlar və bölgə tarixində ilk dəfə kağız pulun - Çaonun tədavülə buraxılması və onun iflası ilkin qaynaqların müqayisəli təhlili və müasir tarixşünaslıqla müqayisəsi kontekstində araşdırılmışdır.*

*Açar sözlər:* Elxanlılar, Geyxatu Xan, Baydu, Çao, kağız pul.

***Giriş***. 1256-cı ildə Çingiz xanın nəvəsi, Tuluy xanın oğlu Hülakü xanın Bağdadı ələ keçirib Xilafətə son qoyması ilə Elxanlılar dövlətinin əsası qoyuldu. Azərbaycanın metropoliyasını təşkil etdiyi Elxanlılar dövləti Amudəryadan Fərat çayına, Qafqazdan Bəlucistana qədər olmaqla geniş bir coğrafiyanı əhatə edirdi. 1265-ci ildə taxta çıxan Abaqa xan Qızıl Orda dövləti ilə münaqişə şəraitində dövlətin sərhədini və gücünü qorumağı bacarmışdı. 1282-ci ildə Abaqa xanın qəfil ölümündən 1295-ci ilə qədər bir neçə qısamüddətli hakimiyyətə malik Elxanlı hökmdarları bir-birini ard-arda əvəzləmiş, nəticədə dövlətdə siyasi istiqrarsızlıq yaranmışdı. Abaqa xandan sonra taxta Əhməd Təkudar xan çıxsa da, qısa müddət sonra – 1284-cü ildə Arqun xan onu öldürərək hakimiyyəti ələ aldı. Arqun xanın 7 illik hakimiyyəti dövründə Elxanlı dövlətinin daxili həyatı olduqca hərəkətli olmuşdur. 1291-ci ildə Arqun xan xəstələnib vəfat etdikdə 3 taxt namizədi - şahzadələr Geyxatu, Baydu və Qazan var idi. Güclü əmirlərin Geyxatunun taxta çıxması xüsusunda həmfikir olması ilə Geyxatu xan 1291-ci ildə taxta çıxdı [2, s. 105-107; 6, s. 21-22].

Geyxatu xan Elxanlı hökmdarı Abaqa xanın ikinci oğlu idi. Anası tatar tayfalarından olan Nüqdan Xatundur. Geyxatu xanın doğum tarixi ilə bağlı mənbələrdə konkret məlumat yoxdur. Bəzi araşdırmalarda 1242-1252-ci illər aralığının onun doğum tarixi ola biləcəyi təxmin edilir [6, s.23; 8, s.130; 9, s.176]. Geyxatu adı moğol dilində "geyiha”(təəccüb etmək, heyrətə düşmək) feilindən gəlmiş olub, "heyrətə salan, möcüzəvi şəxs" mənası verir. [6, s.23]. Geyxatuya "İrincin Durci" adı da verilmişdi ki, bu ad tibetcə "Rinçen-rdo-rce" şəklindədir və "dəyərli, qiymətli daş" deməkdir [5, s.97; 9, s.176].

Arqun xan özünə varis təyin etməmiş, buna görə də ondan sonra taxta kimin keçəcəyi məsələsi müəmmalı qalmışdı. Baş vəzir Sədüddövlə Arqun xanın ölümünə yaxın onun oğlu Qazanı taxta çıxarmaq məqsədi ilə saraya çağırsa da, Toğaçar, Koncukbal, Tuğal və İlçiday kimi Moğol sərkərdələri buna imkan verməyərək Sədüddövləni qətlə yetirdilər. Beləliklə, Qazanın taxta çıxması ehtimalı aradan qalxdı [6, s.38-39]. Arqun xanın ölümündən sonra əmirlərin çoxu əvvəlcə Baydunun taxta çıxması tərəfdarı olsa da, sonda əmirlərin çoxu Geyxatunun taxta çıxması fikrində razılaşdı [8, s.131; 9, s.177]. 1291-ci ilin may ayında Elxanlı əmirləri Geyxatunun taxta çıxarılmasında fikir razılığına gəldi və onu taxta dəvət etmək üçün elçi göndərildi. Geyxatu bu zaman qışlamaq üçün Antalya bölgəsində idi. Geyxatu elçi ilə birlikdə Konyaya qədər gəldi. Bu zaman sərkərdələrdən Toğaçar və Şomağar Nəvin Geyxatunun Anadoluda öz xidmətində olan əmirlərini dövlət vəzifələrinə gətirəcəyi, mövcud əmirlərin statuslarını itirəcəyi qorxusu ilə Bağdad hakimi Baydunun taxta çıxmasını dəstəkləməyə başladı. Bu qorxu həm də baş vəzir Sədüddövlənin qətlinə görə Geyxatunun onları cəzalandıra biləcəyi ilə bağlı idi [6, s.39-40]. Belə olduqda Toğaçar Geyxatuya məktub göndərərək şahzadə Baydunun artıq taxta çıxdığını bildirdi və onu əvvəlki mövqeyinə qayıtmağa çağırdı. Geyxatu məsələnin əslini öyrənərək

şahzadə Batimiş Quşçu rəhbərliyi ilə 10 min nəfərlik öncül qüvvə göndərib, ardınca özü də Azərbaycan və Arrana doğru yola çıxdı. Yolda Anadolu Səlcuqlu Sultanı II Qiyasəddin Məsud və Naibüs-səltənə Mücirəddin Əmirşah onu Van yaxınlığındakı Aladağ yaylasına qədər müşayiət etdilər [6, s.40; 7, s.135]. Bəzi əmirlər şahzadə Bayduya məktub göndərib onu taxta dəvət etsələr də, Baydu taxtın qardaşının haqqı olduğunu bildirib bundan imtina etdi. Beləliklə, 1291-ci il iyulun 23-də Əxlət yaxınlığında keçirilən qurultayla Geyxatu xan taxta çıxdı [6, s.41-42; 7, s.135; 8, s.131; 9, s.177].

Geyxatu xan taxta çıxdıqdan sonra qardaşı Arqun xanın və vəzirlərin, xüsusilə, baş vəzir Sədüddövlənin ölümünü araşdırmaq məqsədilə əmirləri sorğuya çəkməyə başladı. Nəticədə Toğaçar və Koncukbala cismani cəza verildi, Əmir Toğaçar və Tukalın 10 minlik dəstələri digər sərkərdələrə verilmiş, Sədüddövlənin ölümündə əsas günahkar olan Toğan isə Əmir Ağ Buğaya verilən əmrlə edam edilmişdi. Bu tədbirlərdən sonra ölkənin hər tərəfinə məktub göndərilərək Geyxatunun taxta çıxması elan edildi [3, s.20; 6, s.42-43; 8, s.131-32; 9, s.177-78]. Geyxatu xanın taxta çıxması əvvəlki Elxanlı xanları kimi Böyük Moğol Xaqanı (və ya Qaanı) tərəfindən təsdiqlənməmişdir. Bunun səbəbi hakimiyyət uğrunda gedən mübarizələr və iqtidarın tez-tez dəyişməsi olmuşdur [6, s.43].

***Anadolu səfəri.*** Geyxatu xan taxta çıxdıqdan sonra tezliklə Anadoluya döndü. Onun Anadoluya dönməsinin səbəbi kimi mənbələrdə taxtdan imtina edib Anadoludakı "xoşbəxt" həyatına dönmək istəməsi, Anadoludakı yarımçıq qalmış məsələlərin həlli və s. fikirlər qeyd olunur [1, s. 391; 4, s. 638; 7, s. 137]. Əsas məsələ isə budur ki, Anadoluda boşluqdan istifadə edən bəzi Türkmən tayfaları – Qaramanlılar üsyan etmişdilər. Geyxatu xan Şiktûr (Şigtür) Noyonu naibüssəltənə təyin edərək şəxsən ordunun başında Anadoluya yollandı. Geyxatu xan Kayseridə Sultan Məsud tərəfindən qarşılandı. 6 ay ərzində Moğol dəstələri Konya, Akşehir, Menteşe bölgələrində üsyançılara qarşı geniş qətl və qarət kampaniyası həyata keçirdilər. Geyxatu xan Sultan Məsuda üsyan etmiş qardaşı Məlik Rüknəddin Qılınc Arslan məsələsini həll etməyi tapşırdı [6, s.45-46]. Kastamonuya irəliləyən Moğol-Səlcuq ordusu Dərbəndilər bölgəsinə yaxınlaşdıqda Kılıç Arslanın türkmənlərlə ittifaq bağlayaraq böyük qoşun topladığı xəbəri gəlmişdi. Sultan Məsud əlavə qüvvə üçün Geyxatu xana müracət etsə də, türkmənlərə əhəmiyyət verməyən xan bu istəyi rədd etdi. Sultan Məsudun dəstələri türkmənlərin ani basqınına məruz qalıb məğlub olmuş və Sultan əsir düşmüşdü. Ancaq Moğol sərkərdəsi Gərayın türkmənləri qarşılayıb məğlub etməsi ilə türkmən dəstələri dağılmış və Sultan əsirlikdən azad olmuşdur [6, s.46-48; 7, s.137-41, 8, s.132; 9, s.178].

Geyxatu xan Anadoludan qayıdarkən ağır xəstəliyə tutulmuş, müalicə üçün Buddist rahiblərlə yanaşı müsəlman, xristian və yəhudi alimlərə də müraciət edilmişdi. Xan sağaldıqdan sonra şənliklər keçirilmiş, əmirlərə, bir sıra dövlət xadimlərinə xeyli miqdarda hədiyyə, pul verilmişdir. Xanın qeyri-məhdud "comərdliyi" xəzinənin boşalmasına və dövlətin zəifləməsinə səbəb olumşdur [5, s.97; 6, s.48; 9, s.181].

***Xanın yoxluğunda ölkədə baş verən hadisələr.*** Geyxatu xanın ölkə ərazisində hakimiyyətini tam təmin etmədən 10 ay davam edən Anadolu səfərinə çıxması ölkədə bir sıra siyasi çaxnaşmalara səbəb oldu. Naibüssəltənə Şiktur Noyonın təcrübəsizliyi, əmirlərin mənfəət əldə etmək üçün türkmənlərin Geyxatu xanı məğlub etməsi barədə yalan məlumatlar yayması siyasi çaxnaşmalara rəvac vermişdi.

Xanın Anadolu səfəri zamanı ölkədə baş verən ən önəmli siyasi məsələ əmir Toğaçarın şahzadə Anbarciyə tələ qurmağa çalışmasıdır. Geyxatu xan şahzadə Anbarcini bir tümən əsgərlə Xorasana göndərmişdi. Şahzadə yola çıxmış, qışlamaq üçün Reydə dayanmışdı. Toğaçar Anbarçiyə Geyxatu xanın Anadoluda türkmənlərə məğlub olduğunu, bütün əmirlərin onu taxta çıxarmaq fikrində olduğu, buna görə də onun Xorasan yolundan dönüb Arrana gəlməli olduğu barədə xəbər göndərdi. Şahzadənin nə qədər taxta çıxmaq arzusu olsa da, o bunun bir tələ ola biləcəyini düşünüb ehtiyatlı davrandı. O, hadisənin əslini öyrənmək üçün Şiktur Noyona xəbər göndərdi. Şahzadənin elçisi yolda olarkən bu məsələnin Sədrəddin Zəncaninin tələsi olduğunu öyrənib Noyona məlumat verdi. Şiktur Noyon qısa müddətdə Toğaçar və Sədrəddin Zəncanini həbs edərək Geyxatu xanın dönüşünə qədər evində saxlamışdır. Onların necə azad olmaları barədə məlumat yoxdur [6, s.49-50; 8, s.132-33; 9, s.179-80].

Yuxarıda qeyd etmişdik ki, Geyxatu Toğaçarı cəzalandırmışdı. Ehtimal ki Toğaçar xanın gözündəki günahkar imicini dəyişmək üçün süni təhlükə yaradıb, özü də onu dəf etməklə xanın təqdirini qazanmaq istəyirdi.

***Geyxatu xanın Anadoludan qayıtması, yenidən taxta çıxması, tədbirləri***. Geyxatu xan 31 avqust 1291-ci ildə çıxdığı Anadolu səfərindən 1292-ci ilin mayında dönmüşdür. Əmirlər və xanədan üzvləri hökmdarı qarşıladı, Aladağ yaylasında hökmdara rəsmi keçid təskil olundu və o, rəsmi olaraq taxta çıxdı. Bəzi mənbələr bunu xanın ikinci dəfə taxta çıxması kimi, bəzi mənbələr isə Anadolu səfərindən bəhs edərkən Geyxatunu "şahzadə" adlandırır və 1292-ci ildə rəsmi olaraq taxta çıxdığını göstərir [3, s.20; 4, s.638; 6, s.50; 9, s.180]. Xan Ağbuğanı Əmirül-üməra təyin etdi, İncu torpaqlarının idarəsini Anadoludakı qulluqçuları Həsən və Taycu bəyə, naibliyi Mücirəddin Əmir şaha, sipahilərlə bağlı vəzifələr Fəxrəddin İdaçiyəi həvalə edilmiş, Şeyx Mahmud Şeyxül-Məşayih (şeyxlər şeyxi) təyin olunmuşdur. Sədrəddin Zəncani Xanın yaxınlarını pulla ələ alaraq vəzirlik və "sədri-cahan" ləqəbi əldə etdi. Onun qardaşı Qütbəddin isə qaziül-qudat (məhkəmə qazılarının başçısı) vəzifəsinə təyin olundu [3, s.21; 6, s.53; 7, s.144; 8, s.134; 9, s.180-81]. "Müsamərətul-əxbar" əsərində Geyxatu xanın formalaşdırdığı bürokratik idarəetmə sistemi haqqında verilən məlumatlardan bəlli olur ki, idarəetmədə izafi vəzifələrin sayı artmış, bürokratların sayı tələb olunandan qat-qat artıq olmuş, bütün işlərdə axsamalar və qüsurlar görünməyə başlamışdı [7, s.144-145]. Qütbəddinin qaziül-qudat təyin olunmasından sonra məhkəmələrin funksionallığı xeyli azalmış, ədalət anlayışı Moğolların keyfi fikirlərinə qalmışdı [6, s.53].

Geyxatu xanın dövlət işləri ilə məşğul olmayıb, vaxtını əyləncə, eyş-işrətlə keçirməsi idarəçilikdə özbaşınalığa gətirib çıxardı. Bunu ən yaxşı Sədrəddin Zəncaninin timsalında görə bilərik. Sədrəddin Zəncani hömdardan icazəsiz, özbaşına hərəkət etməyə başlamış, hətta xanın şəxsən təyin etdiyi Həsən bəy və Taycu bəyi vəzifədən azad edib, əmlaklarını müsadirə etmişdi. Həsən və Taycu ona qarşı mübarizəyə başladı və onu dövlətin əmlakından öz borcunu ödəmək üçün istifadə etməkdə günahlandırdılar. Ancaq Geyxatu xan məsələni araşdırmayıb, birbaşa Sədrəddin Zəncaninin xeyrinə qərar vermiş, Sədrəddin Zəncaniyə ittiham atanları ona təslim etmiş, bundan sonra onu ittiham edənlərin birbaşa edam olunacağını bildirmişdi. Xan bundan sonra bir yarlıq verərək Zəncanini Amurdan Misirədək ərazidə tək söz sahibi elan etmiş, istədiyi şəxsi vəzifədən azad edib, istədiyini təyin etmək imtiyazını vermişdi [1, s. 391; 4, s. 638; 6, s.53-54]. Böyük səlahiyyət və nüfuza baxmayaraq, Zəncani idarəetmə sahəsində güclü nizam qura bilməmiş, əmirlərin müstəqilləşməsinə və maliyyə sisteminin çökməsinə səbəb olmuşdur [6, s.54-55].

***Çao islahatı.*** Çao adlanan kağız pulların tədavülə buraxılması həm Azərbaycan, həm də Moğol tarixində maraqlı məsələlərdəndir. Kağız pulun ilk nümunələri Çində yaranmış olub, əsasən, metal pulların daşınılması ilə bağlı çətinliklə əlaqədar idi. Böyük Moğol Xaqanlığında da Münke xanın dövründə uyğurlar yaşayan Turfan bölgəsində kağız pullardan istifadə olunurdu**.** Böyük Moğol Xaqanlığında kağız pul istifadəsi Qubilay xanın dövründə çox geniş yayılmışdır. Belə ki, Qubilay xan tədavüldə olan digər ödəniş vasitələrini qadağan edərək 3 növ kağız pulu istifadəyə vermişdir. İlk vaxtlarda kağız pullar hissə-hissə buraxılmış və xəzinədə qızıl-gümüş qarşılığının yüzdə yüz olmasına riayət olunmuşdur. Lakin bir müddətdən sonra xəzinənin qızıl-gümüş rezervləri tükənmiş, xəzinədə qarşılığı olmayan kağız pullar tədavülə buraxılmışdır. Nəticədə kağız pulun alıcılıq qabiliyyəti aşağı düşmüş, inflyasiya baş vermişdi. Bu kimi problemlərə baxmayaraq, kağız pul Böyük Moğol Xaqanlığında təqribən 1350-ci illərə qədər işlənmişdir [6, s.56-5].

a) Çaonun qəbulunun səbəbləri

Yuxarıda qeyd etmişdik ki, 1292-ci ildən Geyxatu xanın idarəçilik sahəsindəki tədbirləri, xüsusilə Sədrəddin Zəncaninin qaziül-qudat təyin olunaraq ona geniş imtiyazlar verilməsindən sonra həm bürokratik, həm də maliyyə böhranı yaranmağa başlamışdı. İzafi vəzifələrin mövcudluğu, bürokratik aparatda tələb olunandan bir neçə dəfə çox işçinin olması büdcə üçün əlavə, lazımsız yüklər demək idi. 1800 tümənlik illik gəlirin 700 tüməni inzibati və bürokratik xərclərə ayrılırdı ki, bu da həddən artıq idi, qalan məbləğ dövlətin digər xərcləri üçün kifayət etmirdi [6, s.60]. Geyxatu xan və Sədrəddin Zəncaninin bir-biri ilə yarışırmışcasına hədiyyələr paylaması, pullar xərcləməsi, xüsusilə Sədrəddin Zəncaninin özünə tərəftar qazanmaq üçün böyük ölçüdə pullar xərcləməsi xəzinənin boşalmasının əsas səbəblərindəndir. Arqun xan və Əhməd xanın dövründə təkcə saray qadınları və şəhzadələrin mətbəx xərcləri üçün 40 tümən müəyyən olunan vəsaiti Geyxatu xan 65 tümənə çıxarmışdır [6, s.60]. Mənbə-

lərdə Geyxatunun şəxsi aşpazının xanın süfrəsinin təminatı üçün 10 minlərlə qoyun alması barədə məlumat verilir. Mənbələrdə bu məsələnin təsviri ilə bağlı "comərdlik" sözünə üstünlük verilsə də, bunun bəzi hallarda müsbət sifət olaraq göstərilmədiyini görürük. Bunlardan başqa, Geyxatu xanın təxminən 10 ay davam edən Anadolu səfəri, üsyanların yatırılması üçün hərbi qüvvələrin səfərbər olunması da xəzinə üçün yük olmuşdu [1, s.394; 4, s.644; 6, s.58; 8, s.135; 9, s.182].

Geyxatu xan taxta çıxdıqdan sonra Arqun xanın dövründə Sədüdövlə və Əmir Buğanın həyata keçirdiyi sərt maliyyə siyasətini davam etdirmək üçün Əmir Buğanı dəvət edərək maliyyə sistemini ona həvalə etmişdi. Arqun xan dövründə tətbiq edilən hər yerdə pul zərb etmək tədbirləri təkrarlandı. Bundan başqa, Əmir Buğanın qrupunun əsas məqsədi gümüş sikkə istehsalını bərpa etmək idi. Zərb olunan sikkələrdə hökmdarın buddist adı istifadə olunmuş və sikkə üçün vahid standart formanın əldə edilməsinə çalışılmışdı. Bu tədbirlər bir müddətlik müsbət təsir göstərsə də, Abaqa xanın zamanından başlayaraq pulun əyarının aşağı düşməsi prosesi Geyxatu xanın zamanında da davam etmişdir. Sikkələrin 9-10 əyarda zərb olunması ilə bağlı xan yarlıqlarına əməl edilməmişdir [6, s.61-62].

Vergi toplayan məmurların dövriyyədə az nağd pulun olması səbəbindən vergiləri toplaya bilmədiklərini bildirdikdən sonra Sədrəddin Zəncani tacirlərdən faizlə nağd pul və qiymətli əşya borc almağa başladı. Lakin bu prosesə ciddi nəzarət olunmadığından məmurların özbaşınalığı halları yaşandı. 10 dinarlıq qiymətli əşya iki dəfə baha qiymətə, yəni 20 dinara alınırdı. Bu da divan qeydiyyatında 40 dinar kimi yazılır, yəni pulun yarısı mənimsənilirdi. Bu 10 dinarlıq qiymətli əşyanın 4 dinarı divan üzvlərinə verilirdi. Beləliklə, 40 dinar borca girilən əşyadan xəzinəyə yalnız 6 dinar gedirdi. Sədrəddin Zəncaninin bu cür yanlış istiqraz siyasəti nəticəsində iki il ərzində 500 tümənlik dövlət borcu yaranmışdı [6, s.62].

Maliyə sisteminin pozulmasına gətirib çıxaran səbəblərdən biri də 1282-ci ildən etibarən Elxanlı taxtı uğrunda gedən daxili mübarizə nəticəsində xəzinənin azalması idi. Abaqa xanın dövründən sonra fəthlər dayandığı üçün daimi maaş almayıb, hərbi səfərlərdən əldə olunan qazancla maliyyələşən Elxanlı əsgərləri problem yaşamağa başladı. Elxanlı sərkərdələri qazanc əldə etmək üçün daxili siyasətə daha çox qarışmağa başladı. Bu da xəzinənin yağmalanmasına gətirib çıxarırdı [6, s.63].

Bunlardan əlavə çağataylıların Xorasana hücumları nəticəsində İpək yolu ticarəti və oradan Elxanlı büdcəsinə gələn gəlir də zəifləmişdi. Həmçinin qut xəstəliyi səbəbindən Bağdad, Mosul, Xorasan bölgələrində xeyli mal-qara tələf olmuş, bu da əhalinin kasıblaşmasına səbəb olmuşdur [6, s.64-65].

b) Çaonun qəbulu ilə bağlı müzakirələr

Sədrəddin Zəncani maliyyə vəziyyətini düzəlmək üçün yeni sikkələr zərb etmək istəsə də, qızıl və gümüş yetməzliyindən bu baş tutmamışdır. Sədrəddin Zəncaninin məsləhətçisi İzəddin Müzəffər ona Çindəki kimi kağız pula keçmək fikrini təklif etmişdir. O, xəzinənin boş olduğu, borc almaq siyasətinin uğursuz olduğundan, əlavə vergilərin əhalini qıcıqlandıracağı, anidən ordu qurmaq lazım olarsa, bunun mümkünsüz olacağı, bu problemlərin həllinin kağız pulda olduğunu bildirmişdi. Sədrəddin Zəncani bu fikri dəfələrlə əmirləri ilə müzakirə etdikdən sonra Geyxatu xana çatdırdı. Xan bu barədə ətraflı məlumat almaq üçün Qubilay xanın Elxanlı sarayındakı nümayəndəsi olan Polad Çing-Sanga müraciət edib, ondan müsbət geridönüş almışdı. Çaonun tətbiqi məsələsinə əmirlərdən yalnız Şiktur Noyon mənfi münasibət göstərmiş, bunun nizamın pozulmasına gətirib çıxaracağını bildirmişdi. S.Zəncani isə onu qızıl sevgisində ittiham edərək bu etirazı dəf etməyə müvəffəq oldu [1, s.394; 3, s.21; 4, s.644; 6, s.68-70; 8, s.135; 9, s.182].

c) Çaonun fiziki xüsusiyyətləri

Çaonun emalı üçün hər növdən kağız toplanmış, kağız ticarəti ilə məşğul olmaq qadağan edilmişdir [6, s.66]. Çao kvadrat və ya düzbucaqlı şəklində hazırlanırdı. Kənarlarında çincə Böyük Xanlığı təmsil edən bir neçə kəlmə, hər iki üzündə kəlmeyi-şəhadət, onun üstündə Geyxatu xanın Buddist adı olan İrincin Durci, ortada yarım dirhəmdən 10 dinara qədər nominallar, son olaraq saxtakarlığın qarşısını almaq üçün "Cahan hökmdarı 693-cü ildə bu mübarək Çaounu göndərdi. Əgər kimsə bunu dəyişdirə, arvad və uşaqları ilə birgə cəzalandırılacaq, mal-mülkləri zəbt olunacaq" ifadəsi yazılmışdı. Bəzi qaynaqların məlumatına görə, pulun üstündə hökmdarın möhürü və başqa işarələr də olmuşdur [1, s.394; 4, s.644; 6, s.66-67; 7, s.188]

d)Çaonun tədavülə buraxılması

Bütün bu müzakirələrdən sonra Çaonun tətbiqinə hazırlığın sürətəndirilməsi ilə bağlı yarlıq verildi. Toğaçar, Ağbuğa və digər əmirlər 13 avqust 1294-cü ildə Təbriz şəhərinə gələrək Çaonun emalına başladılar. İraqı-Əcəm, Azərbaycan, Diyarbəkir, Mosul, Xorasan, Kirman, Şiraza əmirlər göndərilərək oralarda çaoxanalar qurulmuşdu. Bir sıra şairlər Çaonun xoşbəxtlik, əmin-amanlıq gətirəcəyi ilə bağlı şeirlər qələmə alırdılar [6, s.70-71; 9, s.182-83]

Çao çox sərt tədbirlərlə tədavülə buraxıldı. 1294-cü ilin mayında Geyxatu xanın verdiyi hökmə görə, qızıl və gümüş sikkə yerinə artıq kağız çaonun istifadə olunacağı, buna əməl etməyənlərin edam olunacağı bildirildi. Əhalinin əlində olan bütün sikkələrin hökumətə verilməli olduğu, əvəzinin çao ilə ödəniləcəyi bildirildi. Hökmdar və şahzadələrdən başqa kiminsə qızıldan geyim və əşya üçün istifadəsi qadağan edildi. Beynəlxalq ticarətin axsamaması üçün ölkə ərazisində alver edib çao qazanan xarici tacirlərin çaolarının qızılla dəyişilməsi qərarı verildi [1, s.394; 4, s.644; 6, s.71; 9, s.183]. 1294-cü ilin 18 sentyabrında çao tədavülə buraxıldı [2, s.107].

e) Çaonun tətbiqinin nəticələri və tədavüldən qaldırılması

Çaonun tətbiqinin ilk həftəsində əhali cəzalardan qorxaraq məcburi şəkildə çaonu istifadə etdi. Ancaq əhalidə çaoya qarşı olan tərəddüd alış-veriş işlərinin dayanmasına gətirib çıxardı. Qısa müddət ərxində Təbriz şəhərində ticarət iflic olmuş, əhali qida əldə etmək üçün şəhərdən qaçmağa başlamışdı. Şəhərdə quldurluq və soyğunçuluq başlamışdı. Ticarət karvanları marşrutlarını dəyişməyə başladı [1, s.395; 4, s.645; 7, s.188; 9, s.183]. Çaonun mənfi təsirlərindən biri də qiymətlərin kəskin artması oldu. Təbrizdən başqa, Bəsrə kimi digər böyük şəhər də iflic olmuşdu. Ticarət karvanları Anadoluya və Təbrizə gəlmədən birbaşa Misirə getməyə başlamışdılar [6, s.72-73]. Çaonun tətbiqinə şahzadə Qazan etiraz etmiş, Mazandarana gətirilən çao avadanlıqlarını bir müddət sonra çürüməsi bəhanəsi ilə yandırtmışdır [6, s.73] Əhali əvvəlcə passiv şəkildə olsa da, bir müddət sonra açıq-aşkar və güclü şəkildə etiraz etməyə başladı. Sədrəddin Zəncani və İzəddin Müzəffərə qarşı çıxışlar başlamış, hətta İzəddin Müzəffəri və Sədrəddin Zəncaninin qardaşı Qütbəddini öldürməyə də çalışmışdılar. Nəticə olaraq Geyxatu xan çaonun ləğvi ilə bağlı yarlıq vermiş, çao tədavüldən tədricən yığışdırılmışdır [1, s.395; 4, s.645; 6, s.74-75].

Əhalinin çaoya etibar etməməsinin bir neçə səbəbi var idi. Bu zamana qədər İran, Azərbaycan, Anadolu əhalisinin kağız pulla tanışlıqları, sikkədən başqa ödənc vasitəsi praktikaları yox idi. Çaonun birdən-birə yox, tədricən tətbiqi ilə əhalidə kağız pul marağını aşılamaq olardı. Əhalinin çaoya etimad etməməsinin əsas səbəbi isə onun dəyərinin olmaması idi. Sikkə gümüş və ya qızıl kimi qiymətli metaldan kəsildiyindən onun dəyəri özündə idi, məkandan və taxtda kimin olmasından asılı olmayaraq, dəyərli idi. Əskinazda isə pulun dəyəri sadəcə hakimiyyətdə olan hökmdar və onun möhürü ilə bağlı idi. Hökmdar vəfat edərsə, bu pullar da dəyərini itirirdi. Bunlardan əlavə olaraq çao fiziki olaraq istifadəyə sikkədən daha az yararlı idi. Məsələn, 1 dinar nominalında sikkə ortadan bölünərdisə, onu 2 yarım dinarlıq sikkə kimi istifadə etmək olardı, çünki onun materialının özü dəyərli idi. Eyni əməliyyat əskinasla mümkün deyildi.

***Şəhzadə Baydunun üsyanı və Geyxatu xanın öldürülməsi.*** Şəhzadə Baydu və Geyxatu xanın arasında mülayim münasibət olsa da, 1294-cü ilin iyul ayında bir şənlikdə mübahisə yaranır və Geyxatu xan əmirlərinə Baydunu döyüb qovmağı əmr edir. Bir müddət sonra Geyxatu xan ona hədiyyə göndərib könlünü almağa çalışsa da, şahzadə Baydu bu hadisədən sonra xana düşmənçilik bəsləməyə başlamışdı. Baydu Bağdada getdikdən sonra xanın onu necə aşağıladığını əmirlərinə danışır və onlardan dəstək görür. Bundan əlavə, Geyxatu xanın şərəf və namuslarına əl uzatması səbəbilə xana düşmənçilik güdən əmirlər Bağdada gedərək ona qoşulur. Baydu onları xana üsyan barədə razı salır. Baydunun gələcək vəziri Cəmaləddin Dəsgərdaninin onlara qoşulub maliyyə dəstəyi verməsi ilə Baydu və tərəftarları xeyli güclənir. Baydu Geyxatu xanın Bağdad valisi Məhəmməd Sukurçini öldürərək Xana qarşı üsyana başladı [1, s.393-95; 4, s.641-42; 8, s.136; 9, s.184].

“Müsamərətül-əxbar” əsərində Baydu xanın üsyanının səbəbi kimi onun hakimiyyət sevdası və əmirlərin onu təhrik etməsi göstərilir [7, s.147]. Güman ki, şahzadə Baydunun hakimiyyət sevdası olsa da, o bunu büruzə verməmiş, Geyxatu xanın onu təhqir edib alçaltmasını xandan narazı olan əmirləri ətrfında birləşdirmək üçün istifadə etmişdir.

Baydunun üsyan xəbəri Geyxatu xana çatdıqda o, Baydunun oğlu və bəzi əmirləri həbs etdirib, Əmir Ağ Buğa və Toğaçarı qoşunla üsyanı yatırmağa göndərdi. Çağatu çayı adlı yerə çatdıqda Toğaçar Ağ Buğadan ayrılaraq Bayduya qoşuldu. Belə olduqda Toğaçar geri dönərək Xana qoşuldu. Xan Anadoluya getmək istəsə də, əmirlər taxt-tacı qoyub qaçmağın səhv olduğunu, qüvvələri səfərbər edib Baydunu məhv etmək lazım olduğunu deyib onu bu fikirdən daşındırdılar. Geyxatu xan Biləsuvara çatdıqda Əmir Həsən ordudan ayrılaraq həbsdə olan əmirlər və Baydunun oğlunu azad edib birlikdə Bayduya qoşuldu. Biləsuvar ətrafında olan üsyançı əmirlər Geyxatu xanı tapıb əsir aldılar. Geyxatu xan Baydunun xəbəri və əmri olmadan 1295-ci ilin 24 mart günü əmir Konçukbal və Tuluday tərəfindən yay kirişi vasitəsilə oğulları ilə birgə boğularaq öldürülmüşdür [3, s.21-22; 6, s.137; 8, s.136-37; 9, s.186].

***Nəticə.*** Aprelin əvvəlində Geyxatunun ölümündən xəbərdar olan şahzadə Baydu Həmədana gələrək əmir Toğaçar, Konçukbal və Toludayın dəstəyi ilə taxta çıxdı. Baydu bir yarlıq verərək Geyxatu xanın bir sıra xətalar etdiyini, hökmdarlığın haqqını vermədiyini və Çingiz xanın yasalarını dəyişdirdiyi üçün taxtdan endirildiyini bildirmişdir. Baydu ilə Qazan xan arasında irəli sürülən anlaşmaya görə, İraqi-Ərəb, Azərbaycan, Diyarbəkir, Ərmən, Gürcüstan və Rum Baydu xanın, İraqi-Əcəm, Xorasan, Xuzistan, Luristan isə Qazana qalacaqdı. Baydu xanın buna riayət etmədiyini görən Qazan xan Geyxatu xanın qətlinin Çingiz xanın yasalarına görə qanunsuz olduğu iddiası ilə mübarizəyə başlayır. Qazan Əmir Novruzun təşəbbüsü ilə Xorasana gedib İslamı qəbul etdi. Sədrəddin Zəncani, Toğaçar kimi güclü dövlət adamlarını yanına çəkən Qazan müsəlman əhalinin də köməyi ilə mübarizədə qalib gəldi və 1295-ci ilin sentyabr ayında Baydu xan Təbrizdə öldürüldü [2, s.107; 6, s.138-39].

Nəticə etibarilə qısa müddət ərzində hakimiyyətdə olmuş Geyxatu Xan hər nə qədər Anadolu səfərində türkmənlərin və Rüknəddin Qılınc Aslanın çıxışlarının yatırılmasında özünü qətiyyətli hökmdar kimi göstərsə də, dövlətin daxili idarəetməsi ilə əhəmiyyətli şəkildə məşğul olmamışdır. Buna, hökmdarın eyş-işrətə düşkünlüyü də böyük ölçüdə təsir göstərmişdir. Nəticədə, ədliyyə, maliyyə sistemində və bürokratik aparatda bir çox problemlər baş vermişdir. Çao adlanan əskinasın tətbiqi ilə maliyə problemlərinin həll edilməsi hədəflənsə də əhalinin kağız pula aşina olmaması, yeni pulun sərt tədbirlərlə tədavülə buraxılması ilə islahat gözlənilən nəticəni verməyib, əks-təsir göstərmişdir. Hökmdarla arasında olan məsələlərə görə ona şəxsi kin güdən şahzadə Baydunun Xandan narazı olan qüvvələri öz ətrafında birləşdirməsi ilə hökmdar devrilmiş və Baydu qısa müddətə taxta çıxmışdır. Geyxatu xanın hökmdarlığından xələflərinə miras kimi dövlətin bürokratik, ədliyyə, maliyyə və s. sahələrində olan problemlər qalmış, bu problemlər sonradan Qazan can dövründə geniş islahatların həyata keçirilməsini zəruri etmişdir.

## ƏDƏBİYYAT

1. Bar Hebraeus. Chronography / Translated from Syriac by E.A.Wallis Budge. London, 1932, 403p.
2. Bayram Quliyev. XIII-XV əsrlər Azərbaycan elm və mədəniyyət tarixi. Bakı, Elm və Bilik, 2022, 313 s.
3. Əbu Bəkr əl-Qütbi əl-Əhəri. Tarix-e Şeyx Üveys. Tərc.: M.Kazımov, V.Piriyev. Bakı, Elm, 1984, 152 s.
4. Gregory Abû'l-Farac. Abû'l-Farac tarihi. Çev.: Ö.R.Doğrul, 2 ciltte, 2. Cilt. Ankara, Türk Tarih Kurumu Basımevi, 1950, 728 s.
5. История Мар Ябалахи III и Раббан Саума. Перев.: Н.Пигулевской. Москва, Издательство Восточной Литературы, 1958, 163 с.
6. Kansu Ekici. İlhanlı hükümdarı Geyhâtû ve zamanı. Doktora tezi. Isparta, 2012, 198 s.
7. Kerîmüddin Mahmud-i Aksarayî. Müsâmeratü'l-Ahbâr. Çev.: Mürsel Öztürk. Ankara, Türk Tarih Kurumu Basımevi, 2000, 266 s.
8. Рашид-ад-дин. Сборник Летописей. 3 томах, том 3. Москва- Ленинград, Издательство Академии Наук СССР, 1946, 376 с.
9. Reşîdüddin Fazlullah. Câmiu't-Tevârih. Çev.: İ.Aka, M.Ersan, H.Khelejani. Ankara, Türk Tarih Kurumu, 2013, 336 s.

**PENAH KHANLAYEV**
*Baku State University,*
*3th year student of Faculty of History*

## THE REIGN OF ELKHANID RULER GAYKHATU KHAN

The paper examines the reign of Ilkhanid ruler Gaykhatu Khan (1291-1295). His rule holds a distinctive place in the history of the Ilkhanate due to his campaign in Anatolia, internal political struggles, and an unsuccessful financial reform. The research analyzes the circumstances of Gaykhatu's accession to power, the developments in Anatolia, his controversial domestic policies, and the introduction - and subsequent failure - of the region's first paper currency, Chao. The analysis is conducted through a comparative examination of primary sources and modern historiography.

*Key words:* İlkhanids, Gaykhatu khan, Baydu, Chao, Anatolia.

*Daxil olma tarixi*: 30.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

 №2(12) 2025, 62-69

UOT 94(479.24); UOT 32:93/94

**RƏMZİ SƏFƏRLİ**
*Bakı Dövlət Universiteti,*
*Tarix fakültəsi tarix ixtisası üzrə IV kurs tələbəsi*
**ramzisafarli0@gmail.com**

# AZƏRBAYCAN VƏ MACARISTAN RESPUBLİKASI ARASINDA MÜNASİBƏTLƏR (1991-ci ildən günümüzədək)

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Zərifə Nəzirli

*Azərbaycan və Macarıstan arasında diplomatik münasibətlər 1992-ci ildə Azərbaycanın müstəqillik əldə etməsindən sonra qurulmuşdur. O zamandan etibarən iki ölkə arasında siyasi, iqtisadi, mədəni və təhsil sahələrində əlaqələr davamlı şəkildə inkişaf etmişdir. Xüsusilə enerji sektorunda əməkdaşlıq mühüm yer tutur. Azərbaycanın zəngin təbii qaz ehtiyatları və Cənub Qaz Dəhlizi layihəsi Macarıstan üçün strateji əhəmiyyət daşıyır. İqtisadi sahədə kənd təsərrüfatı, infrastruktur və texnologiya sahələrində ticarət əlaqələri genişlənməkdədir. Həmçinin Macarıstan universitetləri Azərbaycan tələbələri üçün təqaüd proqramları təklif edir, bu da təhsil sahəsində əməkdaşlığın gücləndiyini göstərir. Siyasi sahədə Macarıstan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və beynəlxalq platformalarda əməkdaşlıq edir. Mədəni əlaqələr isə iki xalq arasında dostluğun möhkəmlənməsinə şərait yaradır. Ümumilikdə Azərbaycan və Macarıstan arasındakı münasibətlər 1991-ci ildən bu günə qədər hər iki ölkənin strateji maraqlarına uyğun olaraq inkişaf etməkdədir. Məqaləmizin yazılmasında məqsəd iki dövlət arasında mövcud olan bu əlaqələri daha yaxından sizlərə çatdırmaqdan ibarətdir.*

*Açar sözlər:* Azərbaycan, Macarıstan, Təhsil, İqtisadiyyat, Energetika.

***Giriş.*** Azərbaycan və Macarıstan arasında əlaqələr qədim tarixə söykənən dostluq və əməkdaşlıq zəminində formalaşmışdır. İki ölkə arasında mədəni, iqtisadi və siyasi sahələrdə əlaqələrin inkişafı strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır. Bu əməkdaşlıq yalnız qarşılıqlı maraqların təmin edilməsinə deyil, həm də regionda sülh və sabitliyin gücləndirilməsinə xidmət edir. Müstəqillik əldə etdikdən sonra Azərbaycan Macarıstan ilə əlaqələrini daha da möhkəmləndirərək müxtəlif sahələrdə əməkdaşlıq platformalarını genişləndirmişdir. Hər iki ölkənin ortaq tarixi, mədəni və siyasi maraqları bu münasibətlərin əsasını təşkil edir.

Azərbaycan Respublikası müstəqil olduğu ilk günlərdən etibarən müxtəlif dövlətlərlə diplomatik əlaqələrin qurulması prosesini dövlət quruculuğunun qarşısında duran əsas məsələlərdən biri hesab edir. Bunun əsas səbəbi isə xarici ölkələrlə qurulan bu münasibətlərin ölkəmizin daxili siyasəti ilə yanaşı dünya iqtisadiyyatında yerini müəyyənləşdirməsi ilə əlaqədar hesab edilir. Bu baxımdan ölkəmizin xarici siyasət stereotiplərinə qısa nəzər salsaq aşağıdakıları qeyd etməliyik:

- Xalqın təhlükəsiz yaşamasınının və milli maraqlarının qorunmasını təşkil etmək üçün dövlətlərarası əməkdaşlığı genişləndirmək;
- Xarici dövlətlərlə müqavilələr bağlamaq, xarici iqtisadi, ticarət əlaqələrini genişləndirmək, ölkədə investisiya axınına əlverişli imkan yaratmaq;
- Beynəlxalq təşkilatlarda, konfranslarda fəal iştirak etmək, ölkənin beynəlxalq nüfuzunu gücləndirmək [4, 60].

Məhz bu səbəblərdən dolayı digər müstəqil dövlətlər kimi Azərbaycan da xarici siyasət cəbhəsində öz mövqeyini göstərmiş oldu. Sovet quruluşunun dağılması ilə müstəqillik əldə etmiş dövlətlərin özlərinə doğru tərəfdaş axtarmaları nəticəsində Azərbaycan – Macarıstan əlaqələrinin qurulması respublikamızın gələcək zamanlarda həyata keçirdiyi tədbirlərdə özünün üstün mövqeyini nümayiş etdirmiş oldu. 1991-ci il dekabrın 26-da Azərbaycan Respublikasının müstəqilliyini tanımış Macarıstan ilə diplomatik əlaqələrin qurulması prosesi 1992-ci ilin aprel ayından etibarən başlanmışdır. Bu dövrlərdə dövlətimizdə davam etməkdə olan Qarabağ münaqişəsi ölkənin daxilindəki vəziyyəti getdikcə çətin-

ləşdirirdi. Belə bir zamanda hakimiyyətə gəlmiş Ümumilli Lider Heydər Əliyevin qarşısında duran əsas məsələlərdən biri münaqişənin həllinə nail olmaqla yanaşı dövlətlər arasında diplomatik münasibətləri tənzimlənməsindən ibarət idi. Beləliklə bu əlaqələrin yaxşılaşdırılmasını həyata keçirən Heydər Əliyev özündən sonrakı prezidentimiz üçün də nümunə oldu. Məhz bunun nəticəsidir ki, Azərbaycan və Macarıstan arasında formalaşdırılmış bir çox münasibətlər İlham Əliyevin dövrünə təsadüf edir. Bunlardan ilki və hətta ən əhəmiyyətlisi iki dövlət arasında səfirliklərin açılması ilə bağlı idi. Atılan siyasi addımların nəticəsi olaraq 2004-cü ildə Azərbaycanın Macarıstanda, 2009-cu ildə isə Macarıstanın Azərbaycanda nümayəndəlikləri açıldı. Qeyd edək ki, Macarıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Jeno Boroş olmuşdur. 2010-cu il dekabrın 14-dan etibarən Cənab Zsolt Cutora Macarıstanın Azərbaycandakı səfiri kimi fəaliyyət göstərməyə başlamışdır. Azərbaycanın Macarıstandakı səfiri isə müxtəlif dövrlərdə dəyişdirilmişdir. Lakin hal-hazırdakı səfirimiz Tahir Tağızadədir.

Bu dövrlər ərzində dövlət başçılarının, həmçinin hökumət üzvlərinin dəfələrlə görüşləri həyata keçirilmişdir. Bunlardan biri 2009-cu ildə baş tutmuş “Nabucco” Enerji Sammiti ilə bağlı idi. Yanvar ayının 26-27-də ölkəyə səfər etmiş dövlət başçısı Enerji Sammitində layiqincə iştirak etmiş, bir sıra məsələlərin müzakirəsinə nail olmuşdur. Daha bir görüş 2011-ci ildə baş tutmuşdur. Bu zaman ölkəmizə səfər etmiş Macarıstan Respublikasının prezidenti Pal Şmit ilə Respublikamızın prezidenti İlham Əliyevin arasında rəsmi görüş həyata keçirilmişdir. Görüş çərçivəsində Azərbaycan – Macarıstan arasında əlaqələrin dostluq və qardaşlıq prinsiplərinə əsaslanan münasibətləri aydın şəkildə müzakirə edilmişdir.

Dövlət başçılarının rəsmi səfərləri daha sonrakı dövrlərdə də davam etdirilmişdir. Bunlardan biri də məhz 2023-cü il avqust ayının 20-də baş tutmuşdur. Görüşdə Macarıstan Baş Naziri Viktor Orban ölkəsinə səfəri qəbul etdiyinə görə prezident İlham Əliyevə öz minnətdarlığını bildirdi [2, 114].

Görüş əsnasında Azərbaycan ilə Macarıstan arasında enerji, o cümlədən neft-qaz sahəsində əməkdaşlığı uğurla inkişaf etdiyi qeyd olundu, Azərbaycan qazının Macarıstan bazarına çatdırılmasının əhəmiyyəti vurğulandı. Qida sənayesi sahəsində Macarıstan Azərbaycana investisiya qoyuluşu, əczaçılıq sənayesi sahələrində əməkdaşlıqla bağlı olunmuş müsbət dinamika qeyd edildi, Macarıstan aviadaşıyıcısı vasitəsi ilə Bakı-Budapeşt reyslərinin həyata keçirilməsinin önəminə toxunuldu, ümumilikdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu [2, 115].

Görüş zamanı qeyd olunan məsələlər arasında yalnızca iqtisadi sahələr müzakirə olunmamış, eyni zamanda mədəni sahənin inkişafına toxunulmuşdur. Qeyd edək ki, Prezidentimizin bu görüşü Macarıstanın Milli bayramı olan - Müqəddəs Stefan günü ilə üst - üstə düşdüyündən o daha sonra keçirilən ziyafətə də dəvət almışdır. Beləliklə rəsmi səfər avqust ayının 21-i yekunlaşmışdır.

Qeyd etməli olduğumuz məqamlardan biri də ondan ibarətdir ki, dövlətlər arasındakı bu münasibətlər yalnız prezidentlərin səfərləri ilə məhdudlaşmır. Eyni zamanda parlamentlər arasında da beynəlxalq səviyyəli əlaqələr qurulmuşdur. Bu məqsədlə parlamentlərarası işçi qrupları da yaradılmışdır. Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarının 16-cı bəndinə əsasən parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri: İsmayılov Fikrət İsmayıl oğlu təyin edilmiş, qrupun digər əməkdaş üzvləri kimi isə Əliyev Firdovsi, Ramazanov Kərim təyin olunmuşdur [11]. 4 mart 2016-cı il tarixindən isə Xanhüseyn Kazımlı işçi qrupunun rəhbəri kimi fəaliyyət göstərməyə başlamışdır [12].

Parlamentlərarası əlaqələrlə yanaşı hökumət üzvlərinin də səfərlərini qeyd etmək lazımdır. Xüsusi ilə xarici işlər nazirlərininin görüşləri bu baxımdan danlamazdır. Bu görüşlərdən ilki daha öncə də qeyd etdiyimiz kimi respublikamızın qurulduğu ilk dövrlərlə əlaqədardır. Bu baxımdan 1997-ci il fevralında Macarıstan XİN-in Dövlət Katibi İştvan Sent İvanin səfəri xüsusilə vurğulanmalıdır. Həmçinin müxtəlif dövrlərdə hər iki dövlət rəsmiləri arasında görüşlər baş tutmuşdur. Bunlar sırasında: 2007-ci il 17-19 may ayında - Macarıstanın Xarici İşlər Nazir xanım K.Qöntsün rəsmi səfəri; 2009-cu il 24-27may ayında - Azərbaycanın Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyevin səfəri; 2011-ci il fevral-martında - Xarici İşlər Nazirlərinin müavini Xələf Xələfovun səfəri, həmçinin 2013-cü il 12-14 martında - Kənd təsərrüfatı nazirliyinin dövlət katibi cənab Gyula Budainın səfəri; 2014-cü il 27-28 yanvar - Azərbaycan-Macarıstan hökumətlərarası komissiya qrupunun sədri dövlət katibi Peter Siyyartonun səfəri və.s yer almaqdadır. Xüsusilə 2014-cü ildə Macarıstan baş naziri Viktor Orbanın Azərbay-

cana səfəri zamanı ikitərəfli əlaqələr daha da möhkəmləndi. Bu səfərdə energetika və infrastruktur sahələrində əməkdaşlıq üçün yeni imkanlar müzakirə edildi.Bu görüşlərin hər biri özünəməxsusluğu ilə seçilir. Qeyd olunan görüşlər zamanı aparılan danışıqlar daha sonrakı dövrlərdə bir daha öz əhəmiyyətini göstərmişdir. Belə ki, dövlətlər arasında diplomatik əlaqələrin 30 illiyi münasibəti ilə 2022-ci ildə tədbir də həyata keçirilmişdir.

Ötən 30 illik dövrdə Azərbaycan-Macarıstan əlaqələri iki ölkənin dövlət başçılarının siyasi iradəsi və səyləri nəticəsində inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İki ölkə arasında imzalanan ümumilikdə 50 sənəd əməkdaşlıq sahələrinin mütəmadi genişlənməsinə imkan verib. Bunu əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycan və Macarıstan Hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayev iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi ilə əlaqədar Beynəlxalq Muğam Mərkəzində təşkil olunan tədbirdə bildirib [25].

Nazir Azərbaycan və Macarıstan arasında ticarət dövriyyəsində müsbət dinamikanı, iqtisadi münasibətlərin inkişafında Birgə Hökumətlərarası Komissiyanın xüsusi rolunu qeyd edib. 2005-2021-ci illərdə Bakı və Budapeştdə 10-dan çox biznes forum, işgüzar görüş və digər tədbirlərin, həmçinin bu ilin fevral ayında Bakıda Birgə Komissiyanın 8-ci iclası və Biznes Forumun keçirildiyini, 2019-cu ildə Budapeştdə Azərbaycan Evinin açıldığını bildirib [25]. Bütün bunlar aparılan diplomatik əlaqələrin uğurlu inkişafının əsas göstəricisidir.

Azərbaycan və Macarıstan arasında bu kimi əlaqələrin qurulması bir çox dövlət səviyyəli addımların atılmasına təsir göstərmişdir. Hansı ki, bunların arasında gənclərin inkişafı fonunda görülən tədbirlərlə yanaşı təhsil, energetika, idman eyni zamanda sənayenin inkişafı ilə bağlı fəaliyyət də yer alır. Bununla bağlı Macarıstan – Azərbaycan arasında “Gənclər Birliyi” fəaliyyət göstərməkdədir. Qeyd edək ki bu təşkilat 2012-ci ildə yaradılmış, yarandığı andan etibarən hər iki dövlətin gəncləri üçün müxtəlif layihə və imkanlar irəli sürmüşdür. “Gənclər birliyinin” fəaliyyətləri haqqında 21 iyul 2014-cü il tarixində məqalədə qeyd olunur. Bu haqda məlumat “Study in Hungari “ saytında verilmişdir. Burada deyilir: “ Macarıstan Azərbaycanda tanıdacaq növbəti layihəsini ictimaiyyətə təqdim edir. Bu layihə “Macarıstanda təhsil” adlanır və məqsədi azərbaycanlı gəncləri bu Avropa ölkəsindəki təhsil imkanları haqqında məlumatlandırmaqdır” [13]. Bu layihənin həyata keçirilməsi iki dövlət arasında tələbələrin məlumatlandırılmasını özündə ehtiva etməklə yanaşı mədəniyyətlərarası əlaqələrin də formalaşmasına güclü təsir göstərmişdir. Bununla yanaşı təhsil sahəsində bir sıra addımlar da həyata keçirilmişdir. Xüsusi ilə təhsil və karyera sərgilərinin həyata keçirilməsi bunlara misal ola bilər.Qeyd edək ki, Azərbaycan xarici tələbələri cəlb etmək istəyən Macarıstan universitetləri üçün ən perspektivli bazarlardan biri hesab olunur və ölkənin aparıcı universitetləri azərbaycanlı tələbələrə beynəlxalq münasibətlər, menecment, İKT, tibb, kənd təsərrüfatı, mühəndislik, və su təchizatı kimi sahələrdə üstünlüklər vəd edir [14]. Belə ki, Azərbaycan Dillər Universiteti ilə Balassi İnstitutu arasında əməkdaşlığa dair razılığın artıq əldə olunması bunu bir daha sübut edir. Həmçinin, Csutora Budapeştdə iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclası çərçivəsində imzalanmış tələbələr üçün təqaüd proqramı haqqında sazişin azərbaycanlı tələbələrin Macarıstanda təhsil alması üçün yaxşı imkanların yaradıldığını bildirib. Onun sözlərinə görə: “Macarıstan bu proqram çərçivəsində 200 azərbaycanlı tələbə qəbul edəcək. Sözügedən sazişə əsasən, Macarıstan tərəfi təhsil haqqını ödəyəcək, yataqxana ilə təmin edəcək və tələbələrə aylıq təqribən 42 min forint və ya 150 manata yaxın təqaüd verəcək” [14]. Buradan da bir daha aydın olur ki, təhsil sahəsinə önəm verən hər iki dövlət gənclərin inkişafı üçün mühüm şəraitlər yaratmışdır.

Atılmış addımların bir qismi daha öncə də vurğuladığımız kimi iqtisadi sahələri əhatə edir. İqtisadi sahədə də Azərbaycan və Macarıstan arasındakı strateji əlaqələr özünün müəyyən cığırını açmaqla bu gün də inkişaf edir. Hər iki ölkə müxtəlif ticarət və investisiya layihələri həyata keçirir, bu da iqtisadiyyatlarının şaxələndirilməsinə və böyüməsinə şərait yaradır. Xüsusilə kənd təsərrüfatı, infrastruktur və texnologiya sahələrində əməkdaşlıq potensialı böyükdür. Beləliklə, iki ölkə arasında ticarət dövriyyəsi hər il artmaqda davam edir və bu, iqtisadi əməkdaşlığın gələcəkdə daha da güclənəcəyini göstərir. Bu məqsədlə 2014-cü ildə biznes forumunda da müəyyən razılıqlar əldə edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ilin noyabrında Macarıstana səfəri və səfər çərçi-

vəsində imzalanmış Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, habelə iqtisadi sahəni əhatə edən bir sıra sənədlər və Macarıstanın Baş naziri Viktor Orbanın 2016-cı ilin mart ayında Azərbaycana baş tutmuş səfəri ikitərəfli iqtisadi əməkdaşlığın daha da genişlənməsində əhəmiyyətli rol oynamaqdadır [24]. “Yalnız öz maraqlarını aydın ifadə edən və həyata keçirən ölkələr uğur qazanacaq” [15], deyən Baş Nazir Viktor Orbanın bu sözləri respublikamızın prezidenti tərəfindən də müsbət qarşılanıb. Bütün bunların nəticəsidir ki, ölkələrimiz arasında iqtisadi əlaqələrdə davamlı inkişaf bu gün də müşahidə olunur. İki ölkə arasında imzalanmış strateji tərəfdaşlıq haqqında “Birgə Bəyannamə”, habelə iqtisadi sahəni əhatə edən bir sıra digər sənədlər iqtisadi əməkdaşlığın daha da genişlənməsində əhəmiyyətli baza rolunu oynayır. Azərbaycanda Macarıstan investisiyalı şirkətlər əsasən kənd təsərrüfatı, nəqliyyat, ticarət, xidmət sahələrində fəaliyyət göstərir.

İki ölkə arasında əmtəə dövriyyəsinin həcminin qısa zaman kəsiyində əhəmiyyətli dərəcədə artımı da əlaqələrin yüksək səviyyədə olmasının əyani təsdiqidir. 2021-ci ildə Azərbaycan ilə Macarıstan arasında ümumi ticarət dövriyyəsi 35,16 milyon ABŞ dolları təşkil edib. 2022-ci ildə isə 47,4 milyon ABŞ dolları təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 34,81 faiz artım deməkdir [5].

İqtisadi sahədə atılan addımlar zamanı dövlət rəsmilərinin görüşü danılmazdır. Bu baxımdan İqtisadiyyat naziri Mikayıl Cabbarov və Macarıstanın iqtisadi inkişaf naziri Marton Nad arasında videokonfrans formatında görüş keçirilmişdir. Diqqətə çatdırılıb ki, energetika, sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, qida, əczaçılıq və s. Sahələrdə tərəfdaşlığın gücləndirilməsi üçün geniş imkanlar var. Nazir qeyd edib ki, “Azərbaycan İnvestisiya Şirkəti” ASC və Macarıstanın “Hell Energy” şirkəti arasında imzalanmış investisiya müqaviləsinə uyğun olaraq Ələt Azad İqtisadi Zonasında alüminium içki qutularının istehsalı və doldurulması zavodunun inşası səmərəli biznes əməkdaşlığının uğurlu nümunəsidir [23]. Görüşdə Azərbaycanda özəl və xarici şirkətlərin fəaliyyəti üçün yaradılmış imkanlar və biznes mühiti barədə məlumat verilib, Macarıstan şirkətləri fəal tərəfdaşlığa dəvət edilib [23].

Daha öncə də vurğuladığımız kimi bütün bu inkişaf sadəcə iqtisadi sahənin bir qismini əhatə etmirdi. Bu həm də ticarət sahəsi ilə bağlı idi. Maraqlı məqamlardan biri də Macarıstanda nar şirələrinin istehsalı ilə əlaqədardır. Azərbaycanlı biznesmen, iş adamı Ramil Azməmmədov bununla bağlı macar saytlarından birinə müsahibə vermişdir. Müsahibəsində: “Əslində bizim Macarıstan bazarına girməyimiz təxminən bir il çəkdi. Bazarda 6-7 əsas rəqibimiz olsa da hələ də kifayət qədər uğurlu olduğumuzu düşünürük. Bu gün məhsullarımız dəbdəbəli restoranlarda təqdim olunur, Bio mağazalarında və bəzi mühüm market şəbəkələrində (məsələn: CBA) Melagrana və +More brendi altında satılır. Gündən-günə satış dairəmiz genişlənir” [20] deyə qeyd edən gənc biznesmenin sözlərinə əsasən vurğulamalıyıq ki, ölkəmiz öz milli dadları ilə damaq zövqlərini oxşamaqla yanaşı ticarət sahəsində də üstünlük əldə etmişdir.

Energetika sahəsi də Azərbaycan və Macarıstan arasındakı əlaqələrin əsas sütunlarından biridir. Azərbaycan Cənubi Qafqaz və Avropa üçün strateji enerji tədarükçüsüdür və Macarıstan da bu sahədə Azərbaycanın enerji ehtiyatlarından faydalanmağa maraqlıdır. Məhz bu səbəbdən Macarıstan Azərbaycan ilə enerji sahəsində əməkdaşlığa da böyük əhəmiyyət verir və Avropanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin oynadığı mühüm rolu daim təqdir edir. Xüsusən Azərbaycan təbii qazının Avropaya, o cümlədən Macarıstana nəqli bu əlaqələrin mühüm tərkib hissəsini təşkil edir.

Ölkələr arasında enerji istehsalını artırmaq məqsədi ilə həyata keçirilən bu tədbirlərin əsasında işçi qrupunun yaradılması da xüsusi əhəmiyyət kəsb edən məsələlərdən idi. Məhz bu səbəbdən 2020-ci ildə Macarıstanın paytaxtı Budapeşt şəhərində Azərbaycan Respublikası Hökuməti və Macarıstan Hökuməti arasında yaradılmış Enerji üzrə İşçi Qrupunun ilk iclası keçirilmişdir. İclasın əsas məqsədi Azərbaycanla Macarıstan arasında energetika sahəsində aparılan işlərə nəzarət edilməkdən ibarət idi.

İşçi Qrupunun Azərbaycan tərəfdən sədri, Energetika Nazirliyinin Aparat rəhbəri Zaur Məmmədov iclasda çıxış edərək Azərbaycan və Macarıstan arasında enerji əməkdaşlığının hazırkı vəziyyəti və perspektivlərinə dair fikirlərini bölüşüb. Enerji üzrə İşçi Qrupunun bu əməkdaşlığın daha da genişləndirilməsinə töhfə verəcəyini bildirib. Zaur Məmmədov geotermal enerji sahəsində Macarıstanın təcrübəsinin öyrənilməsi və birgə tədbirlərin keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

Macarıstan tərəfindən İşçi Qrupunun rəhbəri, Enerji təhlükəsizliyi sahəsində Xüsusi tapşırıqlar üzrə səfir Pal Sagvari isə Cənub Qaz Dəhlizi layihəsinin uğurla həyata keçirilməsində Azərbaycanın aparıcı rolunu yüksək qiymətləndirib. O, ölkəsinin Azərbaycanla enerji əməkdaşlığının inkişafında maraqlı olduğunu bildirib [18].

Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində Azərbaycanın qaz ehtiyatları Macarıstana çatdırıla bilər və bu Avropanın enerji təhlükəsizliyinə həqiqətən də böyük töhfə verə bilər. Burada nəzərə alınan maraqlar sadəcə Macarıstan və Avropanın enerji sahəsini deyil ölkəmizin də energetika sahəsini əhatə edir. Bununla bağlı məsələyə prezident İlham Əliyev Bakı Ekspo Mərkəzində Enerji Həftəsi Çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və qaz - "Caspian Oil &Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji"– "Caspian Power Sərgilərinin Açılışı Mərasimi" zamanı toxunmuşdur. O bildirirdi: "Ötən ilin dekabr ayında Buxarest şəhərində «yaşıl enerjiyə dair digər bir mühüm tədbir keçirildi. Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya bir araya gəldi və Avropa Komissiyasının Prezidenti də həmin tədbirdə iştirak etdi. Orada «yaşıl enerjiyə və transmissiyaya dair müvafiq sənəd imzalandı. Əminəm ki, bu, qlobal əhəmiyyətə malik bir layihə olacaqdır" [1, 11].

Bayaq da qeyd etdiyimiz məsələ ilə bağlı xüsusilə ilə BMT-in həyata keçirmiş olduğu Dayanıqlı İnkişaf Sammitindən sonra hər iki dövlət "Yaşıl energetika" sahəsində önəmli tərəfdaşlara çevrilmişlər. "Report" xəbər verir ki, müzakirələr Bakı Enerji Forumu çərçivəsində energetika naziri Pərviz Şahbazovun Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyarto ilə keçirilən görüşdə aparılıb. Görüşdə 4 ölkə arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi üzrə nazirlərin sonuncu iclasının nəticələrindən və birgə müəssisənin yaradılması proseslərinin gedişatından məmnunluq ifadə edilib. Layihənin icrasının digər mühüm komponentləri üzrə növbəti addımlar razılaşdırılıb. Bildirilir ki, Macarıstanla karbohidrogen və "yaşıl enerji" sahələrində əməkdaşlıq məsələlərinin müzakirəsi P.Şahbazovun Macarıstanın energetika naziri Csaba Lantos ilə görüşdə də davam etdirilib. Bu ölkənin qaza tələbatı və idxalın şaxələndirilməsi kontekstində Azərbaycan qazının Macarıstan bazarına çatdırılmasının əhəmiyyətindən bəhs olunub. Macarıstanın enerji şirkəti MOL və ən böyük təbii qaz topdansatış şirkəti olan "MVM CEEnergy Zrt." İlə neft-qaz layihələrində əməkdaşlığın perspektivləri nəzərdən keçirilib. Həmçinin hər iki ölkədə bərpa olunan enerji kursu və Azərbaycandan Macarıstana "yaşıl enerji dəhlizi" vasitəsilə elektrik enerjisinin tədarükünə dair fikir mübadiləsi aparılıb.[16] Qeyd edək ki, "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" 17 dekabr 2022-ci ildə Buxarestdə imzalanıb. Hazırda "CESI" şirkəti "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırılmasını hazırlayır [16].

Energetika sahəsində aparılan danışıqlar bununla yekunlaşmır. Bu mövzuda dövlət rəsmiləri arasında dəflərlə görüşlər keçirilmişdir. Keçirilən görüşlərdən biri isə Macarıstanın Baş naziri Viktor Orban Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov arasında baş tutmuşdur. "Report" xəbər verir ki, bu barədə Macarıstan Baş nazirinin Ofisinin mətbuat xidmətinin rəhbəri Zoltan Kovacs "X" sosial şəbəkəsindəki hesabında yazıb. Z.Kovacs deyib ki, Macarıstanın Baş naziri Viktor Orban Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edib. O qeyd edib ki, tərəflər Azərbaycan enerji şirkətinin Macarıstan təsislərində qaz depolamaya başlamasının və iki ölkə arasında fiziki qaz tranzitinin yaradılmasının vacibliyi vurğulayıb: "Həmçinin, onlar macar şirkətlərinin Azərbaycanda uğurlu genişlənməsini və gələcəkdə potensial macar investisiyasını müzakirə ediblər. Qarabağın yenidən bərpası sahəsində macar şirkətlərinin inşa prosesində iştirakı üçün bir Azərbaycan şəhəri müəyyənləşdirilib" [17]. Daha sonrakı dövrlərdə keçirilən brifinqlərdə bu məsələlər dəfələrlə müzakirə edilmişdir. Bunlardan biri də 2024-cü ildə baş tutmuşdur. Görüşdən sonra xarici işlər naziri Ceyhun Bayramov: "Sevindirici haldır ki, Azərbaycan qazı artıq Macarıstana da çatır" [19] deyə qeyd etmişdir. Bütün bu addımlar hər iki dövlətin qarşılıqlı tərəfdaşlığının gətirmiş olduğu müsbət addımlar sırasında öz yerini almışdır. Azərbaycan və Macarıstan arasındakı əlaqələri möhkəmləndirən əsas cəhətlərdən biri də xeyriyyə aksiyalarının təşkil edilməsi ilə bağlıdır. "Daily News / Hungary" xəbər bloqunun verdiyi məlumata əsasən Azərbaycan Macarıstan Katolik Xeyriyyə Cəmiyyəti tərəfindən idarə olunan instituta Heydər Əliyev Fondu dəstək verəcək. Qeyd edilən institutun əsas məqsədi isə kor uşaqların pedaqoji fəaliyyətlərə cəlb edilməsi ilə balğlıdır.

"Bu hadisə Macarıstan-Azərbaycan münasibətlərində yeni səhifə açır" - Macarıstanın xarici ticarət rəhbəri Peter Szijjarto mərasimdə deyib. Onun sözlərinə görə, bundan sonra Macarıstan-Azərbaycan münasibətlərinin inkişafı təkcə qarşılıqlı maraqlar deyil, həmrəylik, dostluq və şəfqət əsasında olacaq.

Hazırda institutda 60 uşaq himayəsindədir. Beşmərtəbəli yeni qanad açmış, institutda böyümüş 30 gənci yaşayış yeri və iş yeri ilə təmin edəcək. Layihə 500 milyon forintə (1,67 milyon avro) başa gələcək ki, bunun da 240 milyonu Azərbaycan fondu tərəfindən qarşılanacaq.

Fond adından İlqar Mustafayev bildirib ki, fond 2004-cü ildə səhiyyə, mədəniyyət və rifah layihələrini xaricdə təbliğ etmək məqsədilə yaradılıb. O əlavə edib ki, uşaqlara, xüsusən də sağlamlıq imkanları məhdud olanlara dəstək onların prioritet istiqamətlərindəndir [21].

İki ölkə arasında aparılan əlaqələr sadəcə bunlarla yekunlaşmır. Müxtəlif aviareyslərin təşkil olunması sahəsində hər iki dövlət arasında müəyyən edilmiş kompaniyalar mövcuddur. Bu isə hər iki ölkənin vətəndaşlarının azad səfər etmək hüququnu sübut edir.

2022-ci ildə Ələt Azad İqtisadi Zonası və Macarıstan İxracın Təşviqi Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb. Macarıstanın "Wizz Air" şirkəti Bakı və Budapeşt şəhərləri arasında birbaşa aviareyslər həyata keçirir [5].

Mədəniyyət sahəsində də ölkələr arasında müxtəlif layihələr təşkil edilir. Bunların bir qismi daha öncə də vurğuladığımız "Gənclər Birliyi" ilə bağlıdır. Lakin bunlardan əlavə soydaşlarımızın milli - mədəni nümunələrimizi əks etdirən addımları da xüsusi yer alır. Bunlardan biri kimi Budapeştin poçt markalarında azərbaycanlı rəssamın rəsm əsərləri əks olunmasını xüsusi qeyd etməliyik. Sözügedən rəssam Çingiz Mehbalıyevdir.

Markalarda Mehbalıyevin "Muğam kompozisiyası" rəsmləri və Macarıstan paytaxtının müxtəlif mənzərələri əks olunub. Markalara "Vaqif Mustafazadə", "Deqradasiya", "Romantik muğam", "İmaddin Nəsimi" və "Siyavuş obrazı" rəsmləri də daxildir [22].

Qeyd etməli olduğumuz məqamlardan biri də ondan ibarətdir ki, Macarıstanın Azərbaycan münasibətləri 44 günlük Vətən müharibəsi dövründə də öz əksini tapmışdır. Müharibə zamanı macar xalqı daim bizlərə öz dəstəyini ifadə etmişdir. Bununla yanaşı bu gün də işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa-quruculuq işlərində Macar şirkətlərinin də dəstəyini görmək mümkündür. Bütün bunlar bir daha onu sübut edir ki, yüksək dövlətçilik ənənələrinə sahib olan hər iki dövlət bu gün də münasibətlərini uğurla davam etdirir. Bunların hər biri İlham Əliyevin diplomatik sahədə uğurlarının bir qismini özündə əks etdirir.

***Nəticə.*** Azərbaycan və Macarıstan arasında mövcud olan əlaqələr iki ölkənin uzunmüddətli əməkdaşlıq və qarşılıqlı fayda prinsipləri əsasında inkişaf etmişdir. Bu münasibətlər yalnız ikitərəfli münasibətlərdən ibarət deyil, həmçinin regional və beynəlxalq səviyyədə də əhəmiyyətli nəticələrə gətirib çıxarmışdır. Hər iki ölkənin strateji maraqları və ortaq dəyərləri onların gələcəkdə daha da yaxınlaşmasına zəmin yaratmışdır. Təhsil, mədəniyyət, ticarət və enerji sahələrindəki əməkdaşlıq Azərbaycan və Macarıstanın qlobal və regional miqyasda mövqelərini gücləndirmək üçün geniş imkanlar açır. Həmçinin, bu əlaqələrin davamlı inkişafı, regional sabitliyə və iki ölkə arasındakı dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edəcəkdir. Gələcəkdə Azərbaycan və Macarıstan arasında əməkdaşlığın daha da inkişaf edəcəyinə və yeni strateji layihələrin həyata keçirilməsinə şərait yaradacağına inanılır. Bu əməkdaşlıq, yalnız iqtisadi və siyasi əlaqələr deyil, həm də xalqlar arasında daha güclü bir dostluq və qarşılıqlı anlayışın qurulmasına töhfə verəcəkdir.

Son olaraq qeyd edək ki, Azərbaycan və Macarıstan arasındakı diplomatik əlaqələr gələcəkdə daha da inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksələ bilər. İki ölkənin ortaq maraqları, o cümlədən enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq və mədəni mübadilələr, bu münasibətlərin uzunmüddətli perspektivdə daha da dərinləşəcəyinə işarədir. Bu əlaqələr hər iki ölkənin regional və beynəlxalq mövqelərini gücləndirə bilər və onların bir-birinə qarşılıqlı dəstək göstərməsinə imkan yaradır.

## ƏDƏBİYYAT

1. Əliyev İ. İnkişaf məqsədimizdir. 129-cu kitab. Bakı, Azərnəşr, 2023, 392 s.
2. Əliyev İ. İnkişaf məqsədimizdir. 130-cu kitab. Bakı, Azərnəşr, 2023, 392 s.

3. Dadaşova R. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının Daimi üzvləri ilə əməkdaşlığı. Bakı, ADMİU, 2021, 344 s.
4. Şıxıyeva K. İctimai-siyasi təhlükəsizlik. Bakı, AR DTX Redaksiya-nəşriyyat bölməsi, 2020, 252 s.
5. Azərbaycan-Macarıstan münasibətləri uğurla inkişaf edir / Report İA, 20 avqust 2023. - https://report.az/xarici-siyaset/azerbaycan-macaristan-munasibetleri-ugurla-inkisaf-edir/ [30.12.2024].
6. Azərbaycan və Macarıstan əlaqələri strateji tərəfdaşlıq əsasında genişlənir / AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin saytı, 11 oktyabr 2022. - https://sosial.gov.az/media/xeberler/post_606704?hl=az [30.12.2024].
7. Azərbaycan-Macarıstan münasibətləri yeni inkişaf mərhələsində / Qafqazinfo.az, 30.01.2023. - https://www.qafqazinfo.az/news/detail/azerbaycan-macaristan-munasibetleri-yeni-inkisaf-merhelesinde-389786 [30.12.2024].
8. Azərbaycan-Macarıstan əlaqələri yeni inkişaf mərhələsindədir / Yeni Azərbaycan, 03.02.203. - https://www.yeniazerbaycan.com/Arxiv_e80484_az.html [30.12.2024].
9. Macarıstan Respublikası / AR Xarici İşlər Nazirliyinin saytı. - https://mfa.gov.az/az/category/avropa/macaristan [30.12.2024].
10. Azerbaijan & Hungary. Relations between Azerbaijan and Hungary / Land of Fire Azerbaijan. - https://web.archive.org/web/20150106021649/http://azerbajdzsan.com/azerbaijan-hungary/ [30.12.2024].
11. AR MM-nin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılması haqqında AR Milli Məclisinin Qərarı, Bakı şəhəri, 7 mart 1997-ci il, №256-I QR. - https://e-qanun.az/framework/16244 [30.12.2024].
12. AR MM-nin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında AR Milli Məclisinin Qərarı, Bakı şəhəri, 4 mart 2016-cı il, №161-VQR. - https://e-qanun.az/framework/32253 [30.12.2024].
13. Azerbaijani-Hungarian Youth Union realizes new project / Land of Fire Azerbaijan, July 21, 2014. - https://web.archive.org/web/20150106045518/http://azerbajdzsan.com/azerbaijani-hungarian-youth-union-realizes-new-project/ [30.12.2024].
14. Azerbaijani-Hungarian ties developing in education and tourism / Daily News Hungary, October 5, 2013. - https://dailynewshungary.com/azerbaijani-hungarian-ties-developing-in-education-and-tourism/ [30.12.2024].
15. Hungarian-Azeri Business Forum with PM Orban and President Aliyev / Daily News Hungary, November 11, 2014. - https://dailynewshungary.com/hungarian-azeri-business-forum-with-pm-orban-and-president-aliyev/ [30.12.2024].
16. Azərbaycan-Macarıstan "yaşıl enerji dəhlizi" ilə elektrik enerjisinin tədarükünü müzakirə edib / Report İA, 5 iyun 2024. - https://report.az/energetika/azerbaycan-macaristanla-yasil-enerji-dehlizi-ile-elektrik-enerjisinin-tedarukunu-muzakire-edib/ [30.12.2024].
17. Azərbaycan və Macarıstan energitika sahəsində əməkdaşlığı müzakirə edib / Report İA, 11 sentyabr 2023. - https://report.az/biznes-xeberleri/azerbaycan-ve-macaristan-energetika-sahesine-emekdasligi-muzakire-edib/ [30.12.2024].
18. Macarıstanla enerji sahəsində əməkdaşlığı müzakirə edilib / SİA, 14 fevral 2020. - https://sia.az/az/news/economy/788934.html [30.12.2024].
19. Macarıstan "Şahdəniz" və Bakı-Tbilisi-Ceyhan layihələrində paya sahib olub / Fed.az, 5 iyun 2024. - https://fed.az/az/energetika/xi%CC%87n-rehberi-quotmacaristan-sahdeniz-yatagina-istirakci-qisminde-daxil-olubquot-201604 [30.12.2024].
20. Exclusive Interview: Ramil Azmammadov, who built pon bridge between Hungary and Azerbaijan / Daily News Hungary, December 26, 2013. - https://dailynewshungary.com/exclusive-interview-ramil-azmammadov-who-built-pomegranate-bridge-between-hungary-and-azerbaijan/ [30.12.2024].
21. Azerbaijan to support Hungarian institute for blind children / Daily News Hungary, January 16, 2014. - https://dailynewshungary.com/azerbaijan-to-support-hungarian-institute-for-blind-children/ [30.12.2024].

22. Budapest postage stamps reflect Azerbaijani artist's paintings / Daily News Hungary, September 18, 2013. - https://dailynewshungary.com/budapest-postage-stamps-reflect-azerbaijani-artists-paintings/ [30.12.2024].
23. Macarıstanla iqtisadi əməkdaşlığın genişləndirilməsi müzakirə olunub / AzərTac, 26.09.2023. - https://azertag.az/xeber/macaristanla_iqtisadi_emekdasligin_genislendirilmesi_muzakire_olunub-2763736 [30.12.2024].
24. Macarıstan Respublikası: iqtisadi əməkdaşlığa dair qısa arayış. - https://budapest.mfa.gov.az/az/content/74/iqtisadi-emekdasliga-dair-qisa-arayis [30.12.2024].
25. Azərbaycan və Macarıstan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi ilə əlaqədar tədbir keçirilib / AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin saytı, Aprel 7, 2022. - https://sosial.gov.az/media/xeberler/post_537108 [30.12.2024].

**RAMZI SAFARLI**
*Baku State University*
*4th year student of the Faculty of History*

## RELATIONS BETWEEN AZERBAIJAN AND THE REPUBLIC OF HUNGARY (from 1991 to the present)

Diplomatic relations between Azerbaijan and Hungary were established in 1992, following Azerbaijan's independence. Since then, the two countries have consistently developed cooperation in political, economic, cultural, and educational fields. Notably, cooperation in the energy sector holds significant importance. Azerbaijan's rich natural gas reserves and the Southern Gas Corridor project are of strategic importance to Hungary. In the economic sector, trade relations have been expanding in areas such as agriculture, infrastructure, and technology. Additionally, Hungarian universities offer scholarship programs to Azerbaijani students, further strengthening educational cooperation. Politically, Hungary supports Azerbaijan's territorial integrity and collaborates with Azerbaijan on international platforms. Cultural ties also contribute to strengthening the friendship between the two nations. Overall, the relations between Azerbaijan and Hungary have been developing in line with the strategic interests of both countries since 1991. The purpose of this article is to closely examine and present the existing relations between the two states.

*Keywords:* Azerbaijan, Hungary, Education, Economy, Energy.

*Daxil olma tarixi*: 30.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association
№2(12) 2025, 70-77

UOT 94(479.24)

**RƏŞAD İSMAYILOV**
*Bakı Dövlət Universiteti, SABAH qrupları.*
*Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi*
**resadismayilov355@gmail.com**

# OSMANLIDAN GÜNÜMÜZƏ TÜRKİYƏ-FRANSA MÜNASİBƏTLƏRİNƏ TARİXİ-ANALİTİK BAXIŞ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Məqalədə Osmanlı imperiyası və Türkiyə Cumhuriyyəti ilə Fransa arasındakı münasibətləri müxtəlif paradiqmalardan araşdırılır. Sultan Süleyman Qanuni dövründə kapitulyasiya sazişləri ilə təməli qoyulan diplomatik əlaqələr zamanla necə inkişaf etmişdir? Beynəlxaq münasibətlərdəki dəyişikliklər və yeni dünya nizamının formalaşması kontekstində bu iki dövlət arasında hansı sahələrdə qarşılıqlı əlaqələr daha da ön plana çıxmışdır? Bu kimi maraqlı və araşdırma tələb edən suallara cavab vermək məqsədilə məqaləmizi mümkün qədər aydın və elmi üslubda hazırlamağa çalışdıq. Nəticə etibarilə ümid edirik ki, bu akademik tədqiqatımız təkcə tarix sahəsinə deyil, eyni zamanda bu mövzuya həqiqətən maraq göstərən hər kəs üçün maraqlı olacaqdır.*

*Açar sözlər:* Osmanlı İmperiyası, Türkiyə Cümhuriyyəti, Fransa, ikitərəfli əlaqələr.

***Giriş.*** Bildiyimiz kimi, Kiçik Asiya Avropa və Asiya arasında körpü rolu oynadığından keçmişdən müasir dövrümüzə kimi öz strateji və geopolitik mövqeyini qoruyur. Məhz bu səbəbdən Anadolu torpaqları hər zaman böyük güclərin diqqət mərkəzində yer almışdır. Ətrafının 3 dənizlə əhatə olunması isə onun dəyərini daha da artırır. Biz bu məqaləmizdə Dövlət-i Aliyyə-i Osmanlının və Türkiyə Cumhuriyyətinin Fransa ilə olan münasibətlərini müxtəlif aspektlərdən nəzər keçirəciyik. Belə ki, Türkiyə ilə Fransa arasındakı münasibətlər əsrlər boyu formalaşmış və müxtəlif tarixi hadisələrin təsiri altında müəyyən dəyişikliklərə məruz qalmışdır. Osmanlının Avropa siyasətində Fransanın özünəməxsus yeri olmuş, hətta onlar arasında dostluq, rəqabət bəzən isə düşmənçilik əlaqələri özünü qabarıq şəkildə büruzə vermişdir.

***Osmanlı-Fransa münasibətlərinin qurulması.*** İlkin olaraq onu vurğuluyum ki, Fransa krallığı ilə Osmanlı arasında ilk siyasi əlaqələr Niqbolu döyüşündən sonra Sultanın Fransa kralı ilə əsirlərin dəyişdirilməsi və qarşılığında fidyə ödənməsi zamanı baş vermişdir. Bu zaman onlar arasındakı münasibətlər ikitərəfli olmaqdan çox Osmanlı-Xaçlı əlaqələri çərçivəsində yaranmışdır [7, s.1; 9, s.38].

Fransa ilə Osmanlı imperiyası arasındakı ilk rəsmi əlaqələr isə XVI əsrə təsadüf edir. Bu münasibətlərin əsasını Qanuni Sultan Süleyman və Fransa kralı I Fransisk arasında qurulan hərbi və iqtisadi maraqlar təşkil edirdi. 1525-ci ildə Pavia döyüşündə I Fransisk Müqəddəs Roma imperatoru V Karl tərəfindən əsir götürüldü. Kralın anası Lui İzabella Sultan Süleymana məktub göndərərək oğlunun azad edilməsi üçün yardım istədi [4, s.259]. Sultanın cavabı isə günümüzdə də öz aktuallığını saxlamaqdadır, çünki bu məktubda Osmanlının açıq diplomatik dominantlığı görünür. Habsburqların güclənməsi Osmanlının da maraqlarına cavab vermirdi. Nəticədə, türklərin köməyi ilə 1526-cı ildə kral azad olundu. Bu hadisədən sonra iki dövlət arasında əlaqələr Napoleonun Misirə yürüşünə kimi yüksələn xətlə inkişaf etdi [yenə orada]. 1536-cı ildə Fransa və Osmanlı arasında saziş imzalandı. Tarixə kapitulyasiya müqaviləsi kimi düşən bu sənəddə Sultan hökuməti Fransaya ticarət və hüquqi sahədə bir sıra imtiyazlar verdi [6, s.5; 9, s.38]. Hərbi əməkdaşlığa gəldikdə isə türk və fransız donanmaları Habsburqlara qarşı birgə hərbi əməliyyatlara qatıldı (Tuluza, Nitsa döyüşləri və s.). Bu müttəfiqliyi təsvir etmək üçün tarixçi Feroz Ahmadin fikirləri önəmlidir: “Fransa ilə Osmanlı arasındakı ittifaq, Avropada siyasi balansı dəyişdərəcək qədər əhəmiyyətli idi”. Digər bir nümunə olaraq onu qeyd etmək olar ki, 1768-1774-cü illərdə baş vermiş türk-rus müharibəsində rus donanmasının Berinq boğazından keçərək uzun bir yol qət edib Aralıq dənizindəki Osmanlı hərbi limanlarına hücum edəcəyini Fransa

Osmanlı sarayına çoxdan xəbər vermişdi, lakin saray bunu çox da ciddiyə almamışdı, çünki həqiqətən həmin dövrdə bunu etmək ağlasığmaz idi. Və nəticədə Çeşmə dəniz döyüşündə Osmanlının donanmasının tamamı məhv edilmişdi. Sonralar Avropada güc balansının dəyişməsi, Osmanlı imperiyasının isə durğunluq və geriləmə dövrünə qədəm qoyması bu müttəfiqlik münasibətlərini sarsıtdı.

***Böyük Fransa Burjua inqilabının Osmanlı-Fransa münasibətlərinə təsiri.*** 1789-cu ildə baş vermiş olan Fransa inqilabından sonra yeni yaranmış hökumət müharibələrdə şöhrəti sürətlə artan Napoleonu özünə hərbi məsləhətçi götürmüşdü. Həmin zaman kəsimində Fransanın əsas rəqibi İngiltərə idi. Onların Hindistana gedən dəniz yolunu kəsməyi qarşısına məqsəd qoyan Fransa hökumətinin yeni hədəfində Misir vardı. 400 gəmidən ibarət 30 minlik fransız eskadrası 1798-ci ilin iyulun 1-də artıq İsgəndəriyyə sahillərində görünməyə başladı. Az sonra isə məşhur "Piramidalar döyüşü" baş verdi. Döyüşdən əvvəl Napoleon əsgərlərinə o məşhur nitqini söyləmişdi: "Əsgərlər! Piramidaların üstündən 40 əsr sizə baxır". Saylarının çox olmasına baxmayaraq Murad bəyin başçılıq etdiyi misirlilərdən ibarət qoşun heç də avropalılar kimi nizami deyildi. Odlu silahdan aktiv istifadə də döyüşün taleyinə təsir eden digər ciddi bir faktor idi. Hətta bəzi tədqiqatçılar Sfinks abidəsinin məhz bu döyüş zamanı zərər gördüyünü düşünür. Qələbədən sonra fransızlar Fələstin və Suriyaya da hücum edir. Lakin Napoleon Əkkə qalasında 91 yaşlı Əhməd Cəzzar paşaya məğlub olur və geri çəkilir [4, s.262-263]. Bəzi araşdırmaçılar bu döyüşdə İngilis donanmasının da türklərə fəal yardım etdiyini vurğulayırlar. Çünki hələ Piramidalar döyüşündən sonra Admiral Nelsonun əmri ilə işğalçı fransız donanması məhv edilmişdi. Bütün bunlardan əlavə o da qeyd edilməlidir ki, Napoleon Misir səfərinə özü ilə 167 alim və mütəxəssis də aparmışdır. Aydındır ki, burada ancaq elmi deyil, hərbi məqsədlər də rol oynayırdı. Misir səfərinin ən məşhur kəşfi "Rozetta daşı" olmuşdur. Məhz bu kitabənin oxunması sayəsində qədim Misir heroqliflərinin sirri açılmış və "Misirşünaslıq" elminin əsası qoyulmuşdur. Lakin az sonra, 1802-ci ildə daş ingilis qoşunları tərəfindən ələ keçirildi və həmin ildən etibarən Britaniya muzeyində sərgilənir [12].

Osmanlı və Fransa arasında olan münasibətlərdə türklərin modernləşmə islahatlarında Fransız nümunəsinə daha çox üstünlük vermələri də xüsusi əhəmiyyət kəsb edən başlıqlardandır. Belə ki, 14 iyul 1789-cu ildə baş verən Böyük Fransa inqilabı nəinki Fransada, bütün dünyada əks səda doğurdu. Hətta həmin dövrdə yeni təsdiqlənən ABŞ konstitusiyasındakı hakimiyyətin bölünməsi prinsipinin yaradıcıları da məhz bu inqilabın mütəfəkkirləri olmuşdur. Fransızların yenilikçi fikirlərindən biri də "millətlərin öz müqəddaratını təyin etməsi" məsələsi idi. Bu zaman 3 qitəyə yayılmış Osmanlı imperiyasının çoxmillətli bir cəmiyyətə sahib olmasını nəzərə alsaq, bu, artıq həyəcan siqnalı idi. Beləliklə, inqilabın yaydığı milliyyətçilik fikirlərini mənimsəmiş Avropadakı Osmanlı təbəələri tezliklə müstəqillik əldə etmək üçün üsyana cəhd göstərmişlər [9, s.39-41]. Arxasına Rusiyanında dəstəyini alan slavyanlardan ilk olaraq serblər Dövləti-Aliyyəyə qarşı ayaqlanmış, lakin məğlub olmuşdular. Müstəqilliyini ilk qazanan millət isə 1829-cu il Ədirnə müqaviləsilə yunanlar olmuşdur. Osmanlıdan son ayrılan topluma gəldikdə isə bunlarda ərəblərdir (1914-1918-ci illər).

Belə ki, artıq Sultanlar da dövlətin Avropadan bir çox mühüm məsələlərdə, xüsusən də texnologiyada geri qaldıqlarının fərqində idilər. Eyni zamanda cəmiyyətdə də proqressiv cərəyan geniş yayılmışdı. Az əvvəldə yuxarıda vurğuladığımız kimi, bu modernləşmə cəhdlərində əsas yeri Fransa modeli tuturdu. Bu təsir əsasən Tənzimat (1839-1876-cı illər) dövründə özünü qabarıq şəkildə göstərmişdir [9, s.43]. Tənzimat fərmanı 3 noyabr 1839-cu ildə Sultan Əbdülməcid tərəfindən Gülhanə sarayında imzalanmışdı. Məhz ilk institusional islahatların da bünövrəsi bu fərmanla qoyulmuşdur. Osmanlı imperatorluğunda ilk dəfə vətəndaş hüquqları bu sənəddə özünə yer tapmışdır. Belə ki, bu fərman da öz başlanğıcını Fransız inqilabı zamanı elan edilən "İnsan haqları" bəyannaməsindən götürmüşdü. Bundan əlavə Məclisi-Ahkamı-Adliyyə (Osmanlı Ali Məhkəməsi) və digər hüquqi qurumlar Fransız ədalət sisteminə uyğun qurulmuşdu. Dövləti-Aliyyənin Ticarət və Cinayət Məcəllələri də Fransasın "Code Napoleon" qanunlarından tərcümə edilərək tətbiq olundu. Osmanlının varisi Türkiyə Cümhuriyyətinin də hüquq sistemi məhz "Code Napoleon"un prinsipləri əsasında işlənib hazırlanmışdır. Napoleon qanunları adlanan bu sənəd 1804-cü ildə Bonapart tərəfindən hazırlanmış və günümüzdə müasir Avropanın qanunlar məcəlləsində mühüm rol oynamaqdadır. İdarəetmə və mərkəzləşmə siyasətində Fransa faktorunun fundamentini "prefektura" sistemi təşkil edirdi. Bu idarəetmə forması əvvəlcə pilot layihə kimi 1864-cü ildə Tuna vilayətində tətbiq olundu, sonra isə bütün Osmanlıya yayıldı.

Eyni zamanda artıq məmurların təyinatı da mərkəzi hökumət tərəfindən nəzarət altına alındı. Bütün bu islahatlar Şərqin qocaman imperiyasında qeyri-müsəlmanların da dövlət idarəçiliyində fəal iştirakına şərait yaratdı, çünki fransız modelində vətəndaşların dövlət qarşısında hüquq bərabərliyi əsas idi. Bütün bunların nəticəsində mərkəzləşmə prosesi gücləndi, bölgələrdə dövlət nəzarəti artdı və xalqın hakimiyyətə etimadı çoxaldı.

Təhsil və maarifə gəldikdə isə Osmanlı Maarif Nazirliyinin yaradılması yenə Fransız Təhsil sistemindən ilhamlanaraq qurulmuşdu. 1869-cu ildə Maarif Nizamnaməsi qəbul edildi. Sənədə görə ilk dəfə ibtidai, orta və ali təhsil pillələri müəyyən edildi. Darülfünunlar açıldı. İlk Darülfünun Paris Universiteti (Sorbonne) modelinə əsasən qurulmuşdu və aşağıdakı fakültələrdən ibarət idi: Tibb, Riyaziyyat və Mühəndislik, Fəlsəfə və Ədəbiyyat fakültələri. Bu Universitet bir neçə dəfə açılıb-bağlandıqdan sonra həqiqi davamlı fəaliyyətinə 1900-cü ildə Sultan II Əbdülhəmidin fərmanı ilə başladı. 1933-cü ildə isə ləğv edilərək İstanbul Universitetinə çevrildi. Məsələyə ümumilikdə baxdıqda təhsilə fransız təsirinin nəticələri bunlardır: Dini məktəblərdən dünyəvi təhsilə keçid başladı. Qızlar üçün təhsil hüququ rəsmi olaraq tanındı (1858-ci ildə ilk qız məktəbləri açıldı). Dövlətin təhsilə nəzarəri gücləndi, Fransız dili Osmanlı ziyalılarının əsas xarici dili oldu və elita Fransızca öyrənməyə başladı.

Hərbidə isə Osmanlı ordusunun modernləşməsi üçün fransız zabit və mütəxəssisləri gətirildi. Hələ 1792-ci ildə III Səlimin apardığı Nizami-Cədid islahatlarında da onlar mühüm rol oynamışdılar. Qeyd edək ki, Osmanlı beynəlxalq səviyyədə ilk üzunmüddətli səfirini də 1721-ci ildə məhz Parisə təyin etmişdi - Mehmet Çələbi [6].

***Krım müharibəsi və Osmanlı-Fransa münasibətləri.*** Növbəti konseptual yanaşma tələb edən başlığımız Krım müharibəsi zamanı Fransa ilə olan əlaqələrdir. Əvvala onu qeyd edək ki, Krıma hakim olmaq, bütün Qara dənizə sahib olmaq deməkdir. Bunun fərqində olan Çar Rusiyası 1774-cü il Kiçik Qaynarca sülhü ilə Krımı osmanlılardan qoparmağı bacardı. Lakin rusların "isti dənizlərə çıxmaq" kimi bir xülyası da mövcud idi. Bəhanə olaraq Fələstindəki provaslavların hüquqlarının artırılmasını və onların üzərində Rusiyanın protektoratlığının tanınmasını istədi. Lakin bu hüquq çoxdan Fransaya verilmişdi. Nəticədə, 1853-1856-cı illəri əhatə edən Krım müharibəsi başladı. Belə adlandırılmasının səbəbi əsas hərbi əməliyyatların Krım yarımadasında aparılmasıdır. Ruslar anidən Ruminyanı işğal etdilər və Sinop döyüşündə Osmanlıya sarsıdıcı zərbə vurdular. Bu döyüş İngiltərə və Fransanın sürətli şəkildə savaşa daxil olmasına səbəb oldu. Nəticədə, rus qoşunları Ruminya ərazisindən çıxarıldı və Sevastopol mühasirəyə alındı. Paris sülhü ilə rusların meydandakı məğlubiyyəti masada təsdiqləndi. Artıq çar Rusiyası Qara dənizdə hərbi donanma saxlaya bilməzdi. Avropanın türklərə dəstəyinin əsas səbəbi isə Rusiyanın güclənməsinin heç onlarada sərf etməməsi idi, əks halda Hindistana gedən su yolu da təhlükəyə düşərdi [1].

***Fransanın Levant ərazisinə mədəni və dini təsiri.*** Levant sözü latınca "levare" (qalxmaq) feilindən gəlir və "günəşin doğduğu yer", yəni Şərq mənasını verir. Levant bölgəsinə Aralıq dənizin sağ sahilindəki torpaqlar: Livan, Suriya, İordaniya və Fələstin ərazisi daxildir. Belə ki, Fransa Osmanlı dövləti ilə olan müqaviləyə əsasən özünü bu bölgədəki maronitlər, fransiskanlar və yezuitlər kimi xristian toplumlarının rəsmi himayədarı elan etmişdi. Bu status sayəsində fransız keşişlər, missionerlər və təhsil müəssisələri Levantda sərbəst fəaliyyət göstərirdi. Bunlardan ən məşhuru isə 1875-ci ildə Livanın paytaxtı Beyrutdakı Saint Joseph Universiteti idi. Fransız mədəniyyətinin bölgəyə güclü təsiri yerli əhalinin əksəriyyətinin fransızca danışmasına səbəb olmuşdur. Bundan başqa 1860-cı ildə İsmailli dürzilərlə xristian maronitlər arasında etnik-dini zəmində qanlı toqquşmalar baş vermişdi. Bu zaman Fransanın münaqişə ocağına hərbi müdaxiləsi onun burada daha da nüfuz qazanmasına səbəb olmuşdur.

***I Dünya müharibəs illərində Osmanlı-Fransa münasibətləri.*** Osmanlıda 1908-ci il inqilabı nəticəsində hakimiyyətə İttihad və Tərəqqi hökuməti gəldi. Hərbi nazir Ənvər paşanın Almaniyaya olan simpatiyası Osmanlını Fransadan daha da uzaqlaşdırdı. Dünyanın yenidən imperialist qüvvələr tərəfindən bölüşdürülməsi uğrunda başlayan I Dünya müharibəsində də bu iki dövlət bir-birinə zidd olan bloklarda yer aldı. Fransanın əsas möhkəmlənmək istədiyi region Yaxın Şərq, xüsusilə də Suriya və Livan əraziləri idi. Fransız və türk qoşunları arasında ilk böyük döyüş 1915-ci ildə Çanaqqala boğazında baş vermişdir. Lakin qəhrəman türk ordusu özündən qat-qat güclü olan ingilis-fransız donanmasını dənizin dərin sularına qərq etməyi bacardı. Bundan sonra fransızlar da ingilislər kimi artan ərəb

milliyyətçiliyindən istifadə etmək qərarına gəldilər. Fransız höküməti Levant ərazisindəki ərəb qəbilələrini həm maddi, həm də ideoloji olaraq dəstəkləməyə başladı. Nəticədə, Osmanlının Fələstin cəbhəsi tezliklə çökdü. Bu məsələ ilə bağlı bir faktı da qeyd etmək istərdik. Belə ki, 1917-ci ildə Hicaz dəmiryolu vasitəsilə ərəblərə köməyə gələn türk ordusuna elə ərəblər tərəfindən hücum olundu. Və qatardakı türk əsgərlərinin hamısı öldürüldü, bir nəfər belə yaralı, əsir saxlanılmadı. Günümüzdə də ərəblər hər il həmin günü türklər üzərində qələbə kimi bayram edirlər [10]. Bu hadisədən sonra həmin qatarın adını "Ümmət" qoydular və o qatarla birlikdə Ümmət anlayışı da öz əhəmiyyətini itirmiş oldu. Eyni zamanda müharibənin gedişində Böyük Britaniya və Fransa Osmanlını Saysk-Pikot (1916-cı il 6 may) sazişi ilə çoxdan bölüşdürmüşdü. Yaxın Şərqdə xəritələr yenidən çəkilmişdi. Anlaşmaya əsasən, İraq və İordaniya Britaniyanın, Suriya və Livan, eləcə də Anadolunun cənub hissəsi Fransanın maraq dairəsi hesab olunurdu [3, s.126]. Və nəhayət, 30 oktyabr 1918-ci il Mudros müqaviləsilə Osmanlı imperiyası məğlub oldu. Türk ordusu tərksilah edildi, bir çox ərazilər işğal olundu. Müharibənin nəticələrini dəyərləndirmək, məğlub dövlətlərlə sülh müqaviləsi bağlamaq, Millətlər Cəmiyyətinin zəminini hazırlamaq və yeni dünya düzənini yenidən inşa etmək üçün Parisin Versal sarayında Sülh Konfransı öz işinə başladı. Versal Sülhü 440 maddədən və 15 başlıqdan ibarətdir. Elə I hissəyə Millətlər Cəmiyyətinin Nizamnaməsi daxil idi. Konfransda Osmanlı ilə bağlanan Sevr müqaviləsini Mustafa Kamal, yəni TBMM hökuməti ratifikasiya etmədi. Çünki müqaviləyə əsasən, Şərqi Anadoluda erməni dövləti yaradılacaq, kürdlərə muxtariyyət veriləcək və əgər onlar sonradan azadlıq tələb etsələr müstəqillik əldə edəcəkdilər. Anadolunun böyük bir hissəsi isə Yunanıstan, İtaliya, Fransa kimi dövlətlər arasında bölüşdürülmüşdü. İstanbulda faktiki olaraq Osmanlı hakimiyyəti ləğv edilmiş, boğazlar beynəlxalq idarəçiliyə verilmişdi. Bütün bu siyasi şərtlər nəticəsində Qurtuluş savaşı başladı, 1923-cü ildə isə Lozannna müqaviləsi imzalanaraq Sevr müqaviləsi rəsmən ləğv edildi. Yeni müstəqil Türkiyə Cümhuriyyəti yarandı. Qurtuluş savaşı zamanı Anadolunun cənubunda yerləşən Antep, Urfa, Maraş kimi ərazilərdə fransız işğalçıları yerli əhali öz gücünə çıxardığı üçün bu bölgələrə təxəllüslər verildi: Şanlıurfa, QaziAntep, Kahramanmaraş və s.

***Hatay problemi kontekstində Türkiyə-Fransa münasibətləri.*** Sayks-Pikot anlaşması ilə Hatay Fransanın təsir dairəsində qalmışdı. Hatayın əvvəlki adı İskəndərun sancaqlığı olmuşdur. 1920-ci ilin aprelində keçirilən San-Remo konfransında İskəndərun daxil bütün Suriya üzərində Fransa mandatı təsdiqləndi [2, s.22]. 1921-ci il Ankara sazişinə əsasən Fransa Mustafa Kamal hökumətini tanıdı və bu sancaqlıqda özəl bir idarə təsis olunmalı idi (7-ci maddə). Türkçə isə rəsmi dil olaraq qalırdı. Bununla da Türkiyə muxtariyyət müqabilində Hatay üzərində Fransa mandatını tanıdı. Lozanna görüşmələrində də türk diplomatların bütün səylərinə baxmayaraq bu bölgəni geri qaytatmaq mümkün olmadı. Türkiyə 1932-ci ildə Millətlər Cəmiyyətinə üzv oldu. 1933-cü ildə isə Almaniyada nasistlərin hakimiyyətə gəlməsi, Yadigar Sadıqlının da vurğuladığı kimi, Türkiyənin beynəlxalq müstəvidə mövqeyini gücləndirdi [2, s.22]. 1936-cı il Fransa-Suriya sazişinə görə ölkə üzərində Fransa mandatının müddəti başa çatdı və növbəti 5 il ərzində Suriya müstəqil olmalı idi. Lakin müqavilədə İskəndərunla bağlı heç nə deyilmirdi. Ankara bununla razılaşmayaraq Parisə nota verdi. Sənəddə İskəndəruna Suriyadan ayrı müstəqillik verilməsi tələb olunurdu. Az sonra isə Atatürk bölgəyə Hatay adını verdi. Bu adın bölgənin qədim sakinləri olan hetlərdən götürüldüyü güman edilir. Bu ərəfədə Fransa səfiri ilə görüşən Atatürk deyir: "Hatay benim şahsi davamdır". Fransızların 1936-cı il statiskasına görə, vilayətdə 220 min nəfər yaşayırdı. Türklər 85.800 (39%), ərəbdilli ələvilər 61.600 (28%), ermənilər 24.200 (11%), sünni ərəblər 22.200 (10%), digər xristianlar 17.600 (8%), kürdlər, çərkəzlər və yəhudilər isə 8.800 (4%) təşkil edirdilər. Fransa ilə danışıqlardan nəticə ala bilməyən Türkiyə Millətlər Cəmiyyətinə müraciət etdi. Nəticədə hər iki dövlət mövcud status-kvonun təminatçısına çevrildi. Lakin Suriya parlamenti qərarı tanımadı. Az sonra Avropa mətbuatına heç də əsassız olmayan Atatürkün ağır xəstə olduğu məlumatı sızdı. Bunun Hatay məsələsinə mənfi təsir göstərəcəyini düşünən Mustafa Kamal ağır xəstə olmasına baxmayaraq hərbi birlikləri təftiş etdi, hətta sərhədə 30 minlik qoşun yığdı. Onu bu kimi addımlarına görə "Hatay şəhidi"də adlandırırlar, çünki bu səfərin onun ömrününü ən az iki il azaltdığına inanılır. Nasistlərin Avropada sürətlə artan işğalçılıq siyasəti Parisi Suriya məsələsində kompromisə sövq etdi. 1938-ci ildə imzalanan müqaviləyə görə hər iki ölkə əraziyə 2.500 nəfərlik hərbi qüvvə yeritdi. Sentyabrın 2-də Hatay müstəqil oldu. Türkiyənin istiqlal marşı dövlət himni kimi qəbul edildi. Bayraqlarıda

türk bayrağına çox bənzər idi. Antakya isə paytaxt rolunu üstlənmişdi. Bu hadisədən iki ay sonra Atatürk Hatay üçün apardığı mücadilənin son nəticəsini görmədən həyata gözlərini yumdu. Az sonra isə Londonunda təyziqi ilə Fransa İskəndərundan çəkilmək qərarı aldı. İyunun 29-da Hatay Məclisi toplanaraq Türkiyə Cümhuriyyətinə birləşmək üçün Ankaraya müraciət etdi. İyulun 7-də 3711 saylı qərarla müsbət cavab alındı. Şükrü Sökmensuer ilk vali oldu. İyulun 23-də fransız hərbçiləri bölgəni tərk etdilər. Beləcə, Türkiyənin müasir ərazisindən son işğalçı birliklərdə çıxmış oldu.

***II Dünya müharibəsi illərində Türkiyə-Fransa münasibətləri***. Fransanın Hatay məsələsində kompromisə getməsinin əsas səbəblərindən biri də almanların sürətlə artan işğalçılıq siyasəti idi. Belə bir siyasi konyukturda isə Türkiyəni qarşısına almaq Parisə sərf etmirdi. Ümumilikdə isə türk hökuməti müharibə illərində əvvəldən sona bitərəflik siyasəti yeritmişdir ki, bu, həmin dövr üçün ən ideal seçim olmaqla yanaşı, alternativi də yox idi. 1939-cu ilin oktyabrın 19-da Ankara müqaviləsilə ingilis-fransız-türk hərbi ittifaqı bağlandı. Şərtlərə görə əgər tərəflərdən hansı təcavüzə uğrayacaqdısa digər müttəfiqlər yardım göstərməli idi. Lakin bu müqavilədə çoxlu sayda istisnalar vardı. Qısası İnönü hökuməti bitərəf qalmaq üçün əlindən gələn hər şeyi etmişdi. Lakin bu ittifaq reallıqda işləmədi, çünki Fransa almanlar tərəfindən çox qısa zamanda işğal edildi. İngilislər isə Dünkerkdə bütün texnikalarını qoyub qaçdılar. Belə bir vəziyyətdə türklərin savaşa girməsi əsl intihar olardı. Fransanın işğalından sonra şimalda nasistlər hakimiyyətə gəldi, cənubda isə “azad” görünən Vichy hökuməti vardı. Əslində bu hökumət də almanlarla sıx əlaqələrə malik idi. Türkiyə isə hər iki hökumətlə diplomatik əlaqələr saxlayır, bitərəfliyinə sadiq qalırdı. 1944-cü ildə müttəfiq qüvvələr Fransanı azad etdikdən sonra Azad Fransa iqtidarı Parisdə nəzarəti ələ aldı. Rəsmi Ankara dərhal bu hökuməti tanıdı. Həmin dövrdə Türkiyənin Fransada çoxlu sayda yəhudini ölümdən qurtarması da aktual məsələlərdəndir. Belə ki, türk qanunlarına görə, xaricdə yaşayan vətəndaşlar hər beş ildən bir diplomatik nümayəndəlikdə qeydiyyatdan keçməli idilər. Lakin türk əsilli yəhudilərin çoxu buna əməl etməmişdi. Bununla belə türk diplomatlar yüzlərlə yəhudini ölümün caynağından qurtarmağı bacarmışdı. Paris tutulan zaman Türkiyənin Parisdəki səfiri Behiç Erkin almanlarla əlaqə yaradaraq türk əsilli yəhudilərin təhlükəsizliyini tələb etdi. Əvvəlcə istəyin qəbul edilməməsinə baxmayaraq sonda iki min yəhudinin xilas edildiyi təxmin olunur. Türkiyənin Marseldəki Baş Konsulluğunda çalışan Necdet Kent də bu məsələdə fəal davranmışdır. Belə ki, o, 1943-cü ildə türk əsilli 80 yəhudinin qatarla ölümə göndərildiyini duyan kimi stansiyaya yollanır. Burada alman zabitindən onların sərbəst buraxılmasını istəsə də, bu nəticəsiz qalır. Bundan sonra isə o və köməkçisi də qatara minir. Növbəti stanaiyada almanlar onlardan vaqonu tərk etməsini istəyirlər, amma diplomat öz vətəndaşları olmadan qatardan enməyəcəyini deyir. Sonda almanlar digər 80 nəfər yəhudini də azad edirlər. Necdet Kent və digərləri göstərdikləri bu qəhrəmanlıqlara görə sonralar “Üstün Hizmet Madalyası”na layiq görülmüşdür [2, s.35]. Tarixçi Professor Stenford Şounun iddiasına görə, II Dünya müharibəsi illərində türk diplomatlar təkcə Fransada 15 min yəhudinin həyatda qalmasına səbəb olublar.

***Soyuq müharibə illərində Türkiyə-Fransa münasibətləri.*** Savaşdan sonra yaranmış yeni dünya geopolitikasında hər iki ölkənin münasibətləri mövcud siyasi şəraitə uyğun şəkillənməyə başladı. Belə ki, Türkiyə Sovet təhlükəsi qarşısında qərbmeyilli siyasət yeridirdi. 1950-1953-cü illərdə baş verən Koreya müharibəsində Avropadan yalnız Türkiyənin qoşun göndərməsi (15 min nəfər hərbi heyət) onun sürətli şəkildə 1952-ci ildə NATO-ya üzv seçilməsilə nəticələndi. Bu məsələdə isə Fransanın mövqeyi müsbət idi. 1963-cü ildə Türkiyə ilə Avropa İqtisadi Birliyi arasında sazişin imzalanması tərəflər arasında iqtisadi münasibətlərin kəskin inkişafı ilə nəticələndi. Çünki AİB-in məhz aparıcı qüvvələrindən biri Fransa idi. Eyni zamanda yeniden Fransızca Türkiyədə böyük nüfuz qazandı, hətta çoxlu sayda fransız litseyləri də açılmışdı. Bütün bu müsbət hadisələrə baxmayaraq, iki ölkə arasında zamanla müəyyən ziddiyyətlər də baş vermişdir. İlk qarşıdurmalardan biri Fransanın Kipr məsələsində yunanları müdafiə etməsi oldu. Hətta Paris türk ordusunun adaya müdaxiləsini belə tənqid etmişdi. Digər ciddi problemlərdən biri, yenə də 1970-ci illərdə Fransa parlamentində tez-tez “erməni soyqırımı” iddialarının gündəmə gəlməsi idi [9, s.52-53]. Xüsusən Fransanın 2001-ci ildə qondarma “erməni soyqrımı”nı tanıması rəsmi Ankaranın kəskin etirazlarına səbəb oldu və onsuz da əvvəldən yaranmış soyuq münasibəti daha da dərinləşdirdi. Digər tərəfdən 1980-ci illərdə ASALA terror təşkilatının Fransada türk diplomatlara qarşı həyata keçirdiyi sui-qəsdlər münasibətləri daha da gərginləşdirdi. Belə ki,

terrorçular adətən cəzalandırılmır, məhkəmə qarşısına çıxarıldıqda isə çox yüngül cəzalar verilirdi, məsələn bir neçə ay ev dustaqlığı kimi saxlanırdılar. Nümunə olaraq onu deyə bilərik ki, 1981-ci ildə 4 Livan ermənisi Türkiyənin Parisdəki konsulluğuna hücum etdi. Baş verən atışmada təhlükəsizlik əməkdaşları həlak oldu, konsul Kaya İnal isə yaralandı. Məhkəmə zamanı hakim şahidlərə müttəhimləri "terrorçu" adlandırmağı belə qadağan etdi. 1984-cü ildə çıxarılan hökmlə onların hər biri 7 il həbsə məhkum olundu [2, s.118].

***XXI əsrin əvvəllərində tərəflər arasındakı mövcud siyasi vəziyyət.*** Yeni yüzillik öz müasir imkanları ilə hər iki ölkəyə ikitərəfli münasibətləri inkişaf etdirmək üçün müxtəlif şanslar sunmaqda davam edir. 2003-cü ildə R.T.Ərdoğanın rəhbərliyi ilə AK partiyanın seçkilərdə qalib gələrək yeni hökumət qurması Türkiyənin tarixində də yeni səhifə açdı. Nəticədə ölkələrarası münasibətlərə yenidən baxıldı. Əvvəlcə ticarətin həcminin artırılmasına fokuslanıldı və bu öz bəhrəsini verdi. Belə ki, 2023-cü ildə Türkiyə Xarici İşlər Nazirliyinin hesabatına görə, Fransa ilə olan ticarət həcmi tam 20.77 milyard dollara çatmışdır ki, bu, yetərincə böyük bir rəqəmdir. Lakin bütün bunlara baxmayaraq iki ölkə bir çox məsələlərdə bir-birinə zidd mövqedə qərarlaşıb. Rəsmi Ankara ilə Paris arasında olan ən ciddi problemlərdən biri AB-nə üzvlüklə bağlıdır. Türkiyə 1987-ci ildə Avropa Birliyinə tamhüquqlu üzvlüklə bağlı müraciət etmişdir. Lakin avropalılar bilərəkdən bu prosesi uzadır və müxtəlif səbəblər irəli sürürdülər. Narazılıq edən ən böyük qüvvə isə Fransa idi. Prezident Jan Şirak öncə Türkiyənin üzvlüyünə təmkinlə yanaşsa da, prinsipcə dəstəkləyirdi. Lakin Nikolas Sarkozinin dövründə onun bu prosesə negativ mövqeyi münasibətləri daha da gərginləşdirdi. O bildirirdi ki, Türkiyə Avropanın bir hissəsi deyil və yalnız "imtiyazlı tərəfdaş" kimi çıxış edə bilər. Eyni zamanda Fransada 2005-ci ildə qəbul edilən Konstitusiya dəyişikliyinə görə, artıq AB-yə yeni üzv qəbul edilərkən yalnızca siyasi liderlərin mövqeyi deyil, həm də referendum yolu ilə Fransız cəmiyyətinin də mövqeyi nəzərə alınacaq. Bu qərarın açıqca Türkiyəyə qarşı olduğunu anlamaq heç də zor deyil. Bütün bu olanların nəticəsində Türkiyə-AB arasında danışıqlar demək olar ki, faktiki olaraq dondurulmuşdu. Və Ankara alternativlər axtarmağa başladı, xüsusəndə Şanxay Əməkdaşlıq Təşkilatı ilə dialoqlar artırıldı.

Tərəflər arasında növbəti konflikt Egey və Aralıq dənizində baş verdi. Belə ki, Yunanıstanın absurd Sevilya xəritəsi Paris tərəfindən dəstəklənirdi. Bu xərirədə kiçicik yunan adalarına böyük dəniz sahələri verilmiş, Türkiyəyə isə yalnız Antalyada məhdud bir hissə ayrılmışdı. Xəritənin belə adlandırılmasının səbəbi isə onun İspaniyanın Sevilya Universitetinde hazırlanması olmuşdur. Onu da qeyd edək ki, hətta İspaniyanın rəsmi dairələri belə bu xəritənin ədalətli olmadığını etiraf etmişlər. 2020-ci ildə Fransasın yunanlara hərbi dəstək üçün təyyarə gəmisi Şarl De Qolun Aralıq dənizinə göndərməsi münaqişəni daha da alovlandırdı. Türk hökuməti də cavab olaraq Oruc Rəis gəmisini hərbi donanma ilə bölgəyə göndərdi. Fransanın burda fəallığının digər bir səbəbi də Fransız enerji şirkəti-Totalın ərazidəki konsessiyaları idi. Lakin sonda fransızlar da, yunanlar da geri çəkilmək məcburiyyətində qaldılar və "Mavi Vatan" konsepsiyası artıq daha məqbul bir variant olaraq görünür.

Yeni münaqişə ocağımız Şimali Afrika, dəqiq desək Liviyadır. Belə ki, Ərəb Baharından günümüzə qədər davam edən Liviyadakı vətəndaş müharibəsində Fransa üsyançı Xəlifə Həftəri dəstəklədiyi halda, Rəsmi Ankara elə rəsmi Mustafa Saraç hökumətini dəstəkləyirdi. Sonda Türkiyənin 2020-ci ildə Liviyaya hərbi dəstəyi nəticəsində Həftər məğlub edilərək paytaxt Trablisdən uzaqlaşdırıldı. Bu konflikt günümüzdə də tam həll edilməmiş olaraq qalır. Lakin Fransa bunla da dayanmır, Suriyada da PKK-nı müdafiə edir. Ancaq Bəşər Əsədin Türkiyə dəstəkli qüvvələr tərəfindən devrilməsindən sonra artıq PKK-da sonunun gəlib çatdığını təxmin etmək heç də çətin deyildir. Hətta Türkiyənin ağır təzyiqindən sonra PKK 2025-ci ilin may ayında silahları yerə qoyacağını rəhbər şəxslər tərəfindən təsdiqlədi. Bu prosesə əsasən Türkiyə Cumhuriyyəti nəzarət etsə də, beynəlxalq qüvvələr də müəyyən rol oynayacaq [13].

Ermənistanın Azərbaycana təcavüzü kontekstində Türkiyə-Fransa münasibətlərinə baxarsaq, 30 ilə yaxın davam etməsinə, həmçinin ATƏT-in Minsk qrupunun tərkibində yer almasına baxmayaraq Fransanın bu məsələdə ikili standartlar uyğulayaraq erməniləri dəstəkləməsi heç də demokratiyanın beşiyi sayılan bu dövlətə yaraşmır. Fransa prezidenti Makronun İrəvana olan bütün hərbi, maddi, istərsə də siyasi dəstəyinə baxmayaraq, Azərbaycan dövləti bu haqlı müharibəsində Türkiyənin də dəstəyilə erməniləri ağır məğlubiyyətə uğratdı və regionda yeni reallıq yaratdı. Qısası Fransa dəstəkli qüvvələr burada da məğlubiyyətlə üzləşdilər.

***Nəticə.*** Siyasətdə öz təsdiqini tapmış “daimi dostlar yoxdur, daimi maraqlar vardır” fikri günümüz üçün də aktualdır. Dəyişən yeni dünya siyasətində keçmişdən dərin əlaqələrə malik olan bu iki dövlətin sabah yenidən yaxınlaşması real bir haldır, xüsusən də hazırda genişlənən Rusiya-Ukrayna müharibəsi çərçivəsində. Lakin məsələyə deduktiv şəkildə baxdıqda, XXI əsrdə Türkiyə-Fransa qarşıdurmalarının demək olar hamısın da R.T.Ərdoğan iqtidarının açıq üstünlüyünü görürük. Sonluğu isə elə Ərdoğanın sözləri ilə bitirmək istəyirdik: “Türkiyə və Fransa arasındakı münasibətlər keçmişin kölgəsində formalaşır, amma gələcəyi birlikdə qurmaq mümkündür”.

ƏDƏBİYYAT

1. Cavanşir Feyziyev. Krımın türk tarixi / Kaspi. -2015. -22 yanvar. -S.10. - http://www.anl.az/down/meqale/kaspi_az/2015/yanvar/415487.htm [30.04.2025].
2. Yadigar Sadıqlı. Yaxın Şərq tarixi. Bakı, Alatoran, 2022, 510 s.
3. Mustafayeva S., Cavadova Z. Birinci Dünya müharibəsi dövründə beynəlxalq münasibətlər. Bakı, ADPU nəşriyyatı, 2010, 216 s.
4. Azmi Süslü. Osmanlı-Fransız Diplomatik İlişkileri, 1798-1807 // Belleten, Yıl: 1983, Cilt 47, Sayı: 185, s.259-280. - https://dergipark.org.tr/tr/pub/ttkbelleten/issue/70431/1134239 [30.04.2025].
5. Dr. Ömer Lütfi Taşcıoğlu. Fransanın Osmanlı devletindeki faaliyetleri // Social Sciences Studies Journal, 2018, Vol. 4, Issue: 15, pp.713-719. - https://sssjournal.com/DergiTamDetay.aspx?ID=427 [30.04.2025].
6. Sevil Gözübüyük. Osmanlı-Fransa ilişkileri ve Kapitülasyonlar (XVI.-XVII Yüzyıllar). YLT. Denizli, Pamukkale Üniversitesi, 156 s. - https://gcris.pau.edu.tr/bitstream/11499/2000/1/Sevil%20G%c3%b6z%c3%bcb%c3%bcy%c3%bck.pdf [30.04.2025].
7. Christine İsom-Verhaaren. Kafirle ittifak: XVI yüzyılda Osmanlı-Fransız anlaşması. İstanbul, Kitap Yayınevi, 2015, 256 s.
8. Ozan Örmeci. Yakın Dönem Türkiye-Fransa İlişkileri // Beykent Üniversitesi Sosyal Bilimler Dergisi, Yıl: 2017, Cilt: 10, Sayı: 1, s.74-86. - https://dergipark.org.tr/tr/download/article-file/291457 [30.04.2025].
9. Mücahit Avcı. Türkiye-Fransa İlişkilerinin Tarihsel ve Hukuksal Arka Planı // Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Yıl: 2008, Sayı: 8, s.37-58. - https://dergipark.org.tr/tr/download/article-file/3570166 [30.04.2025].
10. “Ümmət qatarının hekayəsi” - https://youtu.be/PhKHf9LXetk?si=KOl9i7K8uhR76UiG [30.04.2025].
11. Türkiye-Fransa siyasi ilişkileri / Türkiye Dışişleri Bakanlığının rəsmi internet səhifəsi.- https://www.mfa.gov.tr/turkiye-fransa-siyasi-iliskileri.tr.mfa [30.04.2025].
12. Napolyon’un Mısır Seferi’nin Bilimsel Önemi. Scientific American. Çeviri; Özgür Kurtuluş // E-Dergi, TUBİTAK, Eylül 1994, 4 s. - https://e-dergi.tubitak.gov.tr/edergi/yazi.pdf%3Bjsessionid%3DPtihnqGiz%2B%2BkKFF7YXxdLhUS?cilt=28&dergiKodu=4&sayfa=12&sayi=331&yaziid=8236&utm_source=chatgpt.com [30.03.2025]
13. Öcalan, PKK’ya silah bırakma çağırısında bulundu / EuroNews, 27.02.2025. - https://tr.euronews.com/2025/02/27/ocalan-pkkya-silah-birakma-cagrisinda-bulundu [30.04.2025].

**RASHAD ISMAYILOV**
*Baku State University. SABAH groups,*
*3rd year student of History teaching*

**A HISTORICAL-ANALYTICAL VIEW OF TURKISH-FRENCH RELATIONS FROM THE OTTOMAN PERIOD TO THE PRESENT DAY**

In this article, we have examined the relations between both the Ottoman Empire and the Republic of Türkiye with France from various perspectives. How did the diplomatic ties, which began with

the capitulation agreements during the reign of Sultan Suleiman the Magnificent, evolve over time? In the context of changing international relations and the emerging world order, in what areas did the interactions between these two states become particularly prominent? To help answer such intriguing and research-intensive questions, we aimed to prepare this article in a clear yet scholarly manner to the best of our ability.In conclusion, we hope that our academic work will be highly beneficial not only for the field of history but also for those who are genuinely interested in this topic.

*Keywords:* Ottoman Empire, Republic of Türkiye, France, bilateral relations.

*Daxil olma tarixi*: 30.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№2(12) 2025, 78-81

UOT 32:93/94

**ŞAİQ MƏDƏTOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası,*
*"Gənclərlə iş ixtisası" üzrə II kurs magistrantı*
**shaigmadatov25@gmail.com**

# TÜRK DÜNYASINDA SÜNİ İNTELLEKTİN TƏTBİQİ VƏ İNNOVASİYA PERSPEKTİVLƏRİ: BAYKAR ŞİRKƏTİNİN NÜMUNƏSİ

*Elmi rəhbər:*
siyasi elmlər üzrə fəlsəfə doktoru Cahangir Cahangirli

*Baykar 1986-cı ildən Türkiyənin texnoloji müstəqilliyini təşviq etmək üçün yerli və milli istehsala üstünlük verir. Bu şirkət Türkiyənin müdafiə və aviasiya sənayesini dəyişdirməyi vəd edən yeni bir inkişafın öncülərindən biri olaraq ortaya çıxmışdır. Baykar şirkəti, Türkiyənin müdafiə sənayesində qabaqcılyer tutan və xüsusilə pilotsuz uçuş aparatları (PUA) sahəsində böyük uğurlar qazanmış bir müəssisədir. Baykar şirkətinin uğurunun əsas səbəblərindən biri də süni intellekt (Aİ) texnologiyalarına verdikləri önəmdir. Süni intellekt Baykar şirkətinin dronlarının ağıllı, avtonom və operativ şəkildə fəaliyyət göstərməsini təmin edən əsas göstəricilərdən biridir. Süni intellekt texnologiyaları sayəsində Baykarın hazırladığı Bayraktar TB2, Akıncı kimi pilotsuz uçuş aparatları, sadəcə məsafədən idarə olunan avadanlıqlar olmaqdan çıxaraq, müstəqil qərar verə bilmə bacarığına malik olan və mürəkkəb əməliyyatları yerinə yetirə bilən "ağıllı sistemlər"ə çevrilir Bu dronlar ətraf mühitdəki hədəfləri tanıya, onları avtomatik olaraq izləyə və lazım gəldikdə reaksiya verə bilmə imkanına malikdirlər. Bu şəkildə, insan faktorundan asılılıq azaldılır və hərbi əməliyyatlarda dəqiqlik göstəricisi yüksəlir. Baykar süni intellekti yalnız əməliyyatlarda deyil, həm də dronların planlaşdırılması, təkmilləşdirilməsi və sınaqlarında da aktiv şəkildə istifadə edir. Süni intellekt Baykarın milli müdafiə sənayesində rəqabət qabiliyyətini qorumasına, yerli texnologiyalarla qlobal arenada uğurla yarışmasına imkan verir. Türkiyə istehsalı olan "Bayraktar TB2"nin müharibə meydanlarında adı dünyaca məşhurdur. "The Wall Street Journal" nəşri bildirib ki, rəqibləri ilə müqayisədə "Bayraktar TB2" funksionallığı və maliyyətinə görə daha uyğun seçimdir: "PUA-lar Suriya, Liviya və Azərbaycanda vəziyyəti kökündən dəyişdirib. Münasib qiymətli rəqəmsal texnologiya ilə hazırlanan raketli PUA-lar Suriya, Liviya, eləcə də, Azərbaycana Qarabağda vəziyyəti öz lehinə çevirməyə kömək etdi".*

*Açar sözlər:* Süni intellekt, Baykar, Milli Süni İntellekt Strategiyası, PUA, Qarabağ, Səlcuq Bayraktar.

***Giriş***. XXI əsrin ən mühüm texnoloji trendlərindən biri olaraq Süni İntellekt qlobal iqtisadi, sosial, elmi sahələrdə inkişafı sürətləndirir. Süni intellektə əsaslanan sistemlər sadəcə avtomatlaşdırmanı artırmır, həmçinin məlumatların emalını, qərarverməni, proseslərin optimizasiyasını və innovasiya potensialını da yüksəldir. Bu aspektdən, süni intellektin tətbiqi hər bir dövlətin rəqabət qabiliyyətini və gələcək inkişaf perspektivlərini müəyyənləşdirir. Türk dünyası ölkələri də bu tendensiyada önəmli rol oynayır. Bu ölkələr beynəlxalq texnoloji inkişaf dalğasına ciddi maraq göstərir. Süni intellekt texnologiyalarından innovasiya yaratmaq məqsədilə istifadə edilir. Texnologiya vasitəsilə regional rəqabət qabiliyyətinin artırılması və iqtisadiyyatların rəqəmsallaşdırılması əsas məqsəd tutularaq bu sahədə dövlət səviyyəsində siyasətlər, proqramlar və təşəbbüslər gerçəkləşdirilir. Baykar şirkəti bu prosesdə Türkiyənin süni intellekt texnologiyalarının tətbiqində aparıcı rola malikdir və türk dünyası üçün rol model hesab edilir.

***Süni intellektin Türk dünyasında iqtisadi və sosial inkişafda rolu.*** Türk dünyası ölkələri üçün süni intellekt təkcə texnoloji yenilik nəzərindən yox, həm də iqtisadi sahələrin şaxələndirilməsi və dayanıqlı inkişafın açarı kimi xüsusi əhəmiyyətə malikdir. Süni intellekt texnologiyalarının imkanları ilə bir çox sahələrdə, xüsusən də sənaye, səhiyyə, kənd təsərrüfatı, təhsil, nəqliyyat və dövlət idarəçi-

liyi kimi əsas sahələrin optimallaşdırılması və rəqəmsallaşdırılması mümkündür. Türkiyə sənaye sahəsində sənaye 4.0 konsepsiyasını mənimsəyərək, avtomatlaşdırma və süni intellekt əsasında proseslərin idarə olunmasına böyük maliyyə ayırır. Bu yanaşma sənaye müəssisələrinin məhsuldarlığını artırır və beynəlxalq bazarda rəqabət qabiliyyətini daha da gücləndirir [5, s.17].

Milli Süni İntellekt Strategiyası (NAİS) - On Birinci İnkişaf Planına və Türkiyə Prezidentin 2021-ci il üçün İllik Proqramına uyğun olaraq hazırlanmışdır. Strategiya çərçivəsində 2021-2025-ci illər arasında Türkiyənin səylərini süni intellekt(AI) sahəsində ümumi əsasda qoyacaq tədbirləri və bu tədbirlərin həyata keçirilmə mexanizmini müəyyən edilir. NAİS, Türkiyə Respublikası Prezidentinin 2021-ci il İllik Proqramında "473.1-ci tədbir"ə uyğun olaraq, Türkiyə Cümhuriyyəti Rəqəmsal Çevrilmə İdarəsi (DTO) və Sənaye və Texnologiya Nazirliyi (VİT) tərəfindən hazırlanmışdır. NAİS Türkiyənin bu sahədə ilk milli strategiyası olduğundan və digər ölkələrin AI-nin sürətlə inkişafı və zaman keçdikcə sürətli inkişafı ilə əlaqədar olaraq kəşfiyyat xarakteri daşıyır. Kontekstə uyğun olaraq müəyyən edilən strateji prioritetlər, məqsədlər, tədbirlər və idarəetmə mexanizmi zamanla yarana biləcək imkanlara, risklərə və qeyri-müəyyənliklərə cavab vermək üçün hazırlanmışdır [10].

2 noyabr 2021-ci il tarixində Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin dövlət başçıları tərəfindən İstanbul Zirvə Toplantısı zamanı "Türk Dünyasına Baxış – 2040" dayanıqlılıq nəzəriyyəsi qəbul edilmişdir. Zirvə toplantısının mühüm nəticələrindən biri kimi "Türk Dünyasına Baxış – 2040" təşkilatın 2009-cu ildə Naxçıvan Sazişi ilə yaradılmış ilk strateji sənədini təşkil edir [6, s.26].

"Türk Dünyasına Baxış – 2040" strateji sənəddə rəqəmsal məsələlərdə təcrübə və bilikləri bölüşmək üçün texno və İT parklar kimi aparıcı tədqiqat və inkişaf mərkəzlərini bir araya gətirmək, Beynəlxalq kibertəhlükəsizlik mərkəzləri ilə sıx əməkdaşlıqda ümumi platforma yaratmaqla regional təhlükəsizlik çağırışlarına cavab vermək üçün kibertəhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirmək kimi məsələlər önəmli yer tutur [11].

Baykar 1986-cı ildən Türkiyənin texnoloji müstəqilliyini təşviq etmək üçün yerli və milli istehsala üstünlük verir. Bu şirkət Türkiyənin müdafiə və aviasiya sənayesini dəyişdirməyi vəd edən yeni bir inkişafın öncülərindən biri olaraq ortaya çıxdı. Baykar ilkin olaraq avtomobil sənayesində fəaliyyət göstərən mühəndislik müəssisəsindən yeni nəsil mühəndislərlə səmaya çıxan və pilotsuz uçan aparatları ilə dünyanın seçilmiş istehsalçılarından birinə çevrilməsi qürur vericidir. Türkiyənin ilk yerli İHA-larını qurarkən, şirkətin əsas motivasiya mənbəyi öz mühəndisləri və beyin gücünə olan etibarıdır [1].

Müdafiə sənayesi dünya iqtisadiyyatının mühüm tərkib hissəsi olaraq, müasir dünyada qüvvələr balansında önəmli yer tutur. Ölkələr digər ölkələrin silah texnologiyalarının yüksəlişinə qarşı cəhdləri səbəbindən müdafiə xərclərini artırır. Yaxın gələcəyin döyüş təyyarəsi hesab olunan və Türkiyənin də istehsal tərəfdaşı olduğu "Müşterek Taarruz Uçağı" (F-35) sonuncu pilotlu reaktiv təyyarə adlanır. Pilotsuz Uçuş Aparatları eyni zamanda bir çox paralel texnologiyaların orijinal inkişafı üçün qığılcım rolunu oynayır [4].

Soyuq müharibə başa çatdıqdan sonra bir sıra yeni müdafiə doktrinalarını meydana gətirən texnoloji silahlanma yarışına səbəb oldu. Belə doktrinalardan biri də çox vaxt ötən əsrin ən böyük hərbi inqilabı hesab edilən "platforma mərkəzli" müharibədən fərqli olaraq "şəbəkə mərkəzli"nin əhəmiyyətini ortaya qoyur. İnformasiya və şəbəkə idarəçiliyi üzərində tam nəzarətin xeyrinə daha ağır sənayelərdən müdafiənin dayandırılmasının vacibliyini vurğulayır. Xüsusilə Türkiyədə pilotsuz aviasiyaya keçid nəinki dünyada başqa ölkələrlə fərqi aradan qaldırmaq, həmçinin bu fərqi Türkiyənin xeyrinə genişləndirmək üçün bir fürsət yaratdı. Baykar şirkəti pilotsuz hava sistemlərini inkişaf etdirərək qlobal səhnədə ən qabaqcıl texnoloji sistemləri qurmaq üçün Nuri Demirağ və Vecihi Hürkuş kimi texnologiya vizyonerlərinin liderliyindən ilham alır. Onların prinsiplərinə uyğun olaraq, mümkün qədər müstəqil, Türkiyə mərkəzli bir texnologiya təmin etməyə çalışır. Şirkət yerli və milli devizini birbaşa nümayiş etdirir [2].

***Baykar şirkətinin Süni intellekt texnologiyalarına töhfəsi.*** Baykar şirkəti Türk dünyasında süni intellektin tətbiqinə dair ən parlaq nümunələrdən biridir. Baykar, xüsusilə pilotsuz uçuş aparatlarının (PUA) hazırlanması sahəsində qabaqcıl AI texnologiyalarından istifadə edir. Şirkətin inkişaf etdirdiyi "Bayraktar" dronları dünya miqyasında tanınır və hərbi, həmçinin mülki sahələrdə uğurla tət-

biq edilir. Baykarın dron sistemlərində süni intellekt əsaslı obyekt tanıma, avtonom uçuş, təhdidlərin analizi və real vaxt məlumatların işlənməsi kimi funksiyalar vardır. Bu texnologiyalar insansız uçuş aparatlarının daha dəqiq və effektiv fəaliyyətinə imkan verir, insan faktorunu minimuma endirir və əməliyyatların təhlükəsizliyini artırır. Bundan əlavə, Baykar süni intellektin tətbiqi ilə PUA-ların əməliyyat vaxtını uzatmaq, uçuş marşrutlarını optimallaşdırmaq və kəşfiyyat imkanlarını genişləndirmək üzərində işləyir. Bu yanaşma həm hərbi texnologiyalar sahəsində, həm də mülki məqsədlər üçün texnoloji innovasiyaların tətbiqində önəmli addımdır [3].

Baykar şirkətinin uğurları türk dünyasında texnoloji inkişafın canlı nümunəsi olmaqla yanaşı, digər türk dövlətlərinin süni intellekt və rəqəmsal texnologiyalara sərmayə qoymalarına stimul yaradır. Bu, türk dünyasında texnoloji müstəqilliyin və innovasiya potensialının artırılması üçün əhəmiyyətlidir. Bayraktar TB2T-AI UCAV üç inteqrasiya olunmuş yeni nəsil AI kompüterləri ilə hava döyüşlərinə üstün avtonom imkanlar gətirir. Bundan əlavə, yeni yerli UCAV, hətta elektron müharibə təhdidləri qarşısında operativ dayanıqlığı təmin edərək, əraziyə istinad edilən vizual kruiz uçuşları həyata keçirmək qabiliyyətini qazanmışdır. Təyyarə müasir süni intellekt sistemləri ilə təchiz edilmişdir. Ərazini tanınması və oriyentasiyası üçün vizual naviqasiyadan istifadə edir. O, həmçinin aşkarlama və identifikasiya üçün hədəfləri təhlil edə, həmçinin uçuş-enmə zolaqlarını vizual olaraq tanıyaraq tam avtonom uçuş və eniş həyata keçirmə imkanına malikdir. Bundan əlavə, dinamik marşrut planlaşdırması ilə TB2T-AI mürəkkəb əməliyyat mühitlərində səmərəliliyini və uyğunlaşma qabiliyyətini artıraraq, ən optimal uçuş yollarını avtonom şəkildə müəyyənləşdirə bilir [8].

Bayraktar TB2 təkcə Türkiyə tərəfindən həyata keçirilən əməliyyatlarda öz sinfində dünyanın ən yaxşısı olduğunu sübut etməmişdir. Mavi Vətən Doktrinasına uyğun olaraq Liviyada Türkiyənin maraqlarından istifadə edildi. Türkiyənin dəstəklədiyi və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınan qanuni hökumətə qarşı hücuma keçən qiyamçı Haftara bağlı milislərin planları Bayraktar TB2-lərin yerləşdirildiyi əməliyyatla alt-üst edildi. Əvvəlcə paytaxt Tripolinin mühasirədən azad edilməsinə, daha sonra Əl-Vatiyyə Hava Bazası kimi strateji nöqtələrin qanuni hökumətin nəzarətinə qaytarılmasına mühüm töhfələr verdi [7].

Dünyaca tanınmış "The Wall Street Journal" nəşri "Türkiyədə istehsal olunan ucuz, silahlı pilotsuz təyyarələr döyüş sahəsini və geosiyasəti dəyişdirir" başlıqlı məqalə dərc etmişdir. Məqalədə qeyd edilir ki, Türkiyə istehsalı olan "Bayraktar TB2"nin müharibə meydanlarını yenidən şəkilləndirdirir. Bildirilib ki, rəqibləri ilə müqayisədə "Bayraktar TB2" funksionallığı və maliyyətinə görə daha uyğun seçimdir: "PUA-lar Suriya, Liviya və Azərbaycanda vəziyyəti kökündən dəyişdirib. Münasib qiymətli rəqəmsal texnologiya ilə hazırlanan raketli PUA-lar Suriya, Liviya, eləcə də, Azərbaycana Qarabağda vəziyyəti öz lehinə çevirməyə kömək etdi". Qeyd olunub ki, "Bayraktar TB2" tanklar və digər zirehli maşınlarla yanaşı, hava müdafiə sistemlərini də məhv etmə gücünə malikdir [9].

***Nəticə.*** Müasir dövrdə türk dünyasının iqtisadi və sosial inkişafında Süni intellekt vacib faktorlardan biridir. Baykar şirkətinin fəaliyyəti aydın nümunədir ki, süni intellektin tətbiqi yalnız sənaye və müdafiə sahəsində deyil, bütün sosial-iqtisadi sistemlərdə inqilabi dəyişikliklərə təsir göstərə bilər. Dövlətlərin milli strategiyaları və regional əməkdaşlıq fəaliyyətləri bu texnologiyanın geniş şəkildə yayılmasına səbəb olur. Texnoloji infrastrukturun inkişafı, kadr potensialının artırılması, hüquqi-etik normativlərin formalaşdırılması və maliyyə dəstəyi kimi problemlərin həlli gələcək inkişafın təminatı olacaqdır. Türk dünyası bu çağırışlara cavab verərək, süni intellekt sahəsində regional liderlik və qlobal rəqabət qabiliyyətinə yiyələnmək potensialına malikdir. Səlcuq Bayraktarın rəhbərliyi ilə Baykar şirkəti apardığı yüksək səviyyədə fəaliyyətlə Türk dünyasının gücünə güc qatacaqdır.

## ƏDƏBİYYAT

1. Baykar Company About. - https://baykartech.com/en/about/ [25.05.2025]
2. Baykar Company Vision. - https://baykartech.com/en/vision/ [25.05.2025]
3. Baykar official publications and technology reports (for general info on AI applications in Bayraktar drones).

4. Bayraktar Haluk, Bayraktar Selçuk - Teknolojileriyle Dünyadaki Rakipleriyle Yarışan Özgün ve Milli İnsansız Hava Araçları Bayraktar, Malazgirt ve Çaldıran. Bilim ve Teknik, Aralık 2010.
5. Erdil Erkan and Ertekin Şeyda - Industry 4.0 and Turkish National Innovation System: Challenges and Prospects, METU, 2018. p.24
6. Musabay Pelin Baki-Turkic World Vision–2040: A Step Forward for the Resilience of Turkic Cooperation; Spring-Summer 2022 Volume XXVII Number 1, 26-52.
7. Öztürk, H. (2020, Haziran 6). Almanya'dan Türk SİHA'larına büyük övgü. - https://www.hurriyet.com.tr/ekonomi/almanyadan-turk-sihalarina-buyuk-ovgu-41535227 [24.05.2025]
8. Powered By Articial Intelligence And A Turbo Engine, Bayraktar Tb2T-Ai Ucav Takes To The Skies. https://baykartech.com/en/press/powered-by-articial-intelligence-and-a-turbo-engine-bayraktar-tb2t-ai-ucav-takes-to-the-skies/ [25.05.2025]
9. The Wall Street Journal - Armed Low-Cost Drones, Made by Turkey, Reshape Battlefields and Geopolitics. - https://www.wsj.com/world/armed-low-cost-drones-made-by-turkey-reshape-battlefields-and-geopolitics-11622727370 [25.05.2025]
10. Turkey National Artificial Intelligence Strategy 2021-2025, Ministry of Industry and Technology, August 2021, p.41.
11. Turkic World Vision 2040, AVİM, 2021. - https://avim.org.tr/public/images/uploads/files/turkic-world-vision-2040-2396-97.pdf [24.05.2025].

**SHAIG MADATOV**
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan,*
*Second-year Master's student in the field of "Youth Work"*

## APPLICATION OF ARTIFICIAL INTELLIGENCE AND INNOVATION PERSPECTIVES IN THE TURKIC WORLD: THE EXAMPLE OF BAYKAR COMPANY

Artificial intelligence is one of the important factors in the economic and social development of the Turkic world in the modern era. The activities of the Baykar company are a clear example that the application of artificial intelligence can affect revolutionary changes not only in the field of industry and defense, but also in all socio-economic systems. National strategies of states and regional cooperation activities lead to the widespread spread of this technology. The development of technological infrastructure, increasing human resources potential, the formation of legal and ethical norms and solving problems such as financial support will be the guarantee of future development. The Turkic world has the potential to acquire regional leadership and global competitiveness in the field of artificial intelligence by responding to these challenges. Baykar company, led by Selcuk Bayraktar, will add strength to the power of the Turkic world with its high-level activities.

*Keywords:* Artificial Intelligence, Baykar, National Artificial Intelligence Strategy, UAV (Unmanned Aerial Vehicles), Karabakh, Selcuk Bayraktar.

*Daxil olma tarixi*: 30.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

UOT 94(479.24); UOT 32:93/94

**ŞƏFİQƏ GÖZƏLOVA**
*Bakı Dövlət Universitetinin SABAH qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi*
**Sfiqgozlova5@gmail.com**

# AZƏRBAYCAN-ÇİN MÜNASİBƏTLƏRİ: HUMANITAR VƏ MƏDƏNİ SAHƏDƏ ƏLAQƏLƏR

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru İqbal Ağayev

*Azərbaycanla əlaqələrə maraq göstərən ən fəal Şərqi Asiya ölkəsi Çin Xalq Respublikasıdır (ÇXR). ÇXR və Azərbaycan Respublikaları bu gün bütün sahələrdə əlaqələr saxlayırlar. Bu məqalədə iki dövlət arasında əlaqələrin qısa tarixinə, həmçinin bu gün əsasən, humanitar və mədəni sahədə mövcud olan əlaqələrdən bəhs edilir.*

*Açar sözlər*: Azərbaycan-Çin, mədəni əlaqələr, humanitar əlaqələr, Konfutsi institutu, Bir kəmər – Bir yol.

***Giriş***. Çin Şərqi Asiyanın və ümumilikdə dünyanın ən böyük ölkəsidir. Azərbaycan və Çin arasında mədəni əlaqələr qədim dövrdə yaranmağa başlamışdır. Azərbaycan Şərqi Asiya ölkələrinin Qərblə beynəlxalq tranzit ticarət yolu üzərində yerləşdiyinə görə, e.ə II əsrin əvvəllərindən başlayaraq bu ölkələrlə mədəni əlaqələri mövcud olmuşdur.

Strabon və Plininin bizə verdikləri məlumata görə, Çin malları olan ipək, çini qablar, ədviyyat, qiymətli daş-qaş, fil sümüyü karvan yolu ilə Orta Asiyadan keçib və Xəzər dənizini dövrə vuraraq, Kür və Rioni boyu Qara dəniz sahillərindən Fazisə gətirilib, digər ticarət yolu da cənubdan – Orta Asiyadan İrana, Ekbatan və Atropatena Qandzakana ilə Azərbaycanı görmədən keçirdi. Bu iki yol əhəmiyyətini itirmədən uzun müddət mövcud olmuşdur (1, s.24). Avropanı Çin ilə əlaqələndirən şimal yolu var idi ki, bu da VIII-IX əsrlərdə Orta Asiya, İran, Araks düzənliyi və Trapezunddan keçirdi (3). XII-XIII əsrin əvvəllərində Çinin istehsal etdiyi ipək parçalar Azərbaycanda yayılmışdı. Azərbaycanda ipək parçalarla yanaşı, çini qablara da yüksək qiymət verilirdi. Çünki onlardan əyanlar, xüsusilə əhalinin yüksək təbəqəsi geniş istifadə edirdi. Bu qabların "çini" adlandırılması, məhz Çin dövlətinin adıyla əlaqəlidir.

Orta əsrlərdə Çin mədəniyyətinin Azərbaycan mədəniyyətinə təsiri asanlıqla gözə çarpırdı. Bu özünü incəsənət sahəsində də göstərirdi. Nümunə kimi XIII əsrə aid Pirsaat bölgəsində yerləşən Pirhüseyn xanəgahındakı türbənin naxışlarında Çin üslubunu misal gətirmək olar. Orta əsrlərdə Çində görkəmli həkimlər, alimlər, mühəndislər yaşayırdı. Məsələn, Nəsrəddin Tusinin başçılıq etdiyi Marağa rəsədxanasında Çindən gələn alimlər də çalışırdı. Bu dövrdə Hülakü dövlətinin həkimləri Qazan xanı müalicə edirdisə, Çindən gələn həkimlər də digər təbəqələrə tibbi xidmət göstərirdilər. XIII-XV əsrlərdə mədəni əlaqələr genişlənməyə başladı. Övliya Çələbinin 1647-ci ildə Bakıda olarkən verdiyi məlumata əsasən, həmişə Azərbaycan və Çin arasında əlaqələr mövcud olmuşdur. Əksər orta əsr müəllifləri də Azərbaycan-Çin arasında mədəni əlaqələrin mövcud olduğunu söyləmişlər. Azərbaycan-Çin mədəni əlaqələrinin digər göstəricisi XV-XVI əsrlərdə Ağdam yaxınlığındakı türbələrin birində əjdaha başlarından ibarət relyefdir ki, bu relyefin Çin motivləri əsasında düzəldildiyini yəqin etmək olar.

Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan "Yeddi Gözəl" poemasında Çin mövzusuna müraciəti Azərbaycan-Çin mədəni əlaqələrinin digər göstəricisidir.

***Əsas***. Azərbaycan ilə Çin arasında mədəni sahədə əlaqələr Sovet dövründə də mövcud olmuşdur. Çinlə mədəni əlaqələrin saxlanılması, inkişaf etdirilməsi qədim dövr və orta əsrlərdən fərqli olaraq, SSRİ-nin xüsusi siyasəti ilə həyata keçirilmişdir. SSRİ-nin tərkib hissəsi kimi Azərbaycan Çinlə mədəni əlaqələr saxlayır və bunu daim inkişaf etdirirdi. 50-60-cı illərdə SSRİ və ÇXR-in möhkəm dostluğu fonunda Azərbaycanın yaradıcı ziyalılarının diqqətində Çin mövzusu xüsusi yer tutmuşdur. Azərbaycan yazıçı və şairləri bu mövzu haqqında əsərlər yazaraq Çinə qarşı olan hörmət və səmimi hislərini

vaxtaşırı göstərdilər. Süleyman Rüstəm, Rəsul Rza, Mirvarid Dilbazi, Əhməd Cəmil və başqaları Çini tərənnüm edən əsərlər yazırdılar.

Sovet dövründə Azərbaycan və Çin qarşılıqlı mədəniyyətlərin tanışlığı məqsədi ilə kollektiv səfərlər, yaradıcılıq ezamiyyətləri belə tədbirlərdəndir. Çin yazıçı, şair, incəsənət xadimləri 1950-ci illərdən etibarən Çin-Sovet dostluğu xətti ilə tez-tez Azərbaycanda ezamiyyətdə olurdular. Bu sonralar ənənəvi xarakter almağa başladı. Çin yazıçılarından biri olan Ke Çjunpin 1954-cü ildə Bakıda olarkən Azərbaycan yazıçı və şairləri ilə görüşmüş, hətta Səməd Vurğunla dostluq əlaqələri qurmuşdu. Şanxayda nəşr olunan "Benxueybao" qəzetinin redaktoru Suy Çju-Çen 1957-ci ildə Bakıya gəlmiş, Azərbaycan haqqında olan görüşünü belə ifadə etmişdi: *"Biz Azərbaycan haqqında çox oxumuşduq və çox şey bilirdik, indi isə sizin qazandığınız böyük müvəffəqiyyətləri öz gözümüzlə görə bildik... biz yəqin etdik ki, sizin həyatınızın bütün sahələrində – sənayedə, kənd təssərüfatında və mədəniyyətdə dərindən öyrənməyə layiq faydalı şeylər çoxdur"* (1, s.25). Bu fikirdən də göründüyü kimi Azərbaycan zəngin mədəniyyətə, incəsənətə sahibdir və Çinin də buna böyük marağı var. Həmin dövrdə M.İbrahimovun "Gələcək gün" romanı, Səməd Vurğunun şeirləri Çin dilinə, Lui Sin, Şao Tszı-Nanyanın əsərləri isə Azərbaycan dilinə tərcümə edilmişdir. O dövrdə Çində Q.Qarayevi, Ü.Hacıbəyovu tanıyırdılar, onların bəstələdikləri əsərləri həvəslə dinləyirdilər. Respublikanın xalq artisti Rəşid Behbudov 1952-ci ildə ÇXR-ə getmiş və orada yüksək səviyyədə qarşılanmışdır. Mao Tszedun Rəşid Behbudovun yaradıcılığına böyük önəm verib, onu yüksək qiymətləndirmişdi. Çində nəşr olunan "Suntıyan Jinbao" qəzetinin 1958-ci ildə 28 iyun tarixli nömrəsində qəzetin müxbirləri Van Kvan və Mun Huy belə bir yazı yazmışdılar: *"Çinlilər Behbudovu hələ "Arşın mal alan" filmindən tanıyırlar. Bu dəfə də o, öz zəngin repertuarı ilə çin xalqının böyük məhəbbətini qazandı. Elə bir konsert olmamışdır ki, Behbudov "Arşın mal alan"dan Azərbaycan, çin dillərində ariyalar oxumasın. Qeyri-adi istedada malik olan Azərbaycan müğənnisi çin mahnılarını da bir çinli kimi ifa etdi"* (1, s.26).

Azərbaycan-Çin mədəni əlaqələrinin inkişafına 1961-ci ilin fevralında ÇXR-in nümayəndə heyətinin Bakıya üç günlük səfəri böyük təsir göstərdi. Nümayəndə heyətinin başçısı Çjan Su öz fikirlərinin bu şəkildə dilə gətirmişdi: *"Sizin respublikanızın bəstəkarlarının gözəl musiqi əsərləri bizim ölkəmizdə məşhurdur və biz bu musiqi əsərlərini sevirik. Pekin teatrlarının səhnəsində Ü.Hacıbəyovun "Arşın mal alan" operettası müvəffəqiyyətlə göstərilir. Yazıçılarınızın və şairlərinizin kitablarını bizim oxucular sevə-sevə oxuyurlar. Bizim dostluğumuz gündən günə möhkəmlənir"* (1, s.26). Çin şairlərindən biri ölkəsinə qayıtdıqdan sonra belə yazmışdı: *"Çinin neft rayonu olan Yuymında Bakı neftinin ətri duyulur"* (1, s.26).

Təsadüfi deyil ki, Bakı Neft Emalı zavodunda ÇXR-in Politexnik İnstitunun məzunları 1955-ci ildə istehsalat təcrübəsini uğurla keçmişdilər.

Mədəni əlaqələrdən danışarkən XX əsrin 50-ci illərinin sonunda Azərbaycan Mahnı və Rəqs ansamblının ÇXR-ə qastrol səfərini xüsusi olaraq vurğulamaq lazımdır. Çində nəşr olunan "Dostluq" jurnalında müxbir E.Lin "Dostlarımızın özünəməxsus incəsənəti" adlı məqaləsində bildirmişdi: *"Azərbaycan xalqı son vaxtlarda özünəməxsus mahnı-rəqs sənətini yaratmışdı... Onların parlaq çıxışları Azərbaycan mahnı və rəqslərinə xas olan müxtəlif səciyyəvi xüsusiyyətləri hiss etmək, möhkəm ənənəyə malik olan bu sənətdə baş verən əhəmiyyətli dəyişikliklərin şahidi olmaqda bizə kömək etdi"* (1, s.26). Məqalədə əsas cəhət ondan ibarətdir ki, burada müəllif bu qastrolu sadəcə mədəni tədbir kimi xarakterizə etmir, onu əsl sənətşünas kimi şərh edir.

Azərbaycan öz müstəqilliyini 1991-ci ildə bərpa etdi. Onun müstəqilliyini ilk tanıyan dövlətlərdən biri də ÇXR oldu. 1991-ci il dekabrın 27-də ÇXR Azərbaycan Respublikasının müstəqilliyini tanıdı və 1992-ci ilin aprelin 2-də iki dövlət arasında diplomatik əlaqələr yarandı.

1992-2005-ci illər ərzində Azərbaycan-Çin arasında mədəni əlaqələrdə müştərək əməkdaşlıq məqsədi ilə radio verilişləri, kinematoqrafiya, televiziya sahəsində əməkdaşlıq haqqında və turizm sahəsində əməkdaşlıq haqqında hökumətlərarası sazişlər bağlanmışdır.

1993-2003-cü illərdə Azərbaycan Respublikasının o zamankı Prezidenti olmuş Heydər Əliyevin ÇXR-ə ilk rəsmi səfəri 1994-cü il 7-10 mart tarixində baş tutmuşdur. Həmin zaman kəsiyində ümummilli liderin ÇXR-in Sədri Tszyan Tszemin və Baş nazir Li Penlə görüşü olmuş və nəticədə iki dövlət arasında səkkiz müqavilə bağlanmışdır. İmzalanmış müqavilələrlə bağlı verilən ilkin rəylər Azərbaycan-

Çin münasibətlərində yeni dövrün başlanmasını göstərirdi: *"Biz Çin Xalq Respublikasının Sədri və mən* (yəni Heydər Əliyev – Ş.G.) *ölkələrimiz arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzaladıq. Dövlətlərarası əlaqələrə dair daha yeddi sənəd imzalandı. Bu sənədlər Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafını müəyyənləşdirir"* (6, s.80).

Bu səfərin ardınca 1995-ci il 12-21 aprel tarixlərində Pekin Beynəlxalq Sərgi mərkəzində tanınmış Azərbaycan impressionisti Səttar Bəhlulzadənin əsərlərinin sərgisinin keçirilməsi mədəni əlaqələrin başlanmasına yeni impuls vermişdi.

Azərbaycan-Çin arasında mədəni əlaqələrin parlaq nümunələrindən biri də qardaşlaşmış şəhərlər ənənəsidir ki, bu da xalqlar arasında dostluq, qarşılıqlı anlaşma və mədəni əməkdaşlığın dərinləşməsinə xidmət edir. Məsələn, Azərbaycanın Sumqayıt şəhəri və Çinin Cizian əyalətinin Çucou şəhəri 2001-ci qardaşlaşmışdır.

2005-ci ilin 17-19 martında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Çinə rəsmi səfərləri olmuşdur. Bu səfərlər Azərbaycan və Çin arasında mədəni əlaqələrin və əməkdaşlığın inkişafında mühüm rol oynamışdır. ÇXR-in sədri Xu Szintao İlham Əliyevin Çinə səfərini yüksək qiymətləndirmişdir. Rəsmi səfər çərçivəsində atılan əhəmiyyətli addımlardan biri də Azərbaycan Mədəniyyət Nazirliyi ilə Çin Mədəniyət Nazirliyi arasında 2005-2009-cu illər dövründə mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında protokolun imzalanması oldu. Səfər planı daxilində Prezident İlham Əliyev Böyük Çin səddi və bir neçə abidə ilə yaxından tanış oldu. Həm Heydər Əliyevin 1994-cü ilin martında Çinə səfəri, həm də İlham Əliyevin 2005-ci ilin martında Çinə səfəri Azərbaycan və Çin arasındakı ikitərəfli mədəni əlaqələrin inkişafına böyük təsir göstərmişdir.

2008-ci il 10 avqust tarixində Pekində 29-cu Yay Olimpiya Oyunları çərçivəsində "Azərbaycan Günü" , 2011-ci il 24 mayda Çində "Azərbaycan mədəniyyət günləri" təşkil edilmişdi. Açılış mərasimi Çin Milli muzeyində keçirilmişdir. Habelə 2012-ci il 10-14 dekabr tarixlərində Azərbaycanda "Çin mədəniyyət günləri" keçirilmiş, bundan əlavə, 2019-cu ilin noyabr ayında Pekində Heydər Əliyev Fondunun və Azərbaycanın Çindəki səfirliyinin dəstəyi ilə "Azərbaycan musiqisi axşamları" adlı konsert təşkil edilmişdir. Məlumdur ki, Çin dövlətinin xarici siyasəti əsasən, ölkənin iqtisadi maraqlarını dünya miqyasında təmin etməyə yönəldilib. Çin dövləti özünə aid mübahisəli situasiyalar istisna olmaqla, demək olar, dünyadakı münaqişələrə müdaxilə etmir, onların həllində rol almır və öz nüfuzunu iqtisadi alətlərlə və xüsusən, Çin mədəniyyətini təbliğ etməklə yaymağa çalışır. Buna təhsil və mədəni sahədə Azərbaycan-Çin münasibətlərinin sürətlə inkişafını misal gətirmək olar. ÇXR-in Azərbaycandakı səfirliyinin texniki və kadr dəstəyinin nəticəsində Çin dili ixtisasının açılmasına şərait yaranmış, Azərbaycanın ilk universiteti olan Bakı Dövlət Universitetinin (BDU) şərqşünaslıq fakültəsində 1997-ci ildən Çin dili ixtisası şöbəsi açılmışdır. Azərbaycan Təhsil Nazirliyinin nümayəndə heyəti 2002-ci ildə ÇXR-in Təhsil Nazirliyi tərəfindən Çinə dəvət edilmiş və həmin səfər zamanı ikitərəfli tələbə mübadiləsinin başlaması haqqında saziş imzalanmışdı. Konfutsi institutları Çin mədəniyyətini yaymaq üçün əsas vasitəyə çevrilir. Bu təşkilatın ən əsas vəzifəsi Çin dilini və mədəniyyətini dünyaya yaymaqdır. Çin ilk Konfutsi institutunu 2004-cü ildə Cənubi Koreyada-Seulda açıb. Beləliklə, Çin o zamandan bəri bütün dünya üzrə Konfutsi institutları şəbəkəsini formalaşdırmağa başlamışdır. 2011-ci ilin aprel ayında Azərbaycanda BDU-da Çin səfirliyinin müvəqqəti işlər üzrə vəkilinin səyi ilə BDU və Çinin Anhoy universitetinin arasında imzalanan sazişə görə Konfutsi institutu açılmışdır (2). BDU-nun Konfutsi institutunun ilk direktoru Vanq Xaoçianq bu hadisə ilə bağlı demişdi: *"Azərbaycanda kiçik yaşlarından Çin dilinə maraq göstərənlər əvvəlki illərdən çoxdur" (*4). Hər il Çinin Anhoy universiteti buraya Çin dilini bilən yüksək peşə qabiliyyətlərinə malik mütəxəssislər göndərir, onu audiovizual materiallarla və dərs vəsaitləri ilə təmin edir. Turizm sahəsində əməkdaşlığı gücləndirmək üçün Azərbaycan, Çin vətəndaşlarına tək tərəfli olaraq bir illik vizasız rejim tətbiq etməyi qərara aldığını həmin sənəddə bildirmişdir. Vətəndaşların qarşılıqlı səfərləri turizmin asanlaşdırılması iqtisadi, humanitar və mədəni əlaqələrin daha da genişləndirilməsi məqsədinə çatmaqda mühüm əhəmiyyət kəsb edəcəkdir. BDU-nun nəzdində olan Konfutsi institutunun tələbələri hər il Anhoy universitetinə təcrübə keçmək üçün gedirlər. 2013-cü ilin aprelində BDU-nun nəzdində Konfutsi institutunun filialının Xəzər Universitetində açılışı olmuşdur. Həmin tədbirdə Azərbaycanda olan Çin səfiri Xun Tşyuin də iştirak edib. 2016-ci ilin iyununda Azərbaycan Dillər Universitetində (ADU) növbəti Konfutsi institutu açılmışdır.

İnstitut, Çin Təhsil Nazirliyinin Çin dilinin beynəlxalq aləmdə yayılması üzrə Dövlət Dəftərxanasının ADU ilə əməkdaşlığı çərçivəsində yaradılmışdır. Azərbaycan Universitetində 2018-ci ilin martında Konfutsi Mərkəzi fəaliyyət göstərməyə başladı. Bu mərkəz BDU nəzdindəki Konfutsi İnstitutu ilə birgə əməkdaşlıq çərçivəsində yaradılıb. Azərbaycan və Çin arasındakı münasibətlərdə humanitar sahədəki əlaqələr göründüyü kimi mühüm rol oynayır və getdikcə inkişaf edir. Konfutsi institutu bunun ən böyük nümunələrindən biridir.

Mədəni sahədə əməkdaşlıq digər sahələrdə də davam edir. 2019-cu il aprelin 29-da ÇXR-in paytaxtı Pekində "Pekin Ekspo 2019" Botanika Sərgisi açılıb (11). "Pekin Ekspo 2019" sərgisi "Təbiəti qoruyaq, daha yaxşı yaşayaq" mövzusunda təşkil edilmişdir. Mayın 14-də onun Azərbaycan Pavilyonunun rəsmi açılışı olub. "Azərbaycan: təbiət və incəsənətin harmoniyası" ("Azerbaijan: Harmony of Nature and Art") adlanan milli pavilyonun ümumi konsepsiyası ölkəmizin öz tarix və ənənələrinə sadiq qalaraq hər zaman, daim inkişafda olduğunu nümayiş etdirmişdir. Azərbaycanın xalçaçılıq məktəbləri üzrə Pavilyon dörd hissəyə bölünmüşdür (9):

1.Qarabağ
2.Təbriz
3.Gəncə-Qazax
4.Quba-Şirvan.

Hər bir bölgəyə məxsus xalça motivləri xüsusi proyeksiya vasitəsilə döşəmə üzərində əks olunmuşdu. Xalçaların toxunmasının nümayişi məqsədilə xanalar qoyulmuş, eyni zamanda xalça toxunuşunu öyrədən videomaterial təqdim edilmişdir.

Hər iki ölkə mədəni əməkdaşlığının çox yaxşı inkişaf dövründədir. Hazırda iki dövlət arasında dostluğun əldə olunması kimi vacib bir işdə mədəni əməkdaşlığın bütün imkanlarından kifayət qədər istifadə edilməlidir.

***Nəticə.*** Beləliklə, tarixi faktlar göstərir ki, Azərbaycan və Çin arasında mədəni əlaqələrin inkişaf dinamikası dövrün geosiyasi və sosial-iqtisadi şəraitindən asılı olaraq dəyişmiş, lakin bu münasibətlər heç vaxt tamamilə kəsilməmişdir. İki ölkə arasında mədəni əlaqələr ta qədimdən mövcud olmuşdur. Müxtəlif dövrlərdə bu dalğavari şəkildə inkişaf edib. Müəyyən dövrlərdə subyektiv səbəblərdən bu əlaqələr zəifləmiş, amma Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bu əlaqələr yüksələn xətt üzrə inkişaf edmişdir. Çin lideri Si Cinpin tərəfindən 2013-cü ildə irəli sürülən "Bir kəmər -Bir yol" təşəbbüsü bunun bariz nümunəsidir. Qədim İpək yolu üzərində yerləşən Azərbaycan Çinin bu meqa-layihəsini dəstəkləyən ilk ölkələrdən biridir. 2015-ci ildə prezident İlham Əliyev Çinə səfəri zamanı "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə dəstəyinə aid Anlaşma Memorandumu imzalanıb. Həmin Memorandum iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün uyğun olan istiqamətləri müəyyən etmişdir. Bundan sonra əminliklə demək olar ki, nəinki mədəni və humanitar sahədə, siyasi və diplomatik sahələrdə də Azərbaycan orta dəhliz yolunda yerləşdiyinə görə bu əlaqələrin yüksək səviyyədə saxlanılması daim öz aktuallığını saxlayacaqdır. Orta Dəhliz üzərində yerləşən Azərbaycanın strateji mövqeyi, regionda ticarət, nəqliyyat və humanitar əməkdaşlığın inkişafına töhfə verməklə, iki ölkə arasındakı münasibətlərin uzunmüddətli perspektivdə davamli olmasını təmin edəcəkdir.

## ƏDƏBİYYAT

1. Manafova M. Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri. Bakı, Sabah nəşriyyatı, 2008, 36 s.
2. Cəfərli Ş. Azərbaycan-Çin əlaqələri / Baku Research Institute, 22 sentyabr 2020. - https://bakuresearchinstitute.org/azerbaijan-china-relations/ [25.03.2025].
3. Ömərov V. Azərbaycan-Çin mədəni əlaqələri (qədim dövrdən 20-ci əsrin 50-ci illərinədək) / Səs qəzeti, 1 mart 2014. - https://sesqazeti.az/news/mia/396588.html [25.03.2025].
4. Əliyeva Z. Azərbaycan-Çin əlaqələri dostluğa və qarşılıqlı maraqlara söykənir / Azərbaycan qəzeti, 25 aprel 2024. - https://www.azerbaijan-news.az/az/posts/detail/azerbaycan-cin-elaqeleri-dostluga-ve-qarsiliqli-maraqlara-soykenir-1714004258 [25.03.2025].

5. Nəsirov E. Azərbaycan-Çin münasibətləri və partiyalararası dialoq / Yeni Azərbaycan Partiyasının saytı, 1 iyul 2024. - https://yap.org.az/az/view/news/85548/azerbaycan-chin-munasibetleri-ve-partiyalararasi-dialoq [26.03.2025].
6. Talıbov R. Asiya ölkələri Beynəlxalq münasibətlər sistemində. Bakı, Elm və Təhsil, 2015, 312 s.
7. Hasanzadeh V. "Bir Kuşak Bir Yol" Projesi Çerçevesinde Çin ve Azerbaycan İlişkileri / 21.Yüzyıl Türkiye Enstitüsü, 11 may 2021. - https://21yyte.org/orta-asya-arastirmalari-merkezi/bir-kusak-bir-yol-projesi-cercevesinde-cin-ve-azerbaycan-i-liskileri/29381 [26.03.2025].
8. Aslanlı K. Çin-Azerbaycan ilişkileri: ticari ortaklıkdan stratejik ortaklığa. ULİSA, 2024, 8 s.
9. Ağaoğlu M. Azərbaycan "Pekin Ekspo 2019" Botanika Sərgisində təmsil olunur / APA, 29 aprel 2019. - https://apa.az/social/azerbaycan-pekin-ekspo-2019-botanika-sergisinde-milli-pavilyonla-temsil-olunur-531751 [26.03.2025].
10. "Pekin Ekspo 2019" Botanika Sərgisində Azərbaycan pavilyonunun rəsmi açılışı olub. 15 may 2019. - https://video.azertag.az/site/video/75009 [26.03.2025].
11. Kazimi G. Азербайджано-китайские культурные связи в современный период. Bakı, 2018, 8 s.

**SHAFIGA GOZALOVA**
*SABAH groups of Baku State University*
*3rd year student majoring in history teaching*

## AZERBAIJAN-CHINA RELATIONS: HUMANITARIAN AND CULTURAL RELATIONS

The most active East Asian country showing interest in relations with Azerbaijan is the People's Republic of China (PRC). The PRC and the Republic of Azerbaijan maintain relations in all areas today. This article discusses a brief history of relations between the two states, which began in ancient times, as well as the relations that exist today, mainly in the humanitarian and cultural fields.

*Keywords:* Azerbaijan-China, cultural relations, humanitarian relations, Confucius Institute, One Belt – One Road.

*Daxil olma tarixi*: 22.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

UOT 94

**TARYEL MAJEDOV**
*Baku State University, SABAH groups student*
**majedoff0@gmail.com**

# SALAHADDIN AYYUBI – THE SAVIOR OF JERUSALEM

*Scientific supervisor*:
PhD on history science Sayad Mehtizadeh

*This article analyzes historians' perspectives on Salahaddin Ayyubi's liberation of Jerusalem and examines the main themes of modern research. The objective of the study is to explore the essence of Salahaddin Ayyubi's struggle in the historical context of his time and to evaluate it from the perspective of contemporary historians. Additionally, the research compares different approaches presented by Eastern, Western, Russian, and Azerbaijani historians regarding the liberation of Jerusalem.*

*Keywords:* Salahaddin Ayyubi, Jerusalem, savior, Eastern historiography, Western historiography, Russian historiography, Azerbaijani historical studies, military history, Muslims and Christians.

***Introduction***: Salahaddin Ayyubi (1137-1193) is remembered as a reformer, state leader, military commander, and one of the most famous figures in Islamic history. By liberating Jerusalem, he turned the East's most significant religious city into a symbol of salvation and freedom. There are numerous historical sources about Salahaddin's life and activities, but each reflects the political and cultural context of its time.

Salahaddin Ayyubi reclaimed Jerusalem from the Crusaders during a period of intense conflict between Muslims and Christians, restoring the city to the Islamic world. Additionally, he attempted to revive the weakened Abbasid Caliphate and pursued policies aimed at unifying the Islamic world. His struggle was not solely military but also carried cultural and religious significance. Therefore, analyzing the historical events he led is crucial from not only a military and political perspective but also from religious and cultural viewpoints.

This article examines Salahaddin Ayyubi's struggle for the liberation of Jerusalem as analyzed by various historians. It compares the approaches of Eastern, Western, Russian, and Azerbaijani historians.

***Salahaddin Ayyubi and the Liberation of Jerusalem***. Salahaddin Ayyubi holds a significant place in history as the leader who returned Jerusalem to the Islamic world. Jerusalem has been a sacred city not only for Muslims but also for Christians and Jews. Thus, its return to Muslim control is considered one of the most important events of the medieval period.

Salahaddin's military campaign towards Jerusalem showcased strategic planning and strong combat abilities. His success in battles against the Crusaders highlighted his leadership qualities. However, Salahaddin was not only known for his military prowess but also for his moral and religious values. He treated Christian prisoners with humanity, demonstrating that his leadership was not only effective in warfare but also in bridging cultures.

Eastern historians have extensively analyzed Salahaddin's military tactics. For example, Ramazan Şeşen's book The Conqueror of Jerusalem presents a detailed account of Salahaddin's war policies and the conquest of Jerusalem, emphasizing the religious and cultural significance he attached to the city. Şeşen discusses how Salahaddin accurately assessed the political conditions of his time and successfully countered the aggressive policies of the Crusaders.

Conversely, Western historians have a different perspective on Salahaddin. Given his resistance against the Crusaders and his removal of Christians from the Holy City, he was viewed with hostility in the West for a long time. However, John Man's book Salahaddin acknowledges his moral integrity. His fair treatment of opponents and just approach in warfare earned him a level of respect among Western historians.

***The Historical Context of the Liberation of Jerusalem***. Salahaddin Ayyubi's struggle must be assessed not only based on his military and political skills but also considering the historical context of his time. The 12th century, particularly after 1096, was marked by a series of military expeditions known as the Crusades, where Christians and Muslims fought over the Holy Land. The first Crusade began in 1096, but Salahaddin's recapture of Jerusalem in 1187 was one of the most significant turning points in the conflict.

For Muslims, Jerusalem was not only a religious center but also a political and cultural hub. Under the Ayyubid dynasty, the Islamic world experienced a new phase of revival compared to the weakened Abbasid Caliphate. The city was fortified and integrated into trade networks. However, in the mid-13th century, Crusaders took control of the city, making its reconquest a critical mission for Salahaddin.

Following the Crusader occupation, Salahaddin launched strategic military actions in 1187 to reclaim the city. As a leader known for his victories in the Battle of Yarmouk and his consolidation of Syria, Egypt, and parts of Arabia, Salahaddin planned his campaign carefully, securing alliances before engaging in prolonged battles.

Historians have interpreted Salahaddin's military strategy and battlefield conduct in various ways. Eastern historians emphasize his dedication to Islam, highlighting his moral and spiritual strength in warfare. For instance, Rehman and El-Khiyami describe him as a great leader who combined military resilience with religious devotion, adhering to Islamic principles while showing mercy to his enemies.

***Different Perspectives of Eastern and Western Historians***. Salahaddin Ayyubi's era has been widely studied by historians from different regions. Eastern historians focus on his religious and cultural significance, viewing his struggle as more than just a military campaign but also as a triumph for Islam. On the other hand, Western historians analyze his military strategies and leadership qualities, often portraying him as a shrewd and wise leader rather than a religious hero.

**Eastern Historians**. Ramazan Şeşen, in The Conqueror of Jerusalem, argues that Salahaddin's campaign was not merely military but also a religious mission. He emphasizes that Salahaddin aimed to unify the Islamic world, not just reclaim Jerusalem. Şeşen also highlights his fair treatment of enemies and humane approach toward prisoners. Similarly, the Arab historian Abu Shami analyzed Salahaddin's military leadership and his strategic decision-making in Jerusalem's liberation.

**Western Historians**. John Man and Peter Frankopan present different perspectives on Salahaddin. In Salahaddin, John Man describes him as a military genius and strategic thinker who also adhered to ethical principles. This approach demonstrates how Salahaddin blended his religious and warfare policies. Peter Frankopan, meanwhile, highlights Salahaddin's diplomatic skills, arguing that he was not only a successful general but also a wise statesman who managed international relations effectively.

***Salahaddin Ayyubi as a Statesman and Diplomat***. Beyond his military victories, Salahaddin was known for his state-building and political governance. He led significant reforms in the Islamic world, working to restore unity among Muslim states. Despite the difficulties of his time, he successfully unified key regions, including Egypt, Syria, and parts of the Arabian Peninsula, ensuring political stability. His governance was notable for its emphasis on Islamic culture and social welfare.

Salahaddin's diplomatic skills were also remarkable. Before and after the conquest of Jerusalem, he successfully formed alliances and sought peaceful resolutions with opponents when possible. Some historians argue that his military campaigns were not only about territorial control but also about diplomatic strategy. John Man describes how Salahaddin often sought to negotiate rather than impose direct rule, demonstrating his wisdom as a statesman.

***Cultural Changes in Jerusalem After Its Liberation***. The conquest of Jerusalem was one of Salahaddin's greatest achievements. His rule brought significant cultural and religious changes to the city. While the victory was a great triumph for Muslims, it was seen as a major loss for Christians. However, Salahaddin implemented policies of religious tolerance, allowing Christians and Jews to practice their faith freely. His approach became an example of coexistence and respect for religious diversity.

***Conclusion.*** Salahaddin Ayyubi was not only a military leader but also a visionary statesman and diplomat. His leadership in reclaiming Jerusalem significantly impacted the political, cultural, and religious development of the Islamic world. His strategic military skills, diplomatic wisdom, and humane approach to governance made him one of the most respected figures in history.

REFERENCES

1. Ramazan Şeşen. Qüds Fatihi. İstanbul, Türk Tarixi Araşdırmaları, 2010, 160 s.
2. Ebubekir Subaşı. Səlahəddin Əyyubi. İstanbul, Düşün Yayınları, 2009, 360 s.
3. Pyotr Lyukimsonsun. Səlahəddin Əyyubi: Tarix və Strateji. Moskva, Rus Tarixi Akademiyası, 2011, 176 s.
4. John Man. Səlahəddin. London, HarperCollins, 2017, 403 s.
5. Əli Əkbər. İslam Dünyasında Səlahəddin Əyyubi. Tehran, İslam Araşdırmaları Nəşriyyatı, 2014, 235 s.
6. Şahin Kader. Səlahəddin və İslam Mədəniyyəti. Ankara, Mədəniyyət Araşdırmaları Yayınları, 2015, 448 s.
7. Hüseyin Xəlifə. Müslümanlar və Xristianlar Arasında Ədalət: Səlahəddin Əyyubi və Qüdsün Xilas Edilməsi. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 2018, 200 s.

**TARYEL MƏCİDOV**
*Bakı Dövlət Universiteti, SABAH qrupları III kurs tələbəsi*

## SƏLAHƏDDİN ƏYYUBİ – QÜDSÜN XİLASKARI

Məqalədə Səlahəddin Əyyubinin Qüdsün xilası ilə bağlı tarixçilərin yanaşmalarını və müasir araşdırmaların əsas mövzularını təhlil edilir. Məqalənin məqsədi, Səlahəddin Əyyubinin dövrünün tarixi şəraitində onun mübarizəsinin mahiyyətini və bu mübarizəni müasir tarixçilərdən olan nəzərdən keçirməkdir. Həmçinin, Qüdsün xilası ilə bağlı şərq, qərb, rus və azərbaycanlı tarixçilərin təqdim etdiyi fərqli yanaşmalar müqayisəli şəkildə araşdırılmışdır.

*Açar sözlər*: Səlahəddin Əyyubi, Qüds, xilaskar, Şərq tarixşünaslığı, Qərb tarixşünaslığı, Rus tarixşünaslığı, Azərbaycanın tarixi araşdırmaları, Müharibə tarixi, Müsəlmanlar və Xristianlar.

*Daxil olma tarixi*: 30.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

**UOT 94(479.24)**

**VÜSAL HÜSEYNOV**
*Bakı Dövlət Universiteti Tarix ixtisası III kurs tələbəsi*
**Vusalhusain@gmail.com**

# BƏXTİYAR VAHABZADƏNİN YARADICILIĞINDA TÜRK MİLLİ KİMLİYİ MƏSƏLƏSİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Məqalədə Bəxtiyar Vahabzadənin yaradıcılığında Türk milli kimliyi və türkçülük məsələləri araşdırılır. Qeyd edilir ki, yaradıcılığının böyük bir qismi Sovet dövrü senzuralarına təsadüf etsə də, sətiraltı mənaları ilə zəngin yaradıcılığı daim yeni nəsillər üçün araşdırma mənbəsi olacaqdır. Şairin qələmə aldığı şah əsəri "Gülüstan" poemasında (1959) olan bir sıra maraqlı məsələlərə məqalədə xüsusi yer ayrılmışdır. Bəxtiyar Vahabzadənin yaradıcılığı həm Azərbaycan, həm də ümumtürk ədəbiyyatında milli kimliyin ifadəsi üçün əhəmiyyətlidir. Bu baxımdan, heç də təsadüfi deyildir ki, Beynəlxalq Türk mədəniyyət təşkilatı TÜRKSOY-un "Anım ili" layihəsi çərçivəsində 2025-ci ildə Bəxtiyar Vahabzadənin 100 illik yubileyi bütünlükdə Türk dünyası miqyasında qeyd edilməkdədir.*

*Açar sözlər:* Poeziya, Vahabzadə, Türkçülük, "Gülüstan", Dil, Mədəniyyət.

> *"Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir... Bu, müstəsna dərəcədə zəruri haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində feil olmağı bacarasan".*
>
> Qırğız xalq yazıçısı, ictimai-siyasi xadimi
> Çingiz Aytmatov




21 fevral 2025-ci ildə Bəxtiyar Vahabzadənin "Anım İli"nin açılışı TÜRKSOY-da qeyd edilib
*"Bəxtiyar Vahabzadə Azərbaycanın Türk dünyasına bəxş etdiyi əvəzsiz irsin bir parçasıdır"*
*(TÜRKSOYun Baş katibi Sultan Rayevin təbrik məktubundan)*

***Giriş***. XX əsr Azərbaycan ədəbiyyatında milli ideyanın, azadlıq düşüncəsinin və türkçülük məfkurəsinin ən parlaq daşıyıcılarından biri də xalq şairi Bəxtiyar Vahabzadə olmuşdur. Onun yaradıcılığı

yalnız poetik düşüncənin deyil, həm də milli kimliyin, türk dünyasına bağlılığın ifadəsi kimi çıxış edir. Bəxtiyar Vahabzadə Sovet ideoloji çərçivələri daxilində milli dəyərləri müdafiə etmək və bunu ədəbi formada təqdim etməklə bu çərçivələri aşmadan, lakin onları zorlayan simvolik və məcazi dillə türkçülük ideyasını öz yaradıcılığında yaşatmışdır.

Bu məqalənin yazılmasında məqsəd Bəxtiyar Vahabzadəni irsində türkçülük məsələsinin necə təzahür etdiyini araşdırmaq, onun əsərlərində milli özünüdərk, türk birliyi və ortaq dəyərlər ideyasının ədəbi təqdimini təhlil etməkdir. Məqalədə həmçinin, şairin türk dünyasına münasibəti, bu münasibətin formalaşma səbəbləri və ədəbi baxımdan ifadə üsulları üzərində dayanılacaqdır. Tədqiqatın aparılması zamanı əsasən şairin poetik irsi, publisistik çıxışları, tənqidçi və ədəbiyyatşünasların elmi əsərləri əsas mənbə kimi istifadə olunacaqdır. Həmçinin, müasir türkçülük nəzəriyyələri və Azərbaycan ədəbiyyatında milli ideologiyanın inkişafı ilə bağlı tədqiqat işlərinə istinad ediləcəkdir. Məqalə tarixilik, təhlil və müqayisə metodlarına əsaslanaraq yazılmışdır.

***Bəxtiyar Vahabzadənin həyatı və yaradıcılığı***. Bəxtiyar Vahabzadə 16 avqust 1925-ci ildə Şəki şəhərində anadan olmuş, uşaqlıq və gənclik illəri Şuşa və Bakı şəhərlərində keçmişdir. O, 1942-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə daxil olmuş və orada akademik fəaliyyətini davam etdirmişdir. Şairin həyat yolu yalnız bir ədibin taleyi deyil, bütöv bir dövrün - sovet ideoloji çərçivələri içərisində milli ruhu qorumağa çalışan bir ziyalının taleyidir [1, s.21-25].

Ədəbi fəaliyyətə 1940-cı illərin sonlarında başlayan B.Vahabzadə ilk illərdə lirika nümunələri ilə çıxış etmiş, lakin sonrakı mərhələdə yaradıcılığında ictimai və milli məsələlərə daha çox yer vermişdir. Onun ilk böyük uğurlarından biri 1959-cu ildə yazdığı və yayımlandıqdan sonra həm Azərbaycanda, həm də ümumtürk coğrafiyasında geniş əks-səda doğuran "Gülüstan" poeması olmuşdur. Bu əsər, sovet senzurasının sərt nəzarətinə baxmayaraq, Azərbaycanın parçalanmış milli coğrafiyasını və Araz çayı ilə ayrılmış xalqın taleyini obrazlı və təsirli bir dillə ifadə edirdi [2].

Bəxtiyar Vahabzadə yalnız şair deyil, həm də ictimai xadim idi. O, Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, eyni zamanda Bakı Dövlət Universitetində professor kimi çalışmış və yeni ədəbi nəslin formalaşmasında böyük rol oynamışdır. Tənqidçi-ədəbiyyatşünas kimi də fəaliyyət göstərmişdir. 1964-cü ildə "Səməd Vurğunun həyat və yaradıcılığı" mövzusunda doktorluq disertasiyası müdafiə etmişdir. Onun fikirlərinə görə, şair yalnız gözəl söz yazmaqla kifayətlənməməli, həm də cəmiyyətin ruhunu oyadan bir rəhbər olmalıdır. Və bu baxış onun şeirlərində də birmənalı şəkildə öz əksini tapır:

Şair – fikirlərin çırpınan seli,
Şair – həqiqətin müğənnisidir.
Şair – təbiətin danışan dili,
Şair – cəmiyyətin üsyan səsidir.
Şair – zəmanənin, əsrin vicdanı,
Şair – tarixlərin şərəfi, şanı.
Şair – bu dünyada zamanın sözü,
Şair – həqiqətin, haqqın güzgüsü!
["Şairlər", noyabr 1969. – 5, s.57-60].

1980-90-cı illərdə –yəni SSRİ-nin süqutu ərəfəsində– B.Vahabzadənin yaradıcılığı daha açıq və sərt milli çağırışlarla zənginləşmişdir. Bu dövrə aid şeirlərində artıq türk kimliyi, milli birlik və azadlıq ideyaları açıq şəkildə ifadə olunur. Onun yaradıcılığı 1990-cı illərdən etibarən Azərbaycan müstəqillik ideologiyasının və milli təfəkkürün poetik əsaslarından biri kimi qəbul edilir [2].

Bəxtiyar Vahabzadə 2009-cu ildə vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur. Onun ədəbi irsi bu gün də Azərbaycan ədəbiyyatının və türk dünyası poetikasının ən qiymətli miraslarından biri sayılır.

***Bəxtiyar Vahabzadənin yaradıcılığında Türkçülük ideyası***. Türkçülük ideyası XIX əsrin sonları – XX əsrin əvvəllərində formalaşaraq türk dünyasında birləşdirici ictimai-siyasi və mədəni ideologiya kimi meydana çıxmışdır. Bu ideya türk xalqlarının ortaq dil və mədəniyyət əsasında milli dirçəlişinə nail olmaq məqsədi daşıyırdı. Əli bəy Hüseynzadə, İsmayıl Qaspıralı, Yusuf Akçura, Ziya Gökalp və

digər mütəfəkkirlər tərəfindən irəli sürülən və inkişaf etdirilən bu nəzəriyyə türklərin dil, tarix, din, folklor və mənəvi dəyərləri əsasında bir ümumtürk kimliyinin qurulmasını hədəfləyirdi [6].

XX əsrin əvvəllərində Hüseyn Cavid, Məhəmməd Hadi, Əhməd Cavad kimi ədiblərin yaradıcılığı türkçülük ideyasının ədəbi təzahürünü nümayiş etdirirdi. Məsələn, Əhməd Cavadın "Çırpınırdı Qara dəniz" şeiri yalnız bir lirik əsər deyil, həm də türk dünyasına bir çağırış, milli birliyin simvolik ifadəsidir. Bu mərhələdə türkçülük artıq sadəcə mədəni konsepsiya deyil, eyni zamanda siyasi ideologiya kimi fəaliyyət göstərməyə başlamışdır. Ümumilikdə, Sovet dövründə türkçülük ideologiyası repressiv siyasətə məruz qalmış, "pantürkizm" adı altında düşmən ideologiya kimi damğalanmış və bu istiqamətdə çalışan ziyalılar ciddi təqib və həbslərə məruz qalmışdılar. Belə bir şəraitdə milli ideya açıq şəkildə ifadə oluna bilməsə də, ədəbiyyat vasitəsilə – simvollar, metaforalar, eyhamlarla yaşadılmışdır. Belə bir şəraitdə yazıb-yaradan şairlərdən biri də Bəxtiyar Vahabzadə olmuşdur.

Bəxtiyar Vahabzadə üçün türklük ideyası nə sadəcə siyasi ideologiya, nə də yalnız romantik duyğu idi – onun üçün bu, tarixi yaddaşın, milli müqavimətin və gələcək ümidin bir simvolu idi. Şairin fikrincə, türklük yalnız keçmişin mirası deyil, həm də gələcəyin idealıdır. Məhz bu baxımdan onun şeirindəki türklük düşüncəsi həm müasir, həm də strateji mahiyyət daşıyırdı. Onun yaradıcılığında türk milli kimliyi çoxqatlı və sistemli şəkildə işlənmiş, onun əsərləri isə təkcə ədəbi nümunə deyil, milli ideoloji manifest funksiyası da daşıyır. Bu səbəbdən də Vahabzadənin poetik irsi yalnız ədəbiyyatçı və tarixçiləri deyil, türkologiya və milli kimlik araşdırmaları ilə məşğul olan tədqiqatçılar üçün də əvəzsiz mənbə hesab oluna bilər. Bəxtiyar Vahabzadənin yaradıcılığı Azərbaycan ədəbiyyatında həmçinin milli ideyaların poeziya ilə uzlaşdırıldığı nadir nümunələrdəndir. Onun poetik irsində türkçülük ideyası müxtəlif istiqamətlərdə təzahür edir: dil, milli kimlik, ortaq tarix və mədəni yaddaş. Bu istiqamətlər, Vahabzadənin ədəbi yaradıcılığında həm simvolik, həm də birbaşa şəkildə işlənmişdir. Bu baxımdan onun əsərlərində xalqın ağrısı, tarix qarşısındakı ədalətsizliklər və mədəni yaddaşın qorunması mərkəzi yer tutur. "Dilimiz, diriliyimiz", "Dilimizin və millətimizin adı", "Bizim kimimiz var?", "Qatıq qara ola bilməz", "Türk xalqlarının birliyi", "Dil və əlifba", "Ana dili", "Latın dili", "Vicdan", "Millət və dil" və s. bu kimi şeir və məqalələrində müəllifin türk xalqlarının mənşəyi, dili, ortaq mədəniyyəti ilə bağlı dəyərli fikirləri yer almışdır" [3; 7]. "Dilimizin vətəndaşlıq hüquqları uğrundan mübarizə aparan şair" adlandırılan [4, s.60] B.Vahabzadə "Latın dili" şeirində yazırdı:

Söylə, necə azadsan ki,
Komalarda dustaq olub ana dilin.
Böyük-böyük məclislərdən
İtirilib ilim-lim?...
İclaslarda bir kəlməsi, sözü yoxdur,
Bəlkə... onun böyük, rəsmi məclislərə
Çıxmaq üçün üzü yoxdur?...

Sən dərdə bax,
Vətən də var,
Millət də var.
Ancaq onun dili yoxdur.
Elə bil ki,
Güzgü kimi hamar, şəffaf royalın var,
dili yoxdur...
["Latın dili", aprel 1967. – 5, s.303-305].

Bəxtiyar Vahabzadənin yaradıcılığında türk xalqlarının ortaq tarixi tez-tez motiv kimi işlənir, türk dünyası ilə mənəvi birliyin önəmi vurğulanır.

Ey Azərbaycanımız, türkün oğuzlar Vətəni,
Ər oğullar, ər igidlər, kişi – qızlar Vətəni
["Vətən marşı", 1992. – 5, s.132].

yazan şair, Azərbaycanın taleyini Anadoludan Orta Asiyaya qədər uzanan böyük türk coğrafiyasının bir hissəsi kimi dəyərləndirir. "Türkün dili", "Millət və dil", "Vicdan" kimi şeirlərdə bu bağlılıq obrazlı və fəlsəfi dillə təqdim olunur: "Eyni kökdən, eyni candan, Bir anadan, bir zamandan". Bu sətirlərdə ortaq etnik-mədəni kimlik açıq şəkildə ifadə olunur. Türk xalqları arasında mənəvi və mədəni bağların gücləndirilməsi, Vahabzadənin yaradıcılığında milli oyanışın əsas yolu kimi göstərilir [8].

Bəxtiyar Vahabzadənin yaradıcılığında Türk dünyasının problemlərindən də yan keçilmədiyini, yeri gəldikcə, onlara aydınlıq gətirilməsinə cəhd edildiyini də görmək mümkündür. Məsələn, 1968-ci ildə Asiya və Afrika yazıçılarının Daşkənd müşavirəsinin təəssüratı ilə yazdığı "Neo" şeirinə baxaq:

Bir salonda iki qitə,
Hər qitədə neçə millət...
Hər natiqin çiyinləri arxasında
Bir məmləkət
Dayanıbdır...
Türk yunana deyir: Kipr
Həm mənimdir, həm sənindir.
Sənin mənə,
Mənim sənə
Atdığımız güllələrsə
Düşmənindir.
"Parçalayıb sən hökm sür!" siyasəti
Yurdumuza od qaladı.
Biz bir yana,
Eyni dili,
Eyni dini
Neçə yerə parçaladı...

... Gəl anlayaq bu haqqı biz:
Bir qılıncla, bir qələmlə
Yazılıbdır tariximiz...
Axı bizim
Dədəmiz də,
Babamız da
Qardaş olub.
Məgər indi,
Bu qardaşlıq, unudulub?
Daha bəsdir,
Gəl, qardaşım, verək bu gün əl-ələ biz,
Salaq qurdun yuvasına vəlvələ biz!
Neçə dildə danışan bu adamların,
Ürəyi bir, sözü birdir.
Siyasətin aynasında
Əyrilər düz görünsə də,
Aynanın ki, üzü birdir!
["Neo", 1968. – 5, s.180-185].

B.Vahabzadə üçün türkçülük yalnız etnik kimlik deyil, həm də mənəvi və siyasi bir oyanış ideyasıdır. Onun əsərləri mənə cəhətdən böyük türk dünyasının bir araya, ortaq düşüncəyə qərarlaşması üçün bir vasitə, bir körpü rolunu oynayırdı. Bu oyanış onun əsərlərində xalqın tarixi yaddaşına qayıdış, milli dəyərlərə sadiqlik və gələcəyə ümumtürk birliyi prizmasından baxmaq kimi formalaşır. Şairin "Zamanın hökmü" və "Özümə məktub" kimi fəlsəfi-poetik əsərlərində bu ideoloji xətt daha da dərinləşir. Böyük sənətkarın dram əsərlərinin bir çoxu türk tarixinin, türkçülük düşüncəsi və ideologiyasının var olma, yaranış dövrünü əhatə etsə də, bu əsərlərdə qoyulan problemlər, təsvir edilən hadisələr çağdaş durumla həmahəng səsləşir, bir qayda olaraq zaman-zaman türk insanının, eləcə də xalqımızın başına gətirilən müsibətləri göz önünə gətirir. Onun tarixi dramları ilk növbədə türkün tarixi və bu müstəvidə bir ibrət dərsliyidir. Bu əsərlər türkün türkə qarşı açdığı savaşların acı nəticələrini yenidən göz önünə gətirir. Hər məqamı ilə ifadə edir ki, Allah türkü türkün qılıncından qorusun. Ustad şair tarixi dramlarında həmin dönəmin hadisələrinə ona görə diqqət yetirir ki, bu hadisələrin yaşantıları bu və ya digər şəkildə çağdaş həyatımızda da özünü biruzə verir. Çox vaxt tarix təkrar olunur və milli unutqanlıq sindromu türk düşüncəsinə yenidən hakim kəsilir. Bu məqamda böyük şair oxucunu, deməli ilk növbədə hər bir türk insanının səhvlərindən ibrət dərsi almağa çağırır. Oyadır. İstiqamət verir! O heç vaxt tarixi təhrif etmir [9, s.63]. "Kölgədə yatanların öz kölgəsi yox olur" deyən şair Türk kimliyini açıq şəkildə, qürurla bəyan edir:

Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm!
Sübutdur, dəlildir, ağlın qibləsi,
Dəyişə bilərsən adımı ancaq.
Canım çıxanadək qəlbimin səsi,
"Türkəm" -gerçəyini pıçıldayacaq.
["Mən Türkəm", Noyabr 1995. – 5, s.143-144].

Bəxtiyar Vahabzadənin Azərbaycanın istiqlalı uğrunda mübarizə aparmış Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin xatirəsinə həsr etdiyi "Gülüstan" poeması onun yaradıcılığında xüsusi yer tutan, o cümlədən türkçülük ideyasının daha geniş şəkildə işlənildiyi əsərlərdən biridir. Bu poema həm poetik dəyər baxımından, həm də milli oyanışın ədəbiyyatda əks olunduğu bir nümunə kimi mühüm əhəmiyyət kəsb edir. "Gülüstan"ın mərkəzində türk xalqlarının birliyi, ortaq tarix

və mədəniyyətə olan bağlılıq mövzuları durur. Az bilinən faktlardan biri budur ki, "Gülüstan" poemasının ilk çapına ciddi senzura müdaxiləsi olmuş və əsərin bəzi yerləri çıxarılmışdır. Arxiv materiallarına görə, orijinal variantda yer alan "türk birliyi", "ikiyə bölünmüş millət", "şimalda və cənubda türkün eyni taleyi" kimi ifadələr senzura tərəfindən mətnin son versiyasından çıxarılmış, lakin bu dəyişikliklər müəllifin öz əlyazmasında qorunub saxlanılmışdır. Bu, Bəxtiyar Vahabzadənin sovet dövründə açıq milli fikir ifadə etməyin təhlükəsinə rəğmən, geri çəkilmədiyini göstərir. "Gülüstan"da Vahabzadə milli kimlik məsələsini, türkçülük ideyasını və xalqların birliyini mərkəzə alır. Poemada yalnız Azərbaycanın deyil, bütün türk dünyasının qarşı-qarşıya olduğu tarixi problemlər və bu problemlərə qarşı milli birliyin gücü vurğulanır. Poemanın hər bir hissəsində Araz çayı kimi fiziki sərhədlər arasında parçalanmış türk xalqlarının birləşməsi, ortaq dil və mədəniyyətin qorunması məsələləri öz əksini tapır:

Araz axır, bölür məni iki hissəyə,
Biri mənim, biri özgə – bu nə sərhəddir belə?

Bu misralarda, Vahabzadə bir tərəfdən coğrafi sərhədlərin türk xalqlarını bölməsini, digər tərəfdən isə milli birliyin zəruriliyini işarə edir [10].

"Gülüstan"da həmçinin türk xalqlarının tarixə olan mənəvi və mədəni bağlılığı da əsas mövzulardan biridir. O, bu ideyanı tarixi simvollar vasitəsilə ifadə edir. Poemanın bədii dilində qədim türk boylarının və qəhrəmanlarının izləri görünür. Bu obrazlar, türkçülük ideyasını və milli birliyi təcəssüm etdirən simvollar kimi şeirin əsas motivlərinə daxil olur.

Biz türkük, bir damla qanla birləşənlər,
Bir yurdun, bir dilin, bir kamanın sahibiyik.

Bu misralarda Vahabzadə türkçülüyün təməlini fiziki və mənəvi birliyə, həmçinin ortaq keçmişə dayandırır. Şair türk xalqlarını bir ailə kimi təsəvvür edir, hər bir fərdin bu birliyin bir parçası olduğunu bildirir. Burada türkçülük, tarix və milli kimlik arasında sıx bir əlaqə qurulur.

Bəxtiyar Vahabzadə, öz yaradıcılığında türkçülük ideyasını daha geniş şəkildə ədəbiyyatın və mədəniyyətin içində işlədərək, müasir Azərbaycan poeziyasında bu ideyanın təbliğinə öz mühüm töhfəsini vermişdir. Onun poeziyasındakı milli və türkçü motivlər, müasir ədəbiyyatın sosial və siyasi hadisələrinə uyğunlaşaraq, həm də dövrün xalq mübarizəsinə bir dəstək olmuşdur. Vahabzadə, özünün ədəbi irsi ilə yalnız milli kimliyi deyil, həm də müasir Azərbaycan cəmiyyətini və onun gələcəyini düşünərək, türkçülük ideyasını davam etdirmişdir.

Ulu keçmişimiz... həm qılınc, həm qın
Bizim həm xeyrimiz, həm şərimizdir.
Türbə qəbirləri əcdadımızın –
Torpağa işləyən köklərimizdir.
Bu kökün üstündə dayanmayan kəs
Yaşayar,
bir boy da ucala bilməz.
İmkan dənizində üzə bilsə də,
Fərəhdən bir çimdik pay ala bilməz...
["İki mühacir", 1986. – 5, s.219-220].

Vahabzadənin şeirlərindəki milli birlik və türkçülük motivləri, müasir Azərbaycan poeziyasının sosial və mədəni mübarizəsini dəstəkləyərək, ədəbiyyatın bir vasitə kimi gücünü nümayiş etdirir. O, milli kimlik və birlik məsələlərini təbliğ edərkən, həm də bu məsələlərin yalnız Azərbaycanda deyil, bütün türk dünyasında birləşdirici bir faktor olduğunu ifadə edir. Bu yanaşma, müasir Azərbaycan ədəbiyyatında türkçülüyün davamlı və güclü bir ideologiya olaraq qalmasına imkan yaratmışdır.

***Nəticə***. İqtiqlal şairi Bəxtiyar Vahabzadənin yaradıcılığı, onun həm şair, həm də düşüncə adamı olaraq Azərbaycanın və ümumilikdə türk dünyasının ədəbiyyatına verdiyi böyük töhfələri ilə yadda qalır. *"Yaradıbdır inam məni, mən inamın övladıyam"* deyən şair günümüzdə də yaşayan, döyüşən, səfərbər edən, Vətən, xalq qarşısında öz tarixi vəzifəsini yerinə yetirən çağdaş Azərbaycan poeziyası-

nın gorkəmli numayəndəsidir. Türkçülük ideyasının Vahabzadənin əsərlərində işləndiyi müxtəlif istiqamətlər, onun milli kimlik məsələlərinə olan dərin bağlılığını və türk xalqlarının ortaq mədəniyyətinin qorunmasına yönəlmiş düşüncələrini açıq şəkildə nümayiş etdirir. Şairin poeziyasında dil, tarix, mədəniyyət və milli birlik motivləri ön plana çıxır, və bu, türkçülüyün həm keçmişə, həm də gələcəyə olan ehtiyacı ilə əlaqələndirilir.

Vahabzadənin ən önəmli özəlliklərindən biri, türkçülük ideyasını yalnız tarixi və siyasi bir yanaşma olaraq deyil, həm də mədəni və mənəvi bir baxış olaraq təqdim etməsidir. Nəticə etibarilə, Bəxtiyar Vahabzadənin yaradıcılığı, onun türkçülük ideyasına olan sadiqliyi və bu ideyanı ədəbiyyatda yüksək səviyyədə təbliğ etməsi, müasir Azərbaycan ədəbiyyatının bir parçası olaraq, milli və mədəni kimliyin qorunması və inkişafı istiqamətində mühüm əhəmiyyət kəsb edir. Onun şeirləri yalnız Azərbaycan xalqı üçün deyil, həm də bütün türk dünyası üçün mənəvi və ideoloji dəyər daşır. Vahabzadə türkçülüyü öz yaradıcılığında həm bədii, həm də fəlsəfi şəkildə işləyərək, ədəbiyyatın gücündən istifadə etməklə, milli birliyin və mədəniyyətin təbliğinə böyük bir töhfə vermişdir. Nəticə etibarilə, Vahabzadənin yaradıcılığı türk kimliyinin və milli şüurun inkişafında mühüm mərhələ təşkil edir. Onun ideyaları köhnəlmir, bu gün də aktuallığını qoruyur, hətta illər keçdikcə zamana uyğun yeni dəyər qazanır və gənc nəsillərə milli dəyərlərin təbliği baxımından böyük örnəkdir.

## ƏDƏBİYYAT

1. Əlizadə Əsgərli. Bəxtiyar Vahabzadə: həyatı, mühiti və yaradıcılığı. Bakı, "Elm və Təhsil", 2022, s.556.
2. Cəfərli T. Vahabzadə yaradıcılığında ideya-tərbiyə prinsipləri / Ədəbiyyat və incəsənət, 2015, №4, s.24-29.
3. Bəxtiyar Vahabzadə. Fotokitab. Müəllif-tərtibçi N.İbrahimov. Bakı, Azərbaycan, 1995, 26 s.
4. Camalov K., Kərimova S. Bəxtiyar Vahabzadə yaradıcılığında ana dili və onun tədrisi məsələləri // Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2022, №2(272), s.60-70.
5. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. I cild. Bakı, "Öndər nəşriyyatı", 2004, 328 s.
6. Gökalp Ziya. Türkçülüğün Esasları. 15. Baskı. İstanbul, Ötüken Neşriyat, 2024, 254 s.
7. Bəxtiyar Vahabzadə. Türkçülük. Bakı, Yazıçı, 1987.
8. Mammadli R. Vahabzadə və Azərbaycan poeziyasında Türkçülük. Bakı: Nurlar, 2003.
9. Vahabzadə B. Gülüstan. Bakı, Yazıçı, 1959.
10. Bəxtiyar Vahabzadə. Yanan da mən, yaman da mən. Bakı, Göytürk, 1995, 285 s.

**VUSAL HUSEYNOV**
*Baku State University,*
*3th year student of Faculty of History*

## THE TURKC NATIONAL IDENTITY IN THE WORKS OF BAKHTIYAR VAHABZADEH

The article explores the theme of Turkish national identity and Turkism in the literary works of Bakhtiyar Vahabzadeh. Although a significant part of his creative output coincided with the period of Soviet censorship, his writings, rich in subtext and hidden meanings, continue to serve as a valuable source of study for new generations. The article reflects on several important issues found in his masterpiece, the poem "Gulustan" (1959). Bakhtiyar Vahabzadeh's literary legacy holds significance not only for Azerbaijani literature but also for the broader Turkic literary tradition as a powerful expression of national identity.

*Keywords:* Poetry, Vahabzadeh, Turkism, Gulustan, Language, Culture.

*Daxil olma tarixi*: 30.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

**UOT 94(479.24); UOT 32:93/94**

**ZƏKA ƏLİYEV**
*Bakı Dövlət Universitetinin SABAH qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi*
ORCID ID : 0009-0005-7886-4954
**zakaaliyev2003@gmail.com**

# MÜASİR DÖVR ABŞ-ÇİN MÜNASİBƏTLƏRİ KONTEKSTİNDƏ TÜRK DÖVLƏTLƏRİ VƏ ONLARIN GƏLƏCƏK PERSPEKTİVLƏRİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Tarixən mövcud olmuş dünya düzənləri zaman keçdikcə dəyişiklərə məruz qalmış, güc balansı dövlətlər arasında bölünmüşdür. XXI əsrin ilk illərində Soyuq müharibənin SSRİ-nin süqutu ilə başa çatmasından sonra dünyada ABŞ-nin liderliyi ilə mövcud olan birqütblü dünya nizamı qalmaqda idi. Lakin 2001-ci ildə ABŞ-də baş verən terror hadisələri ölkə nüfuzuna böyük xələl gətirmiş oldu. 2008-ci il Rusiyanın Gürcüstana müdaxiləsi ilə dağılmağa başlayan birqütblü dünya düzəni, 2014-cü il Rusiyanın Ukrayna ərazilərinə müdaxiləsi ilə tamamlanmış oldu. Baş verən siyasi proseslərdən uzaqda duran və iqtisadiyyatının yüksələn xəttlə inkişafına nail olmuş Çin, artıq yeni böyük güclərdən birinə çevrilməkdə idi. Hazırda iqtisadi gücünə görə rəqiblərindən böyük fərqlə irəlidə olan iki dövlət, ABŞ və Çin arasındakı münasibətlər bütün dünya ölkələrinə olduğu kimi, türk dünyası ölkələrinə də təsirsiz ötüşməyə bilməzdi. Məqalədə hazırki dövrün iki aparıcı oyunçusu arasındakı münasibətlərin türk dünyası ölkələrinə təsirindən və gələcək perpektivlərdən bəhs edilmişdir.*

*Açar sözlər :* Yeni dünya düzəni, ticarət müharibəsi, Türk dünyası, ABŞ-Çin rəqabəti, Bir Kəmər Bir Yol layihəsi.

***Giriş.*** Türk dünyası ölkələri geniş arealı əhatə edən anlayış olmaqla Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstanı ehtiva edir. SSRİ-nin süqutundan sonra yuxarıda adları sadalanmış digər türk dövlətləri Türkiyə kimi müstəqil dövlətlər sırasına qatılmışdılar. Çağdaş dövrdə türk dövlətlərinin inteqrasiyası məsələsi gündəmdədir və bu istiqamətdə atılan önəmli addımlardan biri Türk Dövlətləri Təşkilatının (əvvəlki adı Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası-TDƏŞ) yaranması olmuşdur. Əsası 3 oktyabr 2009-cu ildə qoyulan təşkilatın əsas məqsədi Türk dövlətləri arasında hərtərəfli əməkdaşlığa yardım etməkdir [1]. Təşkilatın 2021-ci ildə İstanbulda baş tutmuş 8-ci zirvə görüşündə "Türk dünyasına baxış-2040" sənədinin qəbulu gələcək inkişafa yönəlmiş addımlardan biri kimi qiymətləndirilmişdir. Sənədin "siyasi və təhlükəsizlik sahəsində əməkdaşlıq" adlı başlığında üzv dövlətlər arasında qarşılıqlı maraq doğuran beynəlxalq və regional xarici siyasət məsələləri üzrə çoxtərəfli siyasi məsləhətləşmələrin müntəzəm mexanizmini gücləndirmək məqsədi qarşıya qoyulmuşdur [2, s.7]. Həm geosiyasi yerləşmələrinə, həm də ərazilərindəki təbii sərvətlərə görə bu ölkələr daima dünya güclərinin diqqət mərkəzindədirlər. Dünya güclərinin liderlərindən olan ABŞ və Çinin təkcə iqtisadi cəhətdən deyil, həm də siyasi və hərbi potensial baxımından rəqabətləri artmaqdadır. Bununla əlaqədar baş verən hadisələr səbəbindən beynəlxalq münasibətlər sistemi kökündən dəyişdiyi üçün, bütün dünya ölkələri kimi, türk dünyası da bu dinamikanın təsiri altına düşmüşdür. ABŞ-Çin münasibətlərinin türk dünyası ölkələrinə təsiri mövzusunun gündəmdə olmasının səbəbi də iki böyük güc arasındakı münasibətlərin dünyanın harasında olursa olsun, istənilən bölgəyə nüfuz etməsidir.

***ABŞ-Çin münasibətlərinə baxış.*** Yeni dünya düzəninin formalaşdığı bir dövrdə əsasən dörd böyük güc mərkəzinin səhnədə olduğunu görə bilirik: *ABŞ, Çin, Rusiya* və *Avropa İttifaqı.* Sadalanan böyük güclər içərisində Çin və xüsusilə də ABŞ daha böyük potensialı ilə önə çıxmışdır. Belə ki, ABŞ və Çin həm hərbi, həm də iqtisadi cəhətdən güclüdür. Aİ iqtisadi cəhətdən güclü olsa da, hazırda hərbi cəhətdən digər böyük güclərdən geri qalmışdır. Rusiya isə baxmayaraq ki, artıq 3 ildən çoxdur Ukrayna ilə müharibədədir, öz hərbi gücünü qoruyub saxlamağı bacarmışdır. Lakin Qərbin sanksiyalarından

çox təsirlənməsə də, Rusiya iqtisadiyyatı digər böyük güclərlə müqayisədə zəifdir və əsasən ötən illər ərzində gəlirlərini təbii ehtiyyatların ixracı (əksərən neft və qaz) hesabına əldə etmişdir. Beynəlxalq Valyuta Fondunun məlumatlarına görə (2025-ci ilin apreli), ABŞ-nin ÜDM həcmi 30 trilyon dollardan çox, Çinin ÜDM həcmi isə 20 trilyon dollara yaxındır [3]. Halbuki hazırda ikinci sırada yer alan Çin, 2001-ci ildə ÜDM həcmi 1.3 trilyon olmaqla altıncı yerdə qərarlaşmışdı [4]. Qlobal iqtisadiyyatda böyük paya sahib olan ölkələr arasındakı münasibətlər vacib əhəmiyyətə malikdir. Əsrin əvvələrində nisbətən sabit əlaqələrə malik olan Çin və ABŞ son onillikdə getdikcə qızğın rəqabət içərisində olmuş və rəqabət zamanla geniş sahələri əhatəyə almaqda davam etmişdir. Bu prosesi tətikləyən ən önəmli hadisələrdən biri isə Çinin 2015-ci ildə işə saldığı "Made China 2025" adlı onillik planı idi. Planda Pekinin son məqsədi xarici texnologiyadan asılılığı azaltmaq və Çinin yüksək texnologiyalı istehsalçılarını qlobal bazarda tanıtmaq olmuşdur [5]. Həmçinin Çin iqtisadi yüksəlişini sürdürərkən hər zaman münaqişə ocaqlarından uzaq durmağa çalışmış, sərt gücdən yayınmışdır. Çinin sülhsevər xarici siyasət diskursunu və bazar nizamı çərçivəsində hərəkətləri liberallar tərəfindən müsbət qarşılansa da, Kennet Valtz, Robert Gilpin, Qraham Allison və ya Con Mearsheimer kimi neorealistlər həmişə bu siyasət yanaşmasını gizli bir tələ hesab edirdilər. Neorealistlər iddia edirdilər ki, bir gün Çin ABŞ-a qarşı hegemon güc olmaq istəyəcəkdir [6]. Çin Avropa ilə iqtisadi əlaqələrini gücləndirərək həm də qitədə bir növ siyasi çəkisini artırmaqdadır. ABŞ-nin Asiyada mühüm bir aktor olması fikrindən hərəkət etdikdə, Çin də ABŞ-nin müttəfiqi olan Avropada mühüm bir oyunçuya çevrilməkdədir [7, s.33]. 1870-ci illərdən bəri ABŞ-nin "bir nömrəli ölkə" olduğunu görərək böyüyən amerikalılar üçün, yəni demək olar bütün vətəndaşlar üçün Çinin ABŞ-ni dünyanın ən böyük iqtisadiyyatı kimi qabaqlaya bilməsi fikri ağlagəlməz idi. Bir çox amerikalı iqtisadi üstünlüyü ayrılmaz bir haqq kimi görür və bu anlayış milli kimliyin bir hissəsinə çevrilmişdi [8, s.32]. Baş verən dəyişikliklər, xüsusilə də Çinin uğurlu iqtisadi həmlələri ABŞ-ni Çinə qarşı hərəkətə keçməyə, öz qlobal birinciliyini qoruma instinktini işə salmağa vadar etmişdir. Son dönəmlər ABŞ-Çin münasibətlərinin əsasında ticarət müharibələri, yeni texnologiya sahələri üzrə rəqabət, və gələcək hərbi-strateji qarşıdurmaya hazırlıq durmuşdur. Prezident B.Obama dönəmində ABŞ Çinə qarşı açıq şəkildə ticarət müharibəsi elan etməyə cəsarət etməmişdi və bunun səbəbi ABŞ-nin proksi müharibələrində iştirakı idi [9, s.12]. Sonradan hakimiyyətə gələn D.Tramp birinci prezidentlik dönəmində münaqişə ocağlarından çəkilməyə başlayaraq əsas diqqətini Çinə doğru yönəltdi və ticarət müharibələrini başlatdı. Çinə qarşı sərt mövqeyi ilə seçilən D.Trampın ikinci dəfə yenidən hakimiyyətə gəlməsi nəticəsində ticarət müharibəsi inanılmaz səviyyəyə çatmışdır. Türk dünyası ölkələri mövcud rəqabətin mənfi nəticələrindən qorunmaq üçün imkan daxilində balanslaşdırılmış siyasəti üstün tutmuşdur. Müasir dövrdə ABŞ və Çinin iqtisadi, hərbi, siyasi və digər sahələrdə artan rəqabəti türk dünyası ölkələri üçün ciddi risklərlə yanaşı, qazanclar da vəd etmişdir.

***Türkiyə.*** Türkiyəni digər türk dünyası ölkələrindən fərqləndirən ən önəmli cəhətlərindən biri onun ABŞ-nin rəhbərliyi altında qurulan NATO üzvü bir ölkə olmasıdır. NATO-nun ən şərq ucunda yerləşən Türkiyə, ABŞ-nin Yaxın Şərqə, Qafqaza, Mərkəzi Asiyaya və s. ucqar ərazilərə təsir göstərməsinə yardım etmişdir. Bu baxımdan Türkiyə bütövlükdə NATO üçün mühüm əhəmiyyətə malikdir. Türkiyə hərbi baxımından əsasən ABŞ ilə əlaqələri olsa da, iqtisadi sahədə Çinlə əlaqələr də ölkələr arasındakı münasibətlərə təsir göstərəcək qədər böyükdür. 2024-cü ildə Türkiyənin ixracında ABŞ-nin payı Almaniyadan sonra 16.35 milyard dollarla ikinci yerdə (6.3%) [10], idxalında Çinin payı 44.93 milyard dollar olmaqla birinci yerdə (14%) qərarlaşmışdır [11]. Statistikadan göründüyü kimi, Türkiyənin iqtisadiyyatında hər iki ölkənin, xüsusilə də Çinin payı nəzərə çarpacaq qədər böyükdür. Bundan əlavə onu da qeyd edək ki, son 20 ildə, xüsusilə də 2001-ci ildə Çinin Ümumdünya Ticarət Təşkilatına üzvlüyündən sonra Türkiyənin böyük ağırlığı olduğu bazar və sektorlarda Çin ciddi bir rəqib olaraq ortaya çıxmış və bir çox sahələrdə payının azalmasına səbəb olmuşdur [12, s.58]. Çinin iqtisadi böyüməsi Türkiyə istehsal sahələrinə bir tərəfdən mənfi təsiri olsa da, bəzi məsələlərdə Türkiyənin lehinə olan nüanslar da mövcuddur. Xüsusilə də, Türkiyənin Asiya və Avropa arasında körpü mövqeyi onun strateji əhəmiyyətini daha da artırmışdır. Çinin Böyük İpək Yolunun yenidən canlandırılması yönündə atdığı addımlar və etdiyi yatırımlardan Türkiyənin də faydalanma, tranzit ölkə kimi bundan böyük qazanc əldə etmə potensialı mövcuddur.

***Bəs ABŞ-Çin münasibətlərinin Türkiyəyə nə kimi təsirləri ola bilər?*** İlk öncə *mənfi* təsir olaraq Tayvan məsələsinə toxunsaq onu vurğulaya bilərik ki, Çinin Tayvana mümkün müdaxiləsi və ABŞ-nin Tayvana yardım edəcəyi təqdirdə bu Türkiyəyə təsirsiz ötüşməyəcəkdir. ABŞ-nin Tayvana birbaşa yardım ehtimalında Çinin də birbaşa ABŞ mövqelərinə zərbə endirməsi halı demək olar ki, şübhəsizdir. Bütün baş verə biləcək hadisələr fonunda NATO-nun 5-ci maddəsi işə düşə və ABŞ-yə edilən hücum bütün NATO üzvlərinə edilmiş hücum kimi qiymətləndirilərsə, o zaman Türkiyə faktiki Çinlə müharibə vəziyyətinə düşə bilər. Doğrudur, bunlar hələ ki, ehtimal olaraq qalsa da, tarix dəfələrlə ehtimalların zamanla reallaşdığının şahidi olmuşdur. Digər bir məsələ, Çinin dünya liderliyini ABŞ-dən almaq ehtimalıdır ki, bunun gerçəkləşmə ehtimalı az olsa belə, Türkiyə bu senariyə də hazır olmalıdır. Bu günə qədər Türkiyə kimi regional bir gücün dünyada baş verən dəyişikliklərə cavab vermə mexanizmi çevik və müdrik şəkildə formalaşmışdır. Şərqi Türküstan məsələsinə də Türkiyənin məsafəli yanaşmasının önəmli səbəblərindən biri də gələcəyə yönəlmiş doğru addımların atılması və Çinlə münasibətlərə xələl gətirəcək proseslərə gedilməməsidir. Lakin ABŞ-nin təzyiqi ilə Türkiyə uyğur məsələsini qabarda və uyğurların haqqlarının tapdalanması iddialarına geniş yer verə bilər. Bu da Çin-Türkiyə münasibətlərinin gərginləşməsinə gətirib çıxardacaq potensial səbəblərdən biridir. Müsbət təsirlərə gəlincə, hazırda ABŞ-Çin münasibətlərinin başında duran ticarət müharibələri Türkiyəyə müəyyən dərəcədə böyük imkanlar vəd etmişdir. ABŞ prezidenti D.Trampın ikinci dəfə prezident seçilməsindən sonra Çinə qarşı tariflər inanılmaz dərəcədə artırılmışdır. Belə ki, 2024-cü ildə Çinə 295 milyard ticarət kəsri vermiş ABŞ-nin Çinə qarşı tarifləri 2025-ci il fevralın 1-dən 10%, martın 4-dən 20%, aprelin 2-dən 34%, 10 apreldə isə 145% həddinə qədər qalxmışdır və Çin lideri Si Cinpin də qarşılıqlı olaraq ABŞ məhsullarına tarifləri artırmışdır [13]. Bunun Türkiyə üçün imkanlarına nəzər salsaq deyə bilərik ki, Türkiyə Çinin istehsal etdiyi məhsulları tam şəkildə qarşılaya bilməsə də, çətinliklərlə üz-üzə qalan iqtisadiyyatını nisbətən yaxşılaşdıra və ABŞ bazarındakı Çin məhsullarını Türkiyə məhsulları əvəz edə bilərdi. Təəssüflər olsun ki, XXI əsrin "Türkiyə əsri" adlandırılmasına baxmayaraq [14], Türkiyənin bu əsrdə böyük güc olma ehtimalı yaxın gələcəkdə görünmür. İqtisadi cəhət bir yana, hərbi cəhətdən də tərəqqinin olmasına baxmayaraq, məhdud sahələrdə digər dünya güclərini qabaqlamışdır. Bundan başqa Türkiyənin müasir dövrdə dünyanın ən ciddi çəkindirici gücü sayılan nüvə gücünə sahib olmaması da hərbi sahədə Türkiyənin lider dövlətlərdən biri olması ehtimalını azaldan ən əsas faktorlardan biridir. ABŞ-Çin münasibətlərinin Türkiyə üçün yaratdığı digər bir perspektiv Mərkəzi Asiyaya olan Çin təsirinin Sakit okean regionuna yönəlik addımları ilə nisbətən azalmasıdır. Nəticə etibarilə regionda yaranan boşluqları doldurmaq Türkiyəyə bir çox fürsətlər verə bilərdi. Xüsusilə də TDT vasitəsilə türk dövlətlərinin inteqrasiyası yolunda müəyyən irəliləyişlərin şahidi ola bilərik. Həmçinin ABŞ də Çinə qarşı Sakit okean ətrafında mövqelərini gücləndirmək üçün çalışmaqdadır və gələcəkdə əsas diqqətini bu regiona yönəldəcəkdir. ABŞ-nin Yaxın Şərqdən və digər bölgələrdən çıxması və bunun mümkün Türkiyə əvəzlənməsi kimi reallığa yaxın bir ehtimal da mümkündür. ABŞ artıq Suriyadan öz qüvvələrini çıxartmağa başlamışdır [15]. Suriyadakı hakimiyyət dəyişikliyi və ABŞ qoşunlarının Suriyadan çıxma prosesi Türkiyəyə Suriyadakı mövqelərini bir qədər möhkəmləndirməyə və əsas oyunçu olaraq regionda öz təsirini saxlamağa imkan verəcəkdir. Türkiyənin Çinin əsas rol oynadığı Şanxay Əməkdaşlıq Təşkilatı və BRİCS-ə marağı da gizlədilməyən məsələlərdən biridir. İllərdir Türkiyənin Avropa İttifaqına üzvlüyü prosesinin gecikdirilməsi və qarşılıq olaraq Türkiyənin şərqə doğru həmlə etməklə qərbə bir mesaj verdiyi açıq-aydındır. 2001-ci ildə yaradılan və Çinin böyük ağırlığı olduğu Şanxay Əməkdaşlıq Təşkilatının hazırda Dialoq tərəfdaşı olan Türkiyənin gələcəkdə bu təşkilatın tamhüquqlu üzvü olma marağı Türkiyə prezidenti R.T.Ərdoğan tərəfindən jurnalistlərə verdiyi müsahibələrində dilə gətirilmişdir [16]. BRİCS tərəfindən Türkiyəyə tərəfdaş ölkə statusu haqqında təklif göndərilsə də, Türkiyə tərəfi bu haqda ətraflı məlumat verməmişdir [17]. Türkiyənin yuxarıda qeyd edilən təşkilatlara balanslı yanaşması ABŞ-Çin rəqabətinin mümkün mənfi nəticələrindən uzaq durmağa yönəlmişdir. Ümumiyyətlə ABŞ-Çin münasibətlərinin Türkiyəyə ötən illərdə ciddi təsirləri olmasa da, növbəti illərdə əhəmiyyətli təsirlərinin olacağı böyük ehtimal olaraq qalmaqdadır.

***Azərbaycan.*** Dünyada diplomatik addımları ilə nümunə göstərilən nadir ölkələrdən biri də Azərbaycandır. Azərbaycanı təkcə türk dünyası ölkələrindən deyil, bütün dünya ölkələrindən fərqləndirən cəhəti onun iki ziddiyyətli blok ölkələri ilə (NATO üzvü olan Türkiyə və Rusiya) paralel müttəfiqlik

əlaqələrinin olmasıdır. Azərbaycan həmçinin Avropa İttifaqının da enerji sahəsində mühüm tərəfdaşıdır. Bu cəhət Azərbaycanın siyasi proseslərdə manevr etmə imkanını artırmış, daha müstəqil siyasət yeritməsinə səbəb olmuşdur. Ölkənin yerləşdiyi dəhliz mövqe onun strateji önəmini artırmışdır. Çinin "Bir kəmər bir yol" kimi layihələrində Azərbaycan xüsusi strateji mövqeyi və infrastruktur imkanları ilə seçilmişdir. Orta dəhlizin (Transxəzər Beynəlxalq Nəqliyyat dəhlizi) Azərbaycandan keçməklə Avropaya göndərilən yüklərin daşınma müddətini qısaltması bu ideyanın yaxın gələcəkdə daha geniş şəkildə həyata keçirilməsinə şərait yaradacaqdır. Bundan əlavə Orta dəhlizin üstünlüklərindən biri də sanksiya altında olan Rusiya və İran ərazilərindən keçməməsidir [18].




Çin və Azərbaycan arasındakı əlaqələr son zamanlarda dərinləşməkdə davam etmişdir. Hətta 2024-cü ildə Azərbaycan və Çin strateji tərəfdaşlıq haqqında bəyannamə imzalamış, 2025-ci il aprelin 23-də isə prezident İlham Əliyevin Çinə səfəri əsnasında hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyanat qəbul edilmişdir [19]. Bundan əlavə onu da qeyd edə bilərik ki, bu zaman İlham Əliyevin Çinə diplomatik səfərə dəvət olunması, onun xüsusi qarşılanması Azərbaycanın yüksələn strateji önəmindən və ölkə liderinin siyasi gedişlərinə bəslənən rəğbətdən doğmuşdur. Çinin BMT TŞ-nın 5 daimi üzvündən biri olması və strateji tərəfdaşlığa əsaslanan siyasi arenalarda qarşılıqlı dəstəklənmə öhdəliyi Azərbaycan üçün bu əməkdaşlığın nə qədər önəmli olmasını göstərmişdir. Azərbaycan və Çin arasındakı əlaqələr əsasən iqtisadi-nəqliyyat sahəsində ağırlıq təşkil edir və Çin Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biridir. Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artmış və 3,744 milyard dollar təşkil etmişdir. Çinin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 7,9 faiz olaraq, idxal üzrə də lider mövqeyinə çıxmış və bu göstərici 17,69 faizə çatmışdır [20]. Azərbaycan da Türkiyə kimi Şanxay Əməkdaşlıq Təşkilatının dialoq tərəfdaşıdır və yuxarıda adı qeyd olunmuş Birgə Bəyanatda Çin ŞƏT-da Azərbaycanın hüquqi statusunun artırılmasına dəstəyini ifadə etmişdir. ABŞ və Azərbaycan arasında əlaqələr tarixən enişli yoxuşlu dönəmlərdən keçmişdir [19]. Buna baxmayaraq iki ölkə arasındakı əlaqələr davamlı olmuş, qırılma anına gəlməmişdir. Azərbaycan Qarabağ münaqişəsi dönəmində həm supergüc kimi, həmdə ATƏT-in Minsk qrupunun üzvü kimi ABŞ ilə əlaqələrin inkişafında daim maraqlı olmuşdur. "Əsrin Müqaviləsi", BTC də daxil olmaqla bir çox layihələrin həyata keçirilməsində ABŞ-nin rolu olmuşdur. Sonrakı dönəmlərdə də münasibətlər sabit şəkildə inkişaf etmişdir. Lakin Amerika prezidenti demokrat C.Bayden administrasiyası dönəmində Azərbaycan-ABŞ əlaqələrində müəyyən dərəcədə soyuqluq yaranmışdır. 2025-ci il aprelin 9-da ADA Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum keçirilmişdir və bu forumda prezident sualları cavablandırarkən bu administrasiya dönəmini münasibətlərdəki "böhran" dövrü kimi səciyyələndirmişdir. Bunun səbəbi isə Bayden-Blinken komandasının Ermənistanyönümlü birtərəfli mövqe tutması, hər il dayandırılan Azadlığa Dəstək Aktına "907-ci düzəliş"in yenidən tətbiq olunması və digər hadisələr olmuşdur [21]. Respublikaçıların son qələbəsindən sonra ABŞ-Azərbaycan münasibətlərində müəyyən irəliləyişlərin olması gözlənilən bir hadisədir. Hazırda Rusiya və ABŞ

arasında Ukrayna münaqişəsi ətrafında aparılan danışıqlarda iştirak edən ABŞ prezidenti D.Trampın xüsusi nümayəndəsi S.Vitkoffun Moskvadan birbaşa Bakıya da gəlib sonradan geri qayıtması ilə bağlı məlumatlar mediada yayılmışdır. Onu da qeyd edək ki, 5 mart 2025-ci ildə İsrail Baş Naziri B.Netanyahu Knessetdəki çıxışı zamanı Azərbaycan və ABŞ ilə üçtərəfli tərəfdaşlığa sadiqliyini vurğulamışdır [22]. Bütövlükdə Azərbaycan və ABŞ arasında münasibətlərin müsbətə doğru getməsində böyük rola malik olan İsrailin yenidən bu məsələyə töhfə verməsi mühüm haldır. Baxmayaraq ki, Azərbaycan və ABŞ arasında münasibətlərdə son illərdə nisbətən soyuq, ÇXR ilə isti abu-hava hökm sürür, Azərbaycanın bu ölkələrlə münasibətləri heç zaman digərinə qarşı yönəlməmişdir. Azərbaycan daima tənzimlənmiş siyasət yolunu tutmuş və bununla da öz maraqlarını müdafiə etmişdir.

***Bəs ABŞ və Çin kimi böyük güclər arasındakı münasibətlər Azərbaycana necə təsir göstərir və gələcəkdə hansı təsirlərin olması mümkündür?*** Azərbaycan yeraltı sərvətlərlə zəngin olması səbəbindən iqtisadiyyat da əsasən bu xammalların ixracına dayanmışdır. Neft-qaz nəqlindən gələn gəlirlər dövlət büdcəsini artırmağa imkan versə də, təbii sərvətlərin tükənməz olmaması iqtisadiyyatın şaxələndirilməsini labüd etmişdir. 2024-cü ildə ixracın 87%-dən çoxunu neft-qaz sektoruna daxil olan mallar (23 milyard 197 milyon 549 min dollar dəyərində) təşkil etmişdir [23]. Bu da qeyri-neft sektorunun inkişafına böyük diqqət ayrılmasına rəğmən iqtisadiyyatın hələ də neft gəlirlərindən xeyli asılı olduğunu göstərmişdir. ABŞ-Çin münasibətlərindəki ticarət savaşının *mənfi* yönü də ilk növbədə neftin qiymətinə təsir göstərmişdir. Belə ki, 2025-ci il aprelin 1-də bir bareli 83 dollardan çox olan Azeri Light markalı neftin qiyməti aprelin 9-u bir barelin qiyməti 69.94 dollara düşmüşdür [24]. Azərbaycanın 2025-ci il dövlət büdcəsində neftin qiymətinin 70 dollardan hesablandığını nəzərə alsaq, neftin qiyməti proqnozlaşdırılandan aşağı düşmüşdür [25]. Xatırladaq ki, qiymətlərdə kəskin düşüş ABŞ-nin Çinə tətbiq etdiyi ticarət tariflərindən sonra baş vermişdir. Neftin qiymətində azalmanın səbəbi neftə olan tələbatın azalmasıdır. Tələbatın azalmasına səbəb isə ticarət müharibələri nəticəsində istehsal yerlərinin fəaliyyətinin yaxud sayının aşağı düşməsi və qlobal iqtisadiyyatın həcminin kiçilməsidir. Çinin dünyanın ən böyük neft idxalçılarından biri olduğunu əsas götürsək, ABŞ-Çin münasibətlərindəki gərginliyin Azərbaycan başda olmaqla bütün neft ixrac edən ölkələrə mənfi təsirləri olacaqdır. Digər bir məqam isə ABŞ-nin bütün diqqətini Çinə doğru yönəltmək istəyidir. Nəticə etibarilə bu ABŞ-nin digər ölkələrlə olan gərginliyi müvəqqəti də olsa həll etmək yolunu tutmasına səbəb olmuşdur. Tramp administrasiyasının Rusiya və İranla danışıqlara getməsinin səbəbi də məhz bu ölkələrlə problemlərin həll edilərək bütün potensialını Çinlə olan mübarizəyə sərf etməkdir. Əgər ABŞ İranla nüvə məsələsi ətrafındakı münasibətlərini yoluna qoyarsa və razılaşma əldə olunarsa, Qərb İrana olan sanksiyaları yumşaldacaqdır. Təbii ki, dünyada mövcud olan neft ehtiyyatlarının önəmli qisminə sahib olan İranın neft bazarına daha rahat şəkildə çıxması neft qiymətlərinə təsirsiz ötüşməyəcək və təklif çox olduğundan neft qiymətlərində azalmaya gətirib çıxaracaqdır. Bu ssenarinin əksi, yəni İranla münasibətlərin daha da gərginləşməsi və hətta ABŞ-nin İranı zərərsizləşdirib tam olaraq Çinə yönəlmək istəyinin də fəlakətli nəticələri ola bilərdi. İranın nüvə obyektlərinin istənilən bombalanması və yaxud bölgədəki xaosa səbəb olacaq addımlar öz bərabərində Azərbaycanı böyük köç dalğası ilə üz-üzə qoya, ölkənin təhlükəsizliyinə böyük risklər gətirə bilər. Azərbaycana ola biləcək mənfi təsirlərdən digəri dünyada qütbləşmə zamanı hansı tərəfdə olması seçiminin qoyula biləcəyidir. Lakin Azərbaycanın Qoşulmama Hərəkatı Təşkilatının üzvü olması və özünün xüsusi nüfuzu ola biləcək təzyiqlərin neytrallaşdırılmasında böyük əhəmiyyətə malikdir.

ABŞ-Çin münasibətlərinin mənfi təsirləri olduğu kimi *müsbət* təsirləri də vardır. Tətbiq edilən tariflər ABŞ bazarına əlçatımlılığı azalan Çini alternativ bazarlara yönəlməyə vadar etmişdir. Bu bazarlardan biri də Cənubi Qafqazda əhalisinə görə lider olan Azərbaycandır və ölkə əhalisi ucuz qiymətə daha keyfiyyətli mallar əldə edə bilər. Baxmayaraq ki, Azərbaycan bazarı ABŞ ilə müqayisə edilməyəcək dərəcədə kiçikdir, amma Azərbaycan təkcə alternativ bazar kimi önəm kəsb etmir. Məsələyə daha da aydınlıq gətirsək, Azərbaycan tranzit ölkə kimi strateji mövqedə yerləşir və alternativ bazarlara yönələn Çin malları ABŞ-nin əvəzinə Asiyanın digər ölkələrinə, Avropaya yönələcəkdir. Özəlliklə də, Avropaya ixracın artması daha real ehtimallar arasındadır və bunun səbəbi isə yalnız Avropa İttifaqının iqtisadi göstəricilərinin ABŞ qədər yüksək olmasıdır. Bu da Azərbaycan üzərindən yükdaşımaların həcminin artmasına və tranzit marşrutu olaraq ölkənin gəlirlərinin artımına gətirib çıxardacaqdır.

***Mərkəzi Asiyanın türk dövlətləri.*** Hazırda regionda dörd müstəqil türk dövləti (Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan) yerləşir. Tarixən bu ərazilər Türküstan adı ilə xatırlanmışdır. Böyük İpək yolunun, "yerin geosiyasi oxu"nun üzərində yerləşən Mərkəzi Asiya daima böyük güclərin maraq dairəsində olmuşdur. XIX əsrdə bölgədə nüfuz uğrunda Rusiya ilə Britaniya arasında baş vermiş mübarizə beynəlxalq münasibətlərdə "Böyük Oyun" adı ilə bilinməkdədir. Bölgənin öncə Çar Rusiyası, daha sonra SSRİ-nin tərkibinə daxil edilməsi ilə bu oyun müəyyən müddətə dayanmış olsa da, 1991-ci ildə SSRİ-nin dağılması ilə yenidən başlandığını görməkdəyik. Bu dəfə də "Böyük Oyun" daha çox aktorun iştirakı ilə davam etməkdədir ki, onların sırasında Çin və ABŞ xüsusi yer tutmuşdur. Mərkəzi Asiya coğrafi məkan baxımından strateji mövqedə yerləşməsi onların digər ölkələrlə münasibətlər qurmasında önəmli faktor olmuşdur. Ümumiyyətlə SSRİ-nin süqutundan sonra Mərkəzi Asiyada Türkiyənin "dünyəvi islamı" ilə İranın "radikal islamı" arasında kəskin mübarizə gedəcəyi haqqında fikirlər vardı. Lakin bu ehtimal özünü doğrultmadı və hadisə geopolitikanın beynəlxalq münasibətlər sistemində nə dərəcədə önəmli olması fikrini təsdiq etmiş oldu. Yəni ölkələrin yerləşdiyi coğrafi məkan onların digər dövlətlərlə siyasi, iqtisadi və b. əlaqələrinin qurulmasında daha çox önəm verilən amillərdir nəinki etnik, yaxud dini, mədəni yaxınlıq [26, s.233]. Özəlliklə də, bölgə ölkələrinin Çin və Rusiya ilə qonşu olması faktı, həyata keçirəcəkləri siyasəti bu böyük güclərlə uyğunlaşdırmalarını vacib etmişdir. Lakin regionda təkcə bu qonşuların deyil, həmçinin Aİ və ABŞ-nin kifayət qədər təsir gücü mövcuddur. Bu da region ölkələrinin siyasətdə Çin və Rusiyanın təsirini azaldaraq hərəkət sərbəstliyini artırmışdır. ABŞ-Çin rəqabəti Sakit Okean regionunda cəmləşsə də, Mərkəzi Asiya regionu da bu rəqabətdən kənar qalmamışdır. Bölgədə coğrafi yaxınlığı ilə əlaqədar olaraq Çinin ABŞ-yə nisbətən təsir rıçaqları zamanla güclənmişdir. Sözsüz ki, bunda Çinin artan iqtisadi-siyasi çəkisi əvəzolunmaz rol oynamışdır. SSRİ-nin süqutundan sonra bölgədə yaranmış boşluqları doldurmaq uğrunda mübarizə getmişdir və bu mübarizənin başında duranlardan biri Çin Xalq Respublikası idi. Doğrudur, ilk illərdə Çin bunu inkar etsə də, sonradan Çinin regionda artan çəkisi bunu təsdiqləmişdir. 2024-cü ilə olan məlumata görə Çin Rusiyanı üstələyərək Mərkəzi Asiyanın ən böyük ticarət tərəfdaşı olmaqla 94.8 milyard dəyərində ticarət dövriyyəsinə malikdir və regionda ən böyük ticarət tərəfdaşı 43.8 milyardlıq dövriyyə ilə Qazaxıstandır [27]. Bundan əlavə Çin "Yeni İpək Yolu" layihəsi, "Bir kəmər, bir yol" təşəbbüsü ilə bölgədəki türk dövlətlərinə böyük yatırımlar etmişdir. "Bir kəmər, bir yol" 1.4 trilyon dollardan artıq xərcə malik 900 layihəni əhatə edir. Keçmiş Beynəlxalq Valyuta Fondunun iqtisadçısı Stiven Cenə görə inflasiya nəzərə alındıqda belə bu 12 Marşal planına bərabərdir [8, s.49]. Əlavə olaraq Mərkəzi Asiyanın türk dövlətləri Çin üçün təkcə tranzit marşrutu kimi deyil, həm də böyüyən iqtisadiyyatın enerji təchizatı üçün həyati əhəmiyyətə malikdir. Bundan başqa türk dövlətlərinə etnik, dini və mədəni yaxınlığı ilə seçilən Sintszyan Muxtar regionunun Çinin tərkibində yer alması regiona yönəlik addımları ehtiyyatla atmağa vadar etmişdir.

Çin Türküstana nüfuz etmə strategiyasında iqtisadi, mədəni, diplomatik olmaqla yumşaq gücdən istifadə edərək bölgədə mövqeyini gücləndirmişdir. Bu yollardan biri də borc diplomatiyasıdır. "Borc tələsi diplomatiyası" anlayışı ilk dəfə 2017-ci ildə hindli akademik Brahma Çellaney tərəfindən təqdim edilmişdir. Bu termin Çinin "Bir Kəmər Bir Yol" təşəbbüsü ilə əlaqədar tətbiq etdiyi nisbətən yeni siyasət alətini təsvir etmiş və strategiya Çinin aşağı gəlirli, ağır borcu olan və onları qaytara bilməyən ölkələrə həddindən artıq kreditlər verməsini nəzərdə tutmuşdur. 2023-cü ilin sonuna Özbəkistanın Çinə olan borcu 3,775 milyard ABŞ dolları təşkil edib ki, bu da onun ümumi xarici borcunun 13 faizindən bir qədər azını təşkil etmişdir. Qeyd edək ki, 2022-ci ilə qədər Çin İnkişaf Bankı bu borcun 2,2 milyard ABŞ dollarına sahib olub və onu Özbəkistanın üçüncü ən böyük kreditoru edib. Qırğızıstanın isə Çinə ödənilməmiş 4 milyard ABŞ dolları məbləğində krediti var ki, bu da onun ümumi ÜDM-nin təxminən 40 faizini təşkil edir. Bu diplomatiyadan ən az təsirlənən türk dövləti isə Qazaxıstan olmuşdur və onun Çinin İdxal-İxrac Bankına olan borcu 2024-cü ilin əvvəlində 9.2 milyard ABŞ dolları olmaqla ÜDM-in 3.5%-nə bərabər olmuşdur [28]. Türkmənistan istisna olmaqla digər türk dövlətləri ŞƏT-nın üzvüdür və bu təşkilat çərçivəsində region ölkələri ilə Çin arasındakı əlaqələr daha yüksək səviyyəyə qədəm qoymuşdur. Bundan başqa bölgə ölkələri Çinlə BRİCS təşkilatı ətrafında da münasibətlərini inkişaf etdirmiş, regionda mövcud problemlərin həllində Çinin dəstəyindən yararlanmışlar.

ABŞ ilk əvvəllər Mərkəzi Asiyanın müstəqillik əldə etmiş ölkələrində demokratiyanın inkişafına, ölkələrin beynəlxalq aləmdə yerini tutmasına, müstəqilliyin möhkəmləndirilməsi məsələlərinə dəstək olmuşdur. Coğrafi yerləşmələrinə görə ABŞ-nin bölgədə iqtisadi maraqları məhdud olaraq qalmışdı. Lakin 2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ-nin bölgədə fəallığı kəskin şəkildə artmışdır. SSRİ-nin dağılmasının ardından bu hadisə bölgədə ABŞ-nin maraqlarının təmin olunmasına yardımçı oldu. Bu səbəbdəndir ki, Qərbə aid hərbi qüvvələrin regionda yerləşməsinə etiraz etməyən Rusiya və Çin sonra ehtiyyatla davranmağa başladılar. Çin isə lap əvvəldən bu məsələyə daha ehtiyyatla yanaşmışdır [29, s.40]. ABŞ Özbəkistanda yerləşən Karşi-Xanabad (2001-2005-ci illərdə istfadə olundu) və Qırğızıstanda yerləşən Manas hərbi bazasından Əfqanıstana qarşı əməliyyatlarda istifadə etmişdir. Lakin sonralar bu bazalar ətrafında müəyyən fikir ayrılıqları yaranmış, 2008-ci ildə Qırğızıstan Manas aviabazasının bağlanması haqqında qərar qəbul etmişdir [29, s.41]. Sözsüz ki, əvvəllər istifadə olunmasına ciddi etirazların olmadığı bu bazaların sonradan ləğv olunmasında Rusiya və Çinin region ölkələrinə təzyiqinin də böyük rolu olmuşdur. Hazırda Tacikistan da daxil olmaqla Mərkəzi Asiyanın 5 dövləti ABŞ ilə əlaqələrdə C5+1 formatından istifadə etməkdədirlər. Bu da regionla bir bütöv halında əlaqələrin qurulmasına xidmət etmişdir. ABŞ regiona coğrafi cəhətdən uzaq olduğu üçün öz maraqlarını Avropa vasitəsilə həyata keçirməyə çalışmışdır. Belə ki, ABŞ-nin "2019-2025 ci il üçün Mərkəzi Asiya strategiyası"da region ölkələrinin Qafqaz vasitəsilə Avropa ilə, həmçinin Əfqanıstan və Cənubi Asiya ilə, eləcə də qlobal bazarlarla getdikcə daha yaxşı əlaqələndirilməsini təmin etmək üçün çalışacağı əks olunmuşdur [30, s.6]. Əslində isə bu qlobal bazara çıxışın dəstəklənməsi Mərkəzi Asiya ölkələrinə digər böyük güclərin, xüsusilə də Çinin iqtisadi təsirini azaltmağı hədəfləmişdir. Lakin ABŞ-nin ötən illər ərzindəki fəaliyyətlərini elə də uğurlu saymaq olmazdı və Çinin bölgədəki ağırlığı ABŞ-dən daha üstün olaraq qalmaqdadır.

***Bəs ABŞ-Çin münasibətlərindəki rəqabətin Mərkəzi Asiyanın türk dövlətlərinə və ya ümumilikdə regiona təsirləri nələrdir və gələcəkdə hansı təsirləri ola bilər?*** Təbii ki, okeanlara çıxışı olmamasına baxmayaraq, Mərkəzi Asiya regionu ABŞ və Çinin rəqabətindən ayrı qala bilməzdi. Bunun əsas səbəbi isə əsrimizin yeni rəqabət sahəsi olan daha çox nadir torpaq elementlərinə (skandium, itrium, lantan, serium, tulium və s.) sahib olma yarışıdır və bölgə bu cəhətdən kifayət qədər zəngindir (xüsusilə də Qazaxıstan). Bir çox mütəxəssis XXI əsr müharibələrinin artıq XX əsrdəki kimi neft üçün deyil, su uğrunda gedəcəyini düşünmüşdülər. Lakin görünür ki, müasiri olduğumuz texnologiya əsrində baş verəcək müharibələrdə su ilə yanaşı nadir elementlər uğrundakı rəqabət də qaçınılmaz olacaqdır. Nadir torpaq elementləri uğrunda mübarizə "XXI əsrin Böyük Oyun"na çevrilib desək, heç də yanılmarıq. Amerika Geoloji Xidmətinin 2024-cü il məlumatına görə Çin bu sahədə liderdir və ümumilikdə 44 milyon ton olmaqla ümumi kəşf olunmuş ehtiyyatların (90 milyon ton+) təxminən yarısına bərabər ehtiyata sahibdir. Halbuki bu göstərici ABŞ-də 1.9 milyon tona bərabər olmaqla dünya üzrə yeddinci sıradadır [31].

Bu torpaq elementlərinin istehsalında da Çin rəqiblərini xeyli qabaqlamış və 2024-cü ilə olan məlumata görə dünya üzrə isehsalın 69.77%-i Çinə, 11.6%-i isə ikinci yerdə olan ABŞ-yə məxsusdur [32]. Çin Qırğızıstanın borc müqabilində onun bəzi mədənlərinə çıxış əldə etməklə öz ərazisindəki ehtiyatlarla kifayətlənmək fikrində olmadığını göstərmişdir. ABŞ Çinlə rəqabətdə üstünlük əldə etmək üçün bir növ ehtiyyatlarını artırmaq fürsəti axtarışındadır. D.Tramp administrasiyasının tətbiq etdiyi ticarət tariflərindən sonra Çinin nadir torpaq elementlərinin ixracına qoyduğu qadağa ABŞ-ni alternativlər axtarmağa məcbur etmişdir. ABŞ-nin yaxında imzalanacağı gözlənilən sazişlə Ukraynanın nadir minerallarına və təbii sərvətlərinə çıxış imkanını əldə etməsi də məhz buna hesablanmışdır. Lakin bu Aİ-nı oyundan kənarda saxlamaq anlamına gəlir, çünki Avropa ərazisi də bu nadir elementlərlə zəngin deyil və Ukraynanı əldən verən Aİ yeni ehtiyyatlar axtarışındadır. Ukraynanın nadir torpaq elementlərinin ABŞ nəzarətinə keçəcəyi məsələsindən sonra ABŞ-yə müqavimət göstərə bilməyəcəyini anlayan Aİ mövcud rəqabətdən geri qalmamaq üçün Mərkəzi Asiyaya doğru addımlarını genişləndirmişdir.

Ümumilikdə "Qlobal Gateway" adlandırılan Aİ-nin investisiya qoyuluşu layihəsi (təxminən 300 milyard avro) Mərkəzi Asiyanı da əhatə etmişdir. 2025-ci il 3-4 aprel tarixlərində Səmərqənddə keçirilən Aİ-Mərkəzi Asiya sammitində qəbul edilən 12 milyard avroluq yeni investisiya paketi Aİ-nin "Kritik Xammal Fəaliyyət Planı"na uyğunlaşaraq Orta Dəhlizin inkişafı üçün 3 milyard avro, kritik

xammalın kəşfiyyatı və çıxarılması üçün 2,5 milyard avro ayrılması nəzərdə tutmuşdur [33]. Dolayısı yolla da olsa Aİ-nin Mərkəzi Asiyaya marağının kəskin artması ABŞ-Çin münasibətlərindəki rəqabətin təsirindən qaynaqlanmışdır. Bundan əlavə hələ 5 noyabr 2024-cü ildə Yelisey sarayında Fransa prezidenti E.Makron və Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev arasında baş tutan görüşdə ümumilikdə 2.2 milyard dollar dəyərində 24 saziş imzalanmış, bu sazişlərdə nadir torpaq elementlərinin, o cümlədən uran yataqlarının birgə işlənməsi haqda müddəalar əksini tapmışdır [34]. Lakin Fransanın Mərkəzi Asiyadakı fəallığı ABŞ-Çin rəqabətindən daha çox Afrikadakı itirilən mövqeləri kompensasiya etmək istəyindən doğmuşdur.




ABŞ-Çin münasibətlərinin Mərkəzi Asiyanın türk dövlətlərinə müsbət təsiri kimi bölgəyə daha çox investisiya cəlb olunmasını qeyd edə bilərik. Lakin bunun bölgə ölkələri üzərində mənfi təsirləri də ola bilər. Xüsusilə də, regiona Qərb investisiyası bərabərində nüfuzun axını bu dövləri Çin və Rusiya kimi aktyorların aqressiv hərəkətləri ilə üz-üzə qoya bilər. Bundan başqa ABŞ-nin Çinə təzyiq etmək üçün uyğur məsələsini qabartması qonşu türk dövlətlərinə də təsirsiz ötüşməyərək ölkələrdəki millətçi axını gücləndirə bilər. Həmçinin ABŞ Çinin "Bir Kəmər və Yol" layihəsinə alternativ olaraq "Hindistan-Yaxın Şərq-Avropa" layihəsinə dəstək verməsi gələcəkdə təkcə Mərkəzi Asiyanın deyil, həm də Türkiyə və Azərbaycanın da tranzit ölkəsi kimi əhəmiyyətini itirməsinə səbəb ola biləcəkdir. Hazırda Hindistan iqtisadiyyatının Çinlə müqayisədə kiçik olması alternativ dəhliz formalaşsa belə onun Avropanı təmin edə bilməyəcəyini deməyə əsas verir. Ancaq sürətlə böyüyən Hindistan iqtisadiyyatı ABŞ-nin yardımları ilə güclü bir rəqibə çevrilərsə, mövcud reallıqlar kökündən dəyişə bilər.

***Nəticə.*** ABŞ və Çin arasında gedən geosiyasi və iqtisadi rəqabət qlobal miqyasda olduğu kimi, Azərbaycan, Türkiyə və Mərkəzi Asiyanın türk dövlətlərinə də çoxtərəfli təsirlər göstərməkdədir. Qafqaz və Mərkəzi Asiya ilə tarixi, mədəni və dil baxımından dərin bağlara sahib olan Türkiyə, həm "Türk Dövlətləri Təşkilatı" çərçivəsində əməkdaşlığı gücləndirməkdə, həm də "Orta Dəhliz" layihəsi vasitəsilə bölgənin Çin və Avropa arasında alternativ ticarət və nəqliyyat marşrutuna çevrilməsində mühüm vasitəçi funksiyasını yerinə yetirməkdə davam edir. Bu da onu ABŞ-Çin rəqabətininin təsirlərini balanslaşdırmaq baxımından vacib regional aktora çevirmişdir. Enerji resurslarına əsaslanan Azərbaycan iqtisadiyyatı üçün ABŞ-Çin rəqabəti bir tərəfdən bazar dalğalanmaları, neftin qiymətində eniş və iqtisadi sabitlik üçün risklər doğurursada, digər tərəfdən isə ölkənin tranzit imkanlarını genişləndirərək strateji mövqeyini gücləndirmişdir. ABŞ-Çin münasibətlərindəki gərginlik nəticəsində Çin mallarının alternativ bazarlara yönəlməsi Azərbaycanın həm tranzit ölkə, həm də ticarət tərəfdaşı kimi əhəmiyyətini artırmışdır. Mərkəzi Asiyanın türk dövlətləri də bu rəqabət fonunda qlobal maraq dairəsinə çevrilmişdir. Çin "Bir Kəmər, Bir Yol" kimi layihələrlə regionda nüfuzunu artırdığı halda, ABŞ və Aİ öz investisiya təşəbbüsləri ilə bu təsiri balanslaşdırmağa çalışır. Xüsusilə nadir torpaq elementləri və

enerji ehtiyatları uğrunda mübarizə Mərkəzi Asiyanın strateji əhəmiyyətini artıran amillərdəndir. Ümumiyyətlə Türk dünyası ölkələri qlobal rəqabətin doğurduğu imkanlar və risklər qarşısında çevik və balanslı siyasət yürütməli, iqtisadiyyatlarını şaxələndirməli, regional əməkdaşlıq platformalarından, o cümlədən TDT çərçivəsində inteqrasiyadan maksimum faydalanaraq qlobal təsirləri öz xeyirlərinə doğru yönləndirməyə çalışmalıdırlar. TDT-nın gələcəkdə həm Aİ kimi iqtisadi-siyasi, həm də NATO kimi hərbi cəhətdən ayrıca bir böyük güc halına gəlsə nə gözəl. Lakin reallıqları nəzərə alıb ən azından iqtisadi-siyasi birlik yönündə atılan addımlar yenidən formalaşan beynəlxalq münasibətlərdə türk dövlətlərinin daha güclü bir mövqedə olmasını təmin edəcəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan - Türk Dövlətləri Təşkilatı (TDT) münasibətləri / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi saytı. URL: https://www.mfa.gov.az/az/category/regional-teskilatlar/azerbaycan-turkdilli-dovletlerin-emekdasliq-surasi-tdes-munasibetleri [30.04.2025].
2. Turkic World Vision – 2040 / Organization of Turkic States. URL: https://www.turkicstates.org/en/news/turkic-world-vision-2040 [30.04.2025].
3. GDP current prices / Official website of IMF. URL: https://www.imf.org/external/datamapper/NGDPD@WEO/OEMDC/ADVEC/WEOWORLD [30.04.2025].
4. GDP by country, in current US$ 2000-2022 / World Integrated Trade Solution. URL: https://wits.worldbank.org/CountryProfile/en/Country/BY-COUNTRY/StartYear/2000/EndYear/2022/Indicator/NY-GDP-MKTP-CD [30.04.2025].
5. Is "Made in China 2025" a Threat to Global Trade? / Official website of US Council Foreign Relations, may 13, 2019. URL: https://www.cfr.org/backgrounder/made-china-2025-threat-global-trade#chapter-title-0-4 [30.04.2025].
6. Dr. İshak T. Şi'nin 'Çin rüyası' ve küresel etkileri / Anadolu Ajansı, 16 oktyabr 2020. URL: https://www.aa.com.tr/tr/analiz/sinin-cin-ruyasi-ve-kuresel-etkileri/2008553 [30.04.2025].
7. Murat Ç. ABD-Çin Rekabetinde Gelişen AB - Çin İlişkileri / Barış Araştırmaları ve Çatışma Çözümleri Dergisi, 2014, Cilt: 2, Sayı: 2, s.1-40. URL: https://dergipark.org.tr/tr/download/article-file/203080 [30.04.2025].
8. Allinson G. Destined For War: Can America and China Escape Thucydides's Trap? Boston-New York, Mariner Books, 2017, 362 s. URL: https://www.everand.com/read/623629393/Destined-For-War-Can-America-and-China-Escape-Thucydides-s-Trap [30.04.2025].
9. Агаев И.Г. Китайско-американские отношения и влияние торговых войн между ними на отношение Китая со странами Большой Евразии // Большая Евразия: развитие, безопасность, сотрудничество. Ежегодник. Выпуск 4, Часть 1. Москва, РАНИНИОН, 2021, с.10-14.URL: https://bdu.info.az/storage/files/shares/TEC/%D0%B1%D0%BE%D0%BB%D1%8C%D1%88%D0%B0%D1%8F%20%D0%B5%D0%B2%D1%80%D0%B0%D0%B7%D0%B8%D1%8F%20%D1%81%D0%BE%D1%82%D1%80%D1%83%D0%B4%D0%BD%D0%B8%D1%87%D0%B5%D1%81%D1%82%D0%B2%D0%BE4%D1%87%D0%B0%D1%81%D1%82%D1%8C1.pdf [30.04.2025].
10. Turkey Exports by Country / Trading Economics. URL: https://tradingeconomics.com/turkey/exports-by-country [30.04.2025].
11. Turkey Imports by Country / Trading Economics. URL: https://tradingeconomics.com/turkey/imports-by-country [30.04.2025].
12. Çinin Küresel Stratejisi, Rapor / Milli İstihbarat Akademisi, 25 Şubat 2025. URL: https://nordicmonitor.com/2025/02/turkish-intelligence-suggests-weakening-chinese-economy-could-benefit-turkey-amid-us-china-tensions/ [30.04.2025].
13. Hanna D. Trump Tariffs: What products do China and the US buy from each other? / Al Jazeera, April 18, 2025. URL: https://www.aljazeera.com/economy/2025/4/18/trump-tariffs-what-products-do-china-and-the-us-buy-from-each-other [30.04.2025].

14. Hasan B.Y. Türkiye yüzyılı ne demek? / Türkiye Araştırmaları Vakfı, 26 may 2023. URL: https://turkiyearastirmalari.org/2023/05/26/fokus/turkiye-yuzyili-ne-demek/ [30.04.2025].
15. Tara C. US to withdraw 600 troops from Syria, leaving fewer than 1,000 to help counter IS militants / Associated Press, April 18, 2025. URL: https://apnews.com/article/syria-troop-withdrawal-trump-turkey-bfc9b8f2a4472221e69682de1b7f0e80 [30.04.2025].
16. Umut U. Can the SCO be Turkey's alternative to the West? / Al Jazeera, September 21, 2022. URL: https://www.aljazeera.com/news/2022/9/21/turkey-shanghai-cooperation-organisation-membership-nato-west-alternative [30.04.2025].
17. BRICS offered Turkey partner country status, Turkish trade minister says / Reuters, November 14, 2024. URL: https://www.reuters.com/world/brics-offered-turkey-partner-country-status-turkish-trade-minister-says-2024-11-14/ [30.04.2025].
18. Abdalov N. Orta dəhliz - qlobal nəqliyyat layihəsi / Respublika, 24 avqust 2023. URL: https://respublika-news.az/news/orta-dehliz-qlobal-neqliyyat-layihesi [30.04.2025].
19. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat imzalanıb / Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 23 aprel 2025. URL: https://president.az/az/articles/view/68634 [30.04.2025].
20. Azərbaycan - Çin münasibətləri: formalaşması və perspektivləri / Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, 22 aprel 2025. URL: https://ereforms.gov.az/az/media/xeberler/azerbaycan-cin-munasibetleri-formalasmasi-ve-perspektivleri-1365 [30.04.2025].
21. ADA Universitetində İlham Əliyevin iştirakı ilə "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum keçirilib / Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 9 aprel 2025. URL: https://president.az/az/articles/view/68514 [30.04.2025].
22. Trump envoy Witkoff in Azerbaijan for talks after Netanyahu, rabbis' involvement / The Jerusalem Post, march 14, 2025. URL: https://www.jpost.com/international/article-846086 [30.04.2025].
23. Azərbaycanın neft-qaz ixracından gəlirləri kəskin azalıb, qeyri-neft-qaz ixracının artımı isə dayanıb / Marja.az, 23 yanvar 2025. URL: https://marja.az/123924/azerbaycanin-neft-qaz-ixracindan-gelirleri-keskin-azalib-qeyri-neft-qaz-ixracinin-artimi-ise-dayanib [30.04.2025].
24. Oil Price Charts / Oil Price.com, URL: https://oilprice.com/oil-price-charts/ [30.04.2025].
25. Azərbaycan neftinin qiyməti 70 dollardan aşağı düşüb / Report İnformasiya Agentliyi, 5 aprel 2025. URL: https://report.az/energetika/azerbaycan-neftinin-qiymeti-70-dollardan-asagi-dusub05042025/ [30.04.2025].
26. Ruintən S., Əlisgəndərli C. Yeni dünya düzəni şəraitində Mərkəzi Asiya regionu geosiyasi maraqlar sistemində // Tarix və onun problemləri, 2012, №4, s.232-244. URL: http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2012%20%204/232-244.pdf [30.04.2025].
27. China enhances position as Central Asia's economic overlord / Eurasianet, January 29, 2025. URL: https://eurasianet.org/china-enhances-position-as-central-asias-economic-overlord [30.04.2025].
28. Vali K. China's Debt-Trap Diplomacy in Central Asia / The Central Asia-Caucasus ANALYST, 23 october 2024. URL: https://www.cacianalyst.org/publications/analytical-articles/item/13823-chinas-debt-trap-diplomacy-in-central-asia.html [30.04.2025].
29. Ruintən S. XX əsrin sonu – XXI əsrin əvvəllərində Mərkəzi Asiyanın türk dövlətləri dünya dövlətlərinin maraqları sistemində. Bakı, Bakı Universiteti Nəşriyyatı, 2014, 242 s.
30. United States Strategy for Central Asia 2019-2025 / United States Strategy Glossy. US Embassy in Tajikistan, 6 s. URL:https://tj.usembassy.gov/wp-content/uploads/sites/143/United-States-Strategy-for-Central-Asia-2019-2025-1.pdf [30.04.2025].
31. Fleck A. Where Are the World's Rare Earths? / Statista, April 14, 2025. URL: https://www.statista.com/chart/33754/countries-with-the-greatest-known-reserves-of-rare-earths/ [30.04.2025].

32. Distribution of rare earths production worldwide as of 2024, by country / Statista. URL: https://www.statista.com/statistics/270277/mining-of-rare-earths-by-country/ [30.04.2025].
33. Marcin P. EU-Central Asia summit in Samarkand: the economy comes first / Centre for Eastern Studies, april 9, 2025. URL: https://www.osw.waw.pl/en/publikacje/analyses/2025-04-09/eu-central-asia-summit-samarkand-economy-comes-first [30.04.2025].
34. Szabolcs V. France, Kazakhstan strengthen cooperation on rare earth metal and nuclear energy / Eurasia Magazine, November 12, 2024. URL: https://eurasiamagazine.com/france-kazakhstan-deepen-cooperation-on-rare-earth-metal-and-nuclear-energy-42571 [30.04.2025].

**ZAKA ALIYEV**
*SABAH groups of Baku State University*
*4th year student majoring in history teaching*

## TURKIC STATES AND THEIR FUTURE PERSPECTIVES IN THE CONTEXT OF MODERN US-CHINA RELATIONS

The historically existing world layouts have undergone changes over time, the balance of power has been divided between states. In the first years of the XXI century, after the end of the Cold War with the fall of the USSR, a unipolar world order remained in the world, which existed under the leadership of the United States. However, the terrorist attacks in the United States in 2001 greatly damaged the country's reputation. The unipolar world order, which began to collapse with the Russian intervention in Georgia in 2008, was completed with the Russian intervention in Ukrainian territory in 2014. China, which was far from the political processes taking place and managed to develop its economy along a rising line, was already becoming one of the new great powers. Relations between the two countries, the United States and China, which are now ahead of their competitors in terms of economic power, could not but affect the countries of the Turkic world, as well as all countries of the world. The article deals with the impact of relations between the two leading players of the current period on the countries of the Turkic world and future perspectives.

*Keywords:* New World Order, Trade War, Turkic World, US-China competition, One Belt One Road project.

*Daxil olma tarixi*: 30.04.2025-ci il.
*Çapa imzalanma tarixi*: 15.05.2025-ci il.

***Çapa hazırlayan:*** **Lamiyə Ruintən**

Çapa imzalanmışdır: 15.05.2025.
Kağız formatı: 60x84 1/8 Həcmi: 13,5 ç.v.
Sayı: 120 ədəd

“Elm və təhsil nəşriyyatı”nın mətbəəsində hazır pozitivlərdən çap olunmuşdur

